Con Ebenezer Esslemont

# BƏHAULLAH VƏ YENİ ERA

Con Ebenezer Esslemont
**Bəhaullah və Yeni Era**

Kompüter Dizaynı: Turqut Qaraca

Format:13x20
Səh: 364

## MÜNDƏRİCAT

1937-Cİ İL BURAXILIŞINA ÖN SÖZ / 12
1950-Cİ İL NƏŞRİNƏ ÖN SÖZ / 14
1970-Cİ İL NƏŞRİNƏ ÖN SÖZ / 15

**I FƏSİL**. XOŞ MÜJDƏ / 17
TARİXDƏ ƏN BÖYÜK HADİSƏ / 17
DƏYİŞƏN DÜNYA / 19
HƏQİQƏT GÜNƏŞİ / 21
HƏZRƏT BƏHAULLAHIN MİSSİYASI / 22
KƏHANƏTLƏRİN YERİNƏ YETMƏSİ / 23
ONUN İLAHİ İLHAMININ SÜBUTU / 26
TƏDQİQATIN ÇƏTİNLİKLƏRİ / 27
KİTABIN MƏQSƏDİ / 28

**II FƏSİL.** HƏZRƏT BAB - MÜJDƏÇİ / 30
YENİ VƏHYİN ZÜHUR YERİ / 30
GƏNCLİK / 32
HƏZRƏT BABIN BƏYANI / 33
BABİLİK HƏRƏKATININ YAYILMASI / 35
HƏZRƏT BABIN İDDİALARI / 35
TƏQİBLƏR GÜCLƏNİR / 37
HƏZRƏT BABIN ŞƏHİD EDİLMƏSİ / 38
KƏRMİL DAĞINDA MƏZAR / 39
HƏZRƏT BABIN YAZILARI / 40
ALLAHIN ZAHİR EDƏCƏYİ KƏS / 41
DİRİLMƏ, CƏNNƏT VƏ CƏHƏNNƏM / 42
İCTİMAİ VƏ ETİK TƏLİM / 43
ŞƏHİDLİK VƏ QƏLƏBƏ / 43

**III FƏSİL.** HƏZRƏT BƏHAULLAH – ALLAHIN CƏLALI / 45
ANADAN OLMASI VƏ GƏNCLİK İLLƏRİ / 45
HƏBS OLUNMASI / 46
BAĞDADA SÜRGÜN OLUNMASI /48
İKİ İL SƏHRADA / 49
QARŞIDURMA / 51
BAĞDAD YAXINLIĞINDAKI RİZVAN BAĞINDA BƏYANAT / 51
İSTANBUL VƏ ƏDİRNƏ / 54
HÖKMDARLARA MƏKTUBLAR / 55

ƏKKA MƏHBƏSİNDƏ / 57
REJİMİN YUMŞALMASI / 58
HƏBSXANA QAPILARI AÇILIR / 58
BƏHCİDƏ KEÇƏN HƏYAT / 62
SÜUD / 65
HƏZRƏT BƏHAULLAHIN PEYĞƏMBƏRLİYİ / 66
HƏZRƏT BƏHAULLAHIN MİSSİYASI / 72
HƏZRƏT BƏHAULLAHIN YAZILARI / 74
BƏHAİ DİNİNİN MAHİYYƏTİ / 76

**IV FƏSİL**. HƏZRƏT ƏBDÜL-BƏHA – BƏHANIN QULU / 80
ANADAN OLMASI VƏ UŞAQLIQ İLLƏRİ / 79
GƏNCLİK İLLƏRİ / 81
EVLƏNMƏSİ / 82
DİNİN DAYAĞI / 84
CİDDİ HƏBS REJİMİ YENİDƏN TƏZƏLƏNİR / 85
TÜRKİYƏ İSTİNTAQ KOMİSSİYASI / 88
QƏRB DÜNYASINA SƏFƏRLƏR / 90
MÜQƏDDƏS TORPAĞA QAYIDIŞ / 91
HAYFA MÜHARİBƏ İLLƏRİNDƏ / 93
SER ƏBDÜL-BƏHA BRİTANİYA İMPERİYASININ PERİDİR / 94
SON İLLƏRİ / 95
HƏZRƏT ƏBDÜL-BƏHANIN VƏFATI / 96
YAZILARI VƏ NİTQLƏRİ / 97
HƏZRƏT ƏBDÜL-BƏHANIN NADİR MƏQAMI / 98
BƏHAİ HƏYATININ NÜMUNƏSİ / 101

**V FƏSİL**. BƏHAİLƏR KİMDİR? / 103
BƏHAİ HƏYAT TƏRZİ / 104
ALLAHA İBADƏT / 105
HƏQİQƏT AXTARIŞI / 106
ALLAHA MƏHƏBBƏT / 108
AZADLIQ / 110
İTAƏTKARLIQ / 111
XİDMƏT / 113
TƏBLİĞ / 114
NƏZAKƏT VƏ HÖRMƏT / 115
BAŞQALARINDA EYİB AXTARMAQ / 117
TƏVAZÖKARLIQ / 118
DOĞRULUQ VƏ ETİBAR / 120
ÖZÜNÜDƏRK / 121

**VI FƏSİL**. DUA / 123
DUA EDƏNİN MÜNASİBƏTİ / 125
VASİTƏÇİYƏ EHTİYAC / 126
DUANIN ZƏRURİLİYİ VƏ VACİBLİYİ / 127
BİRGƏ İBADƏT / 129
DUA – MƏHƏBBƏT DİLİDİR / 130
BƏLALARDAN XİLAS OLMAQ / 131
DUA VƏ TƏBİİ QANUNLAR / 133
BƏHAİ DUALARI / 134

**VII FƏSİL**. SAĞLAMLIQ VƏ MÜALİCƏ / 139
BƏDƏN VƏ RUH / 139
BÜTÜN HƏYATIN BİRLİYİ / 140
SADƏ HƏYAT / 140
SPİRTLİ İÇKİLƏR VƏ NARKOTİK MADDƏLƏR / 141
HƏZZ VƏ ƏYLƏNCƏ / 141
TƏMİZLİK VƏ SƏLİQƏ / 142
PEYĞƏMBƏRLƏRİN TÖVSİYƏLƏRİNƏ
İTAƏTİN NƏTİCƏLƏRİ / 143
HƏKİM-PEYĞƏMBƏR / 144
MADDİ VASİTƏLƏRLƏ MÜALİCƏ / 145
QEYRİ-MADDİ VASİTƏLƏRLƏ MÜALİCƏ / 147
MÜQƏDDƏS RUHUN QÜDRƏTİ / 148
XƏSTƏNİN VƏZİYYƏTİ / 149
ŞƏFAVERƏN / 151
HAMI KÖMƏK EDƏ BİLƏR / 153
QIZIL ƏSR / 154
SAĞLAMLIQDAN NECƏ DÜZGÜN İSTİFADƏ ETMƏLİ / 155

**VIII FƏSİL**. DİNİ BİRLİK / 156
XIX ƏSRDƏ TƏRİQƏTÇİLİK / 156
HƏZRƏT BƏHAULLAHIN MÜRACİƏTİ / 158
İNSANIN TƏBİƏTİ DƏYİŞƏ BİLƏRMİ? / 159
BİRLİYƏ DOĞRU İLK ADDIMLAR / 161
HAKİMİYYƏT PROBLEMİ / 162
PROQRESSİV VƏHY / 163
PEYĞƏMBƏRLƏRİN QÜSURSUZLUĞU / 166
ƏN ALİ ZÜHUR / 158
YENİ VƏZİYYƏT / 169
BƏHAİ VƏHYİNİN DOLĞUNLUĞU / 170
BƏHAİ DİNİNDƏ ƏHD / 171
PEŞƏKAR RUHANİLƏRİN OLMAMASI / 174

**IX FƏSİL**. HƏQİQİ SİVİLİZASİYA / 176
DİN – SİVİLİZASİYANININ TƏMƏLİDİR / 176
ƏDALƏT / 177
HÖKUMƏT / 179
SİYASİ AZADLIQ / 182
HÖKMDARLAR VƏ TƏBƏƏLƏR / 183
TƏYİNAT VƏ YÜKSƏLMƏ / 184
İQTİSADİ PROBLEMLƏR / 185
İCTİMAİ MALİYYƏ VƏSAİTLƏRİ / 186
KÖNÜLLÜ İANƏLƏR / 187
HAMI İŞLƏMƏLİDİR / 188
SƏRVƏT ETİKASI / 188
SƏNAYE QULDARLIĞINA QARŞI / 189
VƏSİYYƏTNAMƏ VƏ MİRAS / 191
KİŞİ VƏ QADIN BƏRABƏRLİYİ / 192
QADINLAR VƏ YENİ ƏSR / 195
ZORAKI ÜSULLARDAN İMTİNA / 196
TƏRBİYƏ / 197
ANADANGƏLMƏ XASİYYƏT FƏRQLƏRİ / 199
XARAKTERİN FORMALAŞMASI / 200
İNCƏSƏNƏT, ELM, SƏNƏT / 200
CANİLƏRLƏ RƏFTAR / 201
MƏTBUATIN TƏSİRİ / 203

**X FƏSİL**. SÜLHƏ GEDƏN YOL / 204
RAZILIQ ƏVƏZİNƏ MÜBARİZƏ / 204
ƏN BÖYÜK SÜLH / 206
DİNİ MÖVHUMATLAR / 208
İRQİ VƏ VƏTƏNPƏRVƏRLİK XURAFATLARI / 209
ƏRAZİ İDDİALARI / 210
BEYNƏLXALQ DİL / 212
ÜMUMDÜNYA MİLLƏTLƏR CƏMİYYƏTİ / 215
BEYNƏLXALQ ARBİTRAJ / 218
SİLAHLARIN AZALDILMASI / 219
ZÜLMƏ MÜQAVİMƏT GÖSTƏRMƏMƏK / 220
ƏDALƏTLİ MÜHARİBƏ / 222
ŞƏRQLƏ QƏRBİN İTTİFAQI / 224

**XI FƏSİL**. MÜXTƏLİF TƏLİMLƏR VƏ TƏLİMATLAR / 226
RAHİBLİK HƏYATI / 226
NİGAH / 228

BOŞANMA / 229
BƏHAİ TƏQVİMİ / 229
RUHANİ MƏHFİLLƏR / 231
BƏHAİ BAYRAMLARI, İLDÖNÜMLƏRİ
VƏ ORUCLUQ GÜNLƏRİ / 232
BAYRAMLAR / 234
ORUC / 239
TOPLANTILAR / 238
ON DOQQUZ GÜN GÖRÜŞLƏRİ / 240
MƏŞRİQUL-ƏZKAR / 240
AXİRƏT HƏYATI / 243
CƏNNƏT VƏ CƏHƏNNƏM / 245
İKİ DÜNYANIN BİRLİYİ / 247
ŞƏRİN YOXLUĞU / 251

**XII FƏSİL**. DİN VƏ ELM / 254
FİKİR AYRILIĞI SƏHVLƏRDƏN YARANIR / 254
PEYĞƏMBƏRLƏRİN TƏQİB EDİLMƏSİ / 256
BARIŞIĞIN SÜBHÜ / 258
HƏQİQƏT AXTARIŞINDA / 260
HƏQİQİ AQNOSTİSİZM / 261
ALLAHIN TANINMASI / 262
İLAHİ MƏZHƏRLƏR / 262
YARADILIŞ / 264
İNSANIN TƏKAMÜLÜ / 266
RUH VƏ BƏDƏN / 269
BƏŞƏRİYYƏTİN BİRLİYİ / 270
BİRLİK ERASI / 271

**XIII FƏSİL**. BƏHAİ DİNİNDƏ
HƏYATA KEÇMİŞ KƏHANƏTLƏR / 273
KƏHANƏTLƏRİN ŞƏRHİ / 273
RƏBBİN GƏLİŞİ / 275
MƏSİH HAQQINDA KƏHANƏTLƏR / 276
HƏZRƏT BAB VƏ HƏZRƏT BƏHAULLAH
HAQQINDA KƏHANƏTLƏR / 277
RƏBBİN ŞƏRƏFİ / 279
BUDAQ / 280
RƏBBİN GÜNÜ / 282
MƏHŞƏR GÜNÜ / 283
ƏN BÖYÜK DİRİLMƏ / 285

MƏSİHİN İKİNCİ GƏLİŞİ / 287
ZAMANIN SONU / 289
GÖYDƏ VƏ YERDƏ BAŞ VERƏN ƏLAMƏTLƏR / 292
ZÜHUR NECƏ BAŞ VERƏCƏKDİR? / 294

**XIV FƏSİL**. HƏZRƏT BƏHAULLAH VƏ
HƏZRƏT ƏBDÜL-BƏHANIN KƏHANƏTLƏRİ / 300
ALLAH KƏLAMININ YARADICI QÜDRƏTİ / 300
III NAPOLEON / 304
ALMANİYA / 305
İRAN / 306
TÜRKİYƏ / 307
AMERİKA / 310
BÖYÜK MÜHARİBƏ / 311
MÜHARİBƏDƏN SONRAKI İCTİMAİ FƏLAKƏTLƏR / 312
İLAHİ SƏLTƏNƏTİN BAŞLANMASI / 316
ƏKKA VƏ HAYFA / 319

**XV FƏSİL**. KEÇMİŞ VƏ GƏLƏCƏK / 321
TƏLİMİN YAYILMASI / 321
HƏZRƏT BAB VƏ HƏZRƏT
BƏHAULLAHIN PEYĞƏMBƏRLİKLƏRİ / 324
ŞANLI GƏLƏCƏK / 325
DİNİN YENİLƏNMƏSİ / 326
YENİ VƏHYƏ TƏLƏBAT / 327
HƏQİQƏT HAMI ÜÇÜNDÜR / 327
HƏZRƏT ƏBDÜL-BƏHANIN
VƏSİYYƏTİ VƏ YEKUN İRADƏSİ / 328
ALLAH ƏMRİNİN VƏLİSİ / 332
ALLAH ƏMRİNİN ƏLLƏRİ / 334
İNZİBATİ QAYDA / 335
HƏZRƏT BƏHAULLAHIN DÜNYA NİZAMI / 345

EPİLOQ / 361

## 1937-ci il buraxılışına Ön Söz

On ildən də çox bir müddət öncə *Bəhaullah və Yeni Era* kitabının nəşri ilə təlimlərin tələbəsi tərəfindən Bəhai Dininə onun yaxşı düşünülmüş və hərətərfli izahı təqdim olunmuşdur. Əmr barədə ən yetərli bir təqdimat kimi onun dəyərini etiraf edərək həm Şərqdən, həm də Qərbdən olan bəhailər Dr. Esslemontun kitabını o qədər faydalı hesab etmişlər ki, onu 30-a yaxın müxtəlif dillərə tərcümə etmişlər.

Dr. Esslemontun özünün də etiraf etdiyi kimi, Həzrət Əbdül-Bəhanın süudundan sonra Əmr tarixinin yeni mərhələsinə daxil oldu. Nəticə budur ki, müəllifin baxışları, onlardan bəziləri 1921-ci ildən öncə yazılmışdır, məsələnin müəyyən cəhətlərindən Əmrin təkamüli xarakterinə uyğun gəlmir. Bundan əlavə, onun hadisələrə və o zaman mövcud olan sosial şərtlərə münasibəti heç də tam adekvat görünmür. Qaçılmaz olaraq, bir neçə fakt səhvi onun kitabına düşmüşdür, Həzrət Bab və Həzrət Əbdül-Bəhanın məqamları barədə onun izahları isə bəhailərin zehinlərində Əmrin birinci Vəlisi Şövqi Əfəndinin səlahiyyətli şərhləri ilə əvəz olunmuşdur.

Ona görə də indiki nəşr Şövqi Əfəndinin məsləhəti altında və onun təsdiqi ilə hərəkət edən Amerika Milli Ruhani Məhfili tərəfindən yenidən baxılmış bir versiyadır.

Bu düzəlişlər heç bir mənada Dr. Esslemntun kitabının ilkin planını dəyişmir, onun mətninin əsas hissəsinə təsir etmir. Onların məqsədi bir neçə parçada müəllifin müzakirələrini onun acılı ölümündən bəri əldə olan tam biliyi əks etdirən materialın və onun Bəhai Müqəddəs Yazılarından olan sitatlarının yeni tərcümələrinin əlavə edilməsi ilə genişləndirilmişdir.

*Bəhai Nəşr Komitəsi, yanvar, 1937.*

## 1950-ci il nəşrinə Ön Söz

Bu nəşrlə Amerika Bəhai Nəşr Komitəsi nəşr hüququnu və digər maraqları mərhum Dr. J. E. Esslemontun öz məşhur kitabını iyirmi il əvvəl çap etdirdiyi Messrs. George Allen Unwin Ltd. Şirkətindən (London, İngiltərə) alıb öz üzərinə götürür. Britaniya naşirləri ilə birlikdə bu Komitə 1928-ci ildən bəri Nyu Yorklu Brentanonun idxal etdiyi birinci Amerika nəşrinə əlavə olaraq on iki dəfə çap etmişlər.

Bu redaktə 1937-ci ildə Əmrin Vəlisinin rəhbərliyi altında edilən düzəlişlərdən sonrakı mətni əvəz etmir, çünki bu kitabın mətnini tamamilə müasir dünyanın şərtlərinə uyğunlaşdıraraq onu yenidən yazmaq zamanı hələ gəlməmişdir. Dr. Esslemontun kitabı Bəhai dininin təlimlərinə və tarixinə etibarlı bir təqdimat kimi öz yetərliliyini saxlamaqdadır. Onun otuza yaxın dilə tərcümə edilməsi şərqdə və qərbdə onun tələbələrə xitab etdiyinə şahidlik edir.

Bunu da əlavə etmək lazımdır ki, gələcəkdə bu kitabın mətninə edilən istənilən düzəliş Şövqi Əfəndinin təsdiqini almalıdır. Bu komitə başqa ölkələrdəki bəhailərin xüsusi ehtiyaclarını ödəmək üçün istədikləri dəyişiklikləri etmək səlahiyyətinə malik deyil.

*Bəhai Nəşr Komitəsi, dekabr 1950.*

## 1970-ci il nəşrinə Ön Söz

Dr. Esslemontun kitabına 1937-ci ildən bəri heç bir düzəliş edilməmişdir, hərçənd 1950-ci ildə bəzi kiçik düzəlişlər edilmişdir. Digər tərəfdən isə, o zamandan bəri Bəhai Dini xeyli dərəcədə inkişaf etmişdir və Bəhai biblioqrafiyasına Əmrin Vəlisi və Müqəddəs Yazıların təyin olunmuş Şərhçisi Şövqi Əfəndi tərəfindən misilsiz izahatlar, tərcümələr və tarixi hekayələr əlavə edilmişdir .

Ona görə də kitabın müasir oxucular üçün faydalılığını saxlamaq üçün onu yeniləmək zəruri hesab edilmişdir. Bu kitabın mətninə minimum dəyişiklər etməklə, hazırkı statistika və Əmrin üzvi açılışında yeni inkişafları verərək izahatlar və epiloq daxil etməklə həyata keçirilmişdir

Dr. Esslemontun kitabı, 1937-ci ildəki tərcümə sayı 30 olmaqla bunun 58-ə çatması faktının göstərdiyi kimi, Bəhai Dininin ən çox istifadə olunan təqdimat kitablarından biri olmaqda davam edir.

*Bəhai Nəşriyyatı*

# I FƏSİL

# XOŞ MÜJDƏ

*“Bütün xalqlara Vəd olunmuş Kəs zühur etmişdir. Bütün xalqlar və millətlər çoxdan Vəhy gözləyirdilər və O, bütün bəşəriyyətin dahi Müəllimi və tərbiyəçisi Həzrət Bəhaullahdır”.*

***Həzrət Əbdül-Bəha***

## TARİXDƏ ƏN BÖYÜK HADİSƏ

Biz tarixin səhifələrini vərəqləyib, insan təkamülünün gedişini öyrənərkən aydın olur ki, bəşəriyyətin tərəqqisində başlıca amil müxtəlif zamanlarda öz dövrünün ideyalarının fövqündə duran və bəşəriyyətə o vaxtadək məlum olmayan həqiqətləri aşkarlayan insanların gəlişidir. Dünyanın dəyişdirilməsi, hər şeydən əvvəl, yaradıcıdan, öndərdən, dahidən, Peyğəmbərdən asılıdır. Tomas Karleyl (Thomas Carlyle) deyir: “Bu çox sadə həqiqətdir ki, ali müdrikliyi, ruhani qüdrəti özündə cəmləşdirən bir insan,

buna malik olmayan nəinki onlarla, on minlərlə adamdan, hətta bütün bəşəriyyətdən güclüdür: o, onların arasında mələyin efir qüdrətilə, sanki əlində qılınc tutmuş səma ordusu kimi dayanır və onun qarşısında heç bir qalxan, heç bir qala tab gətirə bilmir". *(Tomas Karleyl,"Zamanın əlamətləri")*

Elm, incəsənət, musiqi tarixində bu həqiqətin çoxsaylı sübutlarını görürük, lakin dində olduğu qədər başqa heç bir sahədə Böyük İnsanın rolu belə bariz şəkildə görünmür. İnsanların mənəvi həyatının cırlaşdığı və onların əxlaqının pozulduğu zamanlarda insanların ən ecazkarı və ən əsrarəngizi – Peyğəmbərlər zühur edirlər: tək başına bütün dünyaya qarşı duraraq, öyrətmək, rəhbərlik etmək, axıradək anlamaq və ya onunla məsuliyyəti bölüşdürmək qabiliyyətinə malik başqa bir şəxsin köməyi olmadan, Peyğəmbər həqiqəti və ədaləti elan etmək üçün korlar arasından bəsirətli insan kimi yüksəlir.

Peyğəmbərlərdən bəziləri xüsusi qüdrətə malikdirlər. Hər dəfə bir neçə yüzilliklər keçəndən sonra Şərqdə Allah Elçiləri – Krişna, Zərdüşt, Musa, İsa, Məhəmməd mənəvi Günəş kimi insanların dumanlanmış ağıllarını işıqlandırmaq və onların yatmış qəlblərini oyatmaq üçün zühur etmişlər. Dinlərin baniləri olan bu şəxsiyyətlərin əzəmətinə necə münasibət bəsləməyimizdən asılı olmayaraq, biz onunla razılaşmalıyıq ki, onlar bəşəriyyətin tərbiyəsində ən qüdrətli başlanğıclar olmuşlar. Bir qayda olaraq bütün Peyğəmbərlər bildirirlər ki, bəyan etdikləri sözlər onların Özündən deyildir və onlar yalnız bu İlahi Vəhyin, müraciətin daşıyıcısıdırlar.

Eyhamlarla və qabaqcadan xəbər verməklə onlar bildirirlər: Dünyanın ən Böyük Müəllimi "vaxt tamam olanda" gələcək, onların işini davam etdirəcək və onun bəhrəsini

görəcək, yer üzərində sülh və ədalət Səltənətini quraraq, bütün irqləri, dinləri, millətləri və tayfaları bir ailədə birləşdirəcəkdir ki, onlar "bir çobanı olan bir sürü təşkil etsinlər" və "acizindən tutmuş əzəmətlisinə kimi bütün canlılar" Allahı tanısınlar və sevsinlər.

"Bəşəriyyətin Müəllimi"nin tezliklə gəlməsi bəşər tarixində ən əlamətdar hadisə olmalıdır. Bəhai hərəkatı dünyaya bu şad xəbəri bəyan edir ki, həmin Müəllim həqiqətən gəlmişdir, Onun təlimi elan edilmiş və yazılmışdır və hər bir inadcıl həqiqət axtarıcısı onu öyrənə bilər. Artıq "Allahın Günü" gəlib çatmış və "Həqiqət Günəşi" doğmuşdur. Yalnız dağların zirvəsində olan çox az adam Nurlu Halənin işığını duysa da, artıq onun şüaları göyü və yeri işıqlandırır və tezliklə o, dağların üzərinə yüksələrək, tam gücü ilə düzləri və vadiləri nura boyayacaq, hamıya həyat bəxş edib yol göstərəcəkdir.

## DƏYİŞƏN DÜNYA

Hamıya məlumdur ki, XIX əsr və XX yüzilliyin[2] ilk illəri köhnə eranın çırpınaraq ölməsi və yeni eranın doğulması şəraitində keçir. Keçmişin xarabalıqları arasında materializmin və eqoizmin köhnəlmiş prinsipləri, köhnə təriqətçiliyin və şovinizmin xurafat və nifrət hissləri yox olub gedir. Bütün ölkələrdə köhnə zəncirləri parçalayıb qıran və sərhədləri aşıb-keçən yeni inam, qardaşlıq, beynəlxalq həmrəylik ruhu doğulur. Heç bir bənzəri olmayan, misli görünməmiş dərəcədə əhəmiyyətli inqilabi dəyişikliklər insan həyatının bütün sahələrində baş verir.

.............................................................

2 Birinci Dünya Müharibəsindən sonra yazılmışdır.

Lakin köhnə era hələ ölməmişdir. O, yeni era ilə ölüm-dirim mübarizəsinə girişmişdir. Nəhəng və dəhşətli şər hələ çox yeri bürümüşdür, lakin o artıq ifşa edilmiş, başa düşülmüş, döyüşə çağırılmış və ona yeni qüvvə və ümidlə həmlə edilmişdir. Nəhəng və hədələyici buludlar hələ çoxdur, lakin işıq artıq onları yarıb keçir və tərəqqinin yolunu işıqlandıraraq irəliyə doğru hərəkətə mane olan sədləri və uçurumları göstərir.

XVIII əsrdə vəziyyət başqa cür idi. Bu dövrdə dünyanı bürümüş əqli və əxlaqi zülməti işığın bir şüası belə yumşalda bilməmişdi: bu, sübh çağına bir saat qalmış ərəfəyə bənzəyir ki, bu zaman yandırılmış halda qalan bir neçə çıraq və şam qaranlığı yalnız daha da görümlü edir. Tomas Karleyl "Böyük Fridrix" əsərində XVIII əsr haqqında belə yazır: "Tarixi olmayan və ancaq çox cüzi və ya heç bir dəyərə malik olmayan əsr. Yalanlar yığını ilə zəngin əsr; yalan o səviyəyə çatmışdı ki, əsr hətta öz saxtalığını da dərk etmirdi. O, yalanla elə əhatələnmişdi və yalan onun iliyinə elə hopmuşdu ki, bu heç bir ölçüyə sığmırdı və Fransa inqilabı buna son qoymalı idi... Mən məmnuniyyətlə duyuram ki, belə əsr üçün bu ən layiqli sonluqdur. Çünki daha bir İlahi Vəhy göndərilməliydi ki, fəaliyyətsiz, veyil insan övladları meymun vəziyyətinədək gəlib çıxmasınlar." (Tomas Karleyl, Böyük Fridrix, I kitab, I fəsil.)

XVIII əsrlə müqayisədə hazırkı dövr qaranlıqdan sonra ağarmağa başlayan dan yerinə, qışdan sonra gələn bahara bənzəyir. Dünya təzə ideallarla və ümidlərlə dolu olan yeni həyata oyanır. Yaxın vaxtlaradək həyata keçirilməsi xəyal kimi görünən arzular indi artıq baş vermiş fakta çevrilmişdir.

Əsrlər boyu bizim üçün əlçatmaz görünən arzular indi gündəlik və adi hala çevrilmişdir. Biz səmada uçur və suyun altında səyahətə çıxırıq. Biz dünyanın istənilən yerinə

ildırım sürətilə xəbərlər göndəririk. Bir neçə onilliklər ərzində biz o qədər çoxlu möcüzələrin şahidi olmuşuq ki, onları saymaqla qurtarmaz.

## HƏQİQƏT GÜNƏŞİ

Bütün dünyanın bu cür qəfil oyanışının səbəbi nə olmuşdur? Bəhailər inanırlar ki, bu oyanış Müqəddəs Ruhun 1817-ci ildə İranda doğulmuş və 1892-ci ildə Müqəddəs Torpaqda dünyasını dəyişmiş İlhamlı Müəllim – Həzrət Bəhaullah vasitəsilə zühuru sayəsində baş vermişdir.

Həzrət Bəhaullah öyrədirdi ki, günəş təbii aləmin nur daşıyıcısı olduğu kimi Peyğəmbər və ya "Allahın Zühuru" da mənəvi aləmin nur daşıyıcısıdır. Maddi günəş yer üzərinə işıq saçmaqla təbii orqanizmləri böyüməyə və inkişaf etməyə necə vadar edirsə, İlahi Vəhyin həqiqət Günəşi də qəlblər və ruhlar dünyası üzərində şəfəq saçaraq insanların düşüncələrini, əxlaqlarını və xasiyyətlərini tərbiyələndirir.

Təbii günəşin şüaları dünyanın ən qaranlıq və zülmət guşələrinə daxil olaraq, hətta günəşin özünü heç zaman görməyən məxluqlara həyat və istilik vermək xüsusiyyətinə malik olduğu kimi, İlahi Zühur vasitəsilə Müqəddəs Ruhun ifadəsi də hamının həyatına nüfuz edir və Peyğəmbərin heç adını belə bilməyən xalqların ağıllarını ilhamlandırır.

Müjdəçinin gəlişi baharın gəlişi kimidir. Bu, Dirilmə Günüdür. Həmin gün mənəviyyatca ölmüşlər yeni həyat üçün oyanır, ilahi inam həqiqəti dirçəlir və bərpa olunur, yeni səmalar, yeni kainat kəşf olunur.

Lakin bahar təbiətə yalnız canlanma və yeni həyat gətirmir, o həmçinin vaxtı keçmiş və köhnəlmiş bütün şeylə-

ri dağıdır və məhv edir, belə ki, çiçəkləri qönçələndirən və ağacları tumurcuqlandıran günəş eyni zamanda ölmüş və faydasız nə varsa hamısını dağıdır və çürüdür. O, qışın qarını və buzunu əriməyə məcbur edir, yer üzünü təmizləyən və yuyan sellər və tufanlar gətirir.

Mənəvi aləmdə də belədir. Mənəvi Günəş də buna bənzər sarsıntılar və dəyişikliklər doğurur. Beləliklə, Dirilmə Günü həm də Qiyamət Günüdür ki, həmin gün əxlaqsızlıqlar, saxta həqiqətlər, köhnəlmiş ideyalar və adətlər ifşa edilir və yox olub gedir, sanki qış fəsli ərzində toplanıb yığılmış mövhumat və xurafat buzu və qarı əriyir, əsrlər boyu donmuş və məhbəsdə qalmış enerji dünyanı yuyub təmizləmək və canlandırmaq üçün azad olur.

## HƏZRƏT BƏHAULLAHIN MİSSİYASI

Həzrət Bəhaullah dəfələrlə və aydın şəkildə buyurmuşdu ki, O, bütün xalqların çoxdan gözlədiyi Tərbiyəçi və Müəllimdir. Çaylar dəryalarda qovuşduqları kimi, bütün əvvəlki dini formalar da Onun ecazkar mərhəmət məcrasında qovuşacaqlar. O elə bir təməl qoymuşdur ki, bu bütün bəşəriyyətin birliyinin möhkəm əsası, Peyğəmbərlərin öncədən xəbər verdiyi və şairlərin vəsf etdiyi gözəl sülh və xeyrxahlıq əsrinin başlanğıcıdır.

Həqiqətin axtarışı, bəşəriyyətin birliyi, Şərq və Qərb dinlərinin, millətlərinin və irqlərinin birləşməsi, din ilə elmin barışması, mövhumat və xurafatın kökünün kəsilməsi, kişilərin və qadınların hüquq bərabərliyi, haqqın və ədalətin bərqərar edilməsi, beynəlxalq məhkəmənin təsis edilməsi, vahid dil, icbari təhsil – bu və buna bənzər çoxlu prinsiplər Həzrət Bəhaullahın XIX yüzilliyin ikinci yarı-

sında qələmə aldığı çoxsaylı kitablarında və məktublarında ifadə olunmuşdur. Bu məktubların bəziləri krallara və dünya hökmdarlarına ünvanlanmışdır.

Fikir və məqsəd dərinliyinə görə tayı-bərabəri olmayan bu Təlim zamanın tələbləri ilə ecazkar bir tərzdə uzlaşır. Hələ heç zaman bəşəriyyət qarşısında belə nəhəng və mürəkkəb problemlər durmamışdı, hələ heç zaman təklif olunan qərarlar bu qədər çoxsaylı və belə ziddiyyətli olmamışdı, hələ heç zaman Böyük Dünya Müəlliminə olan ehtiyac belə kəskin və qabarıq şəkildə hiss olunmamışdı, hələ heç zaman Böyük Müəllimin Zühuruna bu qədər ümidlər bəslənməmişdi.

## KƏHANƏTLƏRİN YERİNƏ YETMƏSİ

Həzrət Əbdül-Bəha buyurur:

"İyirmi əsr bundan əvvəl Məsih zühur edəndə, hərçənd yəhudilər səbirsizliklə Onun gəlişini gözləyirdilər və hər gün dua edərək və ağlayaraq deyirdilər: "Ey Allah, Məsihin gəlişini tezləşdir", amma Həqiqət Günəşi doğanda, onlar Onu inkar etdilər və böyük düşmənçiliklə Onun əleyhinə qalxdılar və nəhayətdə, O ilahi Ruhu, Allahın Kəlamını çarmıxa çəkdilər və Onu Baal-Zevul[3], şər adlandırdılar, necə ki, İncildə yazılıb. "Məsihin Vəhyi, Tövratın aydın mətninə görə, müəyyən əlamətlərlə təsdiq olunmalıdır, və çünki bu əlamətlər zahir olmayıb, Məsihlik iddiasında olan hər kəs yalançıdır. Bu əlamətlər arasında belə

3 Əslində qədim butlərdən birinin adıdır. Lakin İncildə şeytan mənasında işlədilir.

bir əlamət var ki, Məsih bilinməz bir yerdən gəlməlidir, amma bizim hamımız bilirik ki, O (İsa) Nazaretdəndir, Nazaretdən yaxşı bir şey çıxa bilərmi? İkinci əlamət budur ki, O, dəmir çomaqla idarə etməlidir, yəni O, qılıncla gələcək, amma Onun heç ağacdan çomağı yoxdur. Başqa bir şərt və əlamət isə budur: O, Davudun Taxtında oturmalı və Davudun hökmranlığını bərqərar etməlidir. İndi, hələ taxta çıxmağı bir yana, bu insanın üstündə oturmağa heç həsiri belə yoxdur. Digər bir şərt budur: Tövratın bütün Qanunları təsdiq olunmalıdır; amma bu adam qanunları aradan qaldırdı, hətta şənbə gününü belə pozdu, o zaman ki, Tövratın aydın mətnində deyilir ki, kimsə peyğəmbərliyə iddia etsə, möcüzələr göstərsə, amma şənbəni qırsa, ölümə məhkum olunmalıdır. Bir başqa əlamət də budur ki, Onun hökmran olduğu günlərdə ədalət o dərəcədə zəfər çalacaq ki, insaf, firavanlıq və xeyirxahlıq insan aləmindən heyvan aləminə keçəcək – ilan və siçan bir yuvada yaşayacaq, qartal və kəklik bir yerdə yuva quracaq, şir və ceyran bir otlaqda otlayacaq, qurd və quzu bir çeşmədən su içəcək. Amma Onun dövründə ədalətsizlik və zülm o həddə çatdı ki, onlar Onu çarmıxa çəkdilər! Başqa bir əlamət isə budur ki, Məsihin günlərində yəhudilər çiçəklənəcək və dünyanın bütün xalqlarından üstün olacaqlar, amma onlar indi ən ağır zəlalətdədirlər və Roma imperiyasının qullarıdırlar. Elə isə O, Tövratda vəd olunan Məsih necə ola bilər?”

Beləcə, onlar O Həqiqət Günəşinə etiraz etdilər, hərçənd Allahın O Ruhu Tövratda vəd olunmuş Kəs idi. Lakin bu əlamətlərin mənasını başa düşmədiklərindən, onlar Allahın Kəlamını çarmıxa çəkdilər. İndi bəhailər inanırlar ki, yazılmış əlamətlər İsanın Zühurunda baş verdi, amma yəhudilərin başa düşdükləri kimi deyil, çünki Tövratın dedikləri alleqorik mənalar idi. Məsələn, əlamətlərin biri

hökmranlığa aiddir. Çünki bəhailər təsdiq edirlər ki, İsanın hökmranlığı səmavi, ilahi, əbədi hömranlıq idi, Napoleonun hökmranlığı kimi deyil, necə ki, qısa bir zamanda yox olub getdi. Zira İsanın bu hökmranlığı təxminən iki min ildir ki qurulub və indiyə kimi yaşayır və əbədiyyətə qədər də O Müqəddəs Varlıq əbədi taxtın üzərində ucalacaqdır.

Eynilə də, qalan başqa əlamətlər bu cür zahir oldu, amma yəhudilər başa düşmədilər. İsanın ilahi nurla zühur etməsindən iyirmi əsr keçməsinə baxmayaraq, yəhudilər hələ də Məsihin gəlməsini gözləyirlər, özlərini haqq, İsanı isə yalançı hesab edirlər. *(Həzrət Əbdül-Bəha tərəfindən bu fəsil üçün yazılmışdır.)*

Əgər yəhudilər İsaya müraciət etsəydilər, O, Özünün Peyğəmbərliyinin əsl mahiyyətini izah edərdi. Yəhudilərin başına gələn bu hadisə qoy bizim üçün örnək olsun. Böyük Müəllimin son gündə Zühuru barəsində əvvəlcədən deyilmiş sözlərin yerinə yetib-yetməməsi məsələsini həll etməzdən əvvəl biz, Həzrət Bəhaullahın Özünün izahatlarına istinad etməliyik, çünki vəd olunan bu xəbərlərin əksəriyyəti "möhürlənmiş sözlərdir" və ancaq həqiqi Müəllim bu möhürü çıxarıb, bu kəlamlar xəzinəsində saxlanılanların əsl mənasını açıqlaya bilər.

Həzrət Bəhaullah Öz Yazılarında qədim kəhanətlərin ətraflı şərhini verir, lakin Öz Missiyasının həqiqiliyini onlardan asılı vəziyyətdə qoymur. Çünki günəşin özü öz varlığının sübutudur. Günəşin çıxması özü-özlüyündə bizi onun şəfəq saçmasına inandırır və bunun üçün əvvəlcədən deyilmiş xəbərlərə ehtiyac yoxdur. İlahi Vəhyin Zühuru zamanı da eyni şey baş verir.

Hətta Onun haqqında bütün əvvəlki kəhanətlər unudulsaydı belə, ruhani düşüncələrini itirməyənlər üçün o, özü-özülüyündə tam və kafi bir sübutdur.

## ONUN İLAHİ İLHAMININ SÜBUTU

Həzrət Bəhaullah heç kimdən Onun izahatlarını və dəlillərini kor-koranə qəbul etməyi tələb etmirdi, əksinə, Öz Təlimində O, ilk növbədə şəxsiyyətlərə kor-koranə inamın qarşısını qətiyyətlə alır və hamıdan tələb edir ki, qulaqlarını və gözlərini "açsınlar" və həqiqətin meydana çıxarılması üçün kənar təsirlərdən asılı olmayaraq çəkinmədən öz şəxsi fikirlərini müəyyənləşdirsinlər.

O, Öz Təlimi ilə hərtərəfli tanış olmağı tələb edir və çəkinmədən Missiyasının ən yüksək dəlili kimi insanların həyatını və xarakterini dəyişən sözlərini və yazılarını təklif edir.

Musa Peyğəmbər buyurur:

"Əgər Peyğəmbər Allahın adından danışarsa, lakin Onun sözləri həyata keçməzsə və yerinə yetməzsə, onda bu sözləri Allah deməyib, öz qabalığı ucbatından bunları Peyğəmbər Özü deyib – ondan qorxmayın".

İsa Peyğəmbər də belə aydın dəlillər gətirər və Öz hüquqlarını təsdiqləmək üçün onlardan istifadə edərdi. O, buyurur:

"Yalançı Peyğəmbərlərdən qorunun; onlar yanınıza qoyun cildində gələrlər, fəqət daxildə vəhşi qurddurlar, onları meyvələrindən tanıyacaqsınız. İnsanlar tikanlardan üzüm, yaxud qızıl yarpağlardan əncir toplarlarmı? Beləcə də hər yaxşı ağac yaxşı meyvə verər, fəqət çürük ağac pis meyvə verər. Yaxşı ağac pis meyvə verə bilməz, çürük ağac da yaxşı meyvə verə bilməz. Yaxşı meyvə verməyən hər ağac kəsilər və atəşə atılar. Beləliklə onları meyvələrindən tanıyacaqsınız". *(İncil. Matta. 7:15-20.)*

Sonrakı fəsillərdə biz bu dəlillərin Həzrət Bəhaullahın Peyğəmbərlik məqamına olan iddiasını təsdiq və ya

inkar etməsini, haqqında danışdığı hadisələrin baş verib-verməməsini, Onun Təliminin bəhrələrinin xeyirli və ya zərərli olmasını, başqa sözlə desək, Onun vəd etdiklərinin və Onun əmrlərinin yerinə yetib-yetməməsini və Onun bütün həyatı boyu çəkdiyi böyük zəhmətin insanların kamilləşməsi və mənəviyyatının yüksəlməsi üçün nə isə verib-verməməsini göstərməyə çalışacağıq.

## TƏDQİQATIN ÇƏTİNLİKLƏRİ

Bu Təlim haqqında həqiqi təsəvvür almaq istəyən hər bir kəs bu yolda çoxlu çətinliklərlə qarşılaşır. Həyatın əxlaqi və mənəvi sahələrində baş verən bütün böyük dəyişikliklər kimi Bəhai hərəkatı da kobudcasına təhrif olunmuşdur. Həzrət Bəhaullahın və Onun ardıcıllarının amansız təqiblərə və iztirablara məruz qaldıqlarına dair mülahizələrdə Onun həm dostlarının, həm də düşmənlərinin fikirləri tamamilə uyğun gəlir.

Bəhai hərəkatının xarakterinə, onun banilərinin roluna gəldikdə isə bu dinə inananların və onların əleyhdarlarının dedikləri olduqca ziddiyyətlidir. Hər şey İsa Peyğəmbərin vaxtında olduğu kimidir. Həzrət İsanın çarmıxa çəkilməsi, Onun ardıcıllarının təqiblərə və işgəncələrə məruz qalması haqqında məlumatlarla bağlı yəhudi və xristian tarixçilərinin fikri eynidir. Lakin möminlər İsa Peyğəmbərin Həzrət Musanın və digər Peyğəmbərlərin təlimini həyata keçirməsini və inkişaf etdirməsini dedikləri halda, əleyhdarları bəyan edirlər ki, O, qanunları və Vəsiyyəti pozmuşdur və ölümə məhkum edilməlidir.

Elmdə olduğu kimi, dində də həqiqət öz sirlərini ancaq itaətli və ehtiramlı axtarıcıya, onun naminə hər cür möv-

humatdan və xurafatdan imtina etməyə hazır olana – “ən qiymətli mirvarini” almaq imkanı əldə etmək üçün malik olduğu bütün şeylərindən keçənə açıqlayır.

Bəhai Təlimini bütün dərinliyi ilə anlamaq üçün biz səmimi və təmənnasız sədaqət ruhu ilə onu öyrənməyə başlamalı, tədqiqat yolunda inadlı olmalı və Allahın himayəsinə ümid bəsləməliyik.

Bəhai Dini banilərinin yazılarında biz bu böyük mənəvi oyanışın sirlərinin açarını və onun dəyər ölçüsünü tapa bilərik. Təlim fars və ərəb dillərində yazıldığından müqəddəs mətni öyrənmək istəyənin qarşısına, təəssüflər olsun ki, burada da çətinliklər çıxır. Yazıların az hissəsi ingilis dilinə tərcümə edilmişdir, lakin bu tərcümələrin əksəriyyəti həm məna düzgünlüyü, həm də ifadə üslubu baxımından qənaətbəxş deyildir. Lakin tarixi məlumatların və tərcümələrin çatışmazlığına baxmayaraq, bu Təlimin möhkəm və sarsılmaz təməlini təşkil edən böyük həqiqətlər dağ zirvələri kimi qeyri-müəyyənlik dumanı içərisində yüksəlirlər.[4]

## KİTABIN MƏQSƏDİ

Kitabın yazılmasında məqsəd imkan daxilində aydın və qərəzsiz bir şəkildə Bəhai Təlimi tarixinin ən əhəmiy-

---

4 Bununla belə Şövqi Əfəndi həzrət Bəhaullahın və həzrət Əbdulbəhanın ən əhəmiyyətli yazılarını fars və ərəb dillərindən ingilis dilinə tərcumə etmişdir. Bu gözəl tərcümələr vd Bəhai Dininin tarixinə, yer üzərində İnzibati Qaydanın bərqərar olması onun əsaslı muddəalarının həyata keçməsinə və əhəmiyyətinə dair Onun şəxsən yazdığı görkəmli əsərlər Esslemontun dövründən fərqli olaraq bu güngü tədqiqatçının işini xeyli yüngülləşdirir. (Uca Ədalət Evinin qeydi).

yətli mərhələləri haqqında danışmaqdan ibarətdir ki, oxucular onun mahiyyəti barəsində özlərində düzgün təsəvvür yarada bilsinlər və bəlkə də şəxsən onu daha dərindən öyrənmək həvəsinə düşsünlər.

Həqiqət cansız əşya deyildir ki, axtarılıb tapılandan sonra muzeydə nümayiş etdirilsin, təsnifləşdirilsin, kataloqa yazılsın və bütün dövrlər boyu orada, quru və bəhrəsiz qalsın. Həqiqət elə həyati başlanğıcdır ki, insanların ürəklərində kök salmalı və onlar öz axtarışlarının tam mükafatını əldə edənədək onların həyatında öz bəhrəsini verməlidir.

Buna görə də Peyğəmbərin Zühuru barəsində biliklərin təbliğində başlıca məqsəd ondan ibarətdir ki, Onun prinsiplərinin həqiqiliyinə inanan hər bir kəs bu prinsipləri həyata keçirsin, onları əldə rəhbər tutsun, xoş xəbəri yaysın və beləliklə, göydə olduğu kimi, yer üzündə də bəxtiyar günün yaxınlaşmasını sürətləndirsin.

## II FƏSİL

## HƏZRƏT BAB – MÜJDƏÇİ

*“Həqiqətən, Zülmkar şəxs dünyaların Sevimlisini onun üçün qətlə yetirdi ki, bununla Allahın Nurunu Onun yaratdıqları arasında söndürsün və bəşəriyyəti Onun Mərhəmətli və Səxavətli Rəbbinin günündə Səmavi həyat Çeşməsindən yayındırsın”.*

***Həzrət Bəhaullah – Rəis Lövhü***

### YENİ VƏHYİN ZÜHUR YERİ

Həzrət Bəhaullahın Zühur etdiyi yer olan İran bir vaxtlar dünya tarixində müstəsna mövqelərdən birini tuturdu. Özünün əvvəlki əzəmətli günlərində o, millətlər arasında həqiqətən şahanə mövqeyə malik idi və sivilizasiyası, gücü, qüdrəti və şan-şöhrəti ilə onları üstələyirdi. O, dünyaya dahi şahlar və dövlət xadimləri, Peyğəmbərlər və şairlər, filosoflar və rəssamlar vermişdir. Zərdüşt, Kir, Dara, Hafiz və Firdovsi, Sədi və Ömər Xəyyam – İranın dahi oğullarından ancaq bəziləridir. İncəsənətdə onun sənətkarlarını heç kim ötüb keçə bilməzdi: onların toxuduq-

ları xalçalar misilsiz, polad qılıncları müqayisə edilməz, dulusçuluq istehsalı bütün dünyada məşhur idi. Yaxın və Orta Şərqin bütün diyarlarında İran öz əvvəlki əzəmətinin izlərini qoymuşdur.

Lakin XVIII-XIX əsrlərdə İran tənəzzülə uğramışdı. Onun qədim şöhrəti sanki həmişəlik itirilmişdi. Onun hökuməti pozğunlaşmış və çıxılmaz maliyyə çətinlikləri qarşısında qalmışdı; onun hakimlərindən bəziləri zəif, digərləri isə ağlasığmaz dərəcədə qəddar idi. Onun ruhaniləri riyakar idilər və dözümsüzlükləri ilə seçilirdilər, onun xalqı avam və mövhumatçı idi.

Əhalinin böyük əksəriyyəti İslamın şiə[5] məzhəbinə mənsub idi, lakin İranda həmçinin xeyli sayda zərdüştilər, yəhudilər və öz aralarında düşmənçilik edən müxtəlif xristian təriqətləri də vardı. Onların hamısı özlərini bir olan Allaha inamı və həyatda məhəbbət və barışıqla yaşamağı təlqin edən böyük müəllimlərinin ardıcılları hesab edirdilər. Lakin buna baxmayaraq onlar bir-birilərindən kənar gəzir, bir-birilərinə nifrət edir və alçaq nəzərlərlə baxırdılar; hər bir təriqət digərini murdar, it və bütpərəst sayırdı. Söyüşlər və lənətlər inanılmaz həddə idi. Yəhudi və zərdüşti üçün yağışlı gündə küçədə gəzmək qorxulu idi, çünki onlardan hər hansı birinin islanmış paltarı müsəlmana toxunsaydı, onu murdarlaya bilərdi və o bu təhqiri öz həyatı bahasına ödəməliydi.

Əgər müsəlman yəhudidən, xristiandan və zərdüştidən pul almış olsaydı, o bu pulu cibinə qoymazdan əvvəl onu yumalıydı. Əgər yəhudi görsəydi ki, onun uşağı dilənçi müsəlmana bir stəkan su verir, o dərhal stəkanı dartıb

5 Məhəmməd Peyğəmbərin vəfatından sonra İslam Dininin parçalandığı iki məzhəbdən (sunnilər və şiələr) biri. Şiələr Məhəmməd-əleyhissalamın kurəkəni Əlini birinci qanuni varis və yalnız onun nəslini həqiqi xəlifə sayırlar.

uşağın əlindən almalı idi, çünki kafir köməyə yox, lənətə layiq idi.

Müsəlmanlar da öz növbəsində çoxsaylı təriqətlərə bölünmüşdülər və onların arasında da tez-tez amansız və qızğın mübahisələr baş verirdi. Zərdüşt Peyğəmbərin ardıcılları bu qarşılıqlı mübahisələrdə iştirak etmirdilər. Onlar əlahiddə icmalar halında yaşayır və başqa dinlərə mənsub olan həmvətənləri ilə ünsiyyətdə olmaqdan imtina edirdilər.

Dini işlər kimi ictimai işlər də ümidsiz tənəzzül halında idi. Təlim-tərbiyəyə etinasızlıq göstərilir, Qərb elmləri və incəsənəti murdar və dinə zidd sayılır, ədalət məhkəməsi məzhəkəni xatırladırdı. Quldurluq və talan adi işə çevrilmişdi. Yollar səfər üçün bərbad və qorxulu idi. Hər yer çirkli və üfunətli idi.

Bütün bunlara baxmayaraq İranda mənəvi həyatın işığı söndürülməmişdi. Hər yerdə hökmranlıq edən boşluğun və mövhumatın arasında hələ də müqəddəs qəlblərə rast gəlmək olurdu və İsanın Zühurundan əvvəl Anna və Simeon kimi bir çox ürəklər Allah fikri ilə təskinlik tapırdı.

Çoxları vəd olunmuş Allah Elçisinin gəlişini səbirsizliklə gözləyir və inanırdılar ki, Onun Zühur vaxtı çatmışdır. Yeni Eranın Müjdəçisi Həzrət Bab Öz Vəhyi ilə ölkəni həyacanlandıran zaman İranda vəziyyət belə idi.

## GƏNCLİK

Sonralar Bab (yəni "Qapı") adını almış Mirzə Əli Məhəmməd 1819-cu il oktyabrın 20-də[6] İranın cənubunda yerləşən Şiraz şəhərində doğulmuşdur. O, Məhəmməd Peyğəmbərin nəslindən idi. Dünyaya göz açandan az sonra məşhur tacir olan atası vəfat edir və O, Şirazın tacirlərin-

dən olan dayısının himayəsinə verilir. Uşaqlıq çağlarında O oxumağı öyrənir və adi ibtidai təhsil alır.[7] On beş yaşından etibarən öz qəyyumunun işlərini aparmağa başlayır, sonra isə Fars körfəzi sahilində yerləşən Buşehr şəhərində yaşayan o biri dayısının yanında tacirlik edir.

Gəncliyində O qeyri-adi gözəlliyi və yaxşı davranışı, həmçinin son dərəcə möminliyi və alicənab xasiyyəti ilə fərqlənirdi. O, İslam Dininin namaz, oruc və digər tələblərini dəqiqliyi ilə yerinə yetirir, nəinki şəriətin ehkamlarına itaət edir, həm də Peyğəmbərin təlimi ruhunda yaşayırdı. O, iyirmi iki yaşında evlənmişdi. Həmin nikahdan Əhməd adlı bir oğlu olmuş və o hələ uşaq ikən Həzrət Babın Bəyanının birinci ilində vəfat etmişdir.

## HƏZRƏT BABIN BƏYANI

İyirmi beş yaşına çatanda İlahinin İradəsi ilə O, elan etdi ki, Allah-taala Onu Özünün "Qapısı" seçmişdir. "Səyyahın hekayətində[8] oxuyuruq: "Bab adı altında O, aşağı-

.............................................................

6 Hicri tarixi ilə 1235-ci il Məhərrəm ayının 1-ci günü. Musəlman təqvimi hicrət ilindən, yəni Miladi tarixin 622-ci ilindən, Məhəmmədin Məkkədən Mədinəyə köçdüyü vaxtdan başlayır.

7 Bu məsələ ilə əlaqədar olaraq tarixçi yazır: Şərqdə bir çoxları, xüsusilə Həzrət Babın ardıcılları (indiki bəhailər) bilirlər ki, Həzrət Bab heç bir təhsil almamışdır. Lakin mollalar Onu xalqın gözündən salmaq üçün iddia edirlər ki, bu cür bilik və müdriklik Onun aldığı tərbiyənin nəticəsidir. Aparılmış tədqiqatlar göstərir kiu uşaqlıqda O, bir müddət şeyx Məhəmmədin evində farsca oxumağı və yazmağı öyrənmişdi. Onun barəsində Həzrət Bab Özünün "Bəyan" kitabında yazır: "Ya Məhəmməd, Muəllimim Mənim". Çox qəribədir ki, Onun muəllimi olmuş şeyx sonralar şagirdinin sədaqətli ardıcılı olur. Həzrət Babı bir ata kimi sevən dayısı Hacı Seyid Əli də həmçinin Ona iman gətirir və babi kimi əzabla şəhid olur. Bu sirlərə ancaq həqiqət axtaran yiyələnə bilər. Biz bilirik ki, Həzrət Bab ibtidai təhsil almışdır, lakin Onun fövqəladə biliyi fitri olaraq Allah tərəfindən verilmişdir.

dakıları demək istəyirdi: O, hələ şərəf pərdəsi arxasında qalan və saysız-hesabsız kamilliklərə sahib olan bir Böyük Şəxsdən süzülən mərhəmət çeşməsidir və həmin Şəxsin İradəsi ilə hərəkət edib onun məhəbbət tellərinə can atır". *(Səyyahın hekayəsi, Bab vaqiəsi, s.3)*

Həmin günlər Allah Elçisinin hökmən Zühur edəcəyi fikri şeyxilər adlanan təriqətdə daha güclü idi. Həzrət Babın Öz Missiyasını ilk dəfə açdığı şəxs məhz həmin təriqətdən olan, məşhur ruhani Molla Hüseyn Buşruyi olmuşdur. Onun Bəyanının dəqiq tarixi və saatı Həzrət Babın "Bəyan" kitabında verilmişdir. Həzrət Bab, Özünün həqiqətən Vəd olunmuş həmin kəs olduğunu hicri tarixi ilə 1260-cı il cümadi-əl-əvvəl ayının 5-ci günü, gün batandan 2 saat 11 dəqiqə sonra, axşam qabağı bəyan etmişdir.[9]

Həzrət Əbdül-Bəha da həmin gecə anadan olmuşdur, lakin Onun doğulduğu saat dəqiq müəyyənləşdirilməmişdir. Həzrət Babın ona dediyi sözlər üzərində bir neçə gün dərin düşüncələrə və fikirlərə daldıqdan sonra Molla Hüseyn qəti əmin olur ki, şeyxilərin çoxdan gözlədikləri Elçi həqiqətən Zühur etmişdir. Çox keçmədən bu sirrin açılması sevincini Molla Hüseyn ilə onun bir neçə dostu yaşadılar. Qısa müddətdə şeyxilərin böyük əksəriyyəti Həzrət Baba beyət etdilər və babilər kimi tanınmağa başladılar. Tezliklə gənc Peyğəmbərin şöhrəti ildırım sürətilə bütün ölkəyə yayıldı.

.......................................................................

8 "Bəhanın həyatının hadisələrini əks etdirmək üçün yazılmış səyahətçinin hekayəti", E. Q. Braunun ön sözu ilə, Kembric, 1891-ci il. Bundan sonra bu kitabdaı kəpşrilən sitatlar "Səyahətçinin hekayəti" adı altında veriləcəkdir.
9 Miladi tarixi ilə 1844-cü il 23 may.

## BABİLİK HƏRƏKATININ YAYILMASI

Həzrət Babın ilk 18 şagirdi (on doqquzuncu o özü idi) "Canlının hərfləri" ("Hürufi-həyy") kimi tanınmağa başladılar. O, Özünün gəlişi barəsində xəbəri yaymaq üçün şagirdlərini İranın və Türküstanın müxtəlif yerlərinə göndərir. Özü isə bu zaman Məkkə ziyarətinə yola düşür, 1844-cü ilin dekabrında Məkkəyə çatır və burada dünyanın hər tərəfindən gəlmiş çoxsaylı zəvvarlar qarşısında öz Missiyasını bəyan edir. Buşehrə qayıtdıqdan sonra onun Özünü Bab adlandırması böyük həyəcan doğurur. Bəlağətli nitqinin atəşi, sürətli və ilhamlı yazı möcüzəsi, fövqəladə müdrikliyi, biliyi, şücaəti və islahatçı çılğınlığı Onun ardıcılları arasıda böyük ruh yüksəkliyinə səbəb olur. Lakin eyni dərəcədə mühafizəkar müsəlmanlar arasında ona qarşı düşmənçilik baş qaldırır.

Şiələrin ali ruhaniləri Ona qarşı ciddi ittihamlar irəli sürürlər və Fars əyalətinin qəddar və fanatik valisi Hüseyn Xanı inandırırlar ki, "yeni bidətçiliyə" qarşı təqiblərə başlasın. O vaxtdan Həzrət Babın uzun sürən həbsxanalar, sürgünlər, məhkəmələr, şallaqla döyülməsi və ağır təhqirlər dövrü başlayır və nəhayət, 1850-ci il iyulun 9-da Onun əzabla şəhid edilməsi ilə sona çatır.

## HƏZRƏT BABIN İDDİALARI

Gənc islahatçı Özünü Məhəmməd Peyğəmbərin gəlişi barədə qabaqcadan xəbər verdiyi Mehdi[10] elan edəndə ona qarşı düşmənçilik ikiqat çoxaldı. Öz təsəvvürlərində şiələr bu Mehdini min il bundan əvvəl müəmmalı şəkildə qeyb olmuş on ikinci İmam Mehdi ilə eyniləşdirirdilər. Onlar inanırdılar ki, o hələ sağdır və özünün əvvəlki görkəmində Zühur edəcəkdir; onun padşahlığına, onun şöhrətinə, qələ-

bələrinə və “əlamətlərinə” dair kəhanətləri fiziki baxımdan sübut etməyə çalışır, onun gəlişini eynilə yəhudilər Həzrət İsa dövründə Məsihin gəlişi barədə kəhanətləri yozduqları kimi şərh edirdilər.

Onlar gözləyirdilər ki, İmam Mehdi saysız-hesabsız qoşunu ilə gələcək və Özünü ali hökmdar elan edəcək, ölüləri diriləcək və i. a. Lakin bu əlamətlər görünmədiyi üçün yəhudilər Həzrət İsanı inkar etdikləri kimi, şiələr də eynilə Həzrət Babı sərt istehzalarla inkar etdilər.

Digər tərəfdən babilər, sözü gedən kəhanətləri məcazi mənada şərh edirdilər. Onlar belə hesab edirdilər ki, Vəd olunmuşun hakimiyyəti qalileyli “Məzlum”un hakimiyyəti kimi mistik səciyyəli olacaqdır. Onun şöhrəti dünyəvi deyil, ruhani xarakter daşıyacaqdır; Onun qələbələri – insan qəlblərinin qalalarını fəth etməkdən ibarət olacaqdır; onlar Həzrət Babın ecazkar həyatında və təlimində, Onun inadlı inamında, Onun sarsılmaz mətinliyində, Onun dövrünədək dərin yanlışlıqlar və cəhalət yolunda olanları ruhani həyata qaytarmaq qabiliyyətində Onun bu iddialarını təsdiq edən çoxlu dəlillər tapırdılar.

Lakin Həzrət Bab Özünü Mehdi elan etməklə kifayətlənmədi. O, “Nöqteyi-Övla” və ya “Birinci Nöqtə” müqəddəs adını qəbul etdi. Bu titulla Məhəmməd Peyğəmbərin ardıcılları Ona müraciət edərdilər. Hətta imamlar Öz məqamlarına görə “Nöqteyi-Övla”dan aşağı dayanar və öz ilham və səlahiyyətlərini Ondan alardılar.

........................................................

10 Şiələrin imamı, Peyğəmbərin Allahın İradəsi ilə tə’yin edilmiş varisidir və bütün mö’minlər ona itaət etməlidir. On bir şəxsə növbə ilə imam hakimiyyəti verilib. Onlardan birincisi Peyğəmbərin əmisi oğlu və kürəkəni Həzrət Əlidir. Şiələrin əksəriyyəti inanır ki, hicri tarixi ilə 329-cu ildə uşaqkən itən yerin altında gizlənən İmam Mehdi Sahibəzzaman adlanan on ikinci İmam tə’yin olunmuş vaxtda yenə gələcək, kafirləri məğlub edib, bəxtiyar eranı quracaqdır.

Bu rütbəni qəbul etməklə Həzrət Bab Özünü Məhəmməd Peyğəmbər kimi dahi din yaradıcısı məqamına yüksəldirdi və buna görə də O, şiələrin gözündə, yəhudilər əvvəllər Musa və İsa Peyğəmbərləri yalançı adlandırdıqları kimi yalançı idi. O hətta yeni təqvim tətbiq edərək günəş ilini bərpa etdi və Yeni Eranın başlanğıcını Özünün Zühur etdiyi ildən qoydu.

## TƏQİBLƏR GÜCLƏNİR

Həzrət Babın belə bəyanatları və bütün siniflərə mənsub insanların – varlıların və kasıbların, alimlərin və savadsızların heyrətamiz bir sürətlə Onun Təlimini qəbul etməsi bu Təlimin susdurulmasına göstərilən cəhdlərin getdikcə daha amansız və qətiyyətli xarakter almasına gətirib çıxardı.

Evlər talan edilir, qadınlar tutulub aparılırdı: Tehranda, Farsda, Mazandaranda və digər yerlərdə babilərin böyük hissəsini ölümə məhkum edirdilər. Çoxlarının başı kəsilmiş, dar ağacından asılmış, topların ağzına qoyulub atılmış, yandırılmış və ya tikə-tikə doğranmışdı.

Lakin hərəkatın yatırılmasından ötrü edilən bütün səylərə baxmayaraq o, getdikcə genişlənirdi. Məhz bu təqiblər nəticəsində babilərdə belə bir inam güclənirdi ki, onların sayəsində Mehdi Sahibəzzamanın gəlişi haqqında vəd olunanlar sözün həqiqi mənasında yerinə yetməkdədir.

Şiələrin doğru saydıqları Cabirin rəvayətində biz oxuyuruq: “Onda Həzrət Musanın kamilliyi, Həzrət İsanın əzəməti, Həzrət Yaqubun səbri birləşəcək; Onun dövründə bütün müqəddəslər təhqir ediləcək, onların başları bir vaxtlar türklərin və deyləmlilərin başları kimi hədiyyə olaraq göndəriləcəkdir; onlar öldürüləcək, yandırılacaq, qorxudulacaqlar; yer üzü onların qanına boyanacaq və

onların qadınlarının naləsi göyə ucalacaqdır; və bunlar həqiqətən mənim müqəddəslərim olacaqdır.” *(Babın yeni tarixi, Professor E.Q.Braunun tərcüməsi. s.132)*

## HƏZRƏT BABIN ŞƏHİD EDİLMƏSİ

1850-ci il iyulun 9-da Həzrət Bab 31 yaşında fanatikcəsinə azğınlaşan təqibçilərin əlində şəhid edildi. Həzrət Bab Onunla birlikdə şəhid olmaq üçün ehtirasla yalvaran sədaqətli davamçısı Ağa Məhəmməd Əli ilə birlikdə Təbrizdəki köhnə Kazarma meydanında qurulmuş edam yerinə gətirildi.

Günortaya iki saat qalmış onları elə asdılar ki, Ağa Məhəmməd Əlinin başı sevimli Müəlliminin sinəsi üstünə düşdü. Meydana atəş açmaq əmri almış bir alay erməni əsgəri gətirildi. Yaylım atəşi açıldı, lakin tüstü dağıldıqdan sonra aydın oldu ki, Həzrət Bab və Onun sədaqətli dostu hələ sağdırlar.

Güllələr onların asıldıqları kəndirləri qırmış və hər ikisi zədə almadan yerə düşmüşdü. Həzrət Bab yaxınlıqdakı otağa gedir və Onu burada dostlarından biri ilə danışan halda tapırlar. Günortaya yaxın onları yenidən asırlar. Baş vermiş hadisəni möcüzə sayan ermənilər təkrar atəş açmaqdan imtina edirlər.

Buna görə də başqa əsgər alayı çağırılır və onlar atəş açmaq əmrinə tabe olurlar. Bu dəfə açılan atəş öz nəticəsini verir. Hər iki qurbanın bədənləri güllələrdən deşik-deşik olmuş, eybəcər şəkilə düşmüş, lakin onların üzlərinə demək olar ki, xətər toxunmamışdı.

Bu dəhşətli cinayət Təbriz meydanını ikinci Qolqof[11] meydanına çevirdi. Həzrət Babın düşmənləri qələbədən sevinərək düşünürdülər ki, mənfur babilik əqidəsinin ağacı kökündən kəsilmişdir və onun tamamilə quruması asanlıqla baş verəcəkdir, lakin onların sevinci uzun sürmədi.

Onlar başa düşmürdülər ki, Həqiqət Ağacını heç bir fiziki balta ilə kəsmək olmaz. Onlar bilmirdilər ki, onların törətdiyi cinayət Təlimin məqsədlərinə daha böyük qüvvə və qüdrət vermişdir. Həzrət Babın əzablı qətli Onun ən ülvi arzusunu yerinə yetirdi və Onun ardıcıllarında yeni ruh yüksəkliyi yaratdı.

Onların ruhani şövqlərinin atəşi belə idi. Təqiblərin amansız küləkləri nəinki onu söndürə bilmədi, əksinə bu atəşi daha da alovlandırdı. Atəşin söndürülməsinə nə qədər coşqunluqla cəhd göstərilirdisə, alov daha da yüksəklərə qalxırdı.

## KƏRMİL DAĞINDA MƏZAR

Həzrət Babın əzabla şəhid edilməsindən sonra Onun cənazəsi sədaqətli dostunun cənazəsi ilə birlikdə şəhərin qala divarlarının arxasındakı xəndəyə atıldı. İkinci gecə onların meyidləri bir neçə babi tərəfindən axtarılıb tapıldı və buradan götürüldü. Onların cənazələri uzun illər ərzində İranda müxtəlif gizli yerlərdə saxlandıqdan sonra böyük çətinlik və təhlükələrlə Müqəddəs Torpağa gətirildi. Burada onlar Kərmil dağının gözəl yamacında, İlyasın mağarasının yaxınlığında, Həzrət Bəhaullahın Öz ömrünün son illərini keçirdiyi və indi Onun cənazəsinin uyuduğu yerdən bir neçə mil aralıda dəfn olundular. Dünyanın bütün yerlərindən Həzrət Bəhaullahın müqəddəs türbəsini ziyarət etməyə gələn minlərlə zəvvar arasında bir nəfər də tapılmaz ki, Onu sədaqətlə sevən müjdəçisi Həzrət Babın məqbərəsi önündə dua etməsin.

..............................................................

11 İsa Peyğəmbərin Quds şəhərində çarmıxa çəkildiyi meydanın adı. Mə'nası "Kəllə yeri" deməkdir.

## HƏZRƏT BABIN YAZILARI

Həzrət Babın yazıları olduqca çox idi. O, Özünün dərin mənalı şərhlərini əvvəlcədən düşünmədən qeyri-adi sürətlə yazırdı; ifadələrinin dərinliyi və bəlağətli duaları Onun İlahi İlhamına sübutdur. Onun müxtəlif mövzulu yazılarının məzmunu belə ümumiləşdirilə bilər:

"Onlardan bəziləri Quran surələrinə şərh və təfsirlərdən, digərləri dualar, söhbətlər və Quranın bəzi yerlərinin açıqlamalarından, o biriləri isə nəsihətlər və xəbərdarlıqlardan, təlimin müxtəlif cəhətləri haqqında, İlahi Birlik haqqında mülahizələrdən, xasiyyəti kamilləşdirməyə həvəsləndirmədən, maddi dünya məğrurluğundan azad olmağa və İlahi İlhama təvəkkül etməyə çağırışlardan ibarət idi.

Lakin Onun Yazılarının əsas mahiyyətini hər halda Onun yeganə mövzusu, Onun məqsədi, Onun sevimlisi, Onun arzusu tezliklə zühur edəcək Həqiqət və həmin Həqiqətin tərifi və təsviri təşkil edirdi.

O, Özü də Zühuruna xoş xəbərləri bəyan edənin gəlişi kimi baxaraq, Özünü ancaq ondan sonra gələcək daha mükəmməl Kəsə şəhadət vermək üçün vasitəçi hesab edirdi.

Həqiqətən də O, həmin Şəxsi gündüz də, gecə də bir dəqiqə də olsun dayanmadan tərifləyərək özünün bütün ardıcıllarına deyirdi ki, onlar Onun Zühurunu gözləməlidirlər.

O həmçinin Öz yazılarında buyururdu ki: "Mən ancaq bu qüdrətli kitabın hərfiyəm və bu hüdudsuz dəryanın damlasıyam, O Zühur edəndə Mənim əsl təbiətim, Mənim sirlərim, müəmmalarım və eyhamlarım aşkar və anlaşılan olacaqdır; bu dinin rüşeymi öz varlığının pillələri ilə inkişaf edəcək və "bütün formalardan ən mükəmməli" vəziyyətinə çatacaq, Quranın aşağıdakı ayəsini təcəssüm

etdirəcəkdir: "Həmd olsun Allaha – aləmlərin Rəbbinə, rəhmli mərhəmətli olana, din gününün sahibinə". *(Quran, əl-Fatihə surəsi, 1-3)*

Həzrət Bab Onun atəşi ilə elə alovlanmışdı ki, Ona bəslədiyi ümid Maku qalasında keçirdiyi qaranlıq gecələrin parlaq şamı idi və Onun haqqındakı xatirələr Çehriq həbsxanasında çəkdiyi müsibətlərdə ən yaxın həmdəmi idi. Daim bu barədə düşünməsi Ona mənəvi işıq verirdi: "O, Onun şərabından sərməst olmuşdu və Onun barəsində düşünərkən, O sevincə qərq olardı". *(Səyyahın hekayəti, s.54-56)*

## ALLAHIN ZAHİR EDƏCƏYİ KƏS

Həzrət Bab vəftizçi Yəhyaya bənzəyir. Lakin Onun vəzifəsi təkcə Müjdəçi və Bəşarətçi olmaqdan ibarət deyildi. O, Özü qısa dövr ərzində mövcud olsa da Allahın Zühuru və müstəqil dinin Banisi idi. Bəhailər əmindirlər ki, Həzrət Bab və Həzrət Bəhaullah hər ikisi onların dininin baniləridir və Həzrət Bəhaullahın aşağıdakı sözləri bu həqiqəti təsdiqləyir:

"Bu ali və fövqəladə Vəhyi Mənim əvvəlki Vəhyimdən ayıran qısa zaman məsafəsi bir sirrdir; belə ki, onu heç bir insan açıqlaya bilməz; o elə gizlidir ki, heç bir ağıl onu dərk edə bilməz.

Onun müddəti qabaqcadan müəyyənləşdirilmişdi və heç kim onun səbəbini dərk edə bilməz, ancaq Mənim Gizli Kitabımın məzmununu anladıqdan sonra onu başa düşə bilər".

Buna baxmayaraq Həzrət Bab Həzrət Bəhaullah haqqında şəfaətli itaətkarlıqla və ehtiramla danışaraq deyirdi ki, Allahın Zahir edəcəyi Kəsin günlərində:

“Əgər hər hansı bir şəxs Ondan bir ayə eşidərsə və onu təkrar edərsə, bu, “Bəyanı”[12] min dəfə oxumaqdan yaxşıdır”. *(Səyyahın hekayəti. s. 349)*

Həzrət Bab hər cür əzaba dözməklə Allahın Zahir edəcəyi Kəsin yolunu heç olmasa bir az asanlaşdırmağı xoşbəxtlik sayırdı. O Kəsin ki, Onun yeganə ilham çeşməsi və Onun məhəbbət obyekti idi.

## DİRİLMƏ, CƏNNƏT VƏ CƏHƏNNƏM

Həzrət Babın Təliminin başlıca hissəsini Dirilmə, Qiyamət Günü, Cənnət və Cəhənnəm məsələlərinin şərhi təşkil edir.

O buyurur ki, Dirilmə həqiqət Günəşinin Yeni Zühurudur. Ölülərin Dirilməsi – nadanlıq, etinasızlıq və şəhvət məzarlarında yatanların mənəvi oyanması deməkdir.

Qiyamət Günü – Yeni Zühur günüdür, qoyunlarla keçilərin bir-birindən ayrıldığı qəbul və ya rədd günüdür, çünki qoyunlar Mehriban Çobanın səsini tanıyır və Onun arxasınca gedirlər.

Cənnət – Allahı onun Peyğəmbəri vasitəsilə tanımaq və sevmək səadətidir. Bununla da Cənnət insanın öz həyatı ərzində əldə etdiyi ən böyük kamillikdir, ölümündən sonra isə İlahi Səltənətə daxil olma və əbədi həyat hüququdur.

Cəhənnəm – sadəcə olaraq, Allahı bu cür tanımaqdan məhrum olmaqdır ki, bunun da nəticəsində kamilliyə nail olmaq qeyri-mümkün olur və Əbədi Mərhəmət itirilir.

Həzrət Bab qətiyyətlə bildirir ki, bu anlayışların başqa mənası yoxdur və insanın fiziki dirilməsi haqqında, Maddi Səma və Cəhənnəm haqqında və buna bənzər digər müla-

.....................................................................

12 Həzrət Babın vəhy kitabı.

hizələr insan təxəyyülünün uydurmasıdır. O öyrədir ki, insan həyatı ölümdən sonra da davam edir və Axirət dünyası həyatında da kamilləşməyə aparan yol hüdudsuzdur.

## İCTİMAİ VƏ ETİK TƏLİM

Həzrət Bab Öz Yazılarında ardıcıllarına buyurur ki, onlar bir-birilərinə bəslədikləri qardaş məhəbbəti və nəzakətli davranışla fərqlənməlidirlər. Onlar faydalı sənətə və peşələrə yiyələnməlidirlər. Hamı elmlərin başlanğıcı olan ümumi ibtidai təhsil almalıdır.

Yeni ecazkar qanuna görə qadınlara daha geniş azadlıq verilməlidir. Yoxsullar ümumi xəzinədən yardım alacaqlar, lakin dilənçilik, həmçinin spirtli içkilərdən istifadə qəti qadağan edilir. Əsl babinin həyatının əsası mükafatı ümidindən və ya cəzalanmaq qorxusundan doğmayan təmiz məhəbbət olmalıdır. Həzrət Bab "Bəyan"da buyurur:

"Allaha ibadət et, hətta əgər ibadətinin mükafatı atəş də olsa, sənin ibadətində heç bir dəyişiklik olmamalıdır. Əgər sən qorxudan Allaha ibadət edirsənsə, onda bu Allahın Müqəddəs Dərgahına layiq deyil; əgər sən nəzərlərini Cənnətə dikib yalnız ora düşmək ümidi ilə ibadət edirsənsə, bu zaman sən Allahın yaratdığını Ona şərik qoşursan". *(Bab, Bəyan, 19:7; E.N.Braun. İranda babilik.)*

## ŞƏHİDLİK VƏ QƏLƏBƏ

Gətirdiyimiz kəlam Həzrət Babı bütün həyatı boyu ilhamlandıran o ruhu əks etdirir. Allahı tanımaq və sevmək, Onun keyfiyyətlərini əks etdirmək və Onun gələcəkdəki Zühuruna yol açmaq Həzrət Babın həyatının yeganə məqsədi və vəzifəsi idi. O, həyatda qorxu bilməmiş, ölüm-

dən çəkinməmişdir, çünki məhəbbət qorxuya qalib gəlmiş və şəhidlik isə Məhbubun ayaqlarına düşmək arzusunu yalnız gücləndirmişdir.

Qəribədir, bu təmiz və nəcib qəlbə, İlahi həqiqətin bu İlhamlı Müəllliminə, Allahı və Öz yaxınlarını sədaqətlə sevən bu Şəxsə elə nifrət bəslənirdi ki, O, özlərini mömin adlandıran adamlar tərəfindən ölümə məhkum edildi.

Şübhəsiz, yalnız düşüncəsiz və inadkar cəhalət insanlara, Onun həqiqətən Allahın Müqəddəs Elçisi, Peyğəmbəri olması faktını görməyə imkan vermirdi. Onun nə dünyəvi əzəməti, nə də şöhrəti var idi. Bəs ruhani qüdrət və hakimiyyəti heç bir maddi kömək olmadan yer üzünün bütün maneələrinə, hətta ən güclü və düşmən qüvvələrə üstün gəlmək qabiliyyətindən başqa hansı yolla sübuta yetirmək olardı?!

İlahi məhəbbət imansızlar dünyası qarşısında necə aşkar edilə bilərdi? Yalnız iztirab zərbələrinə və qəm-qüssə oxlarına, düşmənlərin nifrətinə və özlərini dost adlandıranların xəyanətinə dözmək bacarığı sayəsində, təmkinlə, yenilməzliklə və kədərlənmədən bütün bunlardan yüksəkdə durmaqla, hətta bağışlamaq və xeyir dua verməklə!

Həzrət Bab bütün bunlara dözdü və qələbə çaldı. Minlərlə insan Ona xidmət etmək yolunda öz canını və malını qurban verməklə öz səmimi məhəbbətini sübuta yetirdi. Onun insan qəlbləri və taleləri üzərindəki hakimiyyətinə krallar qibtə edə bilərdilər. Onun ruhani qüdrətinin və hakimiyyətinin həqiqiliyinə sübut olaraq, “Allahın Zahir edəcəyi Kəs” Zühur edib Öz hüququnu təsdiqlədi, Öz müjdəçisinin alicənab itaətkarlığını qəbul etdi və Onu Öz Şöhrətinin Şərikinə çevirdi.

## III FƏSİL

## HƏZRƏT BƏHAULLAH – ALLAHIN CƏLALI

*“Sən ey gözləyən, daha ləngimə, çünki O gəlmişdir. Onun müqəddəs məbədinə və Onun oradakı Şərəfinə bax. Bu yeni Zühurla gələn Qədim Şərəfdir.”*

***Həzrət Bəhaullah***

## ANADAN OLMASI VƏ GƏNCLİK İLLƏRİ

Sonralar “Bəhaullah”, yəni “Allahın Cəlalı (İzzəti, Şərəfi, Nuru)” adını qəbul etmiş Mirzə Hüseyn Əli vəzir Mirzə Abbas Nurinin böyük oğlu idi. Onun ailəsi varlı və əsil-nəcabətli idi. Ailə üzvlərinin bir çoxu İranın hökumət, mülki və hərbi dairələrində yüksək vəzifələr tuturdu.

O, 1817-ci il noyabrın 12-də[13] sübh çağı İranın paytaxtı Tehran şəhərində anadan olmuşdur. O heç bir məktəbə və mədrəsəyə getməmiş, aldığı kiçik təhsilə evdə yiyələnmişdi. Buna baxmayaraq, O, hələ uşaqlıqdan ecazkar

..............................................................

13 Hicri tarixi ilə 1233-cü il Məhərrəm ayının 2-də

təfəkkürə və idraka malik olduğunu göstərirdi. Gənc yaşlarında atası vəfat edir. Kiçik qardaşlarının və bacılarının qayğısına qalmaq və geniş ailə mülklərinin idarəsi Onun öhdəsinə düşür.

Həzrət Bəhaullahın böyük oğlu Həzrət Əbdül-Bəha bu sətirləri yazana bir hadisə ilə əlaqədar Öz atasının gəncliyi haqqında aşağıdakı təfərrüatı danışmışdı: "Uşaq yaşlarından O, son dərəcə mərhəmətli və alicənab idi. Təbiətin qoynunda olmağı sevərdi. Öz vaxtının çox hissəsini bağda və ya çəməndə keçirərdi.

Onda hamının hiss etdiyi qeyri-adi cazibə vardı. İnsanlar həmişə Onun ətrafına toplaşardılar. Vəzirlər və saray əyanları Onun həmsöhbətləri idi, uşaqlar Onu həddindən artıq sevərdilər. 13 və ya 14 yaşında olanda Öz alimliyi ilə məşhurlaşmışdı. O, istənilən hər hansı bir fənn barəsində söhbət apara və istənilən problemi həll edə bilərdi. Böyük məclislərdə O, üləma ilə müzakirələr aparar və mürəkkəb dini məsələləri izah edərdi. Hamı bir qayda olaraq Onu böyük maraqla dinləyərdi.

Atası vəfat edəndə Həzrət Bəhaullahın 22 yaşı vardı və İrandakı adətə görə, hökumət Ona atasının vəzir vəzifəsini tutmağı təklif etdi, lakin Həzrət Bəhaullah bu təklifi qəbul etmədi.

Bu zaman baş vəzir demişdi: "Onu Öz ixtiyarına buraxın. Bu vəzifə Ona layiq deyil. Onun daha yüksək məqsədi var. Mən Onu anlaya bilmirəm, lakin ümidvaram ki, O daha böyük meydan üçün yaranmışdır. Onun düşüncələri bizimki kimi deyil. Onu rahat buraxın".

## HƏBS OLUNMASI

Həzrət Bab 1844-cü ildə Öz Missiyasını bəyan edəndə Həzrət Bəhaullahın 27 yaşı var idi. O, cəsarətlə yeni Dini

Təlimi qəbul etdi və tezliklə babilər hərəkatının ən nüfuzlu və qorxmaz rəhbərinə çevrildi.

O yeni Dini İnamına görə artıq iki dəfə həbs edilmiş və bir dəfə Onu falaqqaya salmışdılar. Lakin 1852-ci ilin avqustunda baş verən hadisənin nəticələri babilər üçün daha acınacaqlı oldu. Həzrət Babın Sadiq adlı gənc davamçılarından biri sevimli Müəlliminin əzabla şəhid edilməsindən sarsılaraq qisas almaq qərarına gəlir; o şahı izləyərək ona qəsd edir. Lakin güllə əvəzinə tapançaya qırma ilə doldurulmuş patron qoyulduğundan atəş şaha elə bir ciddi xəsarət toxundurmur. Bunu görən Sadiq şahın üstünə atılaraq onu atın üstündən çəkib yerə salır. Lakin mühafizəçilər tərəfindən tutularaq yerindəcə öldürülür. Həzrət Babın bütün ardıcılları ədalətsizcəsinə qəsddə günahkar sayılır və babilərin kütləvi qırğını başlanır. Onlardan səksən nəfəri əzabla öldürülür, digərləri isə Həzrət Bəhaullah da daxil olmaqla, tutulub həbsxanaya salınırlar.

Sonralar Həzrət Bəhaullah bu barədə yazırdı:

"Bizim bu cinayətlə heç bir əlaqəmiz yoxdur və Bizim günahsız olmağımız məhkəmədə tam sübut olundu. Lakin Bizi həbs etdilər və o zaman şahın iqamətgahı olan Niyavərandan piyada, zəncirlənmiş, ayaqyalın və başıaçıq halda Tehrana apardılar, çünki Bizi müşayiət edən kinli mühafizəçilər papağı Bizim başımızdan vurub salmışdılar.

Mühafizəçilər Bizi çox sürətlə qovurdular və Bizi dörd aylığa elə dəhşətli yerə saldılar ki, təsəvvürə gətirmək belə çətindir. Ən qaranlıq və darısqal kamera belə Bizim və digər məhbusların salındığı bu yerdən yaxşı idi.

Həbsxanaya daxil olarkən Bizi qaranlıq dəhlizlə apardılar, sonra Biz üç dik pilləkənlə aşağı düşdük və Bizim üçün nəzərdə tutulmuş yeraltı zindana daxil olduq. Zindan qatı zülmət içində idi. Orada yüz əlliyə yaxın məhbus vardı; bunlar oğrular, qatillər və qarətçilər idilər. Ağzına qədər doldurulmuş zindanın girdiyimiz qapıdan başqa

heç bir çıxışı yox idi. Bu yeri təsvir etməyə heç bir qələmin gücü çatmaz, oranın iyrənc üfunətini heç bir dil ifadə edə bilməz. Adamların əksəriyyətinin nə paltarı, nə də yorğan-döşəkləri var idi. Bir Allah bilir ki, bu zülmət və üfunətlərlə dolu yeraltı məhbəsdə Biz nələr çəkmişik.

Bu zindanda olarkən, Biz gündüz və gecə babilərin vəziyyəti, onların hərəkətləri və əməlləri haqqında düşüncələrə dalır və təəccüblənirdik ki, ruhlarının əzəmətinə, alicənablıqlarına və ağıllarına baxmayaraq, onları şahın həyatına qəsd etmək kimi düşüncəsiz bir işə sövq edən nə olmuşdur. Onda bu məhbus belə qərara gəldi ki, həbsxanadan çıxdıqdan sonra O bütün qüvvəsini bu insanların yenidən tərbiyələndirilməsinə sərf edəcəkdir.

Bir gecə yuxuda hər tərəfdən ucalan möcüzəli sözlər eşidildi: "Həqiqətən, Biz Sənin Özün və Sənin Qələminlə Sənə uğur bəxş edərik. Başına gələnlərdən kədərlənmə və qorxma, çünki Sən əmin – amanlıqda olanlardansan. Tezliklə Allah yerin xəzinələrini aşkara çıxarar və bu da o kəslərdir ki, Sənin Özünlə və Sənin Adınla Sənə kömək göstərərlər. Bunu ilə da Allah ariflərin ürəklərini diriləldər".
*(Həzrət Bəhaullah, Qurdun oğluna məktub)*

## BAĞDADA SÜRGÜN OLUNMASI

Bu dəhşətli həbs dörd ay çəkdi, lakin Həzrət Bəhaullah və Onun tərəfdarları, demək olar ki, hər gün onlardan birinin, yaxud bir neçəsinin ağır işgəncələr verilməyə və ya əzabla öldürülməyə aparılmasına, qalanlarının isə öz növbələrini gözləmələrinə baxmayaraq, sarsılmaz ruh yüksəkliyini saxladılar və ən xoşbəxt anları yaşadılar. Cəlladlar onlardan kimi isə aparmağa gələndə, adı çəkilən şəxs böyük sevinclə Həzrət Bəhaullahın əllərini öpər, dostlarını bağrına basar və sonra coşqun ilhamla edam yerinə tələsərdi.

Nəhayət, Həzrət Bəhaullahın şaha qarşı sui-qəsdlə əlaqəsi olmadığı qəti sübuta yetirildi və rus səfiri də Onun bu işdə əli ol madığına şahidlik etdi.

Bundan başqa, Həzrət Bəhaullah elə xəstələnmişdi ki, Onun öləcəyini düşünürdülər. Buna görə də ölüm hökmü çıxarmaq əvəzinə, şah Onun İraqa, sürgünə göndərilməsi əmrini verir: iki həftədən sonra Həzrət Bəhaullah Öz ailəsi və başqa dindaşları ilə oraya yola düşür. Onlar uzun yolda qışın soyuğundan və başqa çətinliklərdən olmazın əzablar çəkir və Bağdada demək olar ki, yoxsullaşmış halda gəlib çıxırlar.

Səhhəti yaxşılaşan kimi, Həzrət Bəhaullah yenidən təlimin təbliğinə və möminləri ruhlandırmağa və təşviq etməyə başlayır. Tezliklə babilər arasında əmin-amanlıq və xoşbəxtlik bərqərar olur.[14]

Lakin bu hal uzun sürmür. Həzrət Bəhaullahın Sübhi-Əzəl adı ilə tanınan ögey qardaşı Mirzə Yəhya Bağdada gəlir və tezliklə onun törətdiyi gizli fitnə-fəsad nəticəsində, Həzrət İsanın şagirdləri arasında olduğu kimi, çəkişmələr, ixtilaflar və ədavət başlanır. Sonralar Ədirnədə daha açıq, barışmaz və amansız hal alan bu mübahisələr həyatının məqsədi bütün dünyadakı insanları birliyə çağırmaq olan Həzrət Bəhaullah üçün olduqca ağır idi.

## İKİ İL SƏHRADA

Bağdada gəlməsindən demək olar ki, bir il sonra Həzrət Bəhaullah Özünə yalnız bir dəst dəyişənək paltar götü-

14 Bu 1853-cü ildə, yə'ni Həzrət Bab Öz Missiyasını bəyan edəndən 9 il sonra baş verir. Beləliklə, Həzrət Babın "Doqquzunçu il bardsində qabaqcadan dedikləri həyata keçir.

rüb, tək-tənha, Süleymaniyyə səhrasına yollanır. Bu dövr haqqında O "Kitabi-İqan"da aşağıdakıları yazır:

"Mən – Tanrının qulu bu məmləkətə ilk gəldiyim vaxtlarda irəlidə nələr baş verəcəyini duyduğumdan vaxtında mühacirət etdim. Baş alıb fəraq çöllərinə getdim. İki il təkbaşına hicran səhralarında yaşadım. İki gözümdən çeşmələr axdı, qəlbimdən qan dənizləri zahir oldu, neçə gecə qida tapa bilmədim, neçə gün bədənim rahatlıq görmədi, amma ruhumun sahibinə and olsun, bütün bu bəlalara və ardıcıl gələn bu müsibətlərə rəğmən böyük bir sevinc içərisində idim. Ürəyim tam rahat idi. Axı necə də olmasın? Bir kəsin fayda və ya zərərindən, sağlığından və ya xəstəliyindən xəbərsiz idim. Özümü dinləyir və başqasını düşünmürdüm. Halbuki Allah qəzası kəməndinin xəyaldan daha geniş, təqdir oxunun insan tədbirindən daha güclü olduğundan qafil imişəm. Baxdım ki, Onun yazdığından qurtuluş yox, İradəsinə boyun əyməkdən başqa çarə mövcud deyildir. Allaha and olsun ki, bu mühacirətdən geri qayıtmaq haqqında düşünmürdüm. Bu səfərdən geri gəlib, Sevgililərə qovuşacağıma ümid etmirdim. Tənhalığa çəkilməkdə yeganə məqsədim – dostlar arasında ixtilaf baş verməsinə, əshablar arasında narahatlığa səbəb olmamaq, bir kəsin zərər çəkməsinə, qəlbin üzüntüyə düşməsinə meydan verməmək idi. Bundan başqa bir düşüncəm, bir amalım yox idi. Bununla belə hər kəs özünə görə bir fikir sahibi oldu, öz istəyinə uyğun şəkildə mühakimə yürütdü. Nəhayət, Əmr sahibindən geri dönmək hökmü gəldi. İradəsinə təslim olmağı qaçılmaz bir vəzifə bilərək dönüb geri gəldim.

Geri dönərkən şahidi olduğum şeyləri hansı qələm təsvir edə bilər? İki ildir ki, düşmənlər, hamının bildiyi kimi, durmadan Mən fani qulun məhvinə var qüvvələri ilə cəhd göstərməkdədirlər. Bunun müqabilində bir dost görmədik ki, bizə yardım əlini uzatsın və ya hər hansı bir yolla bizi

müdafiə etsin. Onların yardımı bir yana dursun, üzərimizə yağdırmadıqları hüzn və kədər yağışları qalmadı. Bütün bunlar arasında canımız əlimizdə, böyük bir itaətkarlıq içərisində durub gözləməkdəydik”. *(Bəhaullah, Kitabi-İqan.)*

## QARŞIDURMA

Həzrət Bəhaullah Süleymaniyyə tənhalığından qayıdandan sonra Onun şöhrəti hər tərəfə yayıldı, insanlar yaxın və uzaq yerlərdən Onu görmək və eşitmək üçün dəstələrlə Bağdada axışıb gəlməyə başladılar. Yəhudilər, xristianlar və zərdüştilər də müsəlmanlar kimi yeni təlimə cəlb olunmuşdular.

Lakin düşmən əhval-ruhiyyəli müsəlman ruhaniləri Onu məhv etmək üçün əsl sui-qəsdlər hazırlayırlar. Onlar bir dəfə Həzrət Bəhaullahın yanına öz adamlarını göndərirlər ki, Onunla söhbət etsin və Ona bəzi suallar versin. Həmin şəxs Həzrət Bəhaullahın cavablarının inandırıcı olmasını və Onun müdrikliyinin dərinliyini yəqin edir və belə qənaətə gəlir ki, bu biliklər təlim vasitəsilə əldə edilə bilməz və etiraf edir ki, bilikdə və müdriklikdə Həzrət Bəhaullahın tayı-bərabəri yoxdur. Lakin onu göndərən mollalar Həzrət Bəhaullahın həqiqətən Peyğəmbər olmasına inansınlar deyə o, Həzrət Bəhaullahdan xahiş edir ki, dəlil üçün hər hansı bir möcüzə göstərsin.

Həzrət Bəhaullah təklifi belə bir şərtlə məmnuniyyətlə qəbul etməyə razılıq verir ki, mollalar istədikləri möcüzəni gördükdən sonra Onun Missiyasının həqiqiliyi barəsində bir sənəd tərtib etsinlər, onu imzalasınlar və möhürləri ilə təsdiqləsinlər və Ona qarşı düşmənçiliyə son qoysunlar. Yox, əgər möcüzə baş tutmasa, mollalar Onu yalançılıqda günahlandıra bilərlər.

Əgər mollaların məqsədi həqiqəti aydınlaşdırmaq olsaydı, o zaman bu onlar üçün ən yaxşı imkan idi, lakin görünür, onların niyyəti tamam başqa imiş. Mollalar nə yolla olursa-olsun məsələni öz xeyirlərinə həll etmək istəyirdilər. Onlar həqiqətdən qorxduqları üçün Həzrət Bəhaullahın bu cəsarətli təklifindən boyun qaçırdılar. Bu məğlubiyyət onları bəhai icmasına qarşı yeni-yeni fitnə-fəsadlar törətmək məcburiyyətində qoydu.

İranın Bağdaddakı Baş Səfiri bu məsələdə ruhanilərin köməyinə gəlir. O bir neçə dəfə şaha məktubla məlumat verir ki, Həzrət Bəhaullah İslam Dinini təhqir edir, bu da İrana öz mənfi təsirini göstərir və buna görə də O daha ucqar bir yerə sürgünə göndərilməlidir.

Səciyyəvi cəhət ondadır ki, belə bir ağır vəziyyətdə, yəni müsəlman mollalarının təhriki ilə İran və Türkiyə hökumətləri bu hərəkatı kökündən kəsmək üçün öz qüvvələrini birləşdirdikləri bir vaxtda Həzrət Bəhaullah Öz sakitliyini və təmkinini pozmadan tərəfdarlarını ruhlandırır, fərəhləndirir və onlara təskinlik verən unudulmaz nəsihətlərini yazırdı.

Həzrət Bəhaullah tez-tez Fərat çayı sahilinə gəzməyə gedər, ruhi rahatlıq tapandan sonra qayıdar, xəstə və incidilmiş ürəklərə məlhəm olan lirik şah əsərlərini yazardı.

Uzun illərdən bəri “Gizli kəlamlar”ın vur-tut bir neçə əlyazma nüsxəsi var idi. Çoxsaylı düşmənlərin əlinə keçməsin deyə onları ehtiyatla gizlətmək lazım idi; indi bu kiçik kitabça, yəqin ki, Həzrət Bəhaullahın bütün qalan yazılarından daha çox dünyanın hər yerində məşhurdur. Digər məşhur kitabı olan “İqan” Həzrət Bəhaullah tərəfindən o zaman – Onun Bağdadda yaşadığı dövrün sonlarında (1862-1863 illərdə) yazılmışdır.

# BAĞDAD YAXINLIĞINDAKI RİZVAN BAĞINDA BƏYANAT

Aparılan uzun danışıqlardan sonra İran hökumətinin xahişi ilə Türkiyə dövləti Həzrət Bəhaullahın Bağdaddan İstanbula sürgün edilməsi barəsində fərman verdi. Bu xəbər Onun davamçılarını bərk həyəcanlandırdı və onlar qəmgin halda öz sevimli müəllimlərinin evinə tərəf axışmağa başladılar. Türkiyənin hakim dairələri Həzrət Bəhaullaha hökumət qonağı kimi İstanbula köçməyi təklif edirdi. Təklifin nəzakətli ədasına baxmayaraq aydın idi ki, bu dəvəti qəbul etməmək olmazdı.

Buna görə də Həzrət Bəhaullah ailəsi ilə birlikdə şəhərdən kənarda yerləşən Nəcib Paşanın bağına köçür və burada səfər üçün hazırlanan karvanı on iki gün gözləyirlər.

Bu on iki günün (1863-cü il aprelin 21-dən mayın 2-dək, yəni Həzrət Babın bəyanından 19 il keçdikdən sonra) birinci günü Həzrət Bəhaullah bir neçə tərəfdarlarını xoş xəbərlə sevindirdi ki, Həzrət Babın və bütün Peyğəmbərlərin əvvəlcədən xəbər verdikləri Şəxs məhz Odur, yəni Allahın Seçdiyidir. Bu unudulmaz bəyanın edildiyi bağ Həzrət Bəhaullahın ardıcılları arasında “Rizvan” bağı kimi şöhrətlənmişdir. Orada keçirilən on iki gün hər il “Rizvan Bayramı” kimi bayram edilir.

Bu günlər ərzində Həzrət Bəhaullah nəinki qəmlənməmiş və darıxmamış, əksinə, böyük sevinc, təmkin və qüdrət nümayiş etdirmişdi. Onun davamçıları da bundan ilhamlanaraq fərəh və xoşbəxtliklə böyük dəstələrlə Ona təzim etmək üçün axışıb gəlirdilər. Bağdadın tanınmış əyanları və hətta qubernatorun özü də şəhəri tərk edən Sürgünü alqışlamağa gəlmişdilər.

# İSTANBUL VƏ ƏDİRNƏ

Bağdaddan İstanbula köçmək üç-dörd ayadək davam etdi. Həzrət Bəhaullah, Onun ailə üzvləri və 26 şagirdi İstanbula gələn kimi onları çox da böyük olmayan evdə, olduqca darısqal bir şəraitdə məhbuslar kimi yerləşdirdilər. Sonra onlara nisbətən yaxşı yaşayış otaqları verdilər, lakin dörd aydan sonra onları Ədirnəyə köçürtdülər. Ədirnəyə köçmək cəmi bir neçə gün davam etməsinə baxmayaraq əvvəlki köç ilə müqayisədə bu ən dəhşətlisi idi.

Demək olar ki, hər gün güclü qar yağırdı. Onlar lazımi geyim və ərzaqdan məhrum olunduqlarından, çəkdikləri məşəqqətlər olduqca dözülməz idi. Ədirnədə olduqları birinci qışda Həzrət Bəhaullahı və Onun 12 ailə üzvünü üç otaqdan ibarət, heç bir şəraiti olmayan, həşəratlarla dolu kiçik bir binada yerləşdirdilər. Yazda onlara nisbətən rahat otaqlar verdilər.

Onlar Ədirnədə dörd il yarımdan çox yaşadılar. Həzrət Bəhaullah burada da yenidən Öz Təliminin təbliğinə başlayır və Özünə çoxlu tərəfdar toplayır. O burada Öz Missiyasını açıq şəkildə bəyan edir və bu xəbər babilərin böyük əksəriyyəti tərəfindən rəğbətlə qarşılanır, beləliklə həmin vaxtdan onlar bəhai adlanmağa başlayırlar.

Lakin Həzrət Bəhaullahın ögey qardaşı Mirzə Yəhya başda olmaqla babilərin az bir hissəsi qətiyyətlə Ona qarşı çıxır, Həzrət Bəhaullahı məhv etmək üçün öz əvvəlki düşmənləri olan şiələrlə birləşərək sui-qəsdlər və fitnə-fəsadlar törətməyə başlayırlar. Bir-birinin ardınca böyük iğtişaşlar baş verir və nəhayət, Türkiyə hökuməti babiləri və bəhailəri Ədirnədən qovur. Həzrət Bəhaullah və Onun ardıcılları Fələstinin Əkka şəhərinə sürgün edilirlər və Nəbilin[15] yazdığına görə onlar 1868-ci il avqustun 31-də oraya gəlib çatırlar. Mirzə Yəhya və onun tərəfdarları isə Kiprə göndərilir.

## HÖKMDARLARA MƏKTUBLAR

Təxminən elə bu vaxtlarda Həzrət Bəhaullah Türkiyə sultanına, Avropanın bir çox taclılarına, Papaya, İran şahına Özünün bir sıra məşhur məktublarını yazmışdır. Özünün "Kitabi-Əqdəs"də O, digər hökmdarlara, Amerika prezidentlərinə və hökumətlərinə, bütün din rəhbərlərinə və bütün bəşəriyyətə müraciət edir. O, Özünün Missiyasını elan edərək onları əsl dinin, ədalətli hakimiyyətin və beynəlxalq sülhün bərqərar olması üçün bütün qüvvələrini səfərbər etməyə çağırır.

Həzrət Bəhaullah Nəsrəddin şaha yazdığı məktubunda təqib olunan babiləri ciddiyyətlə müdafiə edərək, bu zülmün qızışdırıcıları və təhrikçiləri ilə görüş tələb edir. Bu tələbin yerinə yetirilməməsinin izahına ehtiyac yoxdur. Bədi adında gənc və sədaqətli bir bəhai Həzrət Bəhaullahın məktubunu şaha gətirir. O həbs edilir və ona dəhşətli işgəncələr verilir – onun bədəninə qızdırılmış dəmirlə dağ basılır.

Həzrət Bəhaullah bu məktubunda ürəkləri riqqətə gətirən bir tərzdə keçirdiyi iztirabları və Özünün yüksək amallarını ifadə edir:

"Ey şah! Allah yolunda Mənim başıma gələnləri nə bir göz görmüş, nə bir qulaq eşitmişdir. Yaxın adamlarım Məndən üz çeviriblər; yollar üzümə bağlanıb, təhlükəsizlik bulağı quruyub, rahatlıq tarlası saralıb. Başıma nə qədər müsibətlər gəlib. Hələ nə qədərinə dözməliyəm! Mən Qüdrətli və Mərhəmətli Allaha yaxınlaşıram, Mənim arxamca isə ilanlar sürünür. Gözlərimdən sel kimi axan yaş

15 Nəbil-i-Əzəm, Bəhai Dininin ilkin tarixi haqqında yazılan "Subh şəfəqləri" kitabının müəllifi. O özu təsvir etdiyi bə'zi hadisələrin iştirakçısı olmuş və bu dini birinci təbliq edən şəxslərin əksəriyyəti ilə şəxsən tanış idi.

gündüzlər vücudumu, gecələr isə yatağımı isladır. Lakin Mənim kədərim Öz halım üçün deyil. Allaha and olsun, Ona olan məhəbbətim naminə ölüm oxlarını həsrətlə gözləyirəm. Hər bir ağacın yanından keçəndə Öz ürəyimdə həmişə deyirəm: "Kaş səni kəsəydilər və Rəbbimin yolunda Mənim bədənimi sənin üzərində çarmıxa çəkəydilər."

Çünki Mən insanların öz yalnış yollarında sərxoş halda getdiklərini və bunu anlamadıqlarını görürəm. Onlar öz şəxsi ehtiraslarını göylərə qaldırıblar, Allahdan uzaqlaşıblar, Onun Əmrlərini əyləncəyə, istehzaya və ya oyuncağa çeviriblər və elə bilirlər ki, yaxşı iş görürlər, təhlükəsiz bir qalada sığınacaq tapıblar. Lakin məsələ heç də onların düşündüyü kimi deyil və onlar bu gün dandıqlarını sabah görəcəklər.

Tezliklə hökumət Bizi Ədirnədən dünyanın ən bərbad, görkəminə görə ən yöndəmsiz, iqliminə görə əlverişsiz və pis suyu olan Əkka şəhərinə göndərəcək: ora ancaq bayquşlar məskənidir. Onlar Allahın bu Qulunu orada dustaq etmək, Bizim üzümüzə sevinc qapılarını bağlamaq və ömrümüzün qalan günlərində dünya nemətlərini Bizdən almaq niyyətindədirlər.

Allaha and olsun, hətta əgər çətinliklər Məni taqətdən salsa belə və səhranın vəhşi heyvanları Mənim yoldaşlarım olsa belə, Mən yolumdan dönməyəcəyəm, səbirli olacağam, bütün qətiyyətlilər və sarsılmazlar kimi, Əbədiyyət Padşahı, xalqların yaradıcısı olan Allaha təvəkkül edəcəyəm; və bütün şəraitlərdə Mən Allaha şükr edəcəyəm.

Biz Onun mərhəmətinə ümid bağlamışıq – Ona həmd olsun... O Qüdrətli, Mərhəmətlidir və bütün insanları Ona münasibətdə səmimi edəcəkdir. Həqiqətən Allah Ondan diləyənlərin imdadına çatır və Ondan kömək istəyən kəsi qoruyur.

Və Biz Allahdan diləyəcəyik ki, bu kədərli bədbəxtliyi Onun Müqəddəslərinin İşini iti qılınclardan və kəskin ox-

lardan qorumaq üçün qalxana çevirsin. İztirablardan sonra Onun nuru aşkara çıxır və ona fasiləsiz olaraq həmd oxunur: keçmişdə də, indi də onun qaydası belədir". *(Səyyahın hekayəti, s. 145-147.)*

## ƏKKA MƏHBƏSİNDƏ

Bu zaman Əkka Osmanlı imperiyasının hər yerindən ən təhlükəli cinayətkarların göndərildiyi məhbəs-şəhər idi. Üzücü dəniz yolundan sonra Əkkaya gəlib çatan Həzrət Bəhaullah və Onun ardıcılları, 80-84 nəfərə qədər kişi, qadın və uşaq kazarmada yerləşdirildilər. Bura çirkli və son dərəcə qaranlıq bir yer idi, nə çarpayı, nə də başqa bir rahatlıq vardı. Verilən ərzaq olduqca keyfiyyətsiz və az olduğundan bir müddət keçəndən sonra dustaqlar özlərinə ərzaq almaq üçün icazə istədilər.

İlk zamanlar uşaqların ağlaşması və iniltisi məhbuslara nə rahatlıq verir, nə də yatmağa qoyurdu. Tezliklə malyariya, dizenteriya və digər xəstəliklər başladı. İki nəfərdən başqa bütün dustaqlar xəstələndilər, onların üçü tab gətirməyib öldü, qalanlarının isə çəkdikləri əzabları təsvir etmək mümkün deyil.[16]

İki il davam edən bu sərt məhbusluq dövründə hər gün keşikçinin nəzarəti altında bazara ərzaq almağa gedən dörd nəfərdən başqa bəhailərdən heç kəsə qaladan kənara çıxmağa icazə verilmirdi.

Həbsdə olduqları müddət ərzində bəhailərlə görüşmək üçün heç kimi kazarmaya buraxmırdılar. Bəzi iranlı bəhailər Sevimli Rəhbəri görmək üçün İrandan piyada gəlir-

..............................................................

16 Ölən iki nəfəri dəfn etmək üçün Həzrət Bəhullah deyir ki, Onun xalçasını satsınlar və pulunu dəfn işlərinə xərcləsinlər. Lakin bunun əvəzində əsgərlər pulu mənimsəyir, meyitləri isə xəndəyə tullayırlar.

dilər. Lakin onları şəhər divarlarından içəri buraxmırdılar. Ancaq uzaqdan, üçüncü xəndəyin arxasındakı açıq yerdən, onlar Həzrət Bəhaullahın qaldığı otağın pəncərəsini görə bilirdilər. O, pəncərəyə yaxınlaşar, gələnlər isə Ona baxaraq ağlayar və yenidən xidmət etmək, fədakarlıq atəşi ilə vətənlərinə qayıdardılar.

## REJİMİN YUMŞALMASI

Nəhayət, həbsxana rejimi bir qədər yumşaldı. Elan olunmuş səfərbərliklə əlaqədar olaraq Türkiyə ordusunun əsgərlərinə kazarma lazım idi. Həzrət Bəhaullah və Onun ailəsinə ayrıca ev verdilər, qalan dustaqları isə şəhərin karvansarasında yerləşdirdilər.

Həzrət Bəhaullah bu evdə yeddi il yaşadı. Həzrət Bəhaullahın qaldığı kiçik otağın yanındakı otaqda Onun on üç nəfərdən ibarət ailə üzvləri, kişilər və qadınlar birtəhər yerləşməliydilər. Bu evdə yaşadıqları ilk vaxtlarda onlar ərzaq azlığından və yaşayış üçün lazımi rahatlığın olmamasından əziyyət çəkirdilər.

Bir müddət keçdikdən sonra onlara daha bir neçə otaq verdilər və onlar nisbətən rahat yaşamağa başladılar. Həzrət Bəhaullah və Onun ardıcılları kazarmanı tərk edəndən sonra onlara yanlarına gələnlərlə görüşməyə icazə verilir və Osmanlı imperatoru fərmanının qoyduğu ciddi məhdudiyyətlər tədricən ləğv edilir, hərçənd vaxtaşırı olaraq həmin məhdudiyyətlər yenidən bərpa olunurdu.

## HƏBSXANA QAPILARI AÇILIR

Həbsxana həyatının ən kəskin çağlarında belə bəhailər ruhdan düşməyərək tam sakitliyi və əminliyi saxlayırdılar.

Əkka kazarmasında olduğu zaman Həzrət Bəhaullah bəzi dostlarına yazırdı: "Qorxmayın, bu qapılar açılacaqdır. Mənim çadırım Kərmil dağının zirvəsində qurulacaq və böyük sevinc bərqərar olacaqdır". Bu bəyan Onun ardıcılları üçün qüdrətli təsəlli mənbəyinə çevrildi və qabaqcadan söylənmiş vaxtda dəqiqliklə yerinə yetdi. Həbsxana qapılarının açılması haqqında Həzrət Əbdül-Bəhanın söylədiyi hekayəti Onun nəvəsi Həzrət Şövqi Əfəndi ingilis dilinə tərcümə etmişdir. Həmin hekayətdə deyilir:

"Həzrət Bəhaullah təbiətin gözəlliyini və yaşıllığı sevirdi. Bir dəfə O belə bir məsləhət verdi: "Mən artıq doqquz ildir ki, yaşıllıq görmürəm. Təbiətin qoynu ruhlar aləmi olduğu halda, şəhər cismani həyat aləmidir". Bu sözlərdən Mən belə qənaətə gəldim ki, O təbiətdən ötrü darıxmışdır. Buna görə də Mən heç şübhə etmirdim ki, Onun arzusunu yerinə yetirməkdə Mənim göstərdiyim hər cür cəhd uğurla nəticələnəcəkdir.

O zaman Əkkada bizə qarşı düşmən əhval-ruhiyyədə olan Məhəmməd Paşa Səffat adlı bir adam yaşayırdı. Onun şəhərdən dörd mil şimalda, bağlarla və iti axan çayla əhatələnmiş, olduqca gözəl yerdə Məzra adlı malikanəsi var idi. Mən Paşanın evinə getdim və ondan malikanəni tərk edib şəhərdə yaşamasının səbəbini soruşdum. O cavab verdi ki, əlildir və şəhərdən çıxıb gedə bilmir, bundan başqa o, malikanədə dostlarından ayrı düşüb tənha qalmaq istəmir.

Mən dedim: "Bir halda ki, sən orada yaşamırsan və yer boş qalmışdır, onda malikanəni bizə kirayəyə ver". O, bu təklifdən heyrətləndi, lakin tezliklə razılaşdı. Mən malikanəni çox ucuz, ildə beş funta yaxın qiymətə kirayəyə götürdüm, beş ilin pulunu əvvəlcədən verdim və müqavilə bağladım.

Mən təmir işlərinin görülməsi, bağın səhmana salınması və hamam tikilməsi üçün fəhlələr tutdum. Mən həm-

çinin Camali-Mübarək[17] üçün kareta da hazırladım. Bir dəfə Mən gedib bu yerləri görmək qərarına gəldim. Heç bir vəchlə şəhər divarlarından kənara çıxmamaq barədə dəfələrlə deyilməsinə baxmayaraq, Mən şəhər darvazasından çıxdım.

Jandarmlar keşikdə dayanmışdılar, lakin getməyimə mane olmadılar və Mən birbaşa malikanəyə yollandım. Şəhər darvazasının hər iki tərəfində atlı gözətçilər və keşikçilər durmasına baxmayaraq, səhərisi gün Mən yenə də bir neçə dostlarımla və rəsmi şəxslərlə birlikdə şəhərdən maneəsiz çıxdım. Ertəsi gün Mən şəhərin əyanlarını və hakimlərini malikanəyə dəvət edərək, Bəhcinin şam ağacları altında onlara ziyafət təşkil etdim. Axşamçağı biz hamımız birlikdə şəhərə qayıtdıq.

Bir dəfə Mən Camali-Mübarəkin Müqəddəs hüzuruna gedərək dedim: "Sizin üçün Məzradakı malikanə hazırdır və Sizi ora aparmaq üçün fayton da hazırlanmışdır (O vaxtlar nə Əkkada, nə də Hayfada fayton yox idi). O getməkdən imtina edərək dedi: "Mən məhbusam." Sonra Mən yenə də Ondan xahiş etdim, lakin yenə o cür cavab aldım. Mən üçüncü dəfə Ondan xahiş etməyə cəhd göstərdim. Lakin O yenə dedi: "Yox". Və Mənim bir daha təkid etməyə cəsarətim çatmadı.

Əkkada Həzrət Bəhaullahı sevən və Onun iltifatını qazanmış məşhur və nüfuzlu bir müsəlman şeyxi vardı. Mən həmin şeyxi dəvət etdim və vəziyyəti ona danışaraq dedim: "Sən hörmətli adamsan. Bu axşam Onun Müqəddəs hüzuruna get, Onun qarşısında diz çök. Onun əllərindən tut və şəhəri tərk etməyə razılıq verməyincə əllərini buraxma."

17 Dostları və ardıcılları çox vaxt Həzrət Bəhaullaha belə müraciət edərdilər.

Bu şeyx ərəb idi. O birbaşa Həzrət Bəhaullahın yanına gedib Onun dizləri önündə oturdu. Camali-Mübarəkin əllərindən tutaraq onları öpdü və soruşdu: "Sən nə üçün şəhəri tərk etmək istəmirsən?" O cavab verdi: "Mən məhbusam". Şeyx etiraz etdi: "Allah Özü saxlasın. Kimin Səni həbs etməyə hökmü çatar. Sən Özün Özünü məhbəsdə saxlayırsan. Öz iradənlə Sən məhbus olmusan və indi Səndən xahiş edirəm, şəhəri tərk edib malikanəyə gedəsən. O çox qəşəngdir və tamam yaşıllıqlar içindədir. Ağaclar olduqca gözəldir və portağallar sanki qızılı kürədirlər".

Camali-Mübarək "Mən məhbusam, bu ola bilməz" – deyə hey təkrar etdiyi zaman Şeyx Onun əllərindən tutub onları öpürdü. O bir saatdan artıq Ona yalvarıb-yaxardı. Nəhayət, Həzrət Bəhaullah dedi: "Xeyli xub" (çox yaxşı) və beləliklə, şeyxin səbri və təkidi öz bəhrəsini verdi.

Şeyx böyük sevinc içində yanıma gəlib Həzrət Bəhaullahın razılıq verdiyini bildirdi. Mənim Camali-Mübarəklə görüşməyimi və yaxud danışmağımı qadağan edən Sultan Əbdül-Əzizin fərmanının ciddiliyinə baxmayaraq, mən səhəri gün Onu faytona əyləşdirib malikanəyə apardım. Heç kim getməyimizə mane olmadı. Mən Həzrət Bəhaullahı orada qoyub özüm şəhərə qayıtdım.

Həzrət Bəhaullah iki il bu füsunkar və səfalı yerdə qaldı Sonra Bəhcidən başqa yerə köçmək qərara alındı. Elə oldu ki, Bəhcidə yoluxucu xəstəlik yayılmağa başladı və bir ev sahibi öz ailəsi ilə köçdüyündən evini kimə olursa-olsun, hətta havayı verməyə razı oldu.

Biz onu çox ucuz qiymətə kirayələdik və burada əsl qüdrət və əzəmət qapıları taybatay açıldı. Formal olaraq Həzrət Bəhaullah məhbus sayılsa da (çünki Sultan Əbdül-Əzizin sərt fərmanları ləğv edilməmişdi), əslində O həyatda və davranışında elə alicənab və ləyaqətli idi ki, hamının ehtiramını qazanmışdı: Fələstinin hakimləri Onun mötəbərliyinə və nüfuzuna həsəd aparırdılar. Cani-

şinlər, generallar ve yerli hakimlər Onunla görüşmək şərəfinə nail olmağı mütiliklə xahiş edirdilər. O, nadir hallarda bu xahişlərə razılıq verərdi.

Bir dəfə şəhərin canişini yalvar-yaxar etdi ki, ona ali hakim dairələrin əmri ilə bir generalla Həzrət Bəhaullahın görüşünə gəlmək mərhəməti göstərilsin. Xahiş yerinə yetirildi və çox sanballı olan avropalı general Həzrət Bəhaullahın əzəmətli görkəmindən elə mütəəssir oldu ki, uzun müddət qapının kandarında qaldı.

Görüşə gələnlərin hər ikisi elə karıxmışdılar ki, ancaq Həzrət Bəhaullahın bir neçə dəfə etdiyi dəvətdən sonra onlara təklif olunan qəlyanı dodaqlarına azca toxundurub kənara qoydular. Sonra əllərini çəkib dayanaraq elə mütiliklə və ehtiramla oturdular ki, burada iştirak edənlərin hamısı heyrətləndilər.

Bütün rəsmi və nüfuzlu şəxslərin diqqət və hörmətləri, zəvvarların və həqiqət axtaranların aramsız olaraq axışıb gəlməsi, iman gətirənlərin sədaqətli ruhu və xidməti, Camali-Mübarəkin əzəmətli və şahanə qaməti və Onun kəlamlarının fövqəladə təsiri və sairə bir daha şəhadət verirdi ki, Həzrət Bəhaullah həqiqətən məhbus deyil, Şahlar Şahıdır. İki müstəbid hökmdar, iki qüdrətli avtoritar hakim Ona qarşı idi. Lakin onların əsiri olduğu halda Həzrət Bəhaullah onlarla hökmdar Özünün təbəələri ilə davrandığı kimi davranırdı. Onların sərt fərmanlarına baxmayaraq, O, Bəhcidə şahzadə kimi yaşayırdı. O, tez-tez deyirdi: “Həqiqətən ən dəhşətli həbsxana Cənnətə çevrilib”.

Həqiqətən, yaradıldığı vaxtdan dünya buna bənzər bir hadisə görməyib”.

## BƏHCİDƏ KEÇƏN HƏYAT

Fəlakətlər və əziyyətlər dövrünün ilk illərində olduğu kimi Özünün Bəhcidəki həyatının son illərində də şərəf və

şöhrət qazanmış Həzrət Bəhaullah eyni lütfkarlıq və mütiliklə Allahı tərifləyir və mədh edirdi.

Yüz minlərlə sədaqətli davamçılarının verdikləri ianələrdən yığılan böyük məbləğlər Həzrət Bəhaullahın göstərişi ilə bölüşdürülürdü. Onun Bəhcidəki həyatını şahanə kimi təsvir etsələr də, sözün əsl mənasında, elə düşünülməməlidir ki, bu həyat maddi firavanlıq, cah-cəlal və möhtəşəmliklə bağlıdır.

Camali-Mübarək və Onun ailəsi çox sadə və təvazökar yaşayırdı və bər-bəzəyə pul xərcləmək bu ailəyə yad idi. Bəhailər Onun evinin yaxınlığında Rizvan adlı çox gözəl bağ salmışdılar. O burada günlərlə hətta həftələrlə qalar və bağdakı kiçik evdə gecələyərdi. Bəzən O, çölə gəzməyə çıxardı. Bir neçə dəfə Əkkaya və Hayfaya getmişdi. O hələ Əkkada həbsdə olarkən qabaqcadan xəbər verdiyi kimi tez-tez çadırını Kərmil dağının zirvəsində qurdurardı.

Həzrət Bəhaullah vaxtının çoxunu ibadətə və düşüncələrə dalmağa, müqəddəs kitabların, məktubların, vəhylərin yazılmasına və dostların ruhani tərbiyəsinə sərf edirdi. Onun bütünlüklə bu böyük işə qapılması üçün Həzrət Əbdül-Bəha bütün digər işləri, hətta mollalarla, şairlərlə və hökumət üzvləri ilə görüşləri də Öz öhdəsinə götürmüşdü.

Onların hamısı Həzrət Bəhaullahın Özünü görə bilməsələr də, Onun oğlu ilə tanışlıqdan sonra bu adamlarda Həzrət Bəhaullaha qarşı dostluq hissləri yaranırdı, çünki oğul ilə tanışlıq onlara atanın mövqeyini başa düşmək imkanı verirdi. Onlar Həzrət Əbdül-Bəha ilə görüşməyi xoşbəxtlik sayır, Onun şərhlərindən və söhbətlərindən tam razı qalırdılar.

Kembric universitetinin görkəmli şərqşünası Edvard Braun 1890-cı ildə Bəhcidə Həzrət Bəhaullah ilə görüşmüş və öz təəssüratlarını belə yazmışdı:

“Mən ayaqqabılarımı çıxaranadək mənim bələdçim bu böyük dəhlizin divarından asılmış pərdənin qarşısında dayandı. Sonra əlinin iti hərəkəti ilə o, pərdəni qaldırdı və mən keçən kimi pərdəni buraxdı. Mən çox geniş bir otağa daxil oldum. Divar uzununa bir alçaq divan qoyulmuşdu, qapı ilə üzbəüz, qarşı tərəfdə isə iki-üç stul vardı.

Mən hara getdiyimi və kimi görəcəyimi (mənə bu barədə müəyyən aydınlıqla heç bir məlumat verilməmişdi) dumanlı təsəvvür etsəm də, bir-iki saniyə keçdikdən sonra həyəcan və heyranlıqla başa düşdüm ki, otaqda tək deyiləm. Küncdə, divara yaxın qoyulmuş divanda başında dərvişlərin “tac” adlandırdıqları, (lakin adət etmədiyimiz hündürlüklü və formalı), aşağı hissəsinin ətrafına kiçik ağ əmmamə sarınmış keçə papaq qoymuş qeyri-adi və ehtiram doğuran bir şəxs oturmuşdu.

Mənim gözlərim qarşısında dayanmış o Kəsin üzünü mən heç vaxt unuda bilmərəm və Onu təsvir etmək gücünə də malik deyiləm. Bu bəsirətli gözlər sanki insan qəlbinin dərinliyinə nüfuz edirdi; geniş alnı amirlik və nüfuz nuru saçırdı; alnında və üzündə əmələ gəlmiş dərin qırışlar qətran kimi qara saçları və az qala qurşağınadək sallanan şəvə kimi qara saqqalı ilə ziddiyyət təşkil etdiyindən yaşını müəyyənləşdirməyə imkan vermirdi.

Kimin hüzurunda olduğumu soruşmağa artıq ehtiyac yox idi. Bu zaman mən kralların həsəd apara biləcəkləri və imperatorların əbəs yerə həsrət çəkəcəkləri şəxsin, məhəbbət və pərəstiş obyektinə çevrilmiş Kəsin qarşısında baş əydim.

Mülayim, ləyaqət dolu səslə O, məni oturmağa dəvət etdi və sonra dedi: “Allaha şükr olsun ki, sən bura gəlib çıxdın!... Sən əsiri və məhbusu görməyə gəldin... Biz dünyaya ancaq firavanlıq və xalqlara xoşbəxtlik arzulayırıq; lakin Bizi qandala və sürgünə layiq araqarışdıran, fitnəkar iğtişaşçılar adlandırırlar.

Əgər bütün millətlər bir din ətrafında birləşərsə və bütün insanlar bir-birilə qardaş olarsa, bəşər övladları arasında məhəbbət və birlik telləri möhkəmlənərsə, dini ayrı-seçkilik aradan qaldırılarsa və millətlər arasındakı fərqlər ləğv edilərsə, burada zərərli nə var ki?.. Onsuz da bu baş verəcəkdir; bütün bu səmərəsiz çəkişmələr və viranedici müharibələr keçmişdə qalacaq və "Ən Böyük Sülh" bərqərar olacaqdır. Avropada sizə lazım olan bu deyilmi? Həzrət İsanın qabaqcadan xəbər verdiyi bu deyilmi? Biz isə görürük ki, sizin krallarınız və hökmdarlarınız öz var-dövlətlərini və vəsaitlərini bəşər irqinin xoşbəxtliyinə deyil, onun qırılıb tələf edilməsinə səxavətlə xərcləyirlər. Bu çəkişmələr, qanlı vuruşmalar və ixtilaflar kəsiləcək və bütün insanlar bir böyük ailə, qohum olacaqlar... Qoy heç kəs öz vətənini sevməklə fəxr etməsin, o kəs öyünsün ki, bütün bəşər nəslini sevir".

Həzrət Bəhaullahdan eşitdiyim, mənim xatirimdə qalan sözlər belə idi. Qoy oxucuların özləri mühakimə etsinlər: belə təlim unudulmağa və köləliyə layiqdirmi? Onun yayılmasından dünya udacaq yoxsa uduzacaq?.. *(Səyyahın hekayəti. Müqəddimə, s.39.)*

## SÜUD

Həzrət Bəhaullah Özünün cismani həyatını beləcə sadə və sakitcəsinə 1892-ci il mayın 28-dək yaşadı. O, qızdırma xəstəliyinə tutularaq 75 yaşında əbədiyyətə yüksəldi. Onun Öz əli ilə yazdığı və möhürləyib qoyduğu axırıncı lövhlərində Onun İradəsi və Vəsiyyəti bəyan edilir.

Həzrət Bəhaullahın vəfatından doqquz gün sonra Onun böyük oğlu Həzrət Əbdül-Bəha ailə üzvlərinin və bəzi dostların iştirakı ilə həmin vəsiyyətnamə saxlanan sandığın möhürünü açıb içindəki qısa və əhəmiyyətli sənədin məzmununu elan etdi.

Bu Vəsiyyətnaməyə görə Həzrət Əbdül-Bəha Öz atasının varisi, Onun Təliminin şərhçisi təyin edilir, Həzrət Bəhaullahın ailə üzvləri və qohumlarına, bütün ardıcıllarına Ona müraciət və itaət etmək tapşırılırdı. Bununla da Dini Təlimdən sapmaların və onun təriqətlərə parçalanmasının qarşısı alınmış və Təlimin birliyi möhkəmləndirilmişdi.

## HƏZRƏT BƏHAULLAHIN PEYĞƏMBƏRLİYİ

Həzrət Bəhaullahın Peyğəmbərliyi haqqında aydın təsəvvürə malik olmaq olduqca vacibdir. Onun kəlamları Allahın digər Peyğəmbərlərinin kəlamları kimi iki hissəyə bölünə bilər: birincisi Öz İradəsini insanlara çatdırmaq üçün Allahın seçdiyi sadə insan kimi Onun yazdıqları və söylədikləri, ikincisi isə Allahın Özündən gələn Vəhylər. Həzrət Bəhaullah "Kitabi-İqan"da yazır:

"Əvvəlki səhifələrdə Allahın məşriqlərindən doğulub parlayan günəşlərin iki cür məqamı olduğunu və onlardan birinin birlik məqamı, təklik mərtəbəsi olduğunu söyləmişdik. Əvvəlcə də demişdik: "Onların arasında heç bir fərq qoymadıq". (Quran, əl-Bəqərə surəsi, 136). O birisi isə ayrılıq məqamıdır ki, yaradılış aləmi və o aləmin məhdudiyyətləri ilə bağlıdır. Bu baxımdan Allah məzhərlərinin ayrı bir fərdiyyəti, ayrı bir əmri, əvvəlcədən müəyyən edilmiş başqa bir təzahürü və xüsusi məhdudiyyətləri vardır. Necə ki, onlardan hər birinin ayrı bir ismi, ayrı bir vəsfi vardır. Hər biri ayrı bir əmr ilə göndərilmiş, hər birinə yeni bir şəriət yaratmaq vəzifəsi həvalə edilmişdir. Necə ki, buyurulur: "Bu Peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir. Məryəm oğlu İsaya açıq mö-

cüzələr verdik və onu Müqqəddəs Ruhla qüvvətləndirdik". *(Quran, əl-Bəqərə surəsi, 253)*

Beləcə, bu Varlıq Cövhərləri əsasən bir və eyni olmaları baxımından Onlar Rəbblik, Tanrılıq, Mütləq Təklik və Müqəddəs Mahiyyət vəsfləri ilə vəsfləndirilirlər, çünki onların hamısı Allahın Zühur taxtında oturur, Allahın Sirləri kürsüsündə əyləşirlər, yəni Allahın Zühuru Onların Zühurları ilə, Allahın Gözəlliyi Onların Camalı ilə görünür. Beləcə, bu həqiqət heykəllərindən Rəbblik nəğmələri duyulur.

İkinci məqama gəldikdə isə, yəni ayrılıq, fərqlilik, məhdudluq kimi dünya işləri və münasibətləri məqamının işığı altında baxanda Onların mütləq bir qulluq, tam bir fanilik və yoxsulluq içində olduqları görünür. Necə ki Quranda buyurulur: "Mən həqiqətən Allahın quluyam, Mən də sizin kimi bir insanam". *(Quran, Məryəm surəsi, 30)*

Əgər siz Allah Məzhərlərindən hər hansı birinin "Həqiqətən Mən Allaham" – dediyini eşitsəniz o doğru söyləmiş olar, buna şübhə yoxdur. Çünki dəfələrlə göstərilmişdir ki, Allahın Zühuru, adı və sifətləri bu dünyada Onların Zühuru, Onların sifətləri və isimləri ilə təzahür edir. Biz bunu dəfələrlə isbat etdik. Onun üçün: "Atdığın zaman sən atmadın, Allah atdı". *(Quran, ən-Ənfal surəsi, 17)* Və həmçinin: "Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar..." *(Quran, Fəth surəsi, 10)*

Əgər Onlardan hər hansı biri: "Mən Allahın Elçisiyəm" – deyərsə bu da doğrudur. Ona şəkk və şübhə yoxdur. Necə ki, Quranda buyurulur: "Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin O, Allahın Elçisidir və nəbilərin sonuncusudur!". *(Quran, əl-Əhzab surəsi, 40)*

Bu baxımdan Onların hamısı o həqiqi Sultanın və Əzəli Varlığın Elçiləridir. Əgər Onların hər hansı birisi "Mən Nəbilərin sonuncusuyam", deyərsə bu da doğrudur. Bun-

dan şəkk və şübhəyə əsla yer yoxdur. Çünki Onlar tək bir şəxs, tək bir zat, tək bir ruh, tək bir bədən, tək bir əmr hökmündədirlər. Onların hamısı O Ruhlar Ruhunun və O Əzəli Cövhərlər Cövhərinin ilkinliyinə və sonluğuna, əvvəlliyinə və axırlığına, zahirliyinə və batinliyinə məzhərdirlər. Və əgər Onlar: "Biz Allahın qullarıyıq" – buyurarlarsa, bu da mübahisə doğurmayan açıq bir həqiqətdir. Çünki Onlar ən yüksək qulluq vəziyyətində Zühur etmişlər. Elə bir qulluq ki, bu heç kimə müyəssər olmur.

Beləliklə, bu varlıq Cövhərləri Allahın müqəddəs dənizində üzdükləri vaxtda və həqiqi Sultanın yanına çatdıqları zaman "Rəbblik" və "İlahlıq" kəlmələri ilə zahir olurlar.

Yaxşı diqqət yetirilərsə, belə bir Yüksək Ruh vəziyyətində Onların Mütləq Varlıqla və xalis əbədiyyətlə üzləşərkən öz-özlərini heçin heçi və faninin fanisi saydıqları görünür. Onlar sanki özlərini Allahın qarşısında yoxun yoxu bilirlər və Onun Müqəddəs məqamında adlarının çəkilməsini Allaha şərik qoşmaq kimi qiymətləndirirlər. Çünki orada ən xəfif bir pıçıltı belə Mütləq Varlıq iddiasına dəlalət etdiyi üçün həmin Saraya yetişənlərin gözündə, belə bir fikrə düşməyin özü bağışlanmaz bir xətadır, səhvdir. Nə qədər böyük günah, olardı ki, həmin hüzurda başqa bir şeyin adı çəkilsin, könül, dil, fikir və ruh Sevgilinin zikrindən başqa bir şey ilə məşğul olsun, göz Onun gözəlliyindən başqa bir şeyə baxsın və ya qulaq Onun nəğməsindən başqa bir nəğməni dinləsin, ayaq Onun yolundan başqa bir yolda addımlasın.

Bu gün də Allahın nəsimi əsmiş, Onun Ruhu dünyanı bürümüşdür. Qələm yazmaqdan, dil söyləməkdən kəsilmişdir. Bu məqama görə Onlar Rəbblik və ona bənzər şeylər və Allah Elçiliyi məqamına görə Elçilik iddiasında olmuşlar. Hər bir məqamda o məqamın tələbinə uyğun sözlər söyləmişlər. Əmr aləmindən xilqət aləminə və Rəbblik

aləmlərindən maddi varlıq aləmlərinə qədər hamısını öz adlarına çıxmışlar.

Beləliklə də Tanrılıq, Rəbblik, Elçilik, Vəlilik, İmamlıq, Qulluq və sairəyə dair Onlar hər nə buyurarlarsa, hər nə söyləyirlərsə hamısı doğrudur, şəksiz-şübhəsiz doğrudur. Buna əsasən, hər kəs iddiamıza dəlil olaraq, dediyimiz sözlər üzərində yaxşıca düşünməlidirlər ki, gözəgörünməz Allahın bu dünyada gözəgörünən Müqəddəs Peyğəmbərləri tərəfindən söylənilən sözlərdəki müxtəliflik qarşısında çaşaraq iztirab keçirməsinlər". *(Həzrət Bəhaullah, Kitabi-İqan.)*

Həzrət Bəhaullah insan kimi danışanda tam itaətkarlıq göstərir və ya Allah yanında fani sayılan mövqe sahibi olduğunu söyləyir. Allahın zühuru kimi Həzrət Bəhaullahın insani şəxsiyyətini başqa insanlardan fərqləndirən cəhət Onun ali qüdrət məqamında olmasına baxmayaraq, özünü hər şeydən məhrum etməsidir. Bütün vəziyyətlərdə Həzrət İsanın Gefsimani bağında söylədiyi kimi deyə bilərdi: "... fəqət Mənim istədiyim kimi deyil, Sənin istədiyin kimi olsun." *(İncil, Matta, 26:39)*

Belə ki, Həzrət Bəhaullah İran şahına məktubunda yazır: "Ey şah! Mən də başqaları kimi adi adam idim və Öz yatağımda mürgüləyirdim: Şəfaətli Allahın küləyi Məni bürüdü və Mənə lazım olan bilikləri bəxş etdi. Bunlar Məndən deyil, Qüdrətlilər Qüdrətlisi, Müdriklər Müdriki olan Kəsdəndir.

O, Mənə yerlə göy arasında səsimi yüksəltməyi əmr etdi və bu səbəbdən qismətim elə oldu ki, anlayanlar göz yaşları axıtdı. Mən insanların öyrəndikləri adi bilikləri öyrənməmişəm. Məktəbə də getməmişəm. Mənim yaşadığım şəhərin insanlarından soruşsan əmin olacaqsan ki, Mən yalan danışan kəslərdən deyiləm. Mən Qüdrətli və Şərafətli Allahın İradəsi ilə titrəyən bir yarpağam: şiddətlə əsən külək zamanı yarpaq yerində qala bilərmi? And ol-

sun bütün adların və sifətlərin Sahibinə ki yox! Əksinə, O onları istədiyi kimi hərəkətə gətirir. Çünki Əbədinin hüzurunda varlığa bənzəməyən bütün şeylər fanidir. Onun qətiyyətli fərmanı qulağıma çatdı və Məni Onun adını insanlar arasında şöhrətləndirmək üçün oyatdı. Həqiqətən, Mən də bütün başqları kimi Onun hökmü qarşısında duran bir kəs idim; Məni sənin Mərhəmətli və Mehriban Rəbbinin İradəsinin Əli dəyişdirdi. Kim olursa-olsun cəsarət edib özündən elə bir söz deyə bilərmi ki, buna görə böyükdən tutmuş kiçiyədək bütün insanlar onu təqiblərə məruz qoysunlar. Yox! Əbədi sirləri Mənə açan Allaha and olsun ki, bunu yalnız o kəs deyə bilər ki, Qüdrətli və Qadir Allah ona kömək etsin". *(Həzrət Bəhaullah, Sultan Lövhü: Sitat Şövqi Əfəndinin "Vəd edilmiş gün gəlmişdir" kitabından götürülmüşdür. s.71.)*

Həzrət İsa şagirdlərinin ayaqlarını yuduğu kimi Həzrət Bəhaullah da bəzən Öz ardıcıllarına yemək hazırlayır və digər xırda-para işlər görürdü. O, Allah bəndələrinin nökəri idi və bu xidməti ilə fəxr edirdi. Lazım gələndə quru döşəmə üstündə yatmaqla kifayətlənər, bəzən ancaq su və çörəklə dolanar, Özünün dediyi kimi "İlahi qida" ilə, başqa sözlə desək, aclıqla keçinərdi.

Onun mükəmməl mütiliyi pərəstiş etdiyi təbiətdə, insan ləyaqətlərində, xüsusilə də Müqəddəs Peyğəmbərlərə və şəhidlərə münasibətdə özünü büruzə verirdi. Onun üçün ən miskindən tutmuş ən böyüyədək hər şey Allah barədə danışırdı.

Allah Onu insan surətində Onun Dili və Onun Qələmi olmaq üçün seçmişdir. O, müqayisə edilməz çətinlikləri və məhrumiyyətləri Öz istəyi ilə qəbul etməmişdi. Həzrət İsa buyurduğu kimi: "Ata, əgər mümkünsə qoy bu kasa Məndən yan keçsin." *(İncil, Matta, 26:39)*. Həzrət Bəhaullah da buyurur: "Əgər Allahın Kəlamını höccələyən başqa

biri tapılsaydı Biz Özümüzü insanların danlaq, məsxərə və böhtan hədəfinə çevirməzdik." *(Həzrət Bəhaullah, İşraqat Lövhü).* Lakin İlahi Çağırış aydın və israrlı olduğundan O, itaət etdi.

Allahın İradəsi Onun İradəsi, Allahın Şərafəti Onun Şərafəti oldu. O, sevinc və itaətkarlıqla buyrurdu: "Allahın yolunda Mənim başıma nələr gəlirsə, bu, Mənim qəlbimin arzusudur və Mənim ürəyimin istəyidir. Allah yolunda ən şiddətli zəhər – şəfaverici içkidir, Onun adı naminə əzablara düçar olmaq – ən böyük həzzdir." *(Həzrət Bəhaullah, Qurdun oğluna məktub, s.31.)*

Qeyd etdiyimiz kimi, Həzrət Bəhaullah bəzi hallarda bilavasitə Allahın adından danışardı. Bu ifadələrdə Onun insani şəxsiyyəti tamamilə yox olurdu. Onun vasitəsilə Allah Öz yaratdığı bəndələrinə müraciət edir və Öz məhəbbətini aşkarlayır, onları xeyirxahlıq yoluna yönəldir, Öz İradəsini onlara bildirir, onlardan məhəbbət, sədaqət və xidmət gözləyərək, onları istiqamətləndirmək üçün Öz tövsiyə və qanunlarını göndərirdi.

Həzrət Bəhaullahın Yazılarında Onun deyim tərzi tez-tez dəyişir: bəzən O, sadə insan kimi danışır, sonra isə yazısını kəsmədən Allahın Özü kimi buyurur. Hətta sadə insan olduğu halda belə Həzrət Bəhaullah Allahın Elçisi kimi, İlahi İradəyə kamil sədaqətin canlı təcəssümü kimi danışır. Onun bütün həyatı Müqəddəs Ruhla ilhama gətirilir. Buna görə də Onun həyatının və Təliminin insani və İlahi başlanğıcları arasında kəskin sədd çəkmək olmaz.

Allah-taala Ona buyurur: "De: Mənim surətim – Allahın surətidir, Mənim gözəlliyim – Onun Gözəlliyidir. Mənim mahiyyətimdə Allahın Mahiyyətindən başqa heç nə yoxdur, Onun Özü Məndədir, Mənim hərəkətim də Onun hərəkətidir, Mənim sakitliyim Allahın Sakitliyidir, Mənim qələmim Qüdrətli və Şərafətli Allahın Qələmidir. De: Mənim qəlbimdə həqiqətdən başqa heç nə yoxdur və Məndə

Allahdan başqa heç bir kəs görünmür." *(Həzrət Bəhaullah, Heykəl surəsi)*

## HƏZRƏT BƏHAULLAHIN MİSSİYASI

Həzrət Bəhaullahın Missiyası Onun Təlimi vasitəsilə bütün bəşəriyyəti bir olan Allahın himayəsində birləşdirməkdən ibarətdir. O buyurur: "İdrak Ağacının mübarək meyvəsi bu böyük kəlamın özüdür: "Siz hamınız bir ağacın meyvələri və bir budağın yarpaqlarısınız". *(Həzrət Bəhaullah, İşraqat Lövhü, VI işraq.)*

Əvvəlki Peyğəmbərlər insanlar arasında sülh və əmin-amanlıq əsrinin gələcəyini qabaqcadan elan etmiş və bu hadisəni sürətləndirmək üçün Öz həyatlarını qurban vermişlər, lakin Onların hər biri aydın buyurmuşdu ki, bu mübarək tamamlanma ancaq Rəbbin Zühurunun axırıncı günlərindən sonra, günahkarlar cəzalandırılan və möminlər mükafatlandırılan vaxtda baş verəcəkdir.

Zərdüşt Peyğəmbər buyurmuşdu ki, xilaskar Bəhram Şah Zühur edib şər qüvvə Əhrimənə qalib gələrək yer üzündə əmin-amanlıq və ədalət Səltənətini bərqərar edənədək üç min il ərzində çəkişmələr olacaqdır.

Musa Peyğəmbər əvvəlcədən xəbər vermişdi ki, Ordular Rəbb gəlib İsrail oğullarını bütün yer üzündən toplayanadək, əsarətçiləri məhv edib Yer üzündə Öz Səltənətini quranadək İsrail oğulları uzun bir dövr ərzində sürgünlərə, təqiblərə və əsarətə məruz qalacaqlar.

İsa Məsih buyurmuşdu: "Sanmayın ki, yer üzünə sülh gətirməyə gəlmişəm; Mən sülh deyil, qılınc gətirməyə gəldim" *(İncil, Matta, 10:34)*. Və O əvvəlcədən xəbər vermişdi ki, uzun sürən müharibələr, savaşlar haqqında, fəlakətlər və xəstəliklər haqqında xəbərlər İnsan Oğlunun "Atasının şərəfində" gələcəyi dövrədək davam edəcəkdir.

Həzrət Məhəmməd buyurmuşdu: "Yəhudilər dedilər: "Xaçpərəstlər (dində) düzgün və mötəbər bir şeyə istinad etmirlər". Xaçpərəstlər də: "Yəhudilər (dində) düzgün və mötəbər bir şeyə istinad etmirlər", – söylədilər. Halbuki onların hər ikisi Kitab (Tövrat və İncil) oxuyur. Allah onların arasındakı bu ixtilafın hökmünü Qiyamət Günü verəcəkdir.". *(Quran. əl-Bəqərə surəsi, 113)*

Həzrət Bəhaullah bəyan etmişdir ki, bütün Peyğəmbərlərin vəd etdikləri Kəs, yəni İlahi Zühur Odur və Onun gəlişi ilə Sülh Erası bərqərar olacaqdır. Keçmişdə bənzəri olmayan bu yeganə bəyanat bütün böyük Peyğəmbərlərin əvvəlcədən xəbər verdikləri əlamətlərə heyrətamiz dərəcədə uyğun gəlir. Həzrət Bəhaullah müqayisəedilməz aydınlıq və dəqiqliklə insanlar arasında sülh və dinc yaşamağın həyata keçirilməsi yollarını və vasitələrini açıb göstərmişdir.

Doğrudur, Həzrət Bəhaullahın Zühuru dövründən başlamış bu günədək miqyasına görə misli görünməmiş müharibələr və dağıntılar hələ də davam edir, lakin bu, bütün Peyğəmbərlərin dediklərinə görə, Rəbbin ən böyük və dəhşətli gününün ilk çağlarında baş verməlidir və buna görə də Rəbbin Gəlişi nəinki yaxınlaşır, həm də artıq onun gerçək fakt olması fikri təsdiqlənir.

Həzrət İsa ilə əlaqədar İncildə əxlaqi bir hekayə var: "Ev sahibi olan bir adam var idi. Üzüm bağı saldı... və bağı bağbanlara icarəyə verib başqa məmləkətə getdi. Məhsul vaxtı yaxınlaşdıqda, məhsulunu almaq üçün qullarını bağbanların yanına yolladı. Bağbanlar onun qullarını tutub, kimini döydülər, kimini öldürdülər, kimini də daşladılar. O, ikinci dəfə əvvəlkindən daha çox qul göndərdi; bağbanlar onlara yenə əvvəlki kimi etdilər. Nəhayətdə "Oğluma hörmət edərlər" deyərək, öz oğlunu onların yanına yolladı... Və bağbanlar Onu tutub bağdan kənara atıb öldürdülər. İndi bağın Sahibi gəldiyi zaman bu bağbanlara nə

edəcəkdir? Onlar İsaya dedilər: “Bu pis adamları qorxunc bir ölümə uğradacaq və bağı elə bağbanlara icarəyə verəcək ki, məhsulunu mövsümündə ona versinlər”. *(İncil, Matta, 21:33-41.)*

Məgər bu, o deməк deyildirmi ki, Rəbbin gəlişi ilə əlaqədar olaraq əsrlər boyu dünyada hakimiyyəti ələ keçirib xəyanətkar bağbanlar kimi haqsız olaraq onun məhsullarını mənimsəyən zalım hökmdarları, acgözlüyü və dözülməz təəssübkeşliyi ilə seçilən keşişləri, mollaları və zülmkar başçıları amansız son gözləyir.

Yer üzündə hələ dəhşətli sarsıntılar və görünməmiş fəlakətlər baş verə bilər, lakin Həzrət Bəhaullah bizi əmin edir ki, “bu lüzumsuz, bəhrəsiz mübahisələr, bu dağıdıcı müharibələr tezliklə yox olub gedəcək və Ən Böyük Sülh bərqərar olacaqdır”. Müharibələr və çəkişmələr öz dağıdıcı gücünə görə elə məşəqqətə çevrilmişdir ki, bəşəriyyət ya onlardan xilas olmalı, ya da məhv olmalıdır.

“Zamanın sonu” və onunla bərabər Vəd olunmuş Xilaskar gəlmişdir.

## HƏZRƏT BƏHAULLAHIN YAZILARI

Həzrət Bəhaullahın Yazıları öz məzmununa görə olduqca genişdir və bütün insan həyatının həm fərdi, həm də ictimai sahələrini əhatə edir, Əhdi-Ətiq (Tövrat) və Əhdi-Cədidin (İncil) maddi və mənəvi predmetinin, yaxın və uzaq gələcəyə dair kəhanətlərin şərhini verir.

Həzrət Bəhaullahın biliyi öz müfəssəlliyinə və dəqiqliyinə görə heyranedicidir. Əslində istinad etdiyi bütün kitabları adicə oxumaq imkanlarından məhrum olmasına baxmayaraq, Həzrət Bəhaullahın Ona şifahi və yaxud yazılı şəkildə müraciət edən səriştəli şəxslərə müxtəlif dini

kitablardan verdiyi cavablar və şərhlər olduqca nüfuzlu və inandırıcı idi.

Belə ki, "Qurdun oğluna məktub"unda Həzrət Bəhaullah "Bəyan" kitabını heç vaxt oxumadığını bildirsə də Öz Yazılarında, Həzrət Babın Vəhyi bərasində çox müfəssəl biliyə malik olduğunu nümayiş etdirir (Bildiyimiz kimi həzrət Bab buyurmuşdu ki, Onun Vəhy kitabı Bəyan "Allahın Zahir edəcəyi Kəs" tərəfindən Ona nazil olmuşdur).

1890-cı ildə professor Edvard Braunun Həzrət Bəhaullah ilə iyirmi dəqiqədən otuz dəqiqəyədək davam edən dörd görüşü istisna olmaqla, Həzrət Bəhaullah Qərbin heç bir maarifçi mütəfəkkiri ilə görüşüb danışmamışdır. Lakin Onun Yazıları göstərir ki, Həzrət Bəhaullah Qərbin ictimai, siyasi və dini problemlərinə heyrətamiz dərəcədə bələd imiş və hətta Onun düşmənləri belə Həzrət Bəhaullahın misilsiz müdriklik və düha sahibi olduğunu etiraf etmək məcburiyyətində qalmışlar.

Həzrət Bəhaullahın uzun müddət məhbəsdə saxlanmasının yaxşı məlum olan şəraiti belə bir qənaətə gəlməyə əsas verir ki, Onun Yazılarında ifadə etdiyi zəngin biliyi kitabları oxumaqla və müəllimlərin köməyi ilə, yaxud adi bilik vəsaitlərinin öyrənilməsi ilə qətiyyən əldə etmək olmazdı, bu biliklərə ancaq ruhani mənbə sayəsində yiyələnmək olardı.[18]

Həzrət Bəhaullah bəzən ərəb dilinin güclü təsiri altında olan Öz həmvətənlərinə ünvanladığı məktublarını yeni fars dilində yazardı. Başqa vaxtlarda isə, yəni Zərdüşt Dininin davamçıları olan alimlərə müraciətlərini isə O, xa-

18 Həzrət Bəhaullah Qərb yazıçılarının əsərlərini öyrənib və Öz Tə'limini onların əsasında yaratmayıbmı? — sualına Həzrət Əbdülbəha belə cavab verərdi ki, Həzrət Bəhaullahın hələ 1870-ci ildə yazılmış və nəşr olunmuş kitablarında ifadə edilmiş ideallarla Qərb indi tanış olur, o vaxtlar isə Qərbdə buna bənzər fikirlər nə düşünülür, nə də çap edilirdi.

lis klassik fars dilində yazardı. O, həmçinin, bəzən sadə, bəzən isə klassik ərəb üslubunda - Quran yazısı üslubunda yazardı. Təəccüblü budur ki, heç bir xüsusi filoloji təhsil almamasına baxmayaraq O, müxtəlif dillərdən məharətlə istifadə edirdi.

Onun bəzi yazılarında müqəddəsliyə aparan yol barədə fikirlər belə sadə tərzdə ifadə olunmuşdur: "...bu yolla gedənlər, hətta təcrübəsizlər də, azmayacaqlar" *(Tövrat, Yeşaya, 35:8).* Digər yazıları isə poetik və dərin fəlsəfi təxəyyüllə, İslami və başqa dini mətnlərə və fars, yaxud ərəb ədəbiyyatı və əfsanələrinə istinadlarla o qədər zəngindir ki, onları ancaq şairlər, filosoflar və alimlər qiymətləndirə bilərlər.

Ruhani həyatın ali səviyyələri haqqında məlumat verən bəzi yazılarını ancaq ilkin mərhələlərə yiyələnmiş insanlar anlaya bilərlər. Onun yazıları bol nemətlərlə və şirniyyatlarla dolu olan elə ziyafət süfrəsinə bənzəyir ki, səmimi həqiqət axtaranlar burada öz zövqlərinə uyğun olanı tapa bilərlər.

Onun Təlimi bu keyfiyyətləri sayəsində alimlər, ziyalılar, istedadlı şairlər və məşhur yazıçılar arasında şöhrət qazanmışdır. Hətta öz əsərləri ilə tanınan sufilər və digər təriqət başçıları, bəzi siyasi xadimlər Onun öz lətafəti və mənəvi məzmununun dərinliyi ilə digər əsərləri geridə qoyan yazılarına valeh olurdular.

## BƏHAİ DİNİNİN MAHİYYƏTİ

Həzrət Bəhaullah məhbəsdə olduğu uzaq Əkka şəhərindən nəinki Öz vətəni İranın, həm də bütün dünyanın qəlbini dərin həyəcana gətirirdi. Onu və Onun ardıcıllarını ilhamlandıran ruh, ölçüyə-gəlməz mülayimlik, xeyirxah-

lıq və itaətkarlıq ruhu olmaqla bərabər, eyni zamanda heyrətamiz həyat gücünə və yüksək qüdrətə malik idi.

O, mümkün olmayan şeylərə qadir idi. O, insan təbiətini dəyişdirirdi. Onun cazibəsinə qapılan kəslər yeni bir insana çevrilirdilər. Onun ardıcıllarının qəlbi məhəbbət, iman, təşəbbüslə dolu olardı, dünyəvi sevinclər və kədərlər bunlarla müqayisədə heç bir əhəmiyyət kəsb etməzdilər. Onlar ömürlük əzablara və yaxud əziyyətli ölümə nəinki tam etinasızlıq göstərirdilər, həm də Allaha itaət etməklə qorxmadan və xoşbəxt sevinclə onu qəbul etməyə hazır olurdular.

Ən təəccüblüsü bu idi ki, onların qəlbləri yeni həyat sevincləri ilə dolub-daşırdı və ürəklərində öz düşmənlərinə qarşı heç bir kin-küdurət və qəzəb hisslərinə yer qalmırdı. Onlar özlərini müdafiə etmək üçün zor işlətməkdən tamamilə imtina edirdilər və öz talelərinə acımaq əvəzinə, özlərini insanlar arasında bu yeni və həqiqi Vəhyi qəbul etmək üçün seçilmişlər sayaraq, öz həyatlarını qurban verməklə və qanlarını axıtmaqla Onun həqiqət olduğunu təsdiqləyirdilər.

Onların ürəkləri sevinclə oxumağa hazır idi, çünki onlar inanırdılar ki, Uca, Əbədi, Sevimli Allah onlarla insan dilində danışır, onları Özünün qulu və dostu olmağa çağırır. O, yer üzündə Öz Səltənətini qurmağa gəlmiş və daimi çəkişmələrdən üzülüb əldən düşmüş insanlara misilsiz Sülh hədiyyəsi gətirmişdir.

Həzrət Bəhaullahın onlara təlqin etdiyi dinin mahiyyəti belə idi. Həzrət Babın xəbər verdiyi kimi Həzrət Bəhaullah Öz Missiyasını bəyan etdi. Onun Böyük Müjdəçisinin fədakar çalışqanlığı sayəsində minlərlə insan Həzrət Bəhaullahın gəlişini qarşılamağa hazır idi, minlərlə insan mövhumatdan və xurafatdan azad olaraq təmiz ürəklə və aydın düşüncə ilə Allahın vəd etdiyi Şərəfin Zühurunu gözləyirdi.

Yoxsulluq və zəncirlər, dözülməz həyat şəraiti, fiziki təhqirlər onları Rəbblərinin mənəvi şöhrətindən ayıra bilmədi, əksinə, bu məşəqqətli dünyəvi varlıq Onun həqiqi Parıltısının şəfəqlərini daha böyük qüvvə ilə nəzərə çarpdırdı.

## IV FƏSİL

## HƏZRƏT ƏBDÜL-BƏHA – BƏHANIN QULU

*“Mənim varlığımın dəryası sahillərdən geri çəkilməyə başlayanda və Mənim Vəhy Kitabım yazılıb qurtaranda nəzərlərinizi Ona, Allahın seçdiyi Kəsə, bu Qədim Kökün Budağı olan Kəsə çevirin”.*

***Həzrət Bəhaullah, Kitabi-Əhdi***

## ANADAN OLMASI VƏ UŞAQLIQ İLLƏRİ

Sonralar “Əbdül-Bəha” (yəni, Bəhanın Qulu) ləqəbini qəbul etmiş Abbas Əfəndi Həzrət Bəhaullahın böyük oğlu idi. O, 1844-cü il mayın 23-də[19], gecə yarıya çatmamış, yəni Həzrət Babın Öz Missiyasını bəyan etdiyi gecə Tehranda anadan olmuşdu.

Abbas Əfəndi doqquz yaşında ikən atasına elə bağlanmışdı ki, hətta özünü ona qurban belə verərdi. Elə bu

19 Hicri tarixi ilə 1260-cı il Cumadi-əl-əvvəl ayının 5-ci günü, cümə axşamı

zaman Həzrət Bəhaullahı həbs edərək Tehranda zindana salırlar. Fanatik kütlə basqın edərək onların evlərindəki əmlaklarını talayır və ailə kəskin ehtiyac içində qalır.

Həzrət Əbdül-Bəha danışır ki, bir dəfə ona həbsxana həyətinə daxil olub hər gün gəzintiyə çıxarılan sevimli atasını görməyə icazə verirlər. Həzrət Bəhaullah çox dəyişmişdi və elə zəifləmişdi ki, güclə yeriyə bilirdi. Onun saçı və saqqalı bir-birinə qarışmışdı, ağır dəmir boyunduruğun təzyiqindən boynu şişmiş və sürtülüb yaralanmışdı, zəncirlərin ağırlığından beli bükülmüşdü. Onun bu görkəmi həssas uşağın qəlbində silinməz təəssüratlar qoymuşdu.

Onların Bağdadda yaşadıqları birinci ildə, yəni Həzrət Bəhaullahın Öz Missiyasını bəyan etməsinə on il qalmış, doqquz yaşlı Abbas Əfəndinin bəsirətli baxışları onu belə mühüm nəticəyə gətirir ki, onun atası həqiqətən, Zühurunu bütün babilərin gözlədiyi Vəd olunmuş həmin Kəsdir. Altmış ildən sonra bu inamın onun bütün vücuduna necə hakim kəsildiyi anı o belə təsvir etmişdir:

“Mən, Camali-Mübarəkin quluyam. Bağdadda Mən uşaq idim. Orada atam Mənə Vəhyi bəyan edən kimi Mən Ona inandım. O, Allahdan gələn vəhylər haqqında Mənə danışan kimi Mən Onun Müqəddəs ayaqları altına atıldım və Ona yalvarıb-yaxardım ki, Mənim canımı Onun yolunda qurban kimi qəbul etsin. Qurban! Bu söz Mənə necə də şirindir. Mənim üçün bundan iltifatlı şey yoxdur. Onun naminə boynumun zəncirləndiyini, Ona olan məhəbbət naminə ayaqlarımın qandallandığını, Onun İşi naminə bədənimin eybəcər hala salındığını və yaxud dəniz burulğanına atıldığını görməkdən savayı Mən hansı böyük sevinci təsəvvürümə gətirə bilərəm?!

Əgər Biz Onu həqiqətən seviriksə, əgər həqiqətən Mən Onun sədaqətli Quluyamsa, onda Mən Öz həyatımı, Özümün bütün varlığımı Onun Müqəddəs Astanasında qurban

vermәliyәm”. *(Mirzә Әhmәd Söhrabın gündәliyi, yanvar, 1914-cü il).*

Tәxminәn elә bu vaxtlardan dostları Abbas Әfәndini Hәzrәt Bәhaullahın Ona verdiyi adla – “Sirri-Xuda” (Allahın Sirri) çağırmağa başlayırlar. Bağdadda yaşadıqları dövrdә artıq hamı Onu bu adla tanıyırdı. Atası iki il sәhrada yaşamağa gedәndә Abbas Әfәndi kәdәrә batmışdı. Onun yeganә tәsәllisi, Hәzrәt Babın Yazılarının üzünü köçürmәk, onları әzbәrlәmәk vә vaxtının çoxunu tәnhalığa çәkilib düşüncәlәrә dalmaq idi. Nәhayәt, atası qayıdıb gәlәndә uşağın sevincinin hәddi-hüdudu yox idi.

## GӘNCLİK İLLӘRİ

Elә bu vaxtdan Abbas Әfәndi atasının әn yaxın dostuna vә hәtta müdafiәçisinә çevrilir. Hәlә gәnc ikәn o insanları fәrqlәndirmәkdә qeyri-adi fәhm vә qabiliyyәtә malik olduğundan, atasının görüşünә gәlәn saysız-hesabsız adamları qәbul edib onlarla danışmağı öz öhdәsinә götürür.

Onların әsl hәqiqәt axtaran olduğunu müәyyәnlәşdirәndәn sonra Abbas Әfәndi bu insanları atasının yanına buraxardı, әks tәqdirdә isә icazә vermәzdi ki, Hәzrәt Bәhaullahı narahat etsinlәr. Bir çox hallarda görüşә gәlәnlәrin suallarına cavab vermәkdә vә çәtinliklәrin hәll edilmәsindә atasına kömәk edәrdi. Mәsәlәn, sufi tәriqәti başçılarından olan Әli Şövkәt Paşa Mәhәmmәd[20] Peyğәmbәrin mәşhur hәdislәrindәn biri olan “Mәn gizli sirr idim” kәlamının şәrh edilmәsini xahiş edәndә Hәzrәt Bәhaullah “Sirri-Xuda”ya müraciәt edәrәk hәmin kәlamın izahını yazmağı ona tapşırır.

..............................................................

20 Rәvayәt Hәzrәt Bәhaullahın mәktubundan götürülmüşdür. Bu kitabın 5-ci fәslinә bax.

On beş-on altı yaşlı Abbas Əfəndi heyranedici şərhlə elə gözəl məktub yazır ki, Əli Paşa valeh olur. Həmin məktub həm bəhailər, həm də qeyri-bəhailər arasında çox məşhurdur.

O vaxtlar Abbas Əfəndi tez-tez məscidlərə gedər, orada ilahiyyatçılarla və alimlərlə ilahiyyata dair mövzuları müzakirə edərdi. O heç zaman heç bir məktəbdə və yaxud mədrəsədə təhsil almamışdı, onun yeganə müəllimi atası olmuşdu. At sürmək Abbas Əfəndinin həzz aldığı və bütünlüklə aludə olduğu sevimli əyləncəsi idi.

Bağdad şəhəri kənarındakı bağda Həzrət Bəhaullah Öz Missiyasını bəyan etdikdən sonra Həzrət Əbdül-Bəhanın Öz atasına olan sədaqəti daha da artır. İstanbula uzun səfər zamanı O, Həzrət Bəhaullahı gecə gündüz qoruyar, atını Onun faytonu ilə yanaşı sürər və Onun çadırının yanında keşik çəkərdi. O, imkan daxilində öz atasını məişət qayğılarından azad etmiş, ailənin əsas dayağına və təsəllisinə çevirmişdi.

Ədirnədə yaşadıqları illərdə Həzrət Əbdül-Bəha çoxlarına dərs demiş və "Müəllim" adı ilə şöhrət qazanmışdı. Əkkada demək olar ki, bütün bəhailər tif, malyariya və dizenteriya xəstəliyinə tutulan zaman o xəstələri yuyundurar, onlara qulluq edər, yedirdib-içirər, gecələr yatmazdı. Nəhayət, yorulub əldən düşmüş, özü də dizenteriya xəstəliyinə tutularaq bir aya yaxın çox ağır vəziyyətdə qalmışdı. İstanbulda olduğu kimi Əkkada da validən tutmuş dilənçiyədək əhalinin bütün təbəqələrindən olanlar onu sevər və hörmət edərdi.

## EVLƏNMƏSİ

Həzrət Əbdül-Bəhanın evlənməsinə dair aşağıdakı məlumat Bəhai Dini hərəkatının tarixini araşdıran İran

alimlərindən biri tərəfindən lütfkarlıqla müəllifə verilmişdir.

"Həzrət Əbdül-Bəhanın gənclik illərində münasib bir qızla ailə qurması haqqında məsələ, təbii ki, bütün bəhailərin böyük marağına səbəb olumşdu və çox ailələr belə yüksək şərəfə nail olmağa ümid bəsləyirdilər. Lakin Həzrət Əbdül-Bəha uzun müddət evlənməyə meyl göstərməmiş və heç kəs bunun səbəbini başa düşməmişdi. Sonralar məlum olmuşdu ki, Həzrət Əbdül-Bəhanın xanımı olmaq əvvəlcədən bir qızın qisməti olmuşdur. Bu qız valideynləri İsfahanda Həzrət Babdan xeyir-dua aldıqdan sonra dünyaya gəlmişdi.

Onun atası Mirzə Məhəmməd Əli iki məşhur şəhidin dayısı idi. Onlardan birinə "Şəhidlərin Sultanı", digərinə isə "Şəhidlərin Məhbubu" adı verilmişdi. Qızın ailəsi İsfahanın böyük və tanınmış nəslinə mənsub idi. Həzrət Bab İsfahanda olarkən Mirzə Məhəmməd Əlinin övladı yox idi və onun arvadı övlad həsrəti çəkirdi. Bunu eşidən Həzrət Bab Öz yeməyinin yarısını ona verərək məsləhət görür ki, arvadı ilə birlikdə yesin. Bu xörəyi yedikdən bir müddət sonra məlum olur ki, onların səbirsizliklə arzuladıqları valideyn olmaq ümidi çin olacaq. Tezliklə onların bir qızı dünyaya gəlir, adını Münirə Xanım[21] qoyurlar. Sonra onların bir oğlu da olur, ona Mirzə Yəhya adı verirlər, sonra daha başqa uşaqları dünyaya gəlir.

Münirənin atası vəfat edir, əmisi oğlanları isə mollalar və Zillüs-Sultan tərəfindən qətlə yetirilir, ailələri bəhai olduğuna görə böyük əziyyətlərə və amansız təqiblərə məruz qalır. Onda Həzrət Bəhaullah Münirəyə və onun qardaşı Mirzə Yəhyaya Əkkaya gəlib Onun himayəsində yaşamağa icazə verir. Həzrət Bəhaullah və Onun arvadı

..............................................................

21 Bu hadisəni Vəftizçi Yəhyanın doğulması ilə muqayisə etmək maraqlıdır. İncil. Luka, 1:5-13

Nəvvab xanım, yəni Həzrət Əbdül-Bəhanın anası, Münirəyə elə qayğı və məhəbbət göstərirlər ki, hamı onların qızı Həzrət Əbdül-Bəhaya almaq niyyətlərini başa düşür. Həzrət Əbdül-Bəha da özündə Münirəyə məhəbbət olduğunu hiss edir və qızda da qarşılıqlı hisslər olduğundan onlar tezliklə evlənirlər.

Bu olduqca xoşbəxt və qarşılıqlı anlaşmaya əsaslanan bir nigah idi. Onların dünyaya gətirdikləri övladlarından dörd qız amansız həbsxananın sərt dövrünü yaşamış və öz gözəl həyatlarını Təlimin işinə həsr edərək, onları tanıyanların sevimlilərinə çevrilmişlər.

## DİNİN DAYAĞI

Həzrət Bəhaullah dəfələrlə göstərmişdir ki, Ondan sonra Təlimə rəhbərlik edən Həzrət Əbdül-Bəha olacaqdır. Bu barədə O, ölümünə bir neçə il qalmış və Özünün müqəddəs "Kitabi-Əqdəs" kitabında xatırladır. Bir çox hallarda O, Həzrət Əbdül-Bəhanı "Dinin Dayağı", "Ən böyük Budaq", "Qədim kökdən olan Budaq" adlandırmışdır.

Adətən O, Əbdül-Bəha haqqında bir "Müəllim" kimi danışar və bütün ailə üzvlərindən də Ona xüsusi ehtiram göstərməyi tələb edərdi. Özünün Ruhani Vəsiyyətnaməsində Həzrət Bəhaullah Öz iradəsini aydın şəkildə ifadə edib bildirir ki, hamı Həzrət Əbdül-Bəhaya müraciət və itaət etməlidir.

Camali-Mübarəkin vəfatından sonra Həzrət Əbdül-Bəha atasının aydın şəkildə Ona göstərdiyi hərəkat başçısı və nüfuzlu Təlim Şərhçisi mövqeyini tutdu. Lakin vaxtı ilə Sübhi-Əzəl Həzrət Bəhaullahın əleyhinə mübarizə apardığı kimi, Həzrət Əbdül-Bəhanın bəzi qohumları və başqa şəxslər də Ona qarşı müxalif mövqedə durdular.

Onlar bəhailər arasında ixtilaf toxumu səpməyə səy göstərir, lakin buna nail olmadıqda Həzrət Əbdül-Bəhaya qarşı yalan ittihamlar uyduraraq Türkiyə hökumətinə göndərirdilər.

Atasının iradəsinə uyğun olaraq, Həzrət Əbdül-Bəha Kərmil dağında, Hayfa şəhərindən yuxarıda, Həzrət Babın türbəsi üçün nəzərdə tutulmuş, içərisində ibadət və yığıncaqlar keçirmək üçün bir neçə otaq olan bir bina tikdirmişdi. Lakin Onun əleyhdarları hakimiyyət orqanlarına belə məlumat vermişdilər ki, Həzrət Əbdül-Bəha və Onun tərəfdarları orada möhkəmlənərək, dövlətin itaətindən çıxmaq və Suriyanın qonşu vilayətlərini ələ keçirməyə hazırlaşırlar.

## CİDDİ HƏBS REJİMİ YENİDƏN TƏZƏLƏNİR

Artıq iyirmi il ərzində Əkka ətrafında azad gəzib dolanmaq hüququna malik olan Həzrət Əbdül-Bəha və Onun ailəsi yazılan müxtəlif yalan məlumatlar nəticəsində bu azadlıqdan məhrum edildi və 1901-ci ildən onlara yenidən yeddi il müddətinə şəhərdən çıxmaq qadağan olundu. Lakin bu qadağa Həzrət Əbdül-Bəhaya Həzrət Bəhaullahın Təlimini bütün Asiyada, Avropada və Amerikada yaymaqda maneçilik törədə bilmədi. Nazir Horatsi Hole bu dövr barəsində aşağıdakıları yazır:

“Bir müəllim və dost kimi Həzrət Əbdül-Bəhanın yanına müxtəlif irqlərdən, dinlərdən və millətlərdən olan kişilər və qadınlar gələr, sevimli qonaq kimi Onun süfrəsinin ətrafında oturar, hər biri özü üçün xüsusilə dəyərli olan həyat tərzinin ictimai, mənəvi və əxlaqi məqamlarına dair suallar verərdilər; və bir neçə saatdan bir neçə ayadək burada qonaq qaldıqdan sonra onlar ilhamlanmış, yeni-

dən dirçəlmiş və maariflənmiş halda evlərinə dönərdilər. Dünyanın heç bir yerində buna bənzər qonaqpərvər ev yox idi. Ev sahibinin burada hökm sürən və hamını birləşdirən məhəbbəti sayəsində onun astanasından içəri keçən kimi Hindistanın sərt kasta əxlaqı yumşalar, yəhudilər, xristianlar və müsəlmanlar arasındakı irqi xurafatlardan təkcə xatirə qalardı; səmimi və mehriban münasibətlərdən savayı hər cür adətlər və vərdişlər burada yox olub gedərdi. Buranı qeyri-ixtiyarı olaraq kral Artur və onun dəyirmi stolu ilə müqayisə etmək istəyirsən, lakin kral Arturdan fəqli olaraq, burada nəinki kişilər, həm də qadınlar cəngavərliyə qəbul edilir və onlar qılıncla deyil, Sözlə yola salınardı" *(Müasir sosial din, səh 171)*

Bu illər ərzində Həzrət Əbdül-Bəha dünyanın hər tərəfinə səpələnmiş bəhailərlə və Bəhai Dini Təlimi ilə maraqlananlarla böyük məktublaşma aparırdı. Bu işdə Ona qızları, bir neçə tərcüməçi və katibləri kömək edirdilər.

O vaxtının çoxunu evlərdə xəstə yatanlara baş çəkməyə sərf edərdi və Əkkanın yoxsul məhəllələrində Həzrət Əbdül-Bəha ən arzuolunan qonaq idi. Bu dövrdə Əkka ziyarətinə gəlmiş bir zəvvar belə yazır:

"Həzrət Əbdül-Bəha hər cümə günü səhər yoxsullara nəzir paylayardı. Özünün kasıb ehtiyatından O, kömək istəməyə gələn hər bir ehtiyacı olana bir qədər yardım göstərərdi. Bu gün səhər yüz nəfərə yaxın adam növbə ilə düzülərək, yerdə oturmuşdular, yeriyib gələ bilməyənlər isə Həzrət Əbdül-Bəhanın evinə sürünüb gəlmişdilər. İnsan məxluqatının bu yığnağı təsvirə gəlməzdir. Kişilər və qadınlar, uşaqlar, yoxsullar, taqətdən düşmüşlər, üzlərindən ümidsizlik yağan yarıçılpaq adamlar, xeyli çolaq, kor və əsl dilənçilər - hamısı da gözləri qapıda gözləyirdilər. Həzrət Əbdül-Bəha qapıda görünür. Cəld hərəkətlə nəzirləri paylayaraq yardım alanların birindən o birinə keçir. O xoş söz demək, hal-əhval soruşmaq, uzanmış ələ xırda pul

qoymaq, uşağın üzünü sığallamaq, Onun əbasının ətəyindən yapışmış qoca qadının əlindən tutmaq üçün dayanır, gözünün nurunu itirmiş kora mənəvi nurdan danışır, lap zəifləmişləri və xəstəlikdən gələ bilməyənləri soraqlayır, məhəbbət və kömək duaları ilə onların payını göndərirdi” *(Həzrət Əbdül-Bəha ilə tanışlıq, s.13).*

Həzrət Əbdül-Bəhanın şəxsi tələbatı olduqca cüzi idi. O, səhərdən axşamadək işləyər və ancaq gündə iki dəfə sadə yeməklə kifayətlənərdi. Onun geyimi də çox sadə və ucuz idi... Başqaları ehtiyac içində yaşadığı bir zamanda, O təmtəraqlı yaşamaq barədə düşünə bilməzdi.

O uşaqları, gülləri və təbiət gözəlliklərini olduqca çox sevirdi. Hər gün səhər saat altıya və yaxud yeddiyə yaxın Onun bütün ailəsi çay içməyə yığışardı. Həzrət Əbdül-Bəha çayını yavaş-yavaş içdikcə, Onun kiçik yaşlı uşaqları dua oxuyardılar. Tornton Çeyz bu uşaqlar haqqında yazır:

“Onlar kimi nəzakətli, səxavətli, başqalarına diqqətli, ağıllı, təvazökar, kiçik şeylərdən belə imtina edən uşaqları mən heç zaman görməmişəm” *(Tornton Çeyz, Qalileyada, s.51).*

“Güllərə xidmət” Həzrət Əbdül-Bəhanın Əkkadakı həyatının elementlərindən biri idi və zəvvarların hər biri buradan xoş xatirə olaraq çiçəklərin rayihəsini apardı. Mister Lukas yazır:

“...Müəllimin güllərin ətrini iyləməsi necə də qeyri-adi bir mənzərədir. O güllərə tərəf əyiləndə adama elə gəlir ki, sünbülçiçəyinin ətri Ona nədənsə danışır. O bütün diqqətini onlara elə yönəldir ki, sanki gözəl təranəli səsi tutmağa çalışır” *(Lukas, Əkkaya səfərim barədə qısa hesabat, s.26).*

O yanına gələn saysız-hesabsız qonaqlarına ətirli güllər verməyi sevərdi. Əkkadakı həbsxana həyatı haqqında Mister Tornton Çeyz öz təəssüratlarında belə yazır:

“Biz beş gün bu Əzəmətli həbsxanada yaşayan kəslə birlikdə, qapalı divarlar içərisində qaldıq. Bu, sülh, məhəb-

bət və xidmət həbsxanası idi. Orada bəşəriyyətə xoşbəxtlik, bütün insanlara sülh, Allahın Ata kimi dərk edilməsi, Onun yaratdığı, Onun uşaqları kimi insanların hüququnun tanınması arzusundan başqa ayrı arzu yox idi.

Əslində gerçək həbsxana, boğucu mühit, bütün sadiq qəlblərin dilədikləri şeylərdən uzaqlaşmaq, darısqal şərait – bütün bunlar bu daş divarların xaricində mövcuddur, onların daxilində isə azadlıq və İlahi Ruhun təmiz nəfəsi hökm sürür. Orada kədərə, həyəcana, iztirablara və dünyəvi işlər üçün narahatlıqlara yer yoxdur" *(Tornton Çeyz, Qalileyada, s.24).*

İnsanların əksəriyyəti üçün həbsxana həyatının çətinlikləri ağır bədbəxtlikdir, lakin Həzrət Əbdül-Bəha burada nəsə dəhşətli bir şey görmürdü. O, həbsxana barəsində belə yazırdı:

"Mənim məhbus olduğuma və fəlakətə düçar olduğuma görə kədərlənməyin, çünki bu məhbəs mənim gözəl bağımdır, mənim cənnət məkanımdır və insanlar arasında mənim hakimiyyət taxtımdır. Mənim həbsxanadakı əzablarım ədalətlilər arasında mənim şöhrət tacımdır.

Firavanlıq, rahatlıq, uğur, sağlamlıq, həzz və sevinc şəraitində yaşayan hər bir kəs xoşbəxt ola bilər, lakin qəm-qüssə, ehtiyac və xəstəliyə baxmayaraq xoşbəxt olan kəs alicənab adlandırılmaq hüququna malikdir." *(Həzrət Əbdül-Bəhanın Klarens Smisə məktubundan)*

## TÜRKİYƏ İSTİNTAQ KOMİSSİYASI

1904 və 1907-ci illərdə Həzrət Əbdül-Bəhaya qarşı irəli sürülmüş ittihamların araşdırılması üçün Türkiyə hökuməti istintaq komissiyası təyin etdi. Ona qarşı yalançı şahidlər ifadə verdilər və Həzrət Əbdül-Bəha bütün ittihamları təkzib edərək bildirdi ki, məhkəmənin Onun

haqqında çıxardığı hər hansı bir qərara tabe olmağa tamamilə hazırdır. O ərz etdi ki, əgər Onu məhbəsə salsalar, küçələrlə sürüsələr, Onu söyüb-biabır etsələr, Onun üstünə tüpürsələr, daşqalaq etsələr, Onu hər cür rüsvay etsələr, dar aqacından assalar və ya öldürsələr belə, O yenə də Özünü çox xoşbəxt sayacaqdır.

Bu iki komissiyanın iclasları arasında Həzrət Əbdül-Bəha Özünün adi həyat tərzini fövqəladə sakitliklə davam etdirir, bağda meyvə aqacları əkir, sərbəst ruhani nuru və ləyaqəti ilə toy məclislərində ağsaqqallıq edirdi.

İtaliya konsulu Ona Özünün seçdiyi istənilən xarici limana təhlükəsiz getməsini təklif edir, lakin Həzrət Əbdül-Bəha minnətdarlığını bildirməklə, qətiyyətlə bu təklifdən imtina edərək buyurur ki, nəticənin necəliyindən asılı olmayaraq O Öz düşmələrindən heç vaxt qaçmağa və ya gizlənməyə çalışmayan Həzrət Babın və Camali-Mübarəkin yolu ilə getməlidir. Buna baxmayaraq O, bəhailərin əksəriyyətini Əkkanın ətrafını tərk etmələri üçün dilə tuturdu, belə ki, bu yerlər onlar üçün çox təhlükəli idi. Özü isə az sayda sədaqətli dostları ilə qalaraq taleyinin necə olacağını gözləyirdi. Sonuncu komissiyanın tərkibinə daxil olan rüşvətlə alınmış dörd məmur 1907-ci ilin qışında Əkkaya gəldi, bir ay burada qaldı, istintaqı başa çatdıraraq İstambula qayıtdı və Həzrət Əbdül-Bəhaya qarşı ittihamların sübuta yetirildiyi haqqında hesabat hazırladılar. Deməli, O ya sürgün olunmalı, ya da edam edilməli idi. Lakin onlar İstambula çatar-çatmaz Türkiyədə inqilab başladı və köhnə hökumətə mənsub olan bu dörd müstəntiq canlarını qurtarmaq üçün Türkiyədən qaçmalı oldular. Gənc türklər hakimiyyəti öz əllərinə alaraq Osmanlı imperiyasındakı bütün siyasi və dini məhbusları azad etdi. 1908-ci ilin sentyabrında Həzrət Əbdül-Bəha məhbəsdən azad edildi. Bir il sonra Sultan Əbdülhəmidin özü həbs olundu.

## QƏRB DÜNYASINA SƏFƏRLƏR

Həzrət Əbdül-Bəha həbsxanadan azad edildikdən sonra Özünün aramsız fəaliyyəti ilə həmin müqəddəs həyatını davam etdirdi. 1911-ci ilin avqustunadək, yəni Qərb dünyasına səfərə çıxanadək O, təbliğatla məşğul olur, yazışmalar aparır, yoxsullara və xəstələrə köməklik göstərir, Əkkadan Hayfaya, Hayfadan İskəndəriyyəyə gedirdi.

Özünün səfərləri zamanı müxtəlif əqidəli insanlarla görüşən Həzrət Əbdül-Bəha həmişə Həzrət Bəhaullahın "bütün insanlara sevinc və xeyirxahlıqla baş çəkmək" tövsiyyəsinə sadiq qalırdı. O, 1911-ci ilin sentyabrında Londona gəldi və burada bir ay qaldı. Bu vaxt ərzində Bəhai Dini Təlimi və Onun fəaliyyəti ilə maraqlananlarla hər gün apardığı söhbətlərdən başqa O pastor Kempbelin şəhər məbədində təşkil etdiyi kilsə icmaları birliyi qarşısında, Vestminsterdəki Sent-Con kilsəsində məruzələr oxudu və Lord-Merin səhər yeməyində çıxış etdi.

Buradan O, Parisə yola düşdü və hər gün müxtəlif millətlərə və dinlərə mənsub olan dinləyicilər qarşısında çıxışlar etdi. Dekabr ayında O, Misirə qayıtdı və amerikalı dostların xahişlərinə cavab olaraq yazda Amerika Birləşmiş Ştatlarına yola düşüb 1912-ci ilin aprelində Nyu-Yorka gəldi.

O yeddi ay ərzində Amerikanı bir sahilindən o biri sahilinədək başdan-başa gəzdi, müxtəlif siniflərə mənsub və müxtəlif mövqeli insanların – universitet tələbələri, sosialistlər, mormonlar[22], yəhudilər, xristianlar, aqnostiklər, esperantoçular, Sülh Cəmiyyəti, Yeni fikir klubları, sufrajist klubları nümayəndələrinin qarşısında çıxışlar edərək, bütün dinlərin məbədlərində auditoriyaya və şəraitə uyğun məruzələr oxudu.

.............................................................

22 Şimali Amerikada xristian təriqəti.

Dekabrın 5-də O, Böyük Britaniyaya yollandı və burada altı həftə qalaraq Liverpul, London, Bristol və Edinburq şəhərlərini gəzdi. Edinburqda O esperantoçular cəmiyyətində çox gözəl çıxış edərək bildirdi ki, Şərq ilə Qərb arasında qarşılıqlı anlaşmanın yaxşılaşdırılması üçün Şərq bəhailərini esperanto dilini öyrənməyə ruhlandıracaqdır.

Əvvəllər olduğu kimi, yenə də söhbətlər və iclaslar şəraitində keçən iki aylıq Paris səfərindən sonra O Ştutqarta getdi və burada Almaniya bəhailəri ilə bir sıra uğurlu iclaslar təşkil etdi, sonra isə Budapeşt və Vyanaya gələrək bu yerlərdə yeni özəklər yaratdı. 1913-cü ilin mayında O, Misirə qayıdaraq 1913-cü il dekabrın 5-də Hayfaya gəldi.

## MÜQƏDDƏS TORPAĞA QAYIDIŞ

Bu zaman artıq Onun yetmişə yaxın yaşı vardı. Uzun illərin gərgin fəaliyyəti, Qərb ölkələrinə etdiyi yorucu səfərlər Həzrət Əbdül-Bəhanın fiziki qüvvəsini tükəndirmişdi. Hayfaya qayıtdıqdan sonra O, Şərq və Qərb bəhailərinə ünvanladığı aşağıdakı təsirli məktubu yazdı:

"Dostlar, vaxt gələcək ki, Mən artıq sizinlə olmayacağam. Mən mümkün olan hər şeyi etdim. Bütün bacarığımla Həzrət Bəhaullahın İşinə xidmət göstərdim. Mən həyatım boyu gecə-gündüz çalışdım.

Ah, Mən bu işin məsuliyyətini öz üzərlərinə götürə bilən bəhailəri necə də görmək istərdim. Əbha Səltənətini elan etmək vaxtı yaxınlaşmışdır. Birlik və əmin-amanlıq saatı yetişmişdir. Allah dostlarının mənəvi birlik günü çatmışdır!..

Mən möminlərin yığıncaqlarından yayılan məhəbbət və dostluq mahnılarını eşitmək üçün qulaqlarımı Şərqə, Qərbə, Şimala və Cənuba tərəf tutaraq gərgin vəziyyətdə saxlamışam. Mənim ömrümə az qalıb və bundan başqa Mənim üçün heç bir sevinc yoxdur.

Ah, Mən dostları sapa düzülmüş parlaq mirvarilər tək, nurlu ulduzlar bürcü tək, günəşin şəfəqləri tək və bir oylağın cüyürləri tək görməyin necədə həsrətindəyəm.

Ecazkar bülbül onlar üçün oxuyur – məgər onlar dinləməzlər? Cənnət quşu cəh-cəh vurur – məgər onlar onu eşitməzlər? Şərəf Səltənətinin məlaikəsi onlara müraciət edir – məgər onlar dinləməzlər? Din Müjdəçisi onları çağırır – məgər onlar diqqət verməzlər?

Mən hələ də gözləyirəm və gözləyirəm ki, möminlərin tam səmimilik və sədaqət nişanəsi, məhəbbət və dostluq mücəmməsi, birlik və əmin-amanlıq nümunəsi olmaları haqqında sevindirici xəbəri eşidim. Məgər onlar Mənim qəlbimi sevindirməyəcəklər? Mənim diləyimi həyata keçirməyəcəklər? Məgər onlar Mənim dualarıma diqqət yetirməyəcəklər? Mənim ümidlərimi doğrultmayacaqlar? Mənim çağırışlarıma cavab verməyəcəklər? Mən gözləyirəm və səbrlə gözləyirəm!"

Həzrət Bab şəhid edilərkən, Həzrət Bəhaullah doğma vətənindən sürgün edilib, ömürlük həbsə salınarkən və vəfat edərkən Bəhai hərəkatının düşmənləri necə sevinmişdilərsə, indi də onlar həzrət Əbdül-Bəhanın Qərb ölkələrinə səfərdən qayıtdıqdan sonra Onun fiziki zəifliyini və yorğunluğunu görüb şadlanırdılar. Lakin onların ümidləri yenə də doğrulmadı. Həzrət Əbdül-Bəha tezliklə belə bir məzmunda məktub yazdı:

"Şübhəsiz ki, fiziki bədən və insan enerjisi daimi yorğunluğa tab gətirməyə qadir deyildir... lakin Allah-taalanın köməyi və dayağı – zəif və itaətkar Əbdül-Bəhanın Müdafiəçiləri və himayəçiləri olmuşdur...

Çoxları əmin idilər ki, Əbdül-Bəha dünyaya Özünün sonuncu "əlvida" sözünü demək ərəfəsindədir, belə ki, Onun fiziki qüvvəsi tükənmişdir və tezliklə bütün bu ağır çətinliklər Onun həyatına son qoyacaqdır. Lakin bu həqiqətdən uzaq idi. Dinimizin düşmənlərinin və ağıldan

zəif olanların verdikləri zahiri qiymətə görə, bədənim Müqəddəs Yolda çəkdiyim sınaqlardan zəifləsə də, Allaha şükr olsun ki, Camali-Mübarəkin ilahi hikmətinin mənəvi qüvvəsi yenə də ali qüdrəti ilə yüksəldi.

Rəbbimizə şükr olsun ki, indi də Həzrət Bəhaullahın inayəti sayəsində hətta fiziki gücüm də tamam bərpa olunub, qəlbim ilahi sevinclə dolub, böyük sevindirici xəbərlər şəfəq saçır və mükəmməl xoşbəxtliklər aşıb-daşır" *("Qərbin ulduzu" jurnalı. c. 5. №14, s.213).*

Böyük Müharibə[23] dövründə və müharibə qurtarandan sonra Həzrət Əbdül-Bəha digər çoxsaylı işləri ilə yanaşı, həm də bütün dünya bəhailərinə onlarda Əmrə xidmət işində yeni təşəbbüskarlıq və həvəs oyadan bir sıra mühüm və ilhamverici məktublar göndərirdi. Bu məktubların təsiri altında Həzrət Bəhaullahın Təlimi sürətlə yayılmağa başlayır və hər yerdə Bəhai Dini özündə yeni həyat əlamətlərinin qabiliyyət və gücünü göstərirdi.

## HAYFA MÜHARİBƏ İLLƏRİNDƏ

Müharibə ərəfəsindəki aylarda Həzrət Əbdül-Bəha qeyri-adi ehtiyat nümayiş etdirdi. Dinclik illərində Hayfada adətən İrandan və dünyanın digər yerlərindən gəlmiş çoxlu zəvvarlar olardı. Müharibənin başlamasına altı ay qalmış Hayfada yaşayan bir ahıl bəhai bir neçə iranlının Müəllimlə görüşməyə icazə verməsi xahişini Ona çatdırdı. Həzrət Əbdül-Bəha bu xahişə icazə verməməklə, həmin andan başlayaraq Hayfadakı bütün zəvvarları evlərinə göndərdi. 1914-cü il iyulun axırlarında artıq orada heç kim qalmamışdı. Avqust ayının ilk günlərində Böyük Mühari-

23 Birinci Dünya Muharibəsi (1914-cü il) nəzərdə tutulur.

bənin qəfildən başlaması dünyanı dəhşətə gətirəndə Həzrət Əbdül-Bəhanın müdrik uzaqgörənliyi aydın oldu.

Müharibə başlayanda ömrünün artıq əlli ilini sürgün və həbsxanalarda keçirən Həzrət Əbdül-Bəha yenə də Türkiyə hökumətinin əsiri oldu. Suriyadan kənarda yaşayan dostlarla və möminlərlə əlaqələr demək olar ki, kəsilmişdi. O və ardıcıllarının kiçik bir dəstəsi ağır vəziyyətə düşdülər, onlar aclıq çəkir və daim təhlükə içində yaşayırdılar.

Müharibə illərində Həzrət Əbdül-Bəha bütün insanlara və Öz ətrafındakılara maddi və mənəvi kömək göstərməyə çalışırdı. O, şəxsən Tiberiya yaxınlığında geniş əkin işləri təşkil etmişdi. Burada yetişdirilmiş buğda nəinki bəhailəri, həm də Hayfa və Əkkada yaşayan başqa dinlərə mənsub olan yüzlərlə kasıbı aclıqdan qurtardı.

O, hamının qayğısına qalır və imkan daxilində onların çətinliklərini yüngülləşdirməyə çalışırdı. O hər gün yüzlərlə kasıba az da olsa pul və çörək verirdi. Çörək olmayanda xurma yaxud başqa bir şey verərdi. O tez-tez Əkkaya gedər, möminlərə və yoxsullara təsəlli verər və yardım göstərərdi. O möminlərlə hər gün yığıncaqlar keçirərdi. Onun köməyi sayəsində dostlar bu narahat illəri xoşbəxt və rahat yaşadılar.

## SER ƏBDÜL-BƏHA<br>BRİTANİYA İMPERİYASININ PERİDİR

1918-ci il sentyabrın 23-də gündüz saat üçdə, 24 saat davam edən döyüşdən sonra Hayfa İngiltərə və hind suvariləri tərəfindən alındı və Osmanlı üsul-idarəsinin müharibə illərində hökm sürən dəhşətlərinə son qoyuldu.

İngilislərin işğalının ilk günlərindən etibarən xeyli sayda əsgərlər və bütün, hətta ali rütbələrdən olan dövlət məmurları Həzrət Əbdül-Bəha ilə görüşməyə can atırdılar.

Onun gözəl söhbətlərinə, geniş və dərin dünyagörüşünə, nəzakətli davranışına, ləyaqətli və səmimi qonaqpərvərliyinə valeh olurdular.

Onun alicənab xasiyyəti, sülh, dinclik və insanların rifahı naminə apardığı böyük işlər hökumət nümayəndələrində elə dərin təəssürat yaratdı ki, Ona Britaniya imperiyasının peri rütbəsini verdilər; təqdimetmə mərasimi 1920-ci il aprelin 27-də Hayfada hərbi qubernatorun bağında keçirildi.

## SON İLLƏRİ

1919-1920-ci illərin qışında iki ay yarım müddət ərzində bu kitabın müəllifinə Hayfada Həzrət Əbdül-Bəhanın qonağı olmaq və Onun gündəlik həyatı ilə tanış olmaq şərəfi nəsib olub. O vaxt 76-ya yaxın yaşı olmasına baxmayaraq O, heyrətamiz dərəcədə möhkəm qalmışdı və hər gün həddindən çox işləyirdi. O, ecazkar bir sürətlə Öz gücünü bərpa edərək, ehtiyacı olanlara həmişə kömək göstərməyə hazır idi.

Həzrət Əbdül-Bəhanın həddindən artıq səbirli, mülayim, gülərüz və nəzakətli olması Onun iştirak etdiyi yığıncaqlara xüsusi təravət verərdi. Adətən O gecənin çox hissəsini dua oxumaqla və təfəkkürlə keçirərdi. Günorta etdiyi azca istirahət istisna olmaqla O, səhər tezdən axşamadək dünyanın bütün guşələrindən aldığı məktubları oxuyar, onlara cavab verər, saysız-hesabsız ailə məsələləri və dini işlərlə məşğul olardı. Nahardan sonra O adəti üzrə istirahət edər, piyada və yaxud faytonla gəzintiyə çıxardı.

Hətta bu zamanda Onu adətən bir, iki və yaxud bütöv bir zəvvarlar dəstəsi müşayiət edərdi. Gəzə-gəzə dini məsələlər barəsində söhbət edər və ya yolüstü kasıblara baş çəkərdi. Evə dönəndən sonra O dostlarını adəti üzrə Öz

evinə axşam yığıncağına dəvət edərdi. Həm səhər yeməyi, həm də axşam yeməyi zamanı çoxlu zəvvarları və dostları qəbul edər, maraqlı və məzəli hadisələr söyləməklə onları əyləndirər, yaxud müxtəlif mövzuda danışdığı söhbətlərlə məftun edərdi.

O buyurardı ki, "Mənim evim sevinc və şadlıq evidir" və həqiqətən də bu belə idi. O müxtəlif irqlərdən, millətlərdən və dinlərdən olan insanların Özünün qonaqpərvər masasının arxasında toplanmış birliyini görəndə sevinərdi. Həqiqətən, o təkcə Hayfadakı kiçik icma üçün deyil, həm də bütün dünya bəhai icmaları üçün sevimli Ata idi.

## HƏZRƏT ƏBDÜL-BƏHANIN VƏFATI

Fiziki yorğunluğuna və zəifliyinə baxmayaraq, Həzrət Əbdül-Bəhanın çoxcəhətli fəaliyyəti qısa fasilələrlə demək olar ki, Onun həyatının axırıncı gününədək davam etmişdi.

1921-ci il noyabrın 25-də, cümə günü, gündüz saat 12-də Hayfa məscidində günorta namazını qıldıqdan sonra O, adəti üzrə yoxsullara nəzir payladı. Günorta yeməyindən sonra bir neçə məktub diktə edib yazdırdı və bir az istirahət etdikdən sonra bağa gəzintiyə çıxaraq bağbanla söhbət etdi.

Axşam O, həmin gün evlənən sevimli xidmətçisinə xeyir-dua verdi və bundan sonra evində toplaşan dostlarının adi yığıncağında iştirak etdi. Üç gün keçməmiş, noyabrın 28-də bazar ertəsi səhərə yaxın saat ikinin yarısında O elə sakit halda vəfat etdi ki, hətta Onun yatağı yanında oturan qızları, Onun sakitcə yuxuya getdiyini zənn etdilər.

Bu kədərli xəbər tezliklə bütün şəhərə yayıldı və teleqraf vasitəsilə dünyanın bütün ölkələrinə göndərildi. Ertəsi gün noyabrın 29-da çərşənbə axşamı, Həzrət Əbdül-Bəha-

nın dəfn mərasimi oldu. Nəinki Hayfa, hətta bütün Fələstin torpağı da heç vaxt bu cür dəfn mərasimi görməmişdi... Bir yerə toplanmış müxtəlif dinlərin, irqlərin və millətlərin minlərlə nümayəndələrini dərin hüzn bürümüşdü.

Ali komissar ser Herbert Samuel, Qüdsün qubernatoru, Finikiyanın canişini, yüksək rütbəli hökumət nümayəndələri, müxtəlif dövlətlərin Hayfadakı səfirləri, müxtəlif dini icmaların rəhbərləri, Fələstinin zadəganları, yəhudilər, xristianlar, müsəlmanlar, dürzilər, misirlilər, yunanlar, türklər, kürdlər və Həzrət Əbdül-Bəhanın çoxsaylı amerikalı, avropalı və iranlı dostları müxtəlif siniflərə mənsub olan kişilər, qadınlar və uşaqlar... Hamı, on minə qədər adam bu böyük itkiyə kədərlənirdi...

Camaat bir ağızdan fəryad edərək “Ya Rəbb! Ya Rəbb! Atamız bizi tərk etdi, Atamız bizi tərk etdi...!” – deyirdi. Onlar yavaş-yavaş Kərmil dağına, Allahın üzümlüyünə tərəf addımlayırdılar... İki saat gedəndən sonra insan axını Həzrət Babın məqbərəsi ucalan bağa çatdı... Bu böyük izdiham dayandıqda müxtəlif xalqların nümayəndələri... müsəlmanlar, xristianlar, yəhudilər, ürəyi Həzrət Əbdül-Bəha eşqi ilə yanan bir çoxları həmin anın təsirindən, başqaları isə əvvəlcədən hazırlaşmış halda bir ağızdan hüznlü səslərini ucaldaraq Sevimliləri ilə vidalaşdılar.

Bu narahat və kədərli əsrdə onlar yekdilliklə Həzrət Əbdül-Bəhanı müdrik müəllim və insan irqlərinin barışdırıcısı saydıqlarından, əlavə etməyə daha heç nə qalmırdı” *(Ledi Blumfild və Şövqi Əfəndi, Əbdül-Bəhanın vəfatı, s.11-12).*

## YAZILARI VƏ NİTQLƏRİ

Həzrət Əbdül-Bəhanın yazıları olduqca çoxdur və bunların böyük əksəriyyəti Ona suallarla müraciət edən-

lərə və ya möminlərə ünvanlanmış məktublardan ibarətdir. Onun söhbətlərinin və çıxışlarının əksəriyyəti yazılmış, çoxu isə nəşr olunmuşdur.

Əkkada və Hayfada Onu ziyarət etməyə gəlmiş minlərlə zəvvarın əksəriyyəti öz təəssüratlarını yazmış və nəşr etdirmişlər. Beləliklə, Onun təlimi tamamilə saxlanılmışdır və çox böyük məsələlər dairəsini əhatə edir. Şərqin və Qərbin bir çox problemlərini O atası ilə müqayisədə daha geniş açıqlayaraq, Həzrət Bəhaullah tərəfindən əsası qoyulmuş ümumi prinsipləri daha ətraflı şərh etmişdir. Onun əsərlərinin çoxu hələ də Qərb ölkələrindən heç birinin dilinə tərcümə edilməmişdir. Lakin buna baxmayaraq Onun təliminin əsas prinsipləri haqqında lazımınca dərin və tam bilik vardır.

O, fars, ərəb və türk dillərində gözəl danışardı. Onun Qərb ölkələrinə səfərləri zamanı etdiyi söhbətləri və nitqləri həmişə tərcümə olunardı. Əlbəttə, bu danışıqlar öz gözəlliyini, bəlağətini və təsir gücünü müəyyən qədər itirərdi, buna baxmayaraq Onu sözlərində elə qüdrət hiss olunardı ki, bütün Onu dinləyənlər deyilənlərdən heyrətlənərdilər.

## HƏZRƏT ƏBDÜL-BƏHANIN NADİR MƏQAMI

Camali-Mübarək tərəfindən Həzrət Əbdül-Bəha üçün müəyyən olunmuş nadir məqam haqqında Həzrət Bəhaullah aşağıdakı sözləri buyurmuşdu:

“Mənim varlığımın dəryası sahillərdən geri çəkilməyə başlayanda və Mənim Vəhy Kitabım yazılıb qurtaranda nəzərlərinizi Ona, Allahın seçdiyi Kəsə, bu Qədim Kökün Budağı olan Kəsə çevirin”. Sonra “Kitabda sizin üçün an-

laşılmaz bütün suallarla bu qüdrətli gövdədən olan Kəsə müraciət edin”.

Həzrət Əbdül-Bəhanın Özü isə buyurur: “Kitabi-Əqdəs”də aydın şəkildə ifadə olunduğu kimi Həzrət Bəhaullah Dinin Dayağını (yəni Əbdül-Bəhanı) Öz sözlərinin şərhçisi təyin etmişdir. Keçmiş dinlərin vəhylərinin heç birində buna bənzər mətn və qüdrətli Vəsiyyət yoxdur” *(Həzrət Əbdül-Bəhanın məktublarından, c.7, s.65).*

Həzrət Əbdül-Bəhanın Həzrət Bəhaullahın Təlimini Şərqdə və Qərbdə qüsursuz, nöqsansız yayması bəzi möminlər arasında Onun mövqeyinə dair müxtəlif fikirlər yaratmışdı.

Hələ də köhnə dini təsəvvürlərin təsiri altında olanlar indi ənənəvi dini doktrinalarının dağıdıldığını müşahidə etdikdə və Həzrət Əbdül-Bəhanın ilhamverici sözünün və işinin təmiz ruhunu gördükdə Onun məqamını İlahi Zuhur səviyyəsinə qaldırır, digərləri isə Onu “İsanın ikinci gəlişi” sayırdılar!!!

Həzrət Əbdül-Bəhanı hər şeydən çox kədərləndirən o idi ki, bəhailər bir məqamı başa düşə bilmirdilər: Həzrət Bəhaullahın Əmrinə xidmət edərkən Onda təzahür edən ruhani qüvvə bunu göstərirdi ki, O, həqiqət Günəşinə doğru çevrilmiş, Onu əks etdirən təmiz güzgüdür, ancaq heç cür Günəşin Özü deyildir.

Bundan başqa əvvəlki dinlərdən fərqli olaraq, Həzrət Bəhaullahın Təlimində ümumdünya cəmiyyəti yaratmaq qüdrəti vardı. 1892-ci ildən 1921-ci ilədək olan dövrdə Həzrət Əbdül-Bəha Onun üzərinə qoyulmuş Missiyanı yerinə yetirmiş, əsl dünya qaydası haqqında Həzrət Bəhaullahın təliminə müvafiq olaraq inzibati strukturun yaradılmasına başlanmışdı. Bu inkişaf Həzrət Əbdül-Bəhanın göstərişlərinə və xüsusi rəhbərliyinə ehtiyac duyurdu, çünki indiki dövrdə yer üzünə nazil olan yeni qüdrətli Vəhyi bütün tamlığı ilə təkcə O bilirdi.

Həzrət Əbdül-Bəhanın vəfatından sonra Onun Vəsiyyətnaməsi oxunana qədər və Onun İradəsi Dinin Vəlisi Həzrət Şövqi Əfəndi tərəfindən izah edilənədək, demək olar ki, bütün bəhailər, yalnız Peyğəmbərin Özünə xas olan ruhani məqamın sevimli Müəllimin qismətinə düşdüyünü iddia edirdilər.

Lakin bəhailərin bu əvvəlki sadəlövh təşəbbüsləri tezliklə öz yerini Həzrət Əbdül-Bəhanın müqayisəedilməz sədaqətinin və itaətkarlığının sirlərinin daha dərindən başa düşülməsinə verdi və hal-hazırda bəhailər Onun yerinə yetirdiyi öz məğzinə görə yeganə Missiyanın xarakterini daha yaxşı dərk etməyə qadirdilər.

Ali Nümunəsi və Şərhçisinin sürgündə və həbsdə olduğu 1892-ci ildə zəif və köməksiz təəssüratı yaradan Bəhai Dini o zamandan etibarən möhkəmlənir və dəfedilməz qüvvə ilə bir çox ölkələrdə öz icmalarını yaratmağa başlayır.[24]

Ümidsizliyə qapılmış bəşəriyyətin işıqlı gələcəyinə təminat verən Bəhai Dini zəifləmiş və tənəzzülə uğramaqda olan sivilizasiyanı Öz Təliminin himayəsinə səsləyir.

Həzrət Əbdül-Bəhanın Vəsiyyəti Həzrət Babın, Həzrət Bəhaullahın və şəxsən Onun Özünün əsl Missiyasını tamamilə aydın şəkildə əks etdirir:

“Bu Bəha əhlinin imanının təməlidir (Mənim həyatım onlara fəda olsun): “Zati Müqəddəsləri Həzrəti Əla[25] Allahın birliyinin və Təkliyinin Məzhəri və Camali-Qədimin[26] Müjdəçisidir. Zati Müqəddəsləri Camali Əbha[27] (Mənim

..............................................................

24 1969-cu ildə 139 mustəqil dövlətdə və 173 mühüm ərazi vahidində və adada bəhai icmaları vardı (Xülasəyə bax)

25 Həzrət Bab

26 Həzrət Bəhaullah

27 Həzrət Bəhaullah

həyatım Onun dəyanətli dostlarına fəda olsun), Allahın Ali Məzhəri və Onun İlahi Mahiyyətinin Məşriqidir. Qalan hamı Onun bəndələridir və Onun əmrini yerinə yetirir.”.

Həzrət Əbdül-Bəha Özünün əsas məktublarında bu və buna bənzər digər fikirləri ilə Bəhai Dininin prinsipial məsələlərinə dair vahid dünyagörüşün əhəmiyyətini vurğulayır.

Beləliklə, Həzrət Əbdül-Bəhanın möminlərin fərdi suallarına cavab olaraq yazdığı şəxsi məktublarına istinad edib müxtəlif subyektiv nəticələr çıxaran möminlər arasındakı fikir ayrılığı aradan qaldırılmış və onların möminlər tərəfindən birmənalı dərk edilməsinin əsası qoyulmuşdur.

Bundan əlavə başda Dinin Vəlisi olmaqla İnzibati Qayda yaradıldıqdan sonra əvvəllər müxtəlif yerli cəmiyyətlərdə etibar və nüfuza malik şəxslər tərəfindən həyata keçirilən idarəçilik bu təşkilatın ixtiyarına verildi.

## BƏHAİ HƏYATININ NÜMUNƏSİ

Həzrət Bəhaullah Allah Kəlamının Ulu Təcəssümüdür, lakin Onun qırx illik məhbus həyatı ardıcılları ilə söhbətlər aparmaq imkanını məhdudlaşdırmışdı. Buna görə də Vəhyin Şərhçisi, Kəlamın İcraçısı, bəhai həyatının Ən Böyük Numunəsi olmaq kimi mühüm vəzifə fəaliyyətinin ən müxtəlif dövrlərində xarici aləmlə daimi əlaqədə yaşayan Həzrət Əbdül-Bəhanın öhdəsinə düşmüşdü.

O göstərdi ki, müasir həyatın keşməkeşli və sürətli burulğanları arasında, hər yerdə üstünlük təşkil edən materializm və eqoizm içərisində hər halda Həzrət İsanın, Həzrət Bəhaullahın və digər Peyğəmbərlərin insanlardan tələb etdikləri kimi Allaha tam itaətkarlıq və öz yaxınlarına xidmət etmək ruhunda yaşamaq olar.

Bir tərəfdən yoldan çıxaran nəfs, məkrli iblislik, böhtanlar, xəyanətkarlıq, digər tərəfdən məhəbbət, təşviq, sadiqlik və hörmət içərisində O, ətrafında qışın tüğyan edən tufanları və yayın ılıq dərya sularının cilvələndiyi sal qaya üzərində ucaldılmış mayak kimi dayanmışdı. Onun sakitliyi və səmimiliyi mətin və yenilməz olaraq qalırdı.

Onun həyatı elə mömin həyatın təcəssümü idi və O ardıcıllarını belə həyata çağırırdı. O, döyüşən dünya arasında birlik və sülh bayrağını – Yeni Eranın bayrağını qaldıraraq, bu bayraq altına toplaşanları əmin edirdi ki, onlar Yeni Günün ruhundan ilhamlanacaqlar. Bu, keçmişdə Peyğəmbərlərə və övliyalara ilham verən həmin müqəddəs Ruhdur ki, indi tamam başqa vəzifələri yerinə yetirmək üçün özünün yeni təcəssümünü tapmışdır.

# V FƏSİL

# BƏHAİLƏR KİMDİR?

*"İnsandan bir bəhrə hasil olmalıdır. Bəhrə verməyən bir kimsə, Ruhun*[28] *söylədiyi kimi, meyvəsiz bir ağacdır, meyvəsiz ağac isə ancaq oda layiqdir."*

***Həzrət Bəhaullah – Kəlimati Firdövsiyyə***

Herbert Spenser bir dəfə belə demişdi ki, "qurğuşun" niyyətlərdən doğan qızıl davranışı heç bir siyasi kimyagərliklə əldə etmək mümkün olmadığı kimi, heç bir siyasi kimyagərliklə "qurğuşun" fərdlərdən ibarət qızıl cəmiyyətin yaradılmasına da nail olmaq mümkün deyil.

Bütün əvvəlki Peyğəmbərlər kimi Həzrət Bəhaullah da bu həqiqəti təsdiq edərək öyrədir ki, yer üzərində Allah Səltənətini qurmaq üçün əvvəlcə onu insanların ürəyində qurmaq lazımdır. Buna görə də Bəhai Təliminin öyrənilməsinə biz Həzrət Bəhaullahın hər bir insanın davranışına

..............................................................

28 Həzrət İsa

dair tövsiyyələrindən başlamalıyıq, sonra isə bəhailiyin nə demək olduğunu aydın təsəvvür etməyə çalışmalıyıq.

## BƏHAİ HƏYAT TƏRZİ

Bir dəfə Həzrət Əbdül-Bəha bəhai olmaq nə deməkdir sualına belə cavab vermişdir: "Bəhai olmaq – bütün dünyanı sevmək deməkdir; bəşəriyyəti sevmək və ona xidmət etmək, ümumdünya sülhü və qardaşlığı naminə çalışmaq deməkdir". Başqa bir vaxt O, bəhaini "insanın ən yaxşı və kamil keyfiyyətlərini özündə cəmləşdirən şəxs kimi" səciyyələndirmişdir.

Özünün Londondakı söhbətlərinin birində O buyurmuşdur ki, hətta Həzrət Bəhaullahın adını eşitməyən insan da bəhai ola bilər.

Və sonra əlavə etmişdir: "Həzrət Bəhaullahın Təliminə uyğun həyat tərzi keçirən artıq bəhaidir. Digər tərəfdən insan özünü əlli il bəhai adlandıra bilər, amma əgər o bəhai kimi yaşamırsa, bəhai deyildir. Eybəcər adam özünü gözəl adlandıra bilər, lakin o bununla heç kimi aldada bilməz, qara dərili özünü ağ adlandıra bilər, ancaq o da heç kimi, hətta özünü də aldada bilməz" *(Əbdül-Bəha Londonda, s.109).*

Allahın Elçilərini tanımayan insan kölgədə bitən bitki kimidir. O günəşin nə olduğunu bilməməsinə baxmayaraq, tamamilə ondan asılıdır. Dahi Peyğəmbərlər də belə mənəvi günəşlərdir və Həzrət Bəhaullah bizim yaşadığımız günlərin Günəşidir.

Əvvəlki dövrlərin Günəşləri dünyanı isidib canlandırmışlar. Onlar şəfəq saçmasaydılar, indi dünya soyuq və cansız olardı, lakin təkcə indiki dövrün Günəşi əvvəlki günəşlərin şəfəqləri ilə əzizlənmiş meyvələrə yetişmək imkanı verə bilər.

# ALLAHA İBADƏT

Su zanbağının və qızılgülün açılması üçün günəş işığı nə qədər zəruridirsə, bəhai həyat tərzinə mükəmməl şəkildə yiyələnmək üçün də Həzrət Bəhaullahı şüurlu və bilavasitə tanımaq eynilə zəruridir.

Bəhai Həzrət Bəhaullahın insani şəxsiyyətinə deyil, bu şəxsiyyət vasitəsilə təzahür edən İlahu Nura pərəstiş edir. O, Həzrət İsaya, Həzrət Məhəmmədə və bütün əvvəlki Peyğəmbərlərə ehtiram bəsləyir, lakin Həzrət Bəhaullahı bizim yaşadığımız Yeni Era üçün Allah Vəhyinini Daşıyıcısı olaraq öz sələflərinin işini davam etdirmək və tamamlamaq üçün gəlmiş Dünyanın Böyük Müəllimi kimi qəbul edir.

Ağıl ilə qəbul edilmiş inam, eləcə də xarici davranışın nöqsansızlığı hələ o şəxsin bəhai olması demək deyildir. Həzrət Bəhaullah Öz ardıcıllarından tam, səmimi sədaqət tələb edirdi. Ancaq Allah belə tələbi edə bilər, lakin Həzrət Bəhaullah Özünü Allahın Təcəssümü, Onun İradəsinin ifadəçisi sayırdı. Əvvəlki Peyğəmbərlər də bu barədə aydın danışmışlar. Həzrət İsa belə buyurmuşdur:

“Kim ardımca getmək istəyirsə özünü inkar etsin və çarmıxını götürüb ardımca gəlsin. Çünki kim canını xilas etmək istərsə, onu itirəcək; fəqət kim canını Mənim uğrumda itirsə, onu qazanacaqdır” *(İncil, Matta, 16:24-25).*

Bütün Allah Elçiləri müxtəlif ifadələrlə Öz ardıcıllarından eynilə bunu tələb edirdilər. Dinlərin tarixi birmənalı olaraq göstərir ki, bu tələb tanınıb səmimiyyətlə qəbul edildikdə, bütün yer üzündəki müqavimətlərə, fəlakətlərə, təqiblərə və möminlərin əzabla öldürülməsinə baxmayaraq, dinlər inkişaf edib çiçəklənirlər.

Digər tərəfdən hər hansı bir dində möminlik ikiüzlülüklə və riyakarlıqla əvəzlənirsə, bu din süquta uğrayır. Belə din dəbə çevrilir, amma insanın nicat tapmasında və

tərbiyə edilməsində özünün qabiliyyətini itirir, öz ecazkar yaradıcı qüvvəsindən məhrum olur. Əsl din həmişə dəbdən uzaq olub. Allah eləsin ki, o nə zamansa hamının qəbul etdiyi dinə çevrilsin: lakin Həzrət İsanın dövründə olduğu kimi hələlik bu da doğrudur ki: "Əsl həyata aparan yol ensizdir, qapısı isə dardır və çox az adam bunları tapır".

Mənəvi doğuluşun qapısı təbii doğuluşda olduğu kimi insanları ancaq bir-bir və xurafatlardan təmizlənmiş halda buraxır. Əgər gələcəkdə çoxsaylı insanlara bu yoldan keçmək nəsib olsa, bu o demək deyildir ki, darvaza genişlənib, bu ona görədir ki, keçmişdəkindən fərqli olaraq Allahın tələblərinə itaət etməkdə insanlar daha böyük qabiliyyətə nail olmuşlar; uzun sürən acı təcrübə nəhayət, onları bu nəticəyə gətirib çıxaracaqdır ki, Allah yolunu qoyub öz yolu ilə getmək ağılsızlıqdır.

## HƏQİQƏT AXTARIŞI

Həzrət Bəhaullah Özünün bütün ardıcıllarından ədalətli olmağı tələb edir və ədaləti belə müəyyənləşdirir: "Sənin üçün bütün bu nazil etdiklərimizin cövhəri Ədalətdir, ta ki, insan zənni və təqlidi buraxsın, Onun gözəl əsərini tövhid gözü ilə görsün və hər şeyə araşdırıcı gözlə baxsın." *(Həzrət Bəhaullah, Bütün xeyirlərin kökü)*

Allah Nurunun Həzrət Bəhaullahın insani heykəlində (bədənində) təcəssümünə hər bir kəsin əmin olması vacibdir, əks təqdirdə inam heç bir mənası olmayan əhəmiyyətsiz bir söz olardı. Peyğəmbərlərin insanlara tövsiyəsi həmişə ondan ibarət olmuşdur ki, insanlar gözlərini açsınlar, yummasınlar, öz ağıllarından istifadə etsinlər, onu kütləşdirməsinlər.

Sadə kölə inamı deyil, ancaq aydın müşahidə və sərbəst düşünçə tərzi onlara xurafat pərdəsini cıraraq, kor-ko-

ranə təqlid buxovlarından azad olmaq və Yeni Vəhyin həqiqətlərini başa düşməyə nail olmaq imkanı verir.

Bəhai olmaq istəyən hər bir kəs qorxmaz həqiqət axtarıcısı olmalıdır, lakin o, maddi mahiyyət axtarışına yuvarlanmamalıdır. O sağlam ağıla uyğun gəlməyən şeyləri inkar edərək, həqiqətin əldə olunmasında istifadə etmək üçün Allah tərəfindən ona bəxş edilmiş mənəvi və fiziki qüvvələri oyatmalıdır.

Əgər ürək safdırsa və ağıl xurafatlardan azaddırsa, onda hansı məbəddən təzahür etməsinə baxmayaraq, çalışqan axtarıcı İlahi Nuru həmişə tanıyacaqdır.

Həzrət Bəhaullah sonra buyurur: "...insan özünü tanımalı, nəyin onu ucalığa, nəyin alçaqlığa, nəyin izzətə, nəyin zillətə, zənginliyə və yoxsulluğa apardığını bilməlidir *(Həzrət Bəhaullah, Tarazat)*.

"Bütün biliklərin kökü Allahı tanımaqdır (şanı ucalsın Onun); buna isə Onun İlahi Zühurunu tanımaqla nail olmaq olar." *(Həzrət Bəhaullah, Bütün xeyirlərin kökü)*.

Allahın Zühuru – Kamil İnsan, Bəşəriyyətin Ali Nümunəsi, İnsansevərlik Ağacının ən yaxşı meyvəsi deməkdir. Nə vaxta qədər ki, biz Onu tanımayacağıq, biz daxilimizdə olan gizli imkanları dərk etməyəcəyik. Həzrət İsa bizə zanbağın böyüməyinə baxmağı buyuraraq deyir: "Tarla zanbaqlarının necə böyüdüyünə baxın; nə zəhmət çəkirlər, nə də iplik əyirirlər; Fəqət sizə deyirəm; Süleyman belə, bütün izzətinə baxmayaraq bunlardan biri kimi geyinməmişdi" *(İncil. Matta, 6:28-29)*.

Zanbaq çox çəlimsiz bir soğanaqdan cücərməyə başlayır. Əgər biz zanbağın çiçək açmasını heç zaman görməsək, onun bənzərsiz ləçəklərinə və çiçəyinə baxmasaq, onda biz bu soğanaqda gizlənən həqiqi gerçəkliyi necə anlaya bilərik?! Biz onu kəsib doğraya bilərik, lakin yuxuya getmiş o gözəlliyi heç zaman aşkar edə bilmərik, onu necə oyatmağı yalnız bağban bilər.

Eləcə də nə qədər ki, biz Zühurla aşkarlanan İlahi Nuru görməmişik, biz öz təbiətimizdə və yaxınlarımızın təbiətində gizlənmiş mənəvi gözəllik haqqında heç bir təsəvvürə yiyələnməyəcəyik. Allahın Zühurunu tanıyıb sevməklə və Onun təliminə riayət etməklə, biz addım-addım daxilimizdəki həqiqətləri anlamağa qadir oluruq; o zaman, ancaq o zaman həyatın və eləcə də bütün kainatın məqsədi bizə aydın olacaqdır.

## ALLAHA MƏHƏBBƏT

Allahın Məzhərini tanımaq – həm də Onu sevmək deməkdir. Bunların birini digərsiz təsəvvür etmək qeyri-mümkündür. Həzrət Bəhaullahın təbirinə görə, Allahın insanı yaratmaqda məqsədi budur ki, insan Allahı tanısın və sevsin. Həzrət Bəhaullah lövhlərinin birində buyurur:

"Bütün varlıqların yaradılma səbəbi məhəbbət olmuşdur. Bu barədə məşhur bir kəlamda yaxşı deyilir: "Mən gizli xəzinə idim və istədim ki, başa düşülüm. Buna görə Mən məxluqatı yaratdım ki, tanınım".

"Gizli kəlamlar"da O buyurur: "Ey varlıq oğlu! Məni sev ki, Mən də səni sevim. Sən Məni sevməsən, Mənim məhəbbətim sənə heç vəchlə çatmaz. Bunu bil, ey bəndə!"

"Sənə öz Ruhumdan bir nəfəs üfürdüm ki, Mənə aşiq olasan. Nə üçün Məni tərk edib başqa bir sevgili axtardın!"

Bəhai həyatının yeganə məqsədi – Allah-taalanın məhəbbətini qazanmaq, misli-bərabəri olmayan məşuq kimi Pərvərdigarını sevmək, onu ən yaxın və ən yaxşı dost bilməkdir. Allahı sevmək – hamını və hər şeyi sevmək deməkdir, çünki hər şeyi Allah xəlq etmişdir.

Əsl bəhai bütün varlıqları təmiz qəlblə və şövqlə sevəndir. Nifrət hissi ona yaddır. O heç kimə nifrət etmir, çünki o hər bir insanın üzündə Sevgilinin Üzünü görür və

hər yerdə Onun cizgilərini tapmağı öyrənir. Onun məhəbbəti təriqət, millət, sinif və ya irq baxımından məhdudlaşmır.

Həzrət Bəhaullah buyurur:

“Keçmiş zamanlarda deyərdilər: “Vətən sevgisi - iman rəmzidir”. Lakin bu Zühur günlərində Əzəmətlinin dili ilə söylənilir: “Bəxtiyar o kəs deyil ki, öz vətənini sevir, bəxtiyar o kəsdir ki, bütün dünyanı sevir” *(Həzrət Bəhaullah, Lövhi-Dünya).*

Digər bir yerdə söylənilir: “Mübarəkdir o kəs ki, qardaşını özündən üstün tutar. Həqiqətən, belə bir insan, Alim və Hikmətli Allahın İradəsinin gücü ilə, Qırmızı Gəmidə olan Bəha əhli arasında sayılır.” *(Həzrət Bəhaullah, Kəliməti-Firdövsiyyə)*

Həzrət Əbdül-Bəha bizə öyrədir ki: “Min bədəndə bir can olaq, çünki biz nə qədər bir-birimizi çox sevsək, Allaha da bir o qədər yaxın olarıq”.

Amerikada məclislərin birində Həzrət Əbdül-Bəha buyurmuşdu: “Beləliklə, bütün müqəddəs Peyğəmbərlərin ilahi dinləri mahiyyət etibarı ilə birdir, ancaq adlarda fərq vardır. Haradan gəlməsinə baxmayaraq, insan işığa doğru can atmalıdır. Hansı torpaqda bitməsindən asılı olmayaraq, insan qızılgülə heyran olmalıdır. Hansı mənbədən gəlməsinə baxmayaraq, o, həqiqəti axtarmalıdır.

Çırağa bağlılıq hələ işığı sevmək deyildir. Torpağı tərifləmək insanın məqamına yaraşmır, lakin bu torpaqda çiçəklənən qızılgül tərifə layiqdir. Ağaca pərəstiş etmək mənasızlıqdır, lakin bu ağacın meyvələrini yemək faydalıdır. Dadlı meyvələr hansı ağacda yetişməsindən asılı olmayaraq insana ləzzət verməlidir.

Kimin dilindən deyilməsinə baxmayaraq, həqiqi söz qəbul olunmalıdır. Hansı kitabda yazılmasından asılı olmayaraq, mütləq həqiqətlər də həmçinin qəbul edilməlidir. Əgər biz xurafatın təsiri altına düşsək, bu bizi tənəzzülə

və nadanlığa aparıb çıxarar. Dini, milli və irqi çəkişmələr qarşılıqlı anlaşılmazlığın nəticəsidir.

Əgər biz dinlərin təməlini təşkil edən prinsipləri açıqlamaq məqsədilə onları tədqiq etməyə çalışsaq, onda biz onların tam harmoniyada olduğunu görəcəyik, çünki bütün dinlərin əsası birdir, müxtəlif deyildir. Buna görə də dünyanın müxtəlif dinlərinin ardıcılları öz aralarında razılığa gəlib barışa bilərlər" *(Əbdül-Bəhanın müraciəti, Amerika 23 may 1912-ci il).*

Digər yerdə O buyurur:

"Hər bir sevən qəlb başqalarını sevməli və özünün bütün xəzinəsini və həyatını onlara verməlidir, hər bir kəs bütün vasitələrlə və qüvvələrlə başqalarını şad və xoşbəxt etməyə çalışmalıdır. Lakin onlar da öz növbəsində təmənna ummamalı və fədakarlığa hazır olmalıdırlar. Və ancaq belə olduqda Günəşin Şəfəqləri bütün üfüqləri nura boyayar, bu Təranə bütün xalqları sevindirər və xoşbəxt edər, bu İlahi Əlac bütün xəstəliklərin ümumi müalicə vasitəsinə çevrilər, bu həqiqət Ruhu hər bir qəlbin döyünməsinə səbəb olar" *(Əbdül-Bəhanın müraciəti, c. 7, s. 147).*

## AZADLIQ

Allaha sədaqətli olmaqla insan özünü Allahdan gəlməyən bütün şeylərdən azad edir, yəni ürəyini bütün eqoist, mənasız və cılız arzulardan təmizləyir. İnsanı Allaha doğru aparan yol zənginlikdən və ya yoxsulluqdan, sağlamlıqdan və ya xəstəlikdən, sarayda və ya daxmada yaşamaqdan, gülüstandan və ya işgəncə kamerasından keçə bilər: necə olursa olsun, bəhai öz qismətinə düşən püşkü "sevinclə" qəbul etməyə hazır olmağı öyrənməlidir. Azad olmaq ətrafdakı bütün şeylərə və çirkin şəraitə küt laqeyd-

lik demək deyildir; o həmçinin Allah tərəfindən yaradılmış yaxşı şeylərə də nifrət bəsləmək demək deyildir.

Əsl bəhai hissiyyatsız, ruhsuz və yaxud tərki-dünya ola bilməz. O, Allaha doğru aparan yolda çoxlu maraqlı məşğuliyyət, çoxlu iş və çoxlu sevinclər tapacaq və həzz almaq, yaxud Allahın ona qadağan etdiyinin həsrəti üçün bu yoldan bir tük qədər də kənara çıxmayacaqdır.

İnsan Bəhailiyi qəbul edəndən sonra Allahın İradəsi onun iradəsinə çevrilir, çünki Allaha qarşı çıxmaq ona yaraşmaz. Allah yolunda heç bir fəlakət onu qorxuda, heç bir qəm-qüssə onu məyus edə bilməz. Məhəbbət nuru onun qaranlıq günlərini işıqlandırır, iztirablarını sevincə, əzablarını ləzzətə çevirir. Həyat qəhrəmanlıq səviyyəsinə yüksəlir, ölüm isə xoşbəxt hadisəyə dönür.

Həzrət Bəhaullah buyurur: “Hər kim ürəyində Məndən savayı hər hansı bir şeyə hətta xardal toxumu qədər məhəbbət bəsləyirsə, o Mənim Səltənətimə daxil ola bilməz” *(Həzrət Bəhaullah, Heykəl surəsi).*

“Ey bəşər oğlu! Məni sevirsənsə, özündən üz çevir. Mənim razılığımı istəyirsənsə, öz istəyinə göz yum. Beləcə, sən məndə fani ol ki, Mən də səndə əbədi yaşayım. *(Gizli kəlamlar)*

“Ey mənim bəndəm! Dünya zəncirindən özünü qurtar və nəfs zindanından özünü azad et. Fürsəti yaxala. Çünki bu vaxtı daha görməyəcəksən və bu zamanı heç vaxt tapa bilməyəcəksən! *(Gizli kəlamlar)*

## İTAƏTKARLIQ

Allaha sədaqət Onun bəyan etdiyi tövsiyələrə, hətta bu hökmlərin səbəbi başa düşülmədikdə belə onlara itaət etməyi nəzərdə tutur. Matros kapitanın əmrlərinə hətta onların səbəbini bilmədikdə də gözüyumulu tabe olur. Lakin

onun nüfuzunu kor-koranə qəbul etmir. O, tamamilə yaxşı bilir ki, kapitan sınaqdan çıxmışdır və dənizçi rütbəsini almaq üçün öz hüquqlarına dair kifayət qədər dəlillər təqdim etmişdir. Əgər bu belə olmasaydı, onda matrosun həmin kapitanın rəhbərliyi altında xidmət etməsi ağılsızlıq olardı.

Bəhai də dənizçi kimi öz Xilaskar kapitanına gözüyumulu itaət etməlidir, lakin əgər o da əvvəlcədən əmin olmasa ki, bu kapitan özünün həmin məqama layiq olmasına dair inandırcı dəlillər vermişdir, bu zaman ona itaət etməsi əslində düşüncəsizlik olardı.

Belə dəlillər aldıqdan sonra itaətdən imtina etmək isə daha böyük düşüncəsizlikdir, ona görə ki, yalnız müdrik müəllimə şüurlu və açıq-aşkar itaət etməklə biz onun müdriklik bəhrələrini dərk edə bilər və bu müdriklikdən xeyir götürə bilərik.

Əgər kapitan təcrübəli olmasaydı, onda matrosların heç biri ona itaət etməzdilər. Bu zaman gəmi öz limanına gedib çata bilərdimi və matroslar dənizçilik məharətini öyrənə bilərdilərmi? Həzrət İsa aydın göstərir ki, itaət – dərk etməyə gedən yoldur. O buyurmuşdur:

“Öyrətdiyim Mənim deyil, Məni göndərənindir. Kim Onun iradəsini yeritmək istəyirsə, öyrətdiklərimin Allahdanmı olduğunu, yoxsa Özümdənmi söylədiyimi biləcək.” *(İncil. Yəhya, 7:16-17)*

Və həmçinin Həzrət Bəhaullah da buyurur:

“Allaha həqiqi iman və Onun tanınması, Onun nazil etdiyi qəbul edilməyincə və Onun hökmlərinə və İzzət Qələminin Kitabda izhar etdiklərinə riayət edilməyincə tamamlanmış sayılmaz.” *(Həzrət Bəhaullah, Təcəlliyat Lövhü)*

İndiki demokratik dövrdə gözüyumulu itaət kütləvi məziyyət sayılmır. Əlbəttə, adi adamın iradəsinə tam itaət etmək təhlükəli olardı. Bəşəriyyətin birliyi yalnız İlahi İradə ilə hər kəsin və hamının tam ahəngdarlığı zamanı əldə edilə bilər.

Nə vaxta qədər ki, bu İradə aydın şəkildə üzə çıxmayacaq və insanlar bütün digər rəhbərlərdən əl çəkib Allahın Elçisinə itaət etməyəcəklər, o vaxta qədər, çəkişmələrin və münaqişələrin ardı-arası kəsilməyəcək və insanlar bir-birilə rəqabət aparacaqlar, Allah xatirinə və ümumi firavanlıq naminə ahəngdar işləmək əvəzinə öz enerjilərinin əksəriyyətini yaxın adamlarını məhv etməyə yönəldəcəklər.

## XİDMƏT

Allaha sədaqət yaxın adamlara xidmətə həsr olunmuş həyatda öz ifadəsini tapır. Biz Allaha başqa yolla xidmət edə bilmərik. Əgər biz yaxın qonşularımıza arxa çeviriksə, deməli, biz Allaha arxa çeviririk. Həzrət İsa buyurmuşdur:

"Sizə doğrusunu deyirəm: siz bu ən kiçik qardaşlarımdan birinə etdiyinizi Mənə etmiş oldunuz." "Sizə doğrusunu deyirəm: siz bu ən kiçiklərdən birinə etmədiyinizi Mənə etməmiş oldunuz." *(İncil, Matta, 25:40,45).*

Həzrət Bəhaullah buyurur:

Ey insan oğlu! Əgər gözün mərhəmət axtarırsa, onda mənfəətini burax və bəşərin faydasına olan şeylərdən yapış. Əgər gözün ədalətdədirsə, özün üçün seçdiyini başqası üçün seç. *(Həzrət Bəhaullah, Kəliməti Firdövsiyyə)*

Həzrət Əbdül-Bəha buyurur:

"Bəhai Təlimində incəsənətlə, elmlə və sənətlə məşğul olmaq ibadətə bərabər tutulur. İnsan yüksək keyfiyyətli bir parça kağız düzəltmək üçün bütün səyini toplayıb vicdanla çalışırsa, bununla Allahı mədh edir. Ümumiyyətlə, insanın səmimi qəlbdən etdiyi bütün çalışmalar və səylər, əgər onlar yüksək ideallar naminə və bəşəriyyətə xidmət etmək arzusu ilə görülürsə, Allaha xidmət etmək deməkdir.

Allaha xidmət etmək – bəşəriyyətə xidmət etmək və

insanlara onların ehtiyaclarında kömək etmək deməkdir. Xidmət – ibadət deməkdir. Xurafatdan uzaq olan və bəşəriyyətin həmrəyliyinə inanan, xəstəyə həssaslıqla və qayğıkeşliklə yanaşan həkim Allahı mədh edir” *(Nyu-York, 1914-cü il).*

## TƏBLİĞ

Əsl bəhai nəinki Həzrət Bəhaullahın Təliminə inanır, o həmçinin bu Təlimdə özünün bütün həyatı üçün ilham və rəhbərlik tapır, öz şəxsi varlığının mənbəyi olan bu bilikləri başqaları ilə də sevinclə bölüşür. Yalnız bu halda insan bütünlüklə “Müqəddəs Ruhdan qüvvət və kömək” ala bilər.

Hamı bəlağətli natiq, yaxud istedadlı yazıçı ola bilməz, ancaq hamı öz nümunəvi həyat tərzi ilə başqalarını öyrədə bilər.

Həzrət Bəhaullah buyurur:

“Bəha əhlinə yaraşan budur ki, öz nitqləri ilə Rəbbin müzəffər olmasına yardım etsinlər, insanlara gözəl əməl və xasiyyətləri ilə öyüd versinlər, zira əməl sözdən daha təsirlidir. “ *(Həzrət Bəhaullah, Kəliməti-Firdövsiyyə).*

Bununla belə, bəhai heç bir vəhclə öz ideyalarını onları dinləmək istəməyən insanlara zorla qəbul etdirməməlidir. O, insanları Allah Səltənətinə dəvət etməlidir. Lakin onları oraya qovub, salmamalıdır. Bəhai öz sürüsünü ağacla və itlə qovan çobana deyil, sürünü otaran və qoyunları tütəyinin səsi ilə heyran edən mehriban çobana bənzəməlidir. Həzrət Bəhaullah “Gizli Kəlamlar”da buyurur:

“Hikmətli insanlar o şəxslərdir ki, dinləyən olmasa, danışmazlar, necə ki, istəyən olmasa, saqi piyalə verməz və aşiq məşuqun Camalına çatmasa, ürəkdən coşmaz. İndi elm və hikmət toxumlarını qəlbinizin təmiz torpağına sə-

pib örtün ki, ilahi hikmətin sünbülgülləri torpaqda deyil, könüllərdə göyərsin. (Gizli Kəlamlar)

"İşraqat Lövhü"ndə O buyurur: "Ey Bəha əhli! Siz Allahın məhəbbət məşriqləri, Onun inayətinin dan yerisiniz. Dilinizi nalayiq söz və ya lənətlə kirlətməyin, gözlərinizi yaraşmayan şeylərdən qoruyun. Malik olduqlarınızı göstərin. Əgər iltifatla qəbul edilərsə, məqsədinizə çatmışsınız; əgər yox, onda etiraz mənasızdır. O şəxsi özünə buraxın və Rəbbə, Qoruyucu və Qəyyuma üz tutun. Kədərə səbəb olmayın, o ki qaldı fəsad və niza ola. Buna ümid bəsləyirik ki, Onun inayət ağacının altında həqiqi təlim-tərbiyə alıb Allahın istəyinə uyğun olan əməllər edəsiniz. Sizin hamınız tək bir ağacın yarpaqları, tək bir dənizin damlalarısınız.

## NƏZAKƏT VƏ HÖRMƏT

Həzrət Bəhaullah buyurur:

"Ey Allah adamları! Sizlərə nəzakət tövsiyə edirəm, zira bu hər şeydən başqa, məziyyətlərin şahıdır. Nəzakət işığı ilə nurlananlar və dürüstlük libası ilə bəzənənlər nə xoşbəxtdir. Nəzakət sahibi çox yüksək məqama malikdir. Ümidvaram ki, bu Məzlum və hər kəs ona yetişər, ondan bərk yapışar və gözlərimizi ona dikərik. Bu qəti bir hökmdür ki, İsm`i-Əzəmin Qələmindən nazil olmuşdur." *(Həzrət Bəhaullah, Lövhi-Dünya)*

O dönə-dönə təkrarlayır: "İzn verilmişdir ki, dünyanın xalqları və tayfaları bir-birilə sevinc və şadlıqla ünsiyyət etsinlər. Ey insanlar! Bütün dinlərin ardıcılları ilə dostluq və ülfət ruhunda ünsiyyət edin." *(Həzrət Bəhaullah, Bişarat lövhü)*

Həzrət Əbdül-Bəha Amerika bəhailərinə məktubunda buyurur:

"Çəkinin, çəkinin. Birdən hansısa qəlbi sındırarsınız.

Çəkinin, çəkinin. Birdən hansısa ürəyi kədərləndirərsiniz.

Çəkinin, çəkinin. Birdən kiməsə bədxahlıq edərsiniz.

Çəkinin, çəkinin. Birdən hər hansı bir məxluqatın ümidsizliyinə səbəb olarsınız.

Əgər hər hansı bir kəs kiminsə qəlbinin kədərlənməsinə, yaxud hər hansı bir ürəyin ruhdan düşməsinə səbəb olarsa, o kəs yaşamaqdansa, yerə girsə yaxşıdır."

O öyrədir ki, gül qönçədə gizləndiyi kimi İlahi Ruh da eləcə zahiri görkəminin kobudluq və eybəcərliyindən asılı olmayaraq, hər bir insanın ürəyində yaşayır.

Buna görə də əsl bəhai hər bir insanla bağbanın nadir və gözəl bitki ilə rəftar etdiyi kimi davranır. O bilir ki, etdiyi heç bir səbirsiz hərəkətlə qönçəni çiçəyə çevirə bilməz və buna ancaq İlahi günəşin şəfəqləri qadirdir. Beləliklə, onun məqsədi bu həyatverici işığı bütün qaranlıq ürəklərə və ocaqlara çatdırmaqdır. Həzrət Əbdül-Bəha buyurur:

"Həzrət Bəhaullahın tövsiyələri arasında insandan bütün şəraitlərdə İlahi mərhəmət nümunəsi olaraq düşməni dost və bədxahı xeyirxah bilməyi tələb edən bir hökm var. O heç bir kəsi özünün düşməni saymamalı və ürəyində ona qarşı kini gizlədərək, üzdə mehriban olmamalıdır. Bu – riyakarlıqdır, həqiqi məhəbbət deyil. Yox, əksinə, insan gərək düşmənin simasında özünün dostunu görsün, bədxaha gərək xeyirxah insan kimi baxsın və onunla dostu və xeyirxahı kimi davransın. Çünki ürəkdən gəlməyən məhəbbət – məhəbbət deyil, riyakarlıqdır." *(Əbdül-Bəhanın nitqi, "Qərbin ulduzu", 30 oktyabr 1912-ci il, c.4, s.191)*

Bu məsləhət ilk baxışda anlaşılmaz və ziddiyyətli görünür, lakin biz özümüzə aydınlaşdırsaq görəcəyik ki, insanı nifrətə və qərəzçiliyə vadar edən zahiri maddi mahiyyətindən asılı olmayaraq, onda həm də yalnız məhəbbət

və xeyirxahlıq mənbəyi və əsl insan mahiyyəti olan daxili mənəvi mahiyyət də vardır.

Bizim düşüncələrimiz və məhəbbətimiz məhz bizim yaxın dostlarımızın hər birində açıqlanan bu insani mahiyyətin mənəvi substansiyasına[29] yönəldilməlidir. İnsanın daxili mahiyyəti həyatda oyandığı zaman onun zahiri mahiyyəti də oyanır və dəyişilir.

## BAŞQALARINDA EYİB AXTARMAQ

Bəhai Təlimi başqalarında qüsur və səhv axtarmaqdan çəkinməyi qətiyyətlə israr edir və məsləhət görür. Həzrət İsa bu barədə ciddi sözlər söyləyib. Lakin "Dağdakı vəzi" adətən "kamil insanlar üçün məsləhətlər" hesab edirlər və deyirlər ki, heç bir sadə xristian bunlara uyğun yaşaya bilməz. Həzrət Bəhaullah və Həzrət Əbdül-Bəha belə şəraitdə Onların tələb etdiklərinin hamıya aydın olması üçün çox çalışmışlar. Biz "Gizli kəlamlar" kitabında oxuyuruq:

"Ey insan oğlu!

Öz günahın olduğu halda, heç kimin günahı barədə nəfəs belə çəkmə! Əgər bu əmrdən çıxsan, lənətlənərsən. Mən də buna şahidəm."

"Ey varlıq oğlu!

Özünə rəva görmədiyini başqasına da rəva görmə. Eləməyəcəyin işi demə. Bu Mənim sənə əmrimdir, ona əməl et!

Həzrət Əbdül-Bəha buyurur:

"Başqalarının günahlarını dilinizə gətirməyin, onlardan ötrü dua edin və öz səhvlərini düzəltməkdə onlara məhəbbətlə kömək göstərin.

..............................................................

29 Bütün əşya və hadisələrin əsasını təşkil edən maddə, mahiyyət, cövhər.

Pisləri deyil, həmişə yaxşı cəhətləri görməyə çalışın. Əgər hər hansı bir insanın on yaxşı və bir pis keyfiyyəti varsa, biri unudub on yaxşı keyfiyyətə baxmaq lazımdır, və əgər insanın bir yaxşı keyfiyyəti və on pis keyfiyyəti varsa, on pis keyfiyyəti unudub bir yaxşını görmək lazımdır. Hətta düşmən haqqında da qərəzli danışmayın."

Həzrət Əbdül-Bəha bir amerikalı dostuna yazır:

"İnsanın ən pis xüsusiyyəti və ən böyük günahı qeybət etməkdir, xüsusilə də bu, Allahın mömin bəndələrinin dilindən çıxanda. Əgər qeybət qapılarını əbədi bağlayan bir vasitə tapılsaydı və Allahın hər bir mömin bəndəsi öz dilini başqalarını təriflәmәk üçün açsaydı, onda Həzrət Bəhaullahın Təlimi yayılar, qəlblər nurlanar, ruh yüksəkliyi bərqərar olar və insan aləmi əbədi xoşbəxtliyə qovuşardı" *("Qərbin ulduzu" jurnalı, c.4, s.122).*

## TƏVAZÖKARLIQ

Bəhai Təlimi bir tərəfdən bizə başqalarının səhvlərinə göz yummağı və onların ancaq müsbət cəhətlərini görməyi təlqin edir, digər tərəfdən isə bizə öz səhvlərimizi aşkar etməyi və müsbət məziyyətlərimizə göz yummağı təlqin edir.

Həzrət Bəhaullah "Gizli Kəlamlar"da buyurur:

"Ey varlıq oğlu!

Necə oldu öz qüsurlarını unudaraq Mənim bəndələrimin qüsurları ilə məşğul oldun? Kim belə etsə, ona Mənim lənətim olsun."

"Ey mühacirlər!

Dil məni zikr etmək üçündür; onu qeybətlə bulaşdırmayın. Əgər odlu nəfsiniz sizə üstün gəlsə, onda Mənim yaratdıqlarımın eyiblərini deyil, öz eyiblərinizi xatırlayın.

Çünki sizin hər biriniz öz nəfsinizi mənim bəndələrimin nəfsindən daha yaxşı tanıyırsınız."

Həzrət Əbdül-Bəha buyurur:

"Qoy sizin həyatınız Məsih Səltənətini əks etdirsin. O ondan ötrü gəlməmişdi ki, Ona xidmət etsinlər, gəlmişdi ki, başqalarına xidmət etsin. Həzrət Bəhaullahın Dinində bütün bəndələr bacı və qardaşdır. Elə ki, hər hansı bir kəs özünü başqasından yaxşı və üstün hiss etməyə başlayır, o ağır vəziyyətə yuvarlanır və bu pis fikri özündən uzaqlaşdırmayınca, o, Allah Səltənətinə xidmət etməyə layiq olmur. Özündən narazı olmaq inkişafa aparır, özündən razılıq şeytan əlamətidir, özündən narazılıq isə Mərhəmətlinin təzahürüdür.

Əgər hər hansı bir kəsin min yaxşı məziyyəti varsa o bunları görməməlidir, əksinə öz qüsurlarını axtarmalıdır. İnsan nə qədər kamilləşsə də o hələ kamil deyildir, belə ki, həmişə daha yüksək məqsəd mövcuddur və insan bu yüksək kamilliyə çatmaq istərkən özündən narazı hala düşür. Özünü tərif isə eqoizm əlamətidir." *(Mirzə Əhməd Söhrabın gundəliyindən, yanvar 1919-cu il).*

Öz günahlarımızı etiraf edib səmimiyyətlə təəssüfləndiyimizi bildirmək bizə hökm edilsə də, günahdan azad olunmaq üçün keşişlər və digər şəxslər qarşısında tövbə etmək qadağandır.

Həzrət Bəhaullah Bişarat lövhündə buyurur:

"Günahkar özünü Allahdan başqa hər şeydən inqita etmiş və azad bir halda gördükdə Ondan əfv və bağışlama diləməlidir. İnsanlar qarşısında günah və xətaların etiraf edilməsi caiz deyildir, çünki bu ilahi əfvə heç vaxt səbəb olmamış və olmayacaqdır. Bundan əlavə, insanlar qarşısında bu cür etiraf o insanın həqarət və zillətinə gətirir, Allah isə (şanı ucalsın Onun) Öz bəndələrinin həqarətini arzu etmir. O, həqiqətən, Rəhmli və Rəhmandır. Günahkar özü ilə Allah arasında olmaqla, Mərhəmət dəryasından

əfv diləməli, kərəm Göyündən bağışlama üçün yalvararaq deməlidir:...”

## DOĞRULUQ VƏ ETİBAR

Həzrət Bəhaullah “Tarazat Lövhü”ndə buyurur: “Həqiqətən, bu yer üzündə yaşayanların hamısı üçün əmin-amanlıq qapısı, Mərhəmət Sahibi tərəfindən izzət əlamətidir. Ona malik olan, həqiqətən, sərvət və firavanlıq xəzinələrinə sahib olur. Etibar insanların dincliyinə və əmin-amanlığına aparan böyük qapıdır. Həqiqətən, hər bir işin möhkəmliyi ondan asılı olmuş və asılıdır. Bütün iqtidar, əzəmət və sərvət səltənətləri onun işığı ilə nurlanır.

Ey Bəha əhli! Etibar, doğrudan da, sizin vücudunuza ən gözəl libas, sizin başınıza şərəf tacıdır. Hər Şeydən Xəbərdar Əmr Sahibinin hökmü ilə ondan möhkəm yapışın!”

Başqa bir yerdə O buyurur:

“İmanın cövhəri az söz, bol əməldir; sözləri əməlindən çox olanın ölməsi qalmasından yaxşıdır, bunu yəqin bilin.” (Həzrət Bəhaullah, Bütün xeyirlərin kökü)

Həzrət Əbdül-Bəha buyurur:

“Doğruluq bəşəriyyətin bütün xeyirxahlıqlarının təməlidir. Doğruluq olmadan bütün aləmdə insan qəlbinin inkişafı və nailiyyəti mümkün deyildir. Bu alicənab keyfiyyət insan qəlbinə hakim kəsilən zaman, bütün digər İlahi xüsusiyyətlər də özünü göstərəcəkdir” (Əbdül-Bəhanın məktubları, c.2, s.459).

“Qoy sizin üzünüzdən həqiqət və düzgünlük işığı şəfəq saçsın, bu şəfəqlər sizin işgüzar və digər qarşılıqlı münasibətləriniz zamanı sizin sözlərinizin, vədlərinizin qüsursuzluğuna tam etimad və inam yaratsın” *(Əbdül-Bəha, London bəhailərinə məktub. Oktyabr 1911-ci il)*

# ÖZÜNÜDƏRK

Həzrət Bəhaullah daim tələb edir ki, insanlar özlərinin əsl daxili mahiyyətini təşkil edən gizli kamil keyfiyyətləri dərk etsinlər və onların tam şəkildə üzə çıxmasına imkan versinlər. Bu daxili mahiyyət insanın zahiri formasından fərqlənir. Belə ki, zahiri forma ən yaxşı halda məbəd, ən pis halda isə insan üçün əsl məhbəsdir.

Həzrət Bəhaullah "Gizli kəlamlar"da buyurur:

"Ey varlıq oğlu! Səni qüvvət əlləri ilə yaratdım, qüdrət barmaqları ilə xəlq etdim. Nurumun cövhərini səndə əmanət qoydum. Buna razı ol və başqa bir şey axtarma. Mənim əsərim kamil və hökmüm nüfuzludur. Ona şəkk etmə və şübhə ilə yanaşma."

"Ey ruh oğlu! Səni zəngin yaratdım, nə üçün yoxsulluğa yuvarlanırsan? Səni əziz yaratdım, nə üçün özünü zəlil tutursan? Səni elm cövhərindən zahir etdim, nə üçün məndə deyil, başqasında elm axtarırsan? Səni məhəbbət gilindən yoğurdum, necə Məndən başqası ilə məşğulsan? İndi dön özünə bax ki, Məni özündə qüvvətli, qüdrətli və qəyyum tapasan."

"Ey bəndəm! Sən qaranlıq qında gizləndiyi üçün dəyəri sərrafların yanında örtülü qalmış cəvahirli bir qılınc kimisən. Elə isə nəfsi-həvanın qınından çıx ki, sənin cövhərin aləm əhlinə aşkar və aydın olsun."

"Ey dostum! Sən Mənim Müqəddəs Səmamın günəşisən, özünü dünyanın qara pərdəsinə bürümə. Qəflət hicabını yırt ki, örtüksüz və pərdəsiz halda, buludlar arxasından çıxıb bütün varlıqları həyat donu ilə bəzəyəsən."

Həzrət Bəhaullahın Öz ardıcıllarını səslədiyi həyat, həqiqətən, elə ləyaqətlidir ki, insanların bütün imkanları daxilində insana ilham verə bilmək qabiliyyətinə malik olan bundan yüksək və gözəl heç nə yoxdur.

Özündəki mənəvi başlanğıcı həyata keçirmək, – yəni

“bizi Allah yaradıb və Onun dərgahına da qayıtmalıyıq” kəlamının ali həqiqətini dərk etmək deməkdir. Allahın dərgahına olan bu qayıdış bəhainin ən ali məqsədidir və həmin məqsədə nail olmağın yeganə yolu – Allahın Peyğəmbərlərinə itaət etməkdir, bizim dövrümüzdə isə Yeni Eranın Peyğəmbəri – Həzrət Bəhaullaha itaət etməkdir.

## VI FƏSİL

## DUA

*“Dua – nərdivandır, onun vasitəsilə hər bir kəs Allah dərgahına yüksələ bilər.”*

***Həzrət Məhəmməd***

Həzrət Əbdül-Bəha buyurur: “Dua – Allahla söhbət etmək deməkdir.”

Allah Öz İradəsini və Məqsədini insanlara bildirmək üçün onlarla başa düşüləcək bir dildə danışmalıdır və bunu Özünün Müqəddəs Peyğəmbərlərinin dili ilə edir. Peyğəmbərlər insanlar arasında yaşadıqları zaman onlarla üzbəüz danışır və Allahın Vəhylərini insanlara çatdırırlar, lakin dünyalarını dəyişdikdən sonra onların təlimi insanlara yazılı kəlamlar və mətnlər vasitəsilə çatdırılır.

Amma bu, Allahın insanla danışa biləcəyi yeganə üsul deyil. Bir də nitqdən və yazıdan asılı olmayan Ruhun dili vardır ki, onun vasitəsilə Allah kimliyindən, irqi və dini mənsubiyyətindən asılı olmayaraq, həqiqət axtaran hər bir

qəlblə ünsiyyətə girə və onu ilhamlandıra bilir. Bu dilin vasitəsilə Peyğəmbər hətta dünyasını dəyişdikdən sonra da möminlərlə danışmaqda davam edir. İsa Məsih çarmıxa çəkildikdən sonra da Öz şagirdləri ilə danışır və onları ruhlandırır.

Əslində İsa Məsihin o zaman şagirdlərinə təsiri sağlığında olduğundan daha qüvvətli idi. Digər Peyğəmbərlərlə də belə olmuşdur. Həzrət Əbdül-Bəha bu ruhi dili dəfələrlə xatırlayır. Belə ki, məsələn, O buyurur:

"Biz, səmavi dillə – Ruhun Dili ilə danışmalıyıq, çünki bu dil ürəklərin və qəlblərin dilidir. O, bizim dilimizdən fərqlənir, necə ki, bizim nitqimiz qışqırıqlar və səslərlə ifadə olunan heyvanların dilindən fərqlənir.

Allahla danışan o dil – Ruhun Dilidir. Dua etdiyimiz zaman biz bütün maddi şeylərdən azad olub Allaha müraciət edərkən, sanki ürəyimizdə Onun səsini eşidirik... Həqiqi ruhi vəziyyətə çatdıqda bizim hər birimiz Allahın səsini eşidə bilərik." *(Əbdül-Bəha ilə miss Etel Rozenberqin söhbətindən)*

Həzrət Bəhaullah buyurur ki, yüksək mənəvi həqiqətlər yalnız ruhi dillə çatdırıla bilər. Deyilmiş və yazılmış sözlər tamamilə kifayət deyildir. "Yeddi vadi" adlı kitabında O, yer üzündəki mənzildən Allah dərgahınadək olan səyahəti təsvir edərək, son mərhələlər haqqında belə buyurur:

"(son mərhələləri) təsvir etməkdə dil acizdir və son dərəcə qısadır. Qələm bu meydana qədəm qoya bilməz, mürəkkəb kağızı qaralamaqdan başqa bir səmərə verməz. Qəlb bülbülünün bu məqamlarda tamam başqa nəğmələri və başqa sirləri var ki, ürəyi cuşa, ruhu ehtizaza gətirər. Lakin bu mənaların sirrini yalnız ürək ürəyə deməlidir və sinə sinəyə çatdırmalıdır."

## DUA EDƏNİN MÜNASİBƏTİ

Həzrət Əbdül-Bəha buyurur ki, Allah ilə ünsiyyətə girmək imkanı verən belə ruhi vəziyyətə nail olmaq üçün bizə aşağıdakıları bilmək lazımdır:

"Biz bütün dünyəvi və insani şeylərdən ayrılmaqla və üzümüzü yalnız bir olan Allaha tutmaqla bu vəziyyətə nail olmağa çalışmalıyıq. Bu vəziyyətə nail olmaq insana ağır zəhmət bahasına başa gələcək; lakin o, bunun üçün əziyyət çəkməli və buna səy göstərməlidir. Biz buna maddi şeylər haqqında az düşünməklə və ruhani keyfiyyətlərə daha çox diqqət göstərməklə nail ola bilərik. Biz birincidən nə qədər çox uzaqlaşsaq, ikinciyə bir o qədər çox yaxınlaşırıq.

Özümüz seçməliyik. Bizim ruhi qavrayışımız elə həssas və bəsirət gözümüz elə açıq olmalıdır ki, hər şeydə İlahi Ruhun izlərini və işarələrini görə bilək: çünki bütün məxluqat bu Ruhun şəfəqlərini əks etdirir" *(Əbdül-Bəha ilə miss Etel Rozenberqin söhbətindən)*

Həzrət Bəhaullah buyurur:

"Səhərlər zikrlə məşğul olmalı və var qüvvəsi ilə o (həqiqəti axtaran), Yarı axtarıb tapmağa çalışmalıdır. Məhəbbət və zikr odu ilə qəfləti yandırmalıdır" *(Həzrət Bəhaullahın Yazılarından seçmələr, No125)*

Bununla əlaqədar olaraq Həzrət Əbdül-Bəha buyurur:

"İnsan ruhun köməyi ilə öz idrakını işıqlandırdığı zaman bütün mövcudatı qavramağa qadirdir... Əksinə, insan öz qəlbini və idrakını ruhun şəfqətlərindən məhrum edərək, maddi həyata üz tutduğu zaman öz uca mövqeyindən yuvarlanıb ən alçaq heyvana çevrilir". *(Əbdül-Bəhanın nitqindən, s.108).*

Başqa bir yerdə Həzrət Bəhaullah yazır:

"Ey insanlar, qəlblərinizi ehtirasların köləliyindən azad edin, onları Məndən başqa, hər cür bağlılıqdan qur-

tarın. Məni xatırlayın, çünki bu bütün şeyləri hər cür murdarlıqdan təmizləyir...

Allahın ayələrindən sənə yetişənləri, ey Mənim bəndəm, Ona yaxın kəslərin avazı ilə oxu, qoy nəğmələrinin şirinliyi sənin öz qəlbini alovlandırsın və bütün insanların ürəyini cəzb etsin. Bir kəs Allahın nazil etdiyi ayələri öz evində təklikdə belə oxusa, Qüdrətlinin gəzərgi mələkləri onun dodaqlarının söylədiyi sözlərin ətrini hər yana yayar və bununla da bütün mömin könüllər yerindən oynar. *(Həzrət Bəhaullahın Yazılarından seçmələr, No136)*

## VASİTƏÇİYƏ EHTİYAC

Həzrət Əbdül-Bəhanın dediyinə görə:

"Yer atmosferi günəş şüalarının istiliyini alıb yaydığı kimi, Yaradıcı ilə insanlar arasında da İlahi Nurdan tam işıq alan və onu bütün bəşər aləminə yayan vasitəçinin olması zəruridir." *(Həzrət Əbdül-Bəha, İlahi fəlsəfə)*

Biz dua etdiyimiz zaman fikrimiz müəyyən mərkəzə yönəlməlidir. Əgər insan Allaha Onun Peyğəmbərinin köməyindən istifadə etmədən dua edirsə, hər şeydən əvvəl, o Allah haqqında təsəvvürə malik olmalıdır. Bu təsəvvür isə onun şəxsi təxəyyülü əsasında yaranır. Məhdud qeyri-məhdudu dərk edə bilmədiyi kimi, Allah da heç vəchlə dərk edilə bilməz.

İnsan şəxsi idrakı ilə dərk etdiyi şeyləri anlayır. Onun dərk edə bildiyi şey isə Allah deyil. İnsanın Allah haqqında özü üçün yaratdığı təsəvvür ancaq kabus, oxşar, uydurma və xülyadır. Bu təsəvvürlə Ali Varlıq arasında heç bir əlaqə yoxdur.

Əgər insan Allahı tanımaq istəyirsə, o, Onu mükəmməl güzgüdə – İsa Məsihdə yaxud Həzrət Bəhaullahda

tapmalıdır. Bu güzgülərin hər birində o İlahi Günəşin əksini görə bilir.

"Biz fiziki günəşi onun parıltısı, işığı və istiliyi ilə dərk etdiyimiz kimi, Zühur Məbədindən mənəvi günəş şəfəq saçdıqda biz Onun mükəmməl əlamətlərinə görə, Onun gözəllik keyfiyyətinə görə və Onun şəfəqlərinin nuruna görə Allahı da eynilə dərk edirik." *(Əkkada Persi Vudkokla söhbətdən, 1909-cu il).*

Başqa bir vaxt O buyurur:

"Əgər Müqəddəs Ruh vasitəçilik etməzsə, heç kim Allahın Səxavətinə nail ola bilməz. Öz-özünə aydın olan, məlum həqiqətə etinasızlıq göstərməyin, belə ki, Müəllim olmasa uşaq dərs ala bilməz, bilik isə Allahın bəxşişlərindən biridir. Bulud və yağış olmasa, torpaqda ot və bitkilər bitməz: deməli, bulud İlahi Mərhəmətlə torpaq arasında vasitəçidir.

İşığın mənbəyi var və əgər onu mənbədən kənarda axtarmaq arzusuna düşsələr, ona heç zaman nail olmayacaqlar... İsa Məsihin həyatına diqqət edin. Bəzi insanlar belə təsəvvür edirdilər ki, Xristian təlimi olmadan da həqiqəti əldə etmək olar, lakin elə bu təsəvvürün özü ona səbəb oldu ki, onlar bu həqiqətdən məhrum oldular" *(Əbdül-Bəhanın məktubları, c.3, s.591-592).*

Allahın Peyğəmbərinə üz tutmadan Allaha ibadət etməyə çalışan insan ona bənzəyir ki, məhbəsdə olan kəs sanki öz təsəvvürünün vasitəsilə günəş şəfəqinin parıltısından həzz almağa çalışır.

## DUANIN ZƏRURİLİYİ VƏ VACİBLİYİ

Bəhai təlimində dua oxumaq vacib göstərişdir. Həzrət Bəhaullah "Kitabi-Əqdəs"də buyurur:

“Allahın ayələrini hər səhər və hər axşam oxuyun. Onları oxumayan, həqiqətən, Allahın Əhdinə və Misaqına vəfa etməmişdir və bu gün bu müqəddəs ayələrdən üz döndərən, həqiqətən, əzəldən əbədiyyətə qədər Allahdan üz döndərmişdir. Allahdan qorxun, ey Mənim bəndələrim, hamınız bir nəfər kimi!

Qoy müqəddəs yazıları tez-tez oxumaq sizdə qürur hissi oyatmasın. Sevinc və təmiz qəlblə bir sətir ayə oxumaq, Qüdrətli Allahın bütün ayələrini diqqətsiz oxumaqdan daha yaxşıdır. Allah ayələrini oxuyarkən həddini bilin ki, sizi yorğunluq və ürək sıxıntısı bürüməsin. Qəlblərinizə yorulub taqətdən düşənədək və süstləşənədək əziyyət verməyin. Onları elə qoruyun ki, onlar vəhyin qanadlarında həqiqət Çeşməsinə uça bilsinlər. Bu, Allaha yaxındır, əgər siz düşünənlərdənsinizsə.” *(Kitabi-Əqdəs).*

Həzrət Əbdül-Bəha Onunla məktublaşan bir şəxsə buyurur:

“Sən, ey ruhani dost! Sən Məndən duanın hikməti haqqında soruşursan! Bil ki, dua zəruri və vacibdir və heç bir kəs, əgər o əqli məhdudiyyətli deyilsə, yaxud öhdəsindən gəlmək mümkün olmayan əngəllər ona maneçilik törətmirsə, heç bir bəhanə ilə dua oxumaqdan azad edilmir.” *(Əbdül-Bəhanın məktubları, c.3, s.683).*

Başqa birisi soruşur: “Dua oxumaq nəyə lazımdır? Əgər Allah-taala hər şeyi yaratmışdırsa və bütün işləri ən mükəmməl qaydada yerinə yetirirsə, yalvarıb dua etməyin, öz ehtiyaclarımız haqqında danışmağın və kömək axtarmağın nə mənası var?”

Həzrət Əbdül-Bəha cavab verir:

“Bil ki, zəifin Güclüdən təmənna diləməsi təbii haldır və mərhəmət axtaranın Nurlu Səxavətliyə yalvarması ona yaraşan şeydir və əgər hər hansı bir insan Rəbbə dua edirsə, Ona üzünü tutursa və Onun dəryasında mərhəmət ax-

tarırsa, bu dua onun qəlbinə işıq, bəsirət, aydınlıq, ruhuna həyat və bütün varlığına sevinc gətirir.

Sən Allaha dua etdiyin və “Sənin Adın mənim şəfamdır” – dediyin zaman qəlbinin necə sevindiyinə, könlünün Allaha olan məhəbbət ruhundan necə həzz aldığına və ağlının İlahi Səltənətə necə cəlb olduğuna bir diqqət et.

Bu coşğunluqlar hər bir insanın həssaslığını və qabiliyyətini şiddətləndirir. Qabın həcmi nə qədər böyük olarsa, bir o qədər çox su tutar, susuzluq artdıqda isə buludların səxavəti insanın zövqünə daha çox xoş gəlir. Duanın mənası və diləklərimizin yerinə yetirilməsi üçün bizim Allaha üz tutmağımızın sirri də elə bundadır.” *(Əbdül-Bəhanın amerikalı möminə məktubundan, oktyabr, 1908-ci il)*

Həzrət Bəhaullah üç cür namaz nazil etmişdir. Möminlərə bu üç namazdan birini seçmək azadlığı verilmişdir, lakin mömin bu namazlardan birini Həzrət Bəhaullahın buyurduğu tərzdə oxumalıdır.

## BİRGƏ İBADƏT

Həzrət Bəhaullahın gündəlik vəzifə kimi tövsiyə etdiyi namazı hər kəs təklikdə qılmalıdır. Həzrət Bəhaullah yalnız vəfat edənlər üçün cənazə namazını birlikdə qılmağı buyurmuşdur. Bununla əlaqədar olan yeganə tələb ondan ibarətdir ki, bir nəfər mömin namazın sözlərini ucadan oxumalı, iştirak edənlər isə onun arxasında ayaq üstə durmalı və həmin sözləri onun ardınca təkrar etməlidirlər. Bu İslam Dinində möminlərin İmamın arxasında sıraya düzülüb onun istiqamətləndirməsi əsasında birgə ibadət mərasimindən fərqlənir. Bəhai Dinində bu qadağandır.

Həzrət Bəhaullahın müvafiq təlimatına əsasən peşəkar ruhanilikdən imtina etmək o demək deyildir ki, O, Allaha birgə ibadət etməyin əhəmiyyətini qiymətləndirmir.

Həzrət Əbdül-Bəha birgə ibadətin əhəmiyyəti haqqında belə buyurur:

"İnsan deyə bilər: əgər mənim ürəyim Allah eşqi ilə döyünürsə, istədiyim yerdə, istər səhrada olum, istər şəhərdə yaxud kənddə olum, mən Allaha dua edə bilərəm. Nə üçün mən müəyyən gündə, müəyyən vaxtda hamının yığışdığı yerə getməli və öz dualarımı onların dualarına qoşmalıyam, bəlkə mənim dua etmək üçün əhvalım yoxdur?

Belə düşünmək faydasızdır, çünki harada çox adam toplanarsa orada daha çox güc olar. Bir-birindən ayrı düşmüş, təkbaşına vuruşan əsgərlərdə nizami ordunun gücü ola bilməz. Əgər bu mənəvi müharibədə bütün əsgərlər bir yerə toplanarsa, bu zaman onların bir-birinə bağlı mənəvi hisslərinin biri digərinə kömək edər və dualar daha təsirli olar." *(Əbdül-Bəhanın miss Etel Rozenberqlə söhbətindən).*

## DUA – MƏHƏBBƏT DİLİDİR

Allah onsuz da bütün ürəklərdən keçən arzuları bilir, onda dua etmək vacibdirmi? – deyə soruşan bir nəfərə Həzrət Əbdül-Bəha belə cavab verir:

"Əgər bir dost digərini sevirsə, onun bunu söyləmək istəyi təbii deyilmi? Dostunun onun sevgisindən xəbərdar olduğunu bilsə belə, o, yenə də bunu ona demək istəmirmi?... Bu bir həqiqətdir ki, Allah bütün ürəklərin arzusunu bilir; fəqət dua etmək istəyi də təbiidir, bu, insanın Allaha olan məhəbbətindən doğur.

Vacib deyildir ki, dua sözlərlə ifadə edilsin, vacib odur ki, o düşüncələrdə və müraciətlərdə olsun. Əgər dua oxumağa istək və məhəbbət yoxdursa, onları zorla oyatmaq

faydasızdır. Məhəbbətsiz sözün heç bir əhəmiyyəti yoxdur. Əgər hər hansı bir şəxs sizinlə xoşagəlməz məcburiyyət ilə danışırsa, sizinlə görüşdən heç bir ləzzət və ya məhəbbət duymursa, belə olan halda siz onunla söhbət etmək istəyərdinizmi?" *(Miss Etel Stivensin "Fortnaytli Revyu"dakı məqaləsindən, iyul 1911-ci il)*

Başqa bir söhbətində Həzrət Əbdül-Bəha buyurur:

"Ən ülvi duada insan Allahdan və ya cəhənnəmdən qorxduğuna, yaxud da nemət və ya cənnətə yetişəcəyinə ümid etdiyinə görə deyil, yalnız Allaha məhəbbət xatirinə dua edir... İnsan başqa bir insana vurularkən öz sevgilisinin adını anmaması mümkün deyil. Elə isə Allah sevgisinə yetişəndə Onun Adını çəkmək istəyindən özünü saxlamaq ondan nə qədər çətindir... Ruhaniyyət əldə etmiş insan Allahı zikr etməkdən başqa heç bir şeydə həzz tapmaz." *(Miss Alma Robertson və digər zəvvarların qeydlərindən noyabr və dekabr 1900-cü il)*

## BƏLALARDAN XİLAS OLMAQ

Peyğəmbərlərin təlimlərinə görə, xəstəliklər və hər cür bəlalar İlahi Tövsiyəyə itaət etməməkdən irəli gəlir. Hətta sel daşqınları, tufanlar və zəlzələlər kimi fəlakətləri Həzrət Əbdül-Bəha bilavasitə bu səbəbə aid edir.

Səhvlərdən sonra əzabların gəlməsi cəza vermək məqsədi deyil, tərbiyə və islah etmək xarakteri daşıyır. Bu insanın düz yoldan azdığı barədə xəbərdarlıq edən Allahın səsidir. Əgər əzablar ağırdırsa, deməli, bu yalnız ona görədir ki, günahın qorxusu daha dəhşətlidir, çünki "günahın muzdu – ölümdür".

Buna görə də bəlalar itaətsizliklərdən törəndiyi kimi, bəlalardan xilas olmaq da yalnız itaət etməklə əldə edilə

bilər. Bu bəlalar təsadüfi deyildir, onlar labüddür. Allahdan üz döndərmək hökmən bədbəxtlik gətirir, Allaha üz tutmaq isə Onun mərhəmətini cəzb edir.

Bir halda ki, bütün bəşəriyyət vahid orqanizmdir, onda hər bir insanın rifahı nəinki yalnız onun şəxsi hərəkətlərindən, eləcə də onun yaxınlarının davranışlarından asılıdır. Əgər hər hansı bir insan ədalətsizlik edərsə, hamı çox və ya az dərəcədə bundan zərər çəkər: eyni zamanda əgər hər bir kəs yaxşı hərəkət edərsə, onda hamı bundan faydalanar.

Hər bir kəs müəyyən dərəcədə öz yaxın qonşusunun yükünü daşımalıdır. İnsanların ən yaxşısı o kəsdir ki, öz üzərinə daha ağır yük götürür. Müqəddəslər həmişə saysız-hesabsız məşəqqətlərə düçar olmuşlar və ən böyük əzablar Peyğəmbərlərin qismətinə düşmüşdür.

Həzrət Bəhaullah "İqan" kitabında yazır:

"Hər Peyğəmbərin və Onun əshabələrinin fəqirlik və zillət kimi necə bəlalara mübtəla olması, onlara iman gətirənlərin başlarının şəhər-şəhər ərmağan olaraq necə göndərildiyi, onların qarşısında necə maneələr yaradıldığı barədə eşitməmiş olmazsınız." *(Həzrət Bəhaullah, Kitabi-İqan)*

Bütün bunlar o demək deyildir ki, Peyğəmbərlər və müqəddəslər başqa insanlardan fərqli olaraq daha çox cəzalara layiqdirlər, xeyr, onlar həmişə başqalarının günahlarına görə əzablar çəkirlər və bu əzabları başqaları naminə seçirlər. Onlar özlərinin şəxsi rifahlarının deyil, bütün bəşəriyyətin xoşbəxtliyinin qayğısına qalırlar. Bütün bəşəriyyəti səmimiyyətlə sevən hər bir insanın duası təkcə onun kasıblıqdan, xəstəlikdən və bədbəxtliklərdən qurtarılmasına deyil, bütün insanların nadanlıqdan, bəlalardan və digər azarlardan xilas edilməsinə yönəlir.

Əgər O Özünə sağlamlıq və var-dövlət arzulayırsa, bunu yalnız İlahi Səltənətə xidmət etmək naminə diləyir,

lakin əgər Ona fiziki sağlamlıq və var-dövlət qismət olmazsa, o bunu səmimi qəlblə və itaətkarlıqla qəbul edərək bilir ki, Rəbbin yolunda Onun qismətinə düşən nə varsa ən yüksək müdrikliyin təzahürüdür. Həzrət Əbdül-Bəha buyurur:

"Dərd, qəm-qüssə bizim üzərimizə təsadüfən tökülmür, onlar Allahın Mərhəmətilə bizim kamilləşməyimiz üçün göndərilir. Nə qədər ki, insan xoşbəxtdir o, Allahı unuda bilər, lakin dərd və kədər üz verəndə insan onu bütün bu bəlalardan qurtara bilən Səmavi Atanı yadına salır. İnsan nə qədər çox bəlalara düçar olarsa, onda bir o qədər çox xeyirxahlıq və mənəvi keyfiyyətlər inkişaf edir." *(Əbdül-Bəha, Paris söhbətləri, s.45).* İlk baxışda bu çox ədalətsiz görünə bilər ki, günahsız insan nə üçün günahkarın təqsiri ucbatından əzab çəkməlidir, lakin Həzrət Əbdül-Bəha bizi əmin edir ki, ədalətsizlik yalnız zahiri əlamətdir və son nəticədə isə əsl həqiqət zəfər çalır. O, buyurur:

"Zülmkarlar tərəfindən incidilən körpələrə, uşaqlara və zəiflərə gəldikdə isə... onların ruhu üçün o biri dünyada əvəz müəyyənləşdirilib... Onların çəkdikləri əzablar Allahın ən böyük nemətidir. Həyatın bütün ləzzətlərini çəkməkdənsə, yaxud bu fani dünyada sadəcə olaraq böyüyüb boya-başa çatmaqdansa, həqiqətən Allahın əsl Mərhəməti olan bu bəlalara düçar olmaq daha yaxşıdır" *(Əbdül-Bəhanın məktubları, c.2, s.337).*

## DUA VƏ TƏBİİ QANUNLAR

Duanın təsir gücünə inanmaq çoxları üçün çətindir, çünki onlar hesab edirlər ki, duanın yerinə yetməsi təbiət qanunlarının pozulmasıdır. Gətirdiyimiz misal bu çətinliyi

aradan qaldırır. Əgər maqniti dəmir qırıntıları üzərində saxlasaq, qırıntılar qalxaraq maqnitə yapışacaq, lakin bu cazibə qanununu pozmayacaqdır. Cazibə qanunu əvvəlki kimi dəmir qırıntılarına öz təsirini göstərəcəkdir. Yalnız o baş vermişdir ki, təsiri cazibə qüvvəsi kimi təbii və onun kimi hesablana bilən digər yüksək qüvvə meydana gəlmişdir.

Bəhailərin fikrincə dua bu vaxtadək hələ nisbətən az məlum olan ali qüvvələri hərəkətə gətirir: lakin bu qüvvələrin öz fəaliyyətlərinə görə fiziki qüvvələrdən daha sərbəst olmasını güman etməyə əsas yoxdur. Fərq ondadır ki, bu qüvvələr hələ tam öyrənilmədiyindən və təcrübə vasitəsilə tədqiq edilmədiyindən onların təsir qüvvəsi sirli görünür və bizim biliyimizin azlığından hesablana bilmir.

Bəzilərini çaşdıran digər çətinlik ondan ibarətdir ki, reallaşması çox zaman dua ilə bağlanılan böyük nəticələrin ortaya çıxması üçün dua olduqca zəif qüvvə təsiri bağışlayır. Bu çətinliyi izah etmək üçün aşağıdakı misal kifayətdir:

Hovuzların şlüzlərinə kiçik qüvvə tətbiq etməklə nəhəng su axınını açıb buraxmaq və nizamlamaq olar. Okean gəmisinin sükanına kiçik qüvvə ilə təsir göstərməklə nəhəng gəminin hərəkətinə nəzarət etmək mümkündür.

Bəhailərin fikrincə, dua edənə cavab verən qüvvə tükənməz İlahi qüvvədir. Dua edən şəxs öz zəif qüvvəsinə güc verən kimi. Ondan necə kömək diləməyi dərk edənlərin həmişə köməyinə gəlməyə hazır olan İlahi Mərhəmət selini hərəkətə gətirə bilir.

## BƏHAİ DUALARI

Həzrət Bəhaullah və Həzrət Əbdül-Bəha çoxlu dualar yazmışlar ki, ardıcılları müxtəlif vaxtlarda və müxtəlif şəraitlərdə onları oxusunlar. Bu dualarda ifadə olunan dü-

şüncə dərinliyi və ruhun əzəməti, şübhəsiz onları diqqətlə oxuyan hər bir kəsi ilhamlandırmalıdır.

Lakin bizim əməllərimiz üçün bu duaların əhəmiyyəti və onların göstərdiyi şəfqətli təsir yalnız o zaman tam qiymətləndirilə bilər ki, onlar müntəzəm olaraq oxunsun və bizim gündəlik həyatımızın vacib hissəsini təşkil etsin. Təəssüflər olsun ki, kitabın həcminin azlığından biz həmin dualardan ancaq bir neçə nümunə verməklə kifayətlənirik. Başqa nümunələrlə siz digər kitablarda tanış ola bilərsiniz.[30]

"Ey mənim Allahım! Qoy Sənin camalın mənim ruzim olsun, Sənin hüzurun suyum olsun. Sənin hüsn-rəğbətin mənim ümidim olsun, Sənə həmd-səna etmək mənim işim olsun. Sənin fikirlərin mənim sirdaşım olsun və Sənin hökmünün gücü mənim köməyim olsun. Sənin dərgahın mənim evim olsun və nazik pərdə ilə Səndən ayrılan, kənarda olan, Sənin müqəddəs saydığın yer mənim yaşayış yerim olsun. Sən həqiqətən Qüdrətlisən, Şərafətlisən, Qüvvətlisən" *(Həzrət Bəhaullah, Dualar və meditasiyalar, s.168).*

"Ey Allahım, səni tanımaq və Sənə ibadət etmək üçün məni yaratdığına şəhadət verirəm. Bu anda öz acizliyimə və Sənin Qüvvətinə, öz zəifliyimə və Sənin Qüdrətinə, öz fəqirliyimə və Sənin Zənginliyinə şəhadət verirəm. Səndən başqa Allah yoxdur. Sən Təhlükədə Yardımçı və Öz Özünə Var Olansan " *(Bəhai duaları, Kiçik namaz)*

"Ey mənim Allahım! Ey mənim Allahım! Sənə xidmət edənlərin qəlblərini birləşdir və Öz Ali Məqsədini onlara aşkar eylə, ta ki, onlar Sənin Əmrlərinə riayət etsinlər və Sənin Qanunlarını yerinə yetirsinlər.

Ey Allahım! Onların cəhd göstərmələrinə kömək eylə. Sənə xidmət etmək üçün onlara qüvvə ver.

30 Misal üçün: Bəhai duaları, Bakı

Ey Allahım! Onları özbaşına buraxma, onların qədəmlərini Öz hikmət Nurunla istiqamətləndir. Öz məhəbbətinlə onların qəlblərini şad eylə. Həqiqətən, sən onların köməyisən, onların Mövlasısan".

*Həzrət Bəhaullah*

"Ey günahları bağışlayan Rəbbimiz! Bu bəndələrin pənahı Sənsən və bütün sirlərə Vaqifsən. Biz hamımız acizik. Sən Qüdrətli və Qüvvətlisən, biz hamımız günahkarıq, sən isə günahları Bağışlayan, Rəhimli və Rəhmansan.

Ya Rəbb! Bizim qüsurlarımıza baxma. Öz fəzl və bəxşişinlə bizimlə rəftar et. Bizim səhvlərimiz çoxdur, amma Sənin mərhəmət Dənizin tükənməzdir. Bizim acizliyimiz çoxdur, lakin Sənin köməyin və yardımın bəllidir, buna görə kömək və yardımını bizdən əsirgəmə. Bizi Öz Dərgahına layiq olan əməllərə yönəlt. Qəlblərimizi nurlandır, gözlərimizi işıqlandır və qulaqlarımızı eşidən et. Ölənlərə axirətdə həyat ver, xəstələrə şəfa bağışla, yoxsulları varlı et, qorxaqlara əmin-amanlıq ver və bizi Öz Mələkutunda qəbul edərək hidayət nuru ilə işıqlandır.

Sən Qüdrətlisən, Sən Qüvvətlisən, Sən Kərimsən, Sən Rəhimsən, Sən Mehribansan".

*Əbdül-Bəha Abbas*

"Ey mənim Allahım və Mehriban Rəbbim! Bizə elə qüvvət ver ki, bütün yer üzünün orduları qarşısında dayana bilək və elə bir qüdrət bağışla ki, dərya suları kimi Şərqlə Qərbin sahillərində dalğalanaq."

*Əbdül-Bəha Abbas.*

“Ey Mərhəmətli Allah! Sən bütün insanları bir növdən yaratmısan ki, hamısı bir ailənin üzvləri və Sənin qulların olsunlar. Sən onları Özünün mərhəmət çadırının kölgəsinə topladın və hamını Öz Səxavət süfrənin ətrafına yığdın və onları Öz səfalı günəşinin şəfəqləri ilə işıqlandırdın.

İlahi! Sən hamı ilə mərhəmətlisən, Sən hamıya qayğı göstərirsən və hamını qoruyursan, sən hamıya həyat bəxş edirsən və hamını Öz Mərhəmət ümmanına qərq edərək hamıya hədiyyələr və qabiliyyətlər verirsən.

Ey Mərhəmətli Allah! Hamını birləşdir, müxtəlif dinlər arasında razılıq yarat və bütün millətləri vahid bir xalq halında birləşdir ki, hamı bir ailənin üzvü olsun, bütün dünyanı bir vətən saysınlar və bir-biri ilə mükəmməl dostluq və məhəbbət şəraitində yaşasınlar!

İlahi! Bəşər nəslinin birlik bayrağını ucalt. İlahi! Ən Böyük Sülhü bərqərar et və insanların qəlblərini yaxınlaşdır.

İlahi! Ey Mehriban Atamız! Qəlblərimizi Öz məhəbbətinlə sevindir. Gözlərimizi yol göstərən Nurunla işıqlandır. Qulaqlarımızı Sənin həyat verən səsinin təranələri ilə nəşələndir və bizim hamımızı Öz İlahi Qüvvənlə hifz et. Sən Qüdrətlisən və Güclüsən, ey qüsurları gizlədən və günahları Bağışlayan”.

*Əbdül-Bəha Abbas*

“Ey Qüdrətli Allah! Mən günahkaram, lakin Sən Bağışlayansan. Mənim qüsurlarım çoxdur, lakin Sən Rəhimlisən, mən günahlar zülmətindəyəm, lakin Sən alov Nurusan, Buna görə də ey Mərhəmətli Allah, mənim günahlarımı bağışla, Öz bəxşişlərini göndər, mənim səhvlərimə fikir vermə, mənə sığınacaq ver, məni Öz səbr çeşmənə qərq et və məni bütün xəstəliklərdən və azar-bezardan uzaq et.

Məni saflaşdır və müqəddəsləşdir. Özünün Müqəddəsliyindən mənə pay ver ki, dərd və kədərlər yox olsun, sevinc və xoşbəxtliklər nazil olsun: qüssə və ruh düşkünlüyünü əminlik əvəzləsin, qorxu isə cəsarətə çevrilsin. Həqiqətən Sən Bağışlayansan, Rəhmansan, Sən Səxavətlisən, Sevimlisən".

*Əbdül-Bəha Abbas*

"Ey Rəhmli Allah! Şükr olsun Sənin Dərgahına ki, məni qəflət yuxusundan oyadıb şüur vermisən. Sən mənə göz vermisən, qulaq vermisən, Öz Dərgahının yolunu göstərmisən, məni haqq yoluna yönəltmisən, qurtuluş gəmisinə mindirmisən.

İlahi! Mənə dəyanət, sədaqət, möhkəmlik ver. Məni çətin imtahana çəkmə, məni hifz et, mənə dərgahında yer ver. Sən Qüdrətlisən, Sən hər şeyi görənsən. Sən hər şeyi Eşidənsən, Sən Rəhmansan.

Ey Rəhimli Allah! Mənə güzgü tək təmiz bir ürək bağışla ki, o Sənin məhəbbət Nurunla işıq saçsın və ona ruhani şəfaətindən nəfəs ver ki, o yer üzünü gülüstana çevirsin. Sən Şəfaətlisən, Mərhəmətlisən, Səxavətlisən".

*Əbdül-Bəha Abbas*

Həzrət Bəhaullahın Təlimində dua oxumaq böyük əhəmiyyətə malik olsa da, bəhai duaları təkcə yazılanlarla məhdudlaşmır. Həzrət Bəhaullah buyurur ki, hər bir şəxsin həyatı dua kimi olmalıdır, yəni, vicdanla görülən hər bir iş ibadətdir, Allahın Cəlalına və yaxın qonşunun rifahına həsr olunmuş hər bir fikir, söz və əməl, sözün əsl mənasında duadır.

# VII FƏSİL

# SAĞLAMLIQ VƏ MÜALİCƏ

*“Allaha üz tutmaq insanın bədəninə, qəlbinə və ruhuna şəfa verir.”*

***Həzrət Əbdül-Bəha***

## BƏDƏN VƏ RUH

Bəhai Təliminə görə insan bədəni ruhun inkişafı üçün ancaq müvəqqəti örtükdür və məqsəd əldə edildikdən sonra bədən parçalanıb dağılır. Eynilə yumurta qabığı da cücənin inkişaf etməsi üçün müvəqqəti yaşayış yeri vəzifəsini daşıyır və öz vəzifəsini yerinə yetirdikdən sonra parçalanır və məhv olur.

Həzrət Əbdül-Bəha, buyurur ki, fiziki bədən əbədi ölməzlik qabiliyyətinə malik deyildir, çünki müxtəlif elementlərdən qurulmuş tərkibdən ibarətdir və bütün buna bənzər tərkiblər kimi müəyyən vaxtda parçalanmalıdır.

Bədən ruh üzərində ağalıq etməli deyil, ona xidmət etməlidir, o sözə baxan, işgüzar və könüllü şəkildə itaətkar-

lıq göstərən nökər olmalıdır və onunla yaxşı nökərin layiq olduğu kimi rəftar edilməlidir. Əgər bədənə lazımi qulluq göstərilməsə, həm ağa üçün və həm də nökər üçün zərərli nəticələrə səbəb olan bədbəxtlik və xəstəliklər baş verər.

## BÜTÜN HƏYATIN BİRLİYİ

Həzrət Bəhaullahın əsas təlimlərindən biri də həyatın milyonlarla müxtəlif forma və pillələri arasındakı əlaqədir. Bizim fiziki sağlamlığımız əqli, əxlaqi və ruhi vəziyyətimizlə, həmçinin bizim yaxın adamlarımızın fərdi və ictimai sağlamlığı ilə sıx surətdə bağlıdır; bundan başqa, hətta heyvanların və bitkilərin həyatı ilə də elə bağlıdır ki, onların hər biri digərindən, adətən, bu barədə düşündüklərindən daha yüksək dərəcədə asılıdır.

Buna görə də insan həyatının hansı sahəsinə aid olmasından asılı olmayaraq, Peyğəmbərin elə bir tövsiyəsi yoxdur ki, o fiziki sağlamlığa toxunmasın. Onun qanunlarından bəziləri başqalarından fərqli olaraq, bilavasitə fiziki sağlamlıqla əlaqədardır və buna görə də biz indi bu barədə danışacağıq.

## SADƏ HƏYAT

Həzrət Əbdül-Bəha buyurur:

“Qənaət – insan rifahının təməlidir. İsrafçılıq həmişə çətinlik yaradır. Kimin tərəfindən edilməsinə baxmayaraq, israfçılıq bağışlanmaz günahdır. Parazit bitkilər kimi biz başqalarının hesabına yaşamamalıyıq. Hər bir kəs, istər əqli, istərsə də fiziki olsun, hansısa bir işlə məşğul olmalı, insana layiq olan elə təmiz və alicənab həyat sürməlidir ki, başqaları üçün nümunəyə çevrilsin.

Özgəsinin vəsaiti ilə hazırlanmış cürbəcür ləziz yeməklərdən süfrə açmaqdansa, öz halal zəhməti hesabına qazanılmış yavan quru çörəklə kifayətlənmək daha yaxşıdır. Aza qane olan adamın fikirləri həmişə sülhsevər, ürəyi isə sakit olar".

Ət yeməkləri qadağan olunmasa da, Həzrət Əbdül-Bəha buyurur:

"Gələcəkdə insanın qida məhsulları meyvələrdən və tərəvəzdən ibarət olacaqdır. Elə vaxt gələcəkdir ki, ətdən daha istifadə edilməyəcəkdir. Tibb elmi hələ özünün körpəlik çağındadır, lakin o da göstərmişdir ki, bizim təbii qidamız torpaqda göyərənlərdir" *(Miss Yuliya Qrundi, "On gün Əkka işığında")*

## SPİRTLİ İÇKİLƏR VƏ NARKOTİK MADDƏLƏR

Həzrət Bəhaullah xəstəlik zamanı müalicə vasitəsi kimi işlətmək istisna olmaqla, məstedici və kefləndirici vasitələrdən istifadə edilməsini qəti şəkildə qadağan edir.

## HƏZZ VƏ ƏYLƏNCƏ

Bəhai Təlimi tərki-dünyalığa deyil, mötədilliyə əsaslanır. Həm maddi, həm də mənəvi dünyada yaxşı və gözəl şeylərdən həzz almaq nəinki təşviq edilir, həm də məsləhət görülür.

Həzrət Bəhaullah buyurur: "Allahın sizin üçün yaratdıqlarından özünüzü məhrum etməyin".

Başqa bir yerdə O buyurur: "Sizin üzünüz böyük sevinc və heyranlıq ifadə etməlidir" Həzrət Əbdül-Bəha buyurur: "Yaradılmış bütün şeylər – məxluqatın əşrəfi olan

insan üçündür və o, bu İlahi töhfələrə görə Allaha minnətdar olmalıdır. Bütün maddi nemətlər bizim üçün mövcuddur ki, biz Allaha şükrlər etməklə, həyatı da Allahın mərhəməti kimi anlamağı öyrənək. Əgər biz həyatımızdan gileylənириksə, onda bununla biz öz naşükürlüyümüzü ifadə etmiş oluruq, çünki bizim maddi və mənəvi mövcudluğumuz İlahi Mərhəmətin əyani sübutudur. Buna görə də biz xoşbəxt olmalı, öz həyatımızı şükrlərlə keçirməli və bizim üçün xəlq edilən nə varsa, hamısını qiymətləndirməliyik" *(Əbdül-Bəha, İlahi fəlsəfə, s.104).*

"Sizin oyunlara qoyduğunuz qadağa bütün növlərdən olan oyunlaramı aiddir?" – sualına Həzrət Əbdül-Bəha belə cavab vermişdir:

"Yox, vaxt keçirmək üçün nəzərdə tutulmuş və pis nəticələr verməyən bəzi oyunların ziyanı yoxdur. Lakin bu cür vaxt keçirməyin tənbəlliyə və tüfeyliliyə çevrilmək təhlükəsi mövcuddur. Tüfeylilik isə İlahi təlimdə bəyənilmir. Amma idman təlimləri kimi fiziki qüvvəni möhkəmləndirən və istirahətə xidmət edən oyunlar arzu olunandır".

## TƏMİZLİK VƏ SƏLİQƏ

Həzrət Bəhaullah "Kitabi-Əqdəs"də buyurur: "İnsanlar arasında saflıq, paklıq nümunəsi olun... bütün şəraitlərdə zərif davranışınızla fərqlənin. Təmizliyə riayət edin ki, paltarınızda kiçik bir ləkə izi də olmasın... Təmiz sudan istifadə edin; işlənmiş sudan istifadə etməyə icazə verilmir... Həqiqətən, Biz sizi Cənnətin yer üzündə təcəssümü görmək istəyirik; qoy sizdən elə ətirlər yayılsın ki, yaxınlığınızda olanların qəlblərini sevindirsin".

Mirzə Əbül-Fəzl özünün "Aydın dəlil" (səh. 89) kitabında xüsusilə Şərqin bəzi ölkələrində çirkli sudan çox vaxt məişət ehtiyacları üçün, yuyunmaq üçün və hətta iç-

mək üçün istifadə edilməsini vurğulayaraq bu hökmlərin fövqəladə əhəmiyyətini göstərir. Dəhşətli antisanitariyanın mövcud olduğu şəraitdə gigiyenaya etinasızlıq çoxlu yoluxucu xəstəliklər və bəlalar törədir, halbuki bunların qarşısı alına bilər.

Çox vaxt belə düşünürlər ki, bu şərait hakim din tərəfindən qəbul edilmişdir və onu Şərqdə yalnız İlahi nüfuza malik ola bilən şəxs dəyişdirə bilər. Eləcə də əgər təmizlik möminlik işində ikinci dərəcəli məsələ sayılmayıb, onun əhəmiyyətli hissəsinə çevrilsəydi, Qərb yarımkürəsinin bir çox yerlərində heyrətamiz dəyişikliklər baş verərdi.

## PEYĞƏMBƏRLƏRİN TÖVSİYƏLƏRİNƏ İTAƏTİN NƏTİCƏLƏRİ

Sadə həyat tərzi sürmək, gigiyenaya riayət etmək, spirtli içkilərdən, tiryəkdən və digər zərərli vasitələrdən imtina etməyə dair tövsiyələrin yerinə yetirilməsi sağlamlığa faydalı təsir göstərir. Əgər bu tövsiyələrə hər yerdə əməl olunsaydı, onda yoluxucu xəstəliklərin əksəriyyəti və həmçinin digər xəstəliklər insanlar arasından yox olub gedərdi. Ən sadə gigiyena qaydalarına etinasızlıqla yanaşmaq və spirtli içkilərə, narkotik maddələrə aludəlik nəticəsində baş verən xəstəliklərin sayı təsəvvürə gəlməzdir. Bundan başqa bu tövsiyələrə riayət edilməsi nəinki sağlamlığa faydalı təsir göstərə bilər, həm də insanın əxlaqına və xasiyyətinə böyük təsir bağışlaya bilər.

Spirtli içkilər və narkotik maddələr insanın yerişindən və bədəninin məlum xəstəliklərindən daha çox onun mənəviyyatına öz təsirini göstərir. Belə ki, onlardan çəkinməkdən əldə edilən əxlaqi və ruhi xeyir fiziki sağlamlıqdan daha əhəmiyyətlidir. Təmizliyə və səliqəyə dair Həzrət Əbdül-Baha buyurur:

“Zahiri təmizlik və səliqə fiziki iş sayılsa da, bununla bərabər ruhi keyfiyyətə də böyük təsir göstərir. Təmiz və ləkəsiz bədənə malik olmağın özü insanın ruhuna da güclü təsir edir...” *(Əbdül-Bəhanın məktubları, c.3, s.581)*

Əgər cinslərin qarşılıqlı əlaqəsində bakirəliyə dair Peyğəmbərlərin qanunları yerinə yetirilsəydi, onda xəstəliklərin daha bir səbəbi aradan qaldırılardı. Minlərlə günahsız insanların və günahkarların, uşaqların, həmçinin onların valideynlərinin sağlamlığını məhv edən mənfur zöhrəvi xəstəliklər tezliklə keçmişdə qalmış olardı.

Əgər ədalət, qarşılıqlı yardım və yaxınları özün qədər sevmək haqqında Peyğəmbərlərin tövsiyələrinə əməl olunsaydı bir tərəfdən üzücü zəhmət, hədsiz yoxsulluq, mənzil şəraitinin çətinlikləri; digər tərəfdən isə insanın fiziki, psixi və mənəvi həyatını dağıtmaqda davam edən əxlaqsızlıq, tənbəllik və ifrat cah-cəlal yer üzündən silinərdi.

Musa, Budda, İsa, Məhəmməd, yaxud Bəhaullahın mənəviyyat və gigiyenaya dair tövsiyələrinə sadəcə olaraq itaət edilsəydi, xəstəliklərin qarşısının alınmasında həkimlərin bütün göstərişlərinə və mövcud ictimai gigiyena qaydalarına riayət edilməsindən daha səmərəli nəticələr əldə olunardı.

Əslində cəsarətlə deyə bilərik ki, əgər belə itaətkarlıq ümumi iş olsaydı, onda gümrahlıq və sağlamlıq da ümumi nailiyyətə çevrilərdi. İndi tez-tez baş verən körpəlik çağında, gənclikdə və yetkinlik yaşında xəstələnmələr və ya ölüm əvəzinə, meyvələr yetişənədək ağacda qaldığı və yumşaldığı kimi, insanlar da qocalanadək yaşayardılar.

## HƏKİM – PEYĞƏMBƏR

Lakin biz elə bir dünyada yaşayırıq ki, hələ qədim zamanlardan Peyğəmbərlərin tövsiyələrinə itaət etmək qay-

da deyil, müstəsna bir hal olmuş, insanın özünə məhəbbəti Allaha olan məhəbbətindən daha qüdrətli mühərrikə çevrilmiş, məhdud şəxsi maraqlar bütün bəşəriyyətin maraqlarından üstün tutulmuş, maddi rifah və ləzzət hissi insanların ictimai və mənəvi mənafelərindən yüksək sayılmışdır.

Buradan da amansız qarşıdurmalar və münaqişələr, əsarət və zülmkarlıq, ifrat varlanma və həddsiz yoxsulluq, bir sözlə, mənəvi və fiziki qüsurları doğuran bütün şəraitlər meydana gəlmişdir. Və bunun nəticəsində bəşəriyyət ağacı xəstələnmiş və bu ağacdakı hər bir yarpaq ümumi xəstəliyin yayılmasına kömək etmişdir.

Hətta ən təmiz və ən müqəddəs insanlar belə başqalarının günahlarına görə əziyyət çəkirlər. Həm bütünlükdə götürülmüş bəşəriyyətin, həm də ayrı-ayrı millətlərin və fərdlərin müalicəsi zəruridir. Buna görə də Həzrət Bəhaullah Özünün keçmiş ilhamlı sələfləri kimi nəinki sağlamlığın qorunması, eləcə də itirilmiş sağlamlığın bərpa edilməsi yollarını göstərir. O qəlbləri və bədənləri yaralayan dünya xəstəliklərinin Şəfavericisi və Böyük Loğmanı kimi çıxış edir.

## MADDİ VASİTƏLƏRLƏ MÜALİCƏ

Hal-hazırda Qərbdə dinin əhəmiyyətli dərəcədə inkişafı xəstəliklərin psixi və mənəvi metodlarla müalicə edilməsinə imkanlar yaratmışdır. Əslində bir çoxları on doqquzuncu əsrdə xəstəliklərə və onların müalicəsinə dair üstünlük təşkil edən materialist dünyagörüşlərinə etiraz əlaməti olaraq, tamamilə son həddə - fiziki müalicənin və yaxud gigiyena tədbirlərinin faydasını inkar etmək dərəcəsinə gəlmişdilər.

Həzrət Bəhaullah həm fiziki, həm də mənəvi müalicənin əhəmiyyətini qəbul edir. Onun buyurduğuna görə,

elm və müalicə sənəti bacarığı elə inkişaf etdirilməli, stimullaşdırılmalı və təkmilləşdirilməlidir ki, bütün müalicə üsullarının hər biri öz sahəsində ən böyük fayda ilə tətbiq olunsun. Həzrət Bəhaullahın ailə üzvlərindən biri xəstələndikdə, peşəkar həkim çağırılardı. O, öz ardıcıllarına da belə etməyi məsləhət görürdü. "Kitabi-Əqdəs"də O yazır: "Əgər sizi xəstəlik tutarsa mütəxəssis-həkimə müraciət edin."

Bu sözlər, ümumiyyətlə bəhailərin elmə və incəsənətə dair baxışlarına uyğundur. Bəşəriyyətin mənafeyinə xidmət edən, bütün elmlər və sənətlər dəyərləndirilməli və stimullaşdırılmalıdır. Elmin sayəsində insan maddi dünyanın ağasına, cəhalət gücləndikdə isə onun quluna çevrilir. Həzrət Bəhaullah yazır: "Zəruri olduqda tibbi müalicəyə etinasızlıqla yanaşmayın, lakin sağlamlıq bərpa olunduqda onu davam etdirməyin. Xəstəliyin müalicəsində pəhrizə üstünlük verin, tibbi dərmanların istifadəsindən özünüzü saxlayın. Əgər siz axtardığınız müalicəni sadə otda tapsanız, mürəkkəb tibb dərmanlarından çəkinin... Sağlam olduğunuz vaxt dərmanları işlətməkdən nəfsinizi saxlayın, onlardan ancaq vacib olduqda istifadə edin" *(Həzrət Bəhaullah, Tibb Lövhü).* Həzrət Əbdül-Bəha məktublarının birində buyurur: "Ey həqiqət axtaran! Xəstəliklərin iki müalicə üsulu var – maddi və mənəvi. Birinci üsul maddi vasitələrin tətbiq edilməsindən ibarətdir, ikinci üsul isə dualarla və Allaha müraciətlə əlaqədardır. Hər iki üsuldan istifadə etmək və onlarla məşğul olmaq lazımdır...

Bundan əlavə, onlar bir birinə zidd deyillər. Buna görə də maddi vasitələrlə müalicəni siz Allahın mərhəməti və neməti hesab etməlisiniz, çünki Allah Öz qullarına tibbi bilikləri nazil etmişdir ki, onlar həm də bu müalicə üsulundan istifadə edə bilsinlər" *(Əbdül-Bəhanın məktubları, c.3. s.587).*

O öyrədir ki, əgər bizim zövqlərimiz və instinktlərimiz düşüncəsiz və qeyri-təbii həyat tərzi sayəsində korlanmasaydı, heyvanlarda müşahidə edildiyi kimi lazımi pəhriz yeməklərinin – müalicəvi meyvələrin, dərman bitkilərinin və digər vasitələrin seçilməsində onlara etibarlı məsləhətçilər kimi ümid bəsləmək olardı.

Müalicə barəsindəki bir söhbətin sonunda Həzrət Əbdül-Bəha buyurur:

"Beləliklə aydın oldu ki, xəstəliyi yemək və meyvələrin köməyi ilə müalicə etmək olar, lakin təbabət elmi mükəmməl olmadığından bu həqiqət hələ tam dərk edilməyib. Bu elm öz yüksək inkişafına nail olduğu zaman müalicə qidanın, meyvələrin və ətirli bitkilərin və həmçinin isti və soyuq suların vasitəsilə həyata keçiriləcəkdir." *(Əbdül-Bəha, Bəzi suallara cavablar, s.296)*

Hətta müalicənin maddi vasitələrlə aparılması zamanı əsl şəfaverən İlahi Qüvvədir, çünki bitkilərin və mineralların xassələri Rəbbin bəxşişlərindən başqa bir şey deyildir. "De: hər şey Allahdandır. Təbabət və dərmanlar ancaq vasitələrdir ki, onların köməyi ilə biz yuxarıdan şəfa alırıq."

## QEYRİ-MADDİ VASİTƏLƏRLƏ MÜALİCƏ

Həzrət Əbdül-Bəha öyrədir ki, dərman vasitələrinin istifadə olunmadığı bir sıra müalicə üsulları vardır. Sağlamlıq da xəstəlik kimi yoluxucudur, amma, "sağlamlığın yoluxuculuğu" olduqca ləng baş verir və cüzi nəticəyə malikdir, xəstəliyə gəldikdə isə o çox vaxt sürətlə başqasına keçir və güclü təsir göstərir.

Xəstənin ruhi halətinin və "təlqinin" daha güclü nəticələrinə nail olunması da bu vəziyyətin möhkəmləndirilməsində olduqca əhəmiyyətli rol oynaya bilər. Qorxu,

qəzəb, qəmginlik və s. sağlamlığa zərər verdiyi halda, ümid, məhəbbət, sevinc şəfaverici təsir göstərir.

Həzrət Bəhaullah buyurur:

"Bütün şəraitlərdə aza qane ol: bu, hər bir kəsi xəstəlikdən və əzginlikdən qoruyur. Qəmdən və xiffətdən uzaq ol, çünki onlar böyük bəlalar gətirir. Qısqanclıq bədəni gəmirir, qəzəb isə qara ciyəri yandırır: şirdən qaçan kimi, onlardan qaçın" *(Həzrət Bəhaullah, Tibb Lövhü)*

Həzrət Əbdül-Bəha buyurur:

"Sevinc bizə qanad verir. Şad olanda bizim gücümüz daha həyati və ağlımız daha iti olur... Lakin bizi qəm-qüssə bürüyəndə gücümüz bizi tərk edir" (Həzrət Əbdül-Bəha, Paris söhbətləri).

Ruhi müalicə metodunun başqa üsulu haqqında Həzrət Əbdül-Bəha yazır:

"...elə ola bilər ki, sağlam adam özünün bütün diqqətini xəstədə cəmləşdirsin, xəstə də öz növbəsində bu sağlam adamın ruhi gücündən şəfa gözləsin. Bu zaman xəstənin inamı elə güclü olmalıdır ki, onunla sağlam şəxs arasında qəlbən tam əlaqə yaradılsın.

Sağlam şəxs özünün bütün qüvvəsini xəstənin şəfa tapmasına yönəltməlidir, xəstə isə özünün sağalacağına əmin olmalıdır. Bu ruhi təsir nəticəsində xəstənin sinirlərinin oyanması başlayır ki, bu da onun sağalmasına səbəb olur" *(Ədbdülbəha, Bəzi suallara cavablar, s.294).*

Lakin bütün bu müalicə metodları panaseya deyildir və ciddi xəstəliklər zamanı səmərəsizliklə nəticələnə bilər.

## MÜQƏDDƏS RUHUN QÜDRƏTİ

"Ən təsirli müalicə vasitəsi Müqəddəs Ruhun qüdrətidir" *(Əbdül-Bəha, Bəzi suallara cavablar, s.295).*

Həzrət Əbdül-Bəha buyurur:

“O öz təsirini toxunmadan, baxmadan və yanında olmadan göstərir... Xəstəliyin istər yüngül, istərsə də ağır olmasından, xəstə ilə müalicə edən arasında təmas baş verməsindən, onlar arasında əlaqə yaradılmasından, xəstənin iştirak edib-etməməsindən asılı olmayaraq, bu müalicə Müqəddəs Ruhun qüdrəti sayəsində əldə edilir”.

1904-cü ilin oktyabrında miss Etel Rozenberq ilə söhbətlərinin birində Həzrət Əbdül-Bəha demişdir:

“Müqəddəs Ruhun qüdrətilə şəfa tapmağın nə fikri xüsusi cəmləməyə, nə də təmasa ehtiyacı yoxdur. Müqəddəs şəxsin arzusu, yaxud xahişi və duası ilə ona nail olunur. Xəstə Şərqdə, şəfaverən isə Qərbdə yaşaya bilər və onlar bir-birilərini tanımaya da bilərlər, lakin müqəddəs şəxs üzünü Allaha tutaraq dua etməyə başlayan kimi xəstə şəfa tapır. Bu Allah vergisi Müqəddəs Məzhərlərə (Peyğəmbərlərə) və ali ruhi məqama çatan şəxslərə xas olan xüsusiyyətdir”

Həzrət İsanın və Onun həvarilərinin etdikləri müalicə yəqin ki, bu xüsusiyyətə malik idi və buna bənzər müalicələr bütün dövrlərdə Müqəddəslərə xas olmuşdur. Həzrət Bəhaullaha və Həzrət Əbdül-Bəhaya da belə qüdrət bəxş edilmişdi. Onlar özlərinin sədaqətli ardıcıllarına da belə qabiliyyət vəd etmişlər.

## XƏSTƏNİN VƏZİYYƏTİ

Ruhi müalicənin lazımi qüvvəyə malik olması üçün məlum zəruri tələblər xəstə, həkim, xəstənin dostları və bütövlükdə cəmiyyət tərəfindən yerinə yetirilməlidir.

Hər şeydən əvvəl, xəstə təmiz ürəklə Allaha müraciət etməli və səmimiyyətlə inanmalıdır ki, Allahın Qüdrəti və Onun İradəsi xəstəyə kömək edəcəkdir. 1912-ci ilin avqustunda Həzrət Əbdül-Bəha amerikalı bir qadına demişdi:

"Bütün bu naxoşluq keçəcəkdir və siz fiziki və mənəvi cəhətdən tamamilə sağalacaqsınız... Bütün qəlbinizlə tam əmin olun və inanın ki, Həzrət Bəhaullahın mərhəməti və Onun səxavəti sayəsində hər şey sizin istədiyiniz kimi olacaq...

Lakin siz gərək üzünüzü tamamilə Allahın Səltənətinə tutasınız, bütün diqqətinizi Ona yönəldərək, Mariya Maqdalina Həzrət İsaya yönəldiyi kimi dua edəsiniz və Mən Sizi inandırıram ki, Siz həm fiziki, həm də ruhani şəfa tapacaqsınız, çünki bu mərhəmətə tamamilə layiqsiniz. Mən Sizə xoş xəbər verirəm, Siz buna ona görə layiqsiniz ki, Sizin qəlbiniz təmizdir... Əmin olun. Xoşbəxt olun. Sevinclə və ümidlərlə yaşayın..."

Həzrət Əbdül-Bəhanın bu müstəsna halda xəstəni sağalacağına inandırmasına baxmayaraq, O heç də həmişə, hətta xəstənin sağalmağa möhkəm inamı olduğu zaman da belə davranmırdı. O, Əkkada bir zəvvara demişdi:

"Xəstəliklərdən şəfa tapmaq üçün yazılmış dualar həm fiziki, həm də ruhi müalicələrə xidmət göstərir. Ruhun və bədənin şəfa tapması üçün duaları avazla oxuyun. Əgər şəfa xəstə üçün ən yaxşı çıxış yoludursa, şübhəsiz, o bəxş ediləcəkdir. Bəzi xəstələr üçün şəfa tapmaq başqa xəstəliklərin törənməsinə səbəb ola bilər. Buna görə də Ən Böyük Müdriklik bəzən müəyyən duaları cavabsız qoyur.

Ey Allahın bəndəsi! Müqəddəs Ruhun Qüdrəti həm cismani, həm də ruhi xəstəliklərə şəfa verir" *(Əkkadakı gündəlik dərslər, s.95).*

Həzrət Əbdül-Bəha bir xəstəyə yazır:

"Həqiqətən, Allahın İradəsi bəzən elə təsir göstərir ki, insanlar uzun müddət onun izahını tapa bilmirlər, lakin müəyyən müddətdən sonra hər şey aydınlaşır. Allaha əmin ol, Ona təvəkkül et və Allahın İradəsinə tabe ol. Həqiqətən Allah Şəfaətlidir, Sevəndir və Mərhəmətlidir... və Öz Mərhəməti ilə səni qiymətləndirəcəkdir" *("Qərbin ulduzu", c.8, s.232).*

Həzrət Əbdül-Bəha öyrədir ki, ruhi sağlamlıq fiziki sağlamlığa imkan yaradır, lakin fiziki sağlamlıq bundan başqa bir çox amillərdən də asılıdır və onların bəziləri insan nəzarətindən kənardadır. Hətta ən nümunəvi ruhi vəziyyət belə heç də həmişə fiziki sağlamlığa təminat verə bilməz. Müqəddəs kişilər və qadınlar da bəzən xəstəliyə düçar olurlar.

Buna baxmayaraq yüksək ruhi vəziyyətin fiziki sağlamlığa şəfaverici təsiri və xəstəliklərin aradan qaldırılmasında rolu bir çox hallarda düşünüldüyündən daha çox güclüdür.

Həzrət Əbdül-Bəha bir ingilis qadınına yazır:

"Siz səhhətinizin zəifliyi barəsində yazırsınız. Mən dua edirəm ki, Həzrət Bəhaullahın mərhəməti ilə Sizin ruhunuz möhkəmlənsin və bu ruhun gücü ilə Siz fiziki şəfa tapasınız".

Başqa bir yerdə O buyurur:

"Allah insana bu möcüzəli qüvvəni bəxş edib ki, o üzünü həmişə Ona tutsun və digər bəxşişlərlə yanaşı başqalarına şəfa vermək töhfəsini də Onun İlahi Səxavətindən alsın. Lakin təəssüflər olsun ki, insan bu böyük neməti qiymətləndirə bilmir və qayğısızlıq yuxusuna dalaraq Allahın bütün nemətlərinə laqeyd yanaşır, Nurdan üz çevirir və zülmət içində azır" *(Əbdül-Bəha. Paris söhbətləri, s.11).*

## ŞƏFAVERƏN

Şübhəsiz, ruhi müalicə gücü çox və ya az dərəcədə bütün insanlara xas olan xüsusiyyətdir; lakin musiqi və ya riyaziyyat sahəsində nadir istedada malik adamlar olduğu kimi, xəstələri müalicə etmək sahəsində də müstəsna qabiliyyətə malik olan adamlar vardır.

Bu adamlar öz bacarıqlarını gündəlik fəaliyyətlərində tətbiq etməlidirlər. Çox təəssüf ki, son yüzillik ərzində materializm dünyanı elə bürümüşdür ki, hətta ruhi müalicənin imkanları tamamilə unudulmuşdur. Şəfa vergisi də bütün digər istedadlar kimi təqdir olunmalı, həmçinin o özünün ali gücünə və kamilliyinə çatsın deyə işlədilməli və inkişaf etdirilməlidir.

Şübhəsiz, indinin özündə də hərtərəfli şəfavermə qabiliyyətinə malik olan minlərlə adam vardır, lakin bu Allah vergisi gizli qalaraq fəaliyyət göstərmir. Ruhi müalicənin gücü tam aydınlaşdırılarsa, onda müalicə sənəti də dəyişəcək və nəcibləşəcək, onun səmərəsi son dərəcə artacaqdır. Əgər bu yeni biliklər və şəfaverənin gücü xəstənin inamı və ümidi ilə birləşərsə, onda heyranedici nəticələr əldə edilə bilər.

“Bizim ümidimiz Allaha olmalıdır. Allahdan başqa Şəfaverən, Bilən, Köməkedən Allah yoxdur... Yerdə və göydə Allahın hökmündən kənarda heç nə yoxdur. Ey həkim! Xəstələri müalicə et: ilk növbədə, Rəbbinin, Qiyamət Günü hakiminin adını çək, sonra isə Allahın Öz bəndələrinin sağalması üçün yaratdığı vasitələri tətbiq et. Həyatıma and olsun! Mənim məhəbbət piyaləmdən içmiş həkimlə görüşmək şəfadır, həmin həkimin xəstəyə baş çəkməsi mərhəmət və ümiddir. Özünüzün sağlamlığınız naminə ona müraciət edin, çünki Allah ona müalicədə kömək edir.

Təbabət bütün elmlərin ən nəcibidir, çünki o insanların sağlamlığının qorunmasında ən böyük vasitədir. Onu torpağa həyat verən Allah bəxş etmiş, bütün elmlərin və müdrikliklərin önünə qoymuşdur. Lakin bu gün sən Mənim qələbəm naminə ayağa qalxmalısan.

Sənin adın mənim şəfamdır, Ey mənim Allahım, Səni zikr etmək mənim dərmanımdır. Sənə yaxınlıq mənim ümidim və Sənə məhəbbət mənim munisimdir. Sənin mənə mərhəmətin həm bu, həm də o biri dünyada mənim şəfam

və yardımımdır. Sən, həqiqətən, ən Kəramətli, ən çox Bilən və ən Hikmətlisən. *(Həzrət Bəhaullah, Tibb Lövhü)*

Həzrət Əbdül-Bəha yazır:

"Müqəddəs Ruh, qəlbi Bəha məhəbbətilə dolu olan və bütün dünya istəklərindən imtina edən kəsin dili ilə danışacaq və həyat ruhu onun qəlbini dolduracaqdır... Sözlər onun dilindən inci kimi töküləcək və onun əli toxunan xəstə bütün xəstəliklərdən və azarlardan şəfa tapacaqdır" *("Qərbin ulduzu" jurnalı. c.8, s.233).*

"Ey Allah vergisi bəxş edilmiş həkim! Allaha məhəbbətlə döyünən qəlbinlə Rəbbinə üz tut, Onun Səltənətinə nəzərini dikərək, itaətlə Ona şükrlər et və məftunluqla, heyranlıqla, məhəbbətlə, arzu və sevinclərlə Onun Müqəddəs Ruhundan kömək dilə. Həqiqətən, Allah Öz Ruhunun vasitəsilə sənə xəstəlikləri və azarları müalicə etməkdə köməklik göstərir.

Sən qəlbləri və bədənləri müalicə etməlisən və xəstələrin şəfa tapması üçün ürəyində Uca Dərgaha müraciət edərək, Ülvi Addan və İlahi Məhəbbət Ruhundan şəfaverici güc alacağına əmin olmalısan" (Əbdül-Bəhanın məktubları, c.3, s.626-629).

## HAMI KÖMƏK EDƏ BİLƏR

Xəstəni müalicə etmək nəinki təkcə həkimin, eləcə də xəstənin özünün və həmçinin başqalarının işidir. Hamı xəstəyə hüsn-rəğbətlə və xidmətlə, səmimi qayğı və diqqət göstərməklə, xüsusilə dua oxumaqla kömək göstərməlidir, çünki bütün vasitələrdən ən qüdrətlisi duadır. Həzrət Əbdül-Bəha buyurur: "Başqalarının əvəzinə ibadət etmək və dua oxumaq, şübhəsiz ki, öz təsirini göstərir". Xəstənin dostları xəstəyə göstərdikləri faydalı və ya zərərli təsirlərə görə xüsusi məsuliyyət daşıyırlar, çünki bu təsirlər birbaşa

və güclüdür. Əksər xəstəliklərin nəticələri əsasən doğma adamların, dostların və ya qonşuların xəstəyə etdiyi qulluqdan asılıdır.

Hətta bütün cəmiyyət üzvləri hər bir xəstəlik zamanı xəstəyə təsir göstərirlər. Tək-tək hallarda, ola bilsin ki, bu təsir cüzidir, lakin bütövlükdə götürüldükdə o, çox qüvvətlidir. Hər bir şəxs yaşadığı ictimai mühitin və bu mühitdə hakim olan ümumi əhval-ruhiyənin, yəni möminlik və ya imansızlıq, xeyirxahlıq və ya əxlaqsızlıq, şadlıq və ya ümidsizliyin təsirində yaşayır və hər bir fərd bu ictimai mühitin xarakterinin müəyyənləşməsində iştirak edir.

Dünyanın indiki vəziyyətində heç də hamı kamil sağlamlıq əldə edə bilmir, lakin hər bir kəs Müqəddəs Ruhun şəfaverici gücünün fəaliyyətində vasitəçiyə çevrilə bilər. Və bununla da həm özünə, həm də onunla ünsiyyətdə olan bütün insanlara faydalı təsir göstərə bilər.

Xəstələrin müalicəsi ilə əlaqədar olaraq bəhailərin üzərinə bir sıra vəzifələr qoyulmuşdur. Bu vəzifələrdən bəziləri dəfələrlə və təkidlə xatırlanmışdır. Həm Həzrət Bəhaullah, həm də Həzrət Əbdül-Bəha şəfa haqqında xeyli gözəl dualar yazmışlar.

## QIZIL ƏSR

Həzrət Bəhaullah əmin edir ki, xəstələrin, həkimlərin və bütövlükdə cəmiyyətin ahəngdar əməkdaşlığı sayəsində və həmçinin fiziki, əqli və ruhi müalicə üçün müxtəlif vasitələrin müvafiq tətbiqi nəticəsində “Qızıl Əsr” yetişə bilər. Bu zaman İlahi Qüdrət “bütün kədərləri sevincə və xəstəlikləri sağlamlığa çevirər”.

Həzrət Əbdül-Bəha buyurur: “...İlahi Vəhy dərk edildikdə, bütün bədbəxtliklər yox olacaqdır”. Başqa bir yerdə O buyurur: “Maddi dünya ilə ruhi aləm arasında əsl əlaqə

bərqərar olanda, “ürəklər ilahiləşəndə, arzular ülviləşəndə, tam anlaşma və əməkdaşlıq yaranacaqdır. Bu bütün kamilliklərin böyük təzahürünə şərait yaradan qüvvə olacaqdır və o zaman bütün fiziki və ruhi xəstəliklər tamamilə sağalacaqdır”.

## SAĞLAMLIQDAN NECƏ DÜZGÜN İSTİFADƏ ETMƏLİ

Bu fəslin sonunda fiziki sağlamlıqdan düzgün istifadə edilməsi haqqında Həzrət Əbdül-Bəhanın təlimini yada salmaq lazımdır. Vaşinqton bəhailərinə yazdığı məktublarının birində O buyurur:

“Əgər sağlamlıq və bədənin yaxşı vəziyyəti Allah Əmrinə həsr edilirsə, onda bu, olduqca arzu edilən və tərifəlayiqdir; və əgər o bütün bəşəriyyətin rifahına, heç olmasa onun maddi mənafeyinə xidmət edirsə, xeyirxah iş olduğu üçün bu da təqdirəlayiqdir. Lakin əgər insanın sağlamlığı və salamatlığı şəhvani ləzzətə, heyvani həyat tərzinə və şeytani arzulara sərf edilirsə, onda xəstəlik belə sağlamlıqdan yaxşıdır, üstəlik ölüm belə həyatdan daha üstündür.

Əgər sən sağlamlıq arzulayırsansa, onu Allah Dərgahına xidmət naminə dilə. Mən ümidvaram ki, sən tam bəsirətə, yenilməz qərara, mükəmməl sağlamlığa, eləcə də əbədi həyat çeşməsindən su içmək və İlahi Ruhun yardımını almaq üçün mənəvi və fiziki qüvvəyə nail olacaqsan” *(Əbdül-Bəhanın Vaşinqtonlu bəhai Vleska Polaka məktubundan)*

# VIII FƏSİL

# DİNİ BİRLİK

*“Ey yer üzü sakinləri! Bu Ali zühurun üstünlüyünü səciyyələndirən xüsusiyyət ondadır ki, Biz Allahın Müqəddəs Kitabından insanlar arasında ixtilaf, fəsad və nifaqa səbəb olan şeyləri sildik, yerinə ülfət, anlayış, qəti və daimi birlik üçün zəruri olan şərtləri qoyduq. Mənim qanunlarıma əməl edənlərin xoş halına!”*

***Həzrət Bəhaullah, Lövhi-Dünya***

## XIX ƏSRDƏ TƏRİQƏTÇİLİK

Yəqin ki, dünya heç zaman dini birləşmədən XIX əsrdə olduğu qədər uzaq olmamışdır. Uzun əsrlər boyu Zərdüşt, Musa, Budda, İsa, Məhəmməd və digər peyğəmbərlərin ardıcıllarıdan ibarət ən böyük dini icmalar yanaşı yaşamış, lakin tam ahəngdarlıq halında birləşmək əvəzinə onlar bir-birinə qarşı daim nifrət və düşmənçilik mövqeyində olmuşlar.

Bundan başqa, hər bir icma öz növbəsində daim parçalanaraq sayı getdikcə artan, tez-tez biri digəri ilə amansız mübarizə aparan təriqətlərə bölünürdü. Həzrət İsa buyurur: "Əgər bir-birinizə qarşı məhəbbətiniz olsa, bütün insanlar biləcək ki, siz mənim şagirdlərimsiniz" *(İncil, Yəhya, 13:35).* Və Məhəmməd Peyğəmbər buyurur: "Həqiqətən, bu vahid bir din olaraq sizin dininizdir..." *(Quran, əl-Ənbiya surəsi, 92).* (Allah) Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" *(Quran, əş-Şura surəsi, 13)*

Hər bir dinin banisi öz ardıcıllarını məhəbbətə və birliyə çağırmış, lakin hər dəfə din banisinin məqsədi dözümsüzlük və riyakarlıq, formalizm və ikiüzlülük, təhriflər və saxta izahlar, təfriqəçilik və ixtilaflar girdabında itib-batmışdır. Bəhai erasının başlanğıcında bir-birinə düşmən münasibəti bəsləyən təriqətlərin sayı bəşər tarixinin əvvəlki dövrlərində olduğundan çox idi. Sanki bu dövrdə bəşəriyyət müxtəlif üslublu dini inanclarla, hər cür dini ibadət və mərasim qaydaları ilə, əxlaq kodeksində edilməsi mümkün ola bilən cürbəcür dəyişikliklərlə sınaq aparırdı.

Elə bu dövrdə sayı günü-gündən artan alimlər öz enerjilərini cəsarətlə təbiət qanunlarının və dinin əsaslarının tənqidi araşdırılmasına və tədqiqinə həsr edirdilər. Tezliklə də yeni elmi biliklər əldə edilir və bir çox həyati məsələlərin yeni həlli yolları tapılırdı.

Buxar gəmiçiliyinin, dəmir yolunun, poçt rabitəsinin və mətbuatın ixtirası və inkişafı ideyaların geniş miqyasda yayılmasına kömək etdi və ən müxtəlif düşüncə və həyat tərzləri arasında məhsuldar əlaqə yaratdı. "Din və elm arasında münaqişə" adlanan bu ziddiyyət amansız mübarizəyə çevrildi.

Xristian dünyasında Bibliyaya tənqidi münasibət təbiət elmləri ilə birləşərək əsrlər boyu hamı tərəfindən dinin təməli kimi qəbul olunmuş Bibliyanın nüfuzunu şübhə altına almağa və müəyyən həddədək bu nüfuzu yalana çıxarmağa çalışdı.

Kilsə təliminə şübhə ilə yanaşan insanların sayı sürətlə artırdı. Hətta keşişlərin böyük əksəriyyəti gizli və yaxud açıq şəkildə öz şübhələrini bildirir və öz dini inanclarına nisbətən ehtiyatla yanaşırdılar.

Şüurların beləcə qaynaması və fikirlərin dəyişməsi, köhnə dini təlimlərin və ehkamların yararsızlığının təsdiqinin getdikcə artması, daha kamil biliklərin və anlamların axtarılması təkcə xristian ölkələrinə xas deyildi, o bütün ölkələrdə müxtəlif formalarda bu və ya digər dərəcədə yayılmışdı.

## HƏZRƏT BƏHAULLAHIN MÜRACİƏTİ

Bu ziddiyyətlər və münaqişələr ən yüksək zirvəyə çatanda Həzrət Bəhaullah Özünün böyük çağırışı ilə bəşəriyyətə müraciət etdi ki, "... bütün dünya xalqları bir dinin kölgəsi altına toplanmalıdırlar və bütün insanlar qardaş olmalıdırlar: insan övladları arasında məhəbbət və birlik telləri güclənməlidir; bütün dini ixtilaflar və irqi ziddiyyətlər məhv edilməlidir... Bu çəkişmələr, qan axıdılması və münaqişələr kəsilməlidir və bütün insanlar bir nəslin və bir ailənin üzvləri kimi yaşamalıdırlar" *(Həzrət Bəhaullahın prof. E. Brauna dediyi sözlər).*

Bu çox gözəl müraciətdir, amma onu necə həyata keçirmək olar? Bunun həyata keçməsi üçün min illər ərzində Peyğəmbərlər təbliğat aparmış, şairlər onu tərənnüm etmiş, müqəddəslər bu barədə dua oxumuşlar, lakin buna

baxmayaraq dini ziddiyyətlər kəsilməmiş, çəkişmələr, qan axıdılması və münaqişələr aradan qaldırılmamışdır.

Bəs indi bu möcüzənin həyata keçməsi üçün nə baş vermişdir? Bunun üçün yeni amillər yaranıbmı? Məgər insanın təbiəti indi də əvvəllər olduğu kimi deyilmi və həmişəlik olaraq belə qalmayacaqmı? Əgər iki xalqın və ya millətin mənafeləri bir-birinə zidd gələrsə, onlar keçmişdə olduğu kimi gələcəkdə də mənafeləri uğrunda vuruşmayacaqlarmı?

Musa, Budda, İsa və Məhəmməd dünyanı birləşdirməyə nail ola bilmədikləri halda, Həzrət Bəhaullah bunu həyata keçirə biləcəkmi? Əgər bütün əvvəlki dinlər təhrif edilib təriqətlərə bölünüblərsə, Bəhai Dinini də belə tale gözləmirmi? Baxaq görək, Həzrət Bəhaullahın Təlimi bu və buna bənzər suallara necə cavablar verir.

## İNSANIN TƏBİƏTİ DƏYİŞƏ BİLƏRMİ?

Təlim-tərbiyə və din eyni bir ehtimala əsaslanır ki, insanın təbiətini dəyişmək mümkündür. Həqiqətən, bir az düşünmək bu nəticəyə gəlmək üçün kifayət edir ki, heç bir canlı dəyişmədən qala bilməz. Dəyişiklik olmadan həyat mövcud ola bilməz. Hətta minerallar belə dəyişmələrə müqavimət göstərə bilmirlər: və biz varlığın inkişaf pillələri ilə nə qədər yüksəyə qalxırıqsa, onların dəyişiklikləri bir o qədər müxtəlif, mürəkkəb və ecazkar xarakter alır. Bundan əlavə, varlığın bütün inkişaf pillələrində biz iki növ dəyişikliyə rast gəlirik: biri ləng, daimi, çox vaxt demək olar ki, sezilməyən, digəri isə sürətli, qəfil, coşqun.

İkinci dəyişmə, adətən, inkişafın “böhranlı vəziyyətində” baş verir. Minerallardakı dəyişməyə biz belə böhran vəziyyətində, ərimə və qaynama nöqtələrində, məsələn, bərk maddə birdən mayeyə, maye isə qaz halına keçən zaman rast gəlirik.

Bitkilərdə isə biz bu böhran vəziyyətini toxum cücərdikdə və ya tumurcuq yarpaq açdıqda görürük. Heyvanlar aləmində biz hər addımda eyni vəziyyəti müşahidə edirik: sürfə qəfildən kəpənəyə çevriləndə, cücə yumurtadan çıxanda və ya uşaq ana bətnindən doğulanda.

Ruhun yüksək həyatında da insan "yenidən doğulanda və onun bütün varlığı öz meyli, xarakteri və fəaliyyəti baxımından əsaslı surətdə dəyişiləndə" biz tez-tez buna bənzər dəyişilməyə rast gəlirik. Buna bənzər böhran vəziyyətlər çox zaman bütöv növü və eyni vaxtda xeyli sayda növləri əhatələyir, məsələn, bahar gələndə bütün bitki növləri qəfildən yeni həyata oyanırlar.

Həzrət Bəhaullah buyurur ki, canlı mövcudat qəfildən dəyişilərək yeni, daha mükəmməl həyata qədəm qoyduğu kimi, bəşəriyyət üçün də indi "böhran dövrü, yenidən doğulma" zamanı başlayır. Bəşər tarixinin əvvəlindən bu günədək davam edən sarsılmaz həyat tərzi sürətlə dəyişiləcək və kəpənəyin həyatı tırtılın həyatından və ya quşun həyatı yumurtadan fərqləndiyi kimi, bəşəriyyət də köhnə həyat tərzindən fərqlənən yeni həyata qədəm qoyacaqdır. İnsan nəsli bütünlükdə Yeni Vəhyin işığında həqiqətin yeni anlayışına nail olacaqdır. Bu eynilə bir saat bundan əvvəl qaranlıq və tutqunluq içində olan hər şeyi günəş çıxıb bütün ölkəni işıqlandırdığı zaman bütün insanların aydın gördükləri kimi baş verəcəkdir. Əbdül-Bəha buyurur: "Bu əsr insan əzəmətinin aşkarlanması əsridir: dünyanın bütün üfüqləri nura boyanmışdır, və bütün aləm şübhəsiz ki, gülüstana və Cənnətə çevriləcəkdir". Təbiətdən götürülmüş misallar bu baxışı təsdiqləyir. Keçmiş dövrün bütün Peyğəmbərləri yekdilliklə bu şanlı günün gələcəyini əvvəlcədən xəbər vermişlər: dövrün əlamətləri aydın göstərir ki, insanların ideyalarında və ictimai quruluşda indi dərin əsaslı dəyişikliklər baş verir. Bədbin adamların irəli sürdükləri: "bütün mövcudat dəyişilir, lakin insan tə-

biəti dəyişilə bilməz" müddəasından daha boş və əsassız nə ola bilər?

## BİRLİYƏ DOĞRU İLK ADDIMLAR

Həzrət Bəhaullah yüksək mərhəməti və hamıya münasibətdə dözümlü olmağı dini birliyin yaradılması vasitəsi sayaraq, Öz ardıcıllarına buyurur:

"Bütün dinlərin ardıcılları ilə səmimiyyətlə və xeyirxahlıqla davranın" (Kitabi-Əqdəs).

"İxtilaf və rəqabət Onun kitabında qətiyyətlə qadağan edilmişdir. Bu, Allahın bu Ən Əzəmətli Vəhydə bir hökmüdür. Bu hökmün ləğvi ilahidən qorunur və ona Onun tərəfindən Onun təsdiq şəfəqi əta edilmişdir. Həqiqətən, O, Hər Şeyi Bilən və Hikmət Sahibidir."

"Ey yer üzü sakinləri! Allahın dini məhəbbət və birlik üçündür; onu düşmənçilik və ixtilaf səbəbi etməyin... Biz bəlkə daha çox ümid edərdik ki, Bəha əhli bu mübarək sözlərlə hidayət olunalar: "De: Hər şey Allahdandır." Bu uca bəyan insanların ürəklərində və sinələrində közərən nifrət və düşmənçilik odunu söndürən suya bənzəyir. Tək bu bəyanla ədavət aparan millətlər və tayfalar həqiqi birlik işığına yetişəcəklər. Doğrudan da, O, həqiqəti deyir və yol göstərir. O Ən Qüvvətli, Uca və Fəzilətlidir.

Həzrət Əbdül-Bəha buyurur:

"Hamı özünü xurafatdan azad etməli və bir-birinin ibadət etdikləri kilsələrə, məscidlərə və məbədlərə getməlidirlər, çünki bütün bu məbədlərdə Allahın Adı xatırlanır. Bir halda ki, hamı Allaha ibadət etmək üçün gəlir, onda burada nə fərq ola bilər: axı heç kim Şeytana ibadət etmir. Müsəlmanlar xristianların kilsələrinə və yəhudilərin sinaqoqlarına getməlidirlər və əksinə, sonuncular müsəlmanların məscidlərinə getməlidirlər. Onlar isə mövhumata

və ehkamlara kor-koranə pərəstiş edərək, bir-birilərindən yan keçirlər.

Mən Amerikada xristian məbədlərinə oxşayan yəhudi sinaqoqlarına getdim və hər yerdə insanların Allaha ibadət etdiyini gördüm. Mən bu məbədlərin çoxunda İlahi dinlərin əsas təməlindən danışdım və bütün müqəddəs Peyğəmbərlərin və Allah Elçilərinin həqiqiliyinə dəlillər gətirdim.

Mən onları kor-koranə təqliddən əl çəkməyə çağırdım. Bütün din rəhbərləri bu və ya digər məbədlərə getməli və hər yerdə İlahi dinlərin əsaslarından və başlıca prinsiplərindən danışmalıdırlar. Onlar böyük birliklə və ahəngdarlıqla Allaha ibadət etməli və hər cür xurafatdan tamamilə azad olmalıdırlar" *("Qərbin ulduzu" jurnalı. c.9, №3, s.37).*

Əgər bu ilk addımlar atılmış olsaydı və bunun nəticəsində müxtəlif dinlər, təriqətlər arasında qarşılıqlı hörmət və dözüm yaransaydı, dünyada necə də gözəl dəyişikliklər baş verərdi! Lakin əsl birliyin əldə edilməsi üçün bundan da artıq şeylər tələb olunur. Tolerantlıq – təriqətçilik xəstəliyinə qarşı ən dəyərli ağrı kəsici dərmandır. Ancaq bu da tam müalicə vasitəsi deyil, çünki o, ağrını törədən səbəbi aradan qaldırmır.

## HAKİMİYYƏT PROBLEMİ

Keçmişdəki müxtəlif dini icmalar birləşməyə qadir deyildilər, belə ki, hər bir icmanın üzvləri onların icmasını yaradan şəxsə ən ali həqqaniyyət sahibi kimi baxmış və onun qanunlarını İlahi Qanunlar saymışlar.

Buna görə də digər təlimi bəyan edən hər hansı bir Peyğəmbər həqiqətin düşməni sayılırdı. Bu səbəblər isə ayrı-ayrı icmaların müxtəlif təriqətlərə bölünməsinə gətirib çıxarırdı. Hər təriqətin davamçıları müəyyən bir həqiqətə itaət edir və hansısa risaləni və ya şərhi əsl dini

təlim sayaraq, digər bütün dini yazıları yalan hesab edirdilər. Aydındır ki, belə vəziyyətin hökm sürdüyü dövrdə heç bir birlik ola bilməzdi.

Amma, Həzrət Bəhaullah öyrədir ki, bütün Peyğəmbərlər Allahın göndərdiyi eyni Vəhyin ifadəçiləridir; onların hər biri öz dövrünün insanlarının başa düşə bildikləri və onları tərbiyələndirməli olan elə ali təlim gətirmişlər ki, bu insanlar sonrakı Peyğəmbərin gətirdiyi təlimi qəbul etmək iqtidarına malik olsunlar. O, hər bir dinin ardıcılını, nəinki öz Peyğəmbərinin İlahi İlhamını inkar etməməyə çağırır, eləcə də bütün digər Peyğəmbərlərin İlahi Vəhylərini təsdiqləməyə, bütün Peyğəmbərlərin Təlimlərinin tam harmoniyasını qəbul etməyə və onların bəşəriyyətin tərbiyəsi və birliyinə dair böyük planın bir hissəsi olduğunu anlamağa səsləyir. O bütün dinlərdən olan insanlara belə bir fikir aşılayır ki, onlar öz Peyğəmbərlərinə ehtiram göstərsinlər və bütün Peyğəmbərlərin zəhmət və əzab-əziyyət çəkdikləri o birlik naminə öz həyatlarını fəda etsinlər.

Həzrət Bəhaullah İngiltərə kraliçasi Viktoriyaya ünvanladığı məktubunda dünyanı naşı həkimlərin əlinə düşdüyü üçün səhhəti getdikcə ağırlaşan xəstəyə bənzədir və onu sağalda biləcək vasitələri göstərir: "Allahın qoyduğu ən etibarlı və mükəmməl müalicə vasitəsi, bütün insanların bir dinin və bir qanunun himayəsi altında birliyidir, buna məharətli, kamil və ilhamlı Həkimdən başqa, digər heç nə ilə nail olmaq mümkün deyil. Həyatıma and olsun, həqiqət yalnız budur, yerdə qalan nə varsa, hamısı açıq-aydın azğınlıqdır".

## PROQRESSİV VƏHY

Çoxları üçün dini birlik haqqında məsələlərin həlli yolunda ən böyük maneə müxtəlif Peyğəmbərlərin bəyan

etdikləri təlimlər arasındakı fərqlərdir. Bir Peyğəmbərin hökmünün məqbul saydığını digər Peyğəmbərin hökmü qadağan edir: bəs onların hər ikisi də eyni vaxtda necə haqlı ola bilər, bəs onların hər ikisi də Allahın İradəsini necə bəyan edə bilər?

Əlbəttə, həqiqət birdir və dəyişməzdir. Mütləq həqiqətin bir olmasına və dəyişməzliyinə baxmayaraq, o, insan idrakının müasir səviyyəsindən son dərəcə yüksəkdədir və onun haqqındakı bizim təsəvvürlərimiz daim təkamül etməlidir. Bizim əvvəlki natamam təsəvvürlərimiz Allahın mərhəməti sayəsində, zaman keçdikcə tədricən kamilləşəcəkdir. Həzrət Bəhaullah bəzi İran bəhailərinə yazır:

"Ey insanlar! Kəlamlar qabiliyyətlərə müvafiq şəkildə bəyan edilir ki, yeni başlayanlar mükəmməlləşə bilsinlər. Süd lazımi miqdarda verilməlidir ki, bu aləmin körpələri Əzəmət Padşahlığına daxil ola bilsinlər və Birlik Sarayına qədəm qoysunlar" *(Həzrət Bəhaullah, Zərdüşt maqlarına Lövhlər Məcmuəsi, s.262).*

Süd uşağın gücünü artırır ki, o sonralar daha bərk qidanı həzm edə bilsin. "Haçansa bir Peyğəmbərin bəyan etdiyi məlum Təlim doğrudursa, digər Peyğəmbərin başqa bir vaxt yaydığı Təlim yanlış olmalıdır" fikrini irəli sürməyiniz bunu iddia etməyə bənzəyir ki, süd yeni doğulmuş körpə üçün ən yaxşı qida sayıldığından yaşlı adam üçün də süddən savayı ayrı qida olmamalıdır və başqa qida məhsulu qəbul etmək düzgün deyildir. Həzrət Əbdül-Bəha buyurur:

"Hər bir İlahi Vəhy iki hissədən ibarətdir. Birinci hissə əsasdır və əbədiyyətə aiddir. Bu, İlahi həqiqətlərin və əsas prinsiplərin şərhidir. İlahi Məhəbbətin ifadəsi olan bu hissə bütün dinlərdə birdir və dəyişməzdir.

İkinci hissə praktiki həyatı, qarşılıqlı və işgüzar münasibətləri əhatələdiyinə görə insanın təkamülünə və hər bir Peyğəmbərin dövrünün tələblərinə uyğun olaraq onun

məzmunu dəyişilir. Məsələn, Musa Peyğəmbərin dövründə ən kiçik oğurluq üstündə adamın əlini kəsirdilər; həmçinin "əvəz-əvəzə", yəni "gözə göz, dişə diş" qanunu var idi, lakin bu qanunlar İsa Peyğəmbərin dövrünə uyğun gəlmədiyi üçün ləğv edildi. Eynilə də boşanma halları geniş vüsət aldığına və nigah qanunu sarsıldığına görə İsa Peyğəmbər boşanmanı qadağan etdi.

Dövrün tələbinə uyğun olaraq Musa Peyğəmbər ağır cinayətlərə dair on qanun təyin etdi. O zaman belə sərt ölçülər olmadan icmanı müdafiə etmək və ictimai təhlükəsizliyi qorumaq mümkün deyildi, belə ki, İsrail oğulları o zaman Tih səhrasında yaşayırdılar, orada nə məhkəmə idarələri, nə də həbsxana var idi.

Lakin İsa Peyğəmbərin dövründə bu qanunlar külliyatına ehtiyac qalmadı. Beləliklə, yerli adətlərə və zamana aid olan dinin ikinci hissəsi o qədər də əhəmiyyətli deyildir, lakin Allah Dininin təməli olan birinci hissəsi – birdir və Həzrət Bəhaullah bu əsası bərpa etmişdir" *(Əbdül-Bəha, İlahi fəlsəfə, 2-ci nəşr, s. 150-151).*

Allahın Dini – birdir və bütün Peyğəmbərlər insanlara bunu öyrətmişlər. O, cansız və dəyişməz deyildir, əksinə o, canlı və daim inkişaf etməkdə olan orqanizmdir.

Musa Peyğəmbərin Təlimində biz dini toxumdan cücərən halda, İsa Peyğəmbərin Təlimində tumurcuq, Məhəmməd Peyğəmbərin Təlimində çiçək, Həzrət Bəhaullahın Təlimində isə meyvə halında görürük. Çiçək tumurcuğu dağıda bilmədiyi kimi, meyvə də çiçəyi dağıtmır. Onlar bir-birilərini məhv etmirlər, əksinə, bir-birilərini tamamlayırlar.

Tumurcuğun qabığı çatlamalıdır ki, qönçə çiçəklənə bilsin, çiçəyin ləçəkləri tökülməlidir ki, meyvə əmələ gəlsin və yetişsin. Məgər tumurcuğun qabığı və çiçəyin ləçəkləri sonra düşüb töküldüyünə görə onları lazımsız bir

şey hesab etmək olarmı? Xeyr, onların hər biri öz dövründə faydalı və zəruri idilər: onlarsız meyvə yetişə bilməzdi.

Müxtəlif Peyğəmbərlərin Təlimləri ilə də həmin proses baş verir: onların zahiri forması əsrdən-əsrə dəyişir, lakin hər bir yeni Vəhy əvvəlki Vəhyi tamamlayır. Onların arasında ziddiyyət, fikir ayrılığı və uyğunsuzluq yoxdur, əksinə, onlar əvvəlcə toxumdan cücərən, sonra tumurcuğa və çiçəyə çevrilən, indi isə meyvələri yetişmək mərhələsində olan tək dinin müxtəlif inkişaf dövrlərini təmsil edirlər.

## PEYĞƏMBƏRLƏRİN QÜSURSUZLUĞU

Həzrət Bəhaullah öyrədir ki, Peyğəmbərlik Missiyası almış hər bir kəsə həmin missiyanı təsdiqləyən lazımi qədər dəlillər verilmişdir. O, insanlardan Ona itaət göstərməyi tələb etmək, Özündən əvvəlki Peyğəmbərlərin Təlimini dəyişdirmək və ona əlavələr etmək hüququna və hökmünə malikdir. "İqan" kitabında oxuyuruq:

"Necə ola bilər ki, Allah xalqı doğru yola yönəltmək üçün öz qulları arasından birini seçir və ona kifayət qədər tam sübutlar vermir və eyni zamanda insanları Ona inanmadıqları üçün cəzalandırır? Çünki Allahın Kərəmi və Fəzli Peyğəmbərlər göndərmək vasitəsilə yaranmışlara çatdırılıb..."

"Bilirsiniz ki, İlahiyyat quşları və Əzəliyyət Göyərçinləri iki dildə danışır. Birisi ilə onlar sözləri zahiri mənalarına görə rəmzsiz, örtüksüz və pərdəsiz ifadə edirlər. Bu cür sözlər hidayət çırağı olaraq doğru yol göstərmək üçün bir Nurdur. Bunun sayəsində haqq yolunun yolçuları qüdsiyyət zirvəsinə qalxar və həqiqət arayıcıları əbədi vüsət Səltənətinə ayaq basarlar. Zikr etdiyimiz açıq rəvayətlər,

aydın ayələr bu qəbildəndir. O biri sözlər isə üstüörtülü sözlərdir" *(Həzrət Bəhaullah. Kitabi-İqan).*

Mütləq qüsursuzluq yalnız Allaha məxsus xüsusiyyətdir. Allah tərəfindən yer üzünə göndərilən Peyğəmbərlər isə Öz Missiyalarını yerinə yetirdiklərinə görə qüsursuzdurlar. Onların Təlimi sonra gələn Peyğəmbər tərəfindən dəyişdirilənədək qüvvədə qalır.

Allah dünyanın xəstəliyini düzgün müəyyənləşdirib və lazımi müalicə vasitələrini göstərə bilən yeganə Ən Böyük Şəfavericidir. Bir dövr üçün təyin olunmuş müalicə digər dövrün müalicəsinə uyğun gəlməyəcəkdir, belə ki, xəstənin vəziyyəti dəyişilir. Həkim yeni dərman yazarkən, köhnə vasitələrdən yapışmaq həkimə etibar etmək deyil, ona etimadsızlıq göstərməkdir.

Əgər yəhudi eşitsə ki, üç min il əvvəl Musa Peyğəmbərin ictimai xəstəliklərə dair yazdığı bəzi müalicə vasitələri bizim dövrümüzdə köhnəlmiş və yararsızlaşmışdır, bu onun üçün zərbə olar. Əgər xristiana deyilsə ki, Məhəmməd Peyğəmbər İsanın Təliminə xeyli qiymətli və zəruri dəyişikliklər gətirmişdir, o da bundan qəzəblənər. Əgər müsəlmana da deyilsə ki, Həzrət Baba və Həzrət Bəhaullaha Məhəmməd Peyğəmbərin Şəriətini dəyişdirmək hüququ verilib, o da belə hala düşəcəkdir.

Bəhai nöqteyi-nəzərinə görə, Allaha əsl ibadət, Onun bütün Peyğəmbərlərinə ehtiram göstərmək və Onun bizim dövrümüz üçün göndərdiyi son hökmlərinə şərtsiz itaət etməkdir. Yalnız belə ibadətlə birliyə nail olmaq olar.

## ƏN ALİ ZÜHUR

Həzrət Bəhaullah xristianlara ünvanladığı "Lövhi-Əqdəs" müraciətində bütün əvvəlki Peyğəmbərlər kimi Öz Missiyasını aydın ifadə edir:

“De: Budur, Ata gəlmişdir və Mələkutda sizə vəd edilənlər yerinə yetmişdir! Bu, ətrafına toplaşanlara “indi bunları başa düşməzsiniz” *(İncil, Yəhya, 16:12)* deyərkən Oğulun gizli saxladığı Sözdür. Və təyin edilmiş vaxt yetişəndə və o An çatanda, bu Söz Allahın İradə üfüqündən parladı. Məbada, ey Oğulun ardıcılları[31], bunu inkar edəsiniz. Bundan möhkəm yapışın. Bu sizə bütün malik olduqlarınızdan daha yaxşıdır.

Həqiqətən, O Kəs ki, Həqiqət Ruhudur, sizi bütün həqiqətlərə yönəltmək üçün gəlmişdir. O Öz istəyi ilə deyil, yalnız Alim və Hikmətli olan Kəsin əmri ilə danışır. De: Bu, Oğulu tərənnüm edən və Onun Əmrini izzətləndirən Kəsdir. Ey yer üzünün insanları, malik olduqlarınızı atın və Qüvvət Sahibinin, Allahın Əmanətini Daşıyanın əmr etdiklərindən möhkəm yapışın.”

1867-ci ildə Ədirnədən Roma Papasına yazdığı məktubda O buyurur: “Özünüzü qoruyun ki, şöhrətləndirmək sizi Şöhrətlidən və ibadət etmək sizi İlahidən döndərməsin. Dünyanı yaşatmaq və yer üzündəki bütün insanları birləşdirmək üçün gələn, Sizin Şərəfli və hər şeyi Bilən Rəbbiniz Odur. Ey insanlar! Vəhyin şəfəqləndiyi yerə gəlin. Bir an da olsa yubanmayın. İncildən məlumatınız olduğunuz halda, doğrudanmı Rəbbinizin İzzətini görmürsünüz? Bu sizə yaraşmır, ey alimlər dəstəsi. Əgər siz Bizim Əmrimizi inkar edirsinizsə, onda söyləyin, Allaha inama sizi hansı sübutlar gətirmişdir. Dəlilinizi təqdim edin!”

Xristianlara yazdığı məktublarda O, İncildə vəd olunanların yerinə yetirildiyini bildirdiyi kimi, müsəlmanlara, yəhudilərə, zərdüştilərə və digər dinə mənsub olan xalqlara müraciətində də israr edir ki, Onların Müqəddəs Yazılarındakı vəd yerinə yetirilmişdir. O bütün insanlara

..............................................................

31 Yəni xristianlar

Allahın bir dininə mənsub olan möminlər kimi müraciət edərək bildirir ki, bu vaxtadək onlar müxtəlif sürülərə bölünərək çəpərlənmiş müxtəlif yerlərdə yaşamışlar. O deyir ki, Onun Missiyası Allahın Səsidir, Mərhəmətli Çobanın Səsidir, vaxtında gəlib ki, dağınıq salınmış qoyunları bir sürüdə birləşdirsin və "bir sürünün bir çobanı" *(İncil, Yəhya, 10:16)* olması üçün onların arasındakı çəpərləri məhv etsin.

## YENİ VƏZİYYƏT

Həzrət Bəhaullah Peyğəmbərlər arasında misilsiz və müstəsna mövqeyə malikdir, çünki, Onun gəlişi zamanı dünyada müstəsna və nadir şərait hökm sürürdü. Dinin, incəsənətin, elmin və sivilizasiyanın inkişafı prosesində dünya Birlik Təlimi üçün yetişmişdi.

Dünyanın Birliyinə mane olan əvvəlki sədlər Həzrət Bəhaullahın Zühuru zamanı dağılmaq mərhələsində idi. Onun anadan olduğu 1817-ci ildən başlayaraq və xüsusilə də Onun Öz Təlimini bəyan etdiyi andan bu sədlər fövqəladə bir tərzdə dağılmağa başlayır. Bəyanın necəliyindən asılı olmayaraq, bu fakt öz-özlüyündə hər cür şübhədən uzaqdır.

Əvvəlki Peyğəmbərlərin dövründə təkcə coğrafi sədlər dünyanın birləşməsinə mane olmağa kifayət edirdi. İndi isə bu sədlər aradan qaldırılmışdır. Bəşər tarixində ilk dəfə yer kürəsinin müxtəlif qütblərində yaşayan insanlar bir-biriləri ilə tez və asanlıqla ünsiyyət yarada bilirlər. Dünən Avropada baş verən hadisə bu gün artıq dünyanın hər yerində məlumdur və bu gün Amerikada söylənilmiş məruzə sabah Avropada, Asiyada və Afrikada oxunacaqdır.

Dünya Birliyinə mane olan ikinci böyük səd dillərin müxtəlifliyi idi. Xarici dillərin öyrənilməsi sayəsində bu

çətinlik müəyyən dərəcədə aradan qaldırılmışdır və belə güman etməyə əsas da vardır ki, yaxın bir dövr ərzində beynəlxalq yardımçı dil qəbul olunacaq və dünyanın bütün ölkələrində onun tədrisi başlanacaqdır. Onda dil səddi də tamamilə aradan qaldırılacaqdır.

Üçüncü ən böyük maneə dini xurafatlar və dözümsüzlükdür. Bu da yox olub gedir. İnsanların şüuru getdikcə daha çox inkişaf edir. Xalqın maarifi ruhanilərin əlindən çıxır və indi yeni və daha liberal ideyaların, hətta ən qapalı və mühafizəkar dairələrə daxil olmasına heç nə mane ola bilmir.

Beləliklə, Həzrət Bəhaullah böyük Peyğəmbərlərdən birincisidir ki, Onun Təlimi qısa bir vaxt ərzində yer kürəsininin bütün hissələrinə yayılmışdır. Qısa bir vaxtda dünyanın bütün dillərinə tərcümə olunmuş Həzrət Bəhaullahın Təliminin əsasları Onun Müqəddəs Yazılarını oxumağı bacaran bütün kişilərin və qadınların ixtiyarına verilmişdir.

## BƏHAİ VƏHYİNİN DOLĞUNLUĞU

Tam yəqinliklə Məhəmməd, İsa, Musa, Zərdüşt, Budda və Krişnaya aid edilə biləcək əsl sözlərdən yazılmış və Onların tamamilə toxunmadıqları, indi isə böyük praktik əhəmiyyətə malik məsələlərdən ibarət olan yazılı Bəhai Vəhyi öz dolğunluğu və yetkinliyi baxımından dünya dinləri arasında yeganə və misilsizdir.

Adətən Peyğəmbərlərə şamil edilən təlimlərin əksəriyyətinin orijinallığı şübhə doğurur, onlardan bəziləri isə, şübhəsiz ki, daha sonrakı dövrlərin əlavələridir.

Müqəddəs Quranda və saysız-hesabsız hədislərdə olan məlumatlar əsasında müsəlmanların əlində Məhəmməd Peyğəmbərin həyatı və İslam Dini haqqında geniş hekayətlər vardır. Məhəmməd Peyğəmbərə Allah İlhamı

verilməsinə baxmayaraq, O da səhabələrinin əksəriyyəti kimi təhsilsiz idi. Ona gələn Vəhylərin yazılması və Onun Təliminin yayılması metodları qənaətbəxş deyildi və bir çox hədislərin dəqiqliyi olduqca şübhəlidir. Beləliklə, şərhlərdəki fərqlər və fikirlərdəki ziddiyyətlər bütün əvvəlki dini icmalarda olduğu kimi İslam Dinində də ayrılıq və parçalanma yaratdı.

Halbuki Həzrət Babın və Həzrət Bəhaullahın qələmindən öz müstəsna gücü və gözəlliyi ilə seçilən çoxsaylı yazılar nazil omuşdur. Açıq çıxışlar etmək imkanından məhrum olan və həyatlarının böyük hissəsini həbsxanalarda keçirən həm Həzrət Bab, həm də Həzrət Bəhaullah Özlərinin bütün vaxtlarını Öz fikirlərini yazmağa sərf etmişlər. Buna görə də, Bəhai Vəhyi müqəddəs yazıların zənginliyi baxımından əvvəlki dinlərin heç biri ilə müqayisə oluna bilməz. Xələflərdən heç biri həmin yazılara toxunmamış və dəyişməyə də cəhd göstərməmişdir. Bu yazılarda əvvəlki dinlərdə aydınlaşdırılmayan bir çox həqiqətlər tam təfsilatı ilə şərh edilmişdir.

Bütün Peyğəmbərlərin öyrətdikləri həqiqətin əbədi prinsiplərinə gəldikdə isə, Həzrət Bəhaullah Yazılarında bu prinsipləri müasir dünyanı düşündürən problemlərə – əvvəlki Peyğəmbərlərin Öz dövrlərində toxunmadıqları yüksək dərəcədə mürəkkəb və çətin problemlərə tətbiq edir.

Aydındır ki, Vəhyin belə tam şəkildə yazılması, keçmişdə müxtəlif təriqətləri bir-birindən ayrı salan anlaşılmazlıqların və ixtilafların gələcəkdə baş verməsinin qarşısını almaq sahəsində fəaliyyətə güclü təsir etməlidir.

## BƏHAİ DİNİNDƏ ƏHD

Bəhai Dini daha bir səbəbə görə də müstəsna və misilsizdir. Həzrət Bəhaullah ölümündən qabaq yazdığı və-

siyyətində böyük oğlu Əbdül-Bəhanı "Budaq" və ya "Ən Əzəmətli Budaq" adlandırır və Onu öz Təliminin yeganə Şərhçisi kimi dəfələrlə xatırlayaraq qeyd edir ki, Onun verdiyi bütün izahlar və şərhlər Bəhaullahın Öz sözü kimi qəbul edilməlidir. O "Mənim Əhdim" kitabında yazır:

"Ən Müqəddəs Kitabımızda (Kitabi-Əqdəsdə) nazil etdiyimizə nəzər salın: "Mənim hüzurumun dəryası çəkiləndə və Vəhy Kitabım tamam olanda, üzünüzü Allahın təyin etdiyi Kəsə çevirin, O Kəs ki, Bu Qədim Kökdən boy vermişdir." Bu müqəddəs ayənin məqsədi Ən Əzəmətli Budaqdan (həzrət Əbdül-Bəha) başqa heç kəs deyildir.

Həzrət Bəhaullah "Budaq Lövhündə" Həzrət Əbdül-Bəhanın məqamını izah edərək yazır:

"Onun zahir olması üçün Allaha şükr edin, ey yer üzü xalqları; zira, həqiqətən də, O, sizə ən böyük Lütf və ən kamil Nemətdir; və Onun vasitəsilə, hər bir çürümüş sümük canlanıb. Ona üz tutan kəs Allaha üz tutmuşdur, Ondan üz çevirən kəs Mənim Camalımdan üz çevirmişdir, Mənim Sübutumu inkar etmişdir və Mənim qarşımda günah işlətmişdir."

Həzrət Bəhaullahın vəfatından sonra Həzrət Əbdül-Bəhanın həm Öz evində, həm də Özünün uzun sürən səyahətləri zamanı bütün dünya ölkələrinin müxtəlif əqidəli insanları ilə görüşmək imkanı vardı. O, insanların verdikləri bütün sualları, onların çətinliklərini diqqətlə dinləyər və onlara tam izahat verərdi, bu söhbətlər də səliqə ilə yazılardı.

Həzrət Əbdül-Bəha uzun illər ərzində Təlimin şərhinə dair işi davam etdirir və müasir həyatda müxtəlif problemlərə onun tətbiq edilməsi yollarını göstərirdi. Möminlər arasında bəzən fikir müxtəlifliyi yarananda Ona deyərdilər və O da mübahisəni həll edərdi. Beləliklə də, gələcəkdə baş verə biləcək anlaşılmazlıqlar ehtimalı aradan qaldırılırdı.

Bundan başqa, Həzrət Əbdül-Bəha bütün dünya bəhailərinin seçkili nümayəndəliyi olaraq Bəhai Dininin bütün işlərinə rəhbərlik və nəzarət etmək, onları əlaqələndirmək, anlaşılmazlığa və parçalanmaya yol verməmək, aydın olmayan məsələləri izah etmək və Təlimi təhriflərdən və yalnış şərhlərdən qorumaq üçün Allahın Uca Ədalət Evinin yaradılmasını qabaqcadan görürdü. Məsələ burasındadır ki, bu Ali İnzibati Orqan Təlimdə tam işlənib hazırlanmayan bütün məsələlər üzrə qanunvericilik hüququna malikdir. Eyni zamanda, əgər yeni şərait bunu tələb edərsə və Bəhai Dininin yayılması imkan verirsə bu orqan öz qanunlarını ləğv edə və canlı orqanizm kimi dəyişməkdə olan cəmiyyətin zərurətlərinə və tələblərinə uyğunlaşa bilər.

Həzrət Bəhaullah həmçinin Təlimin xüsusi olaraq təyin edilmiş Əmrin Vəlisindən başqa, hər hansı bir şəxs tərəfindən şərh olunmasını qəti qadağan etmişdir. Həzrət Əbdül-Bəha Özünün Vəsiyyətində Şövqi Əfəndini Əmrin Vəlisi təyin etmiş və Ona Yazıları şərh etmək səlahiyyəti vermişdir.

Min ildən, bəlkə də daha çox müddətdən sonra Həzrət Bəhaullahın kölgəsində, Öz Missiyasının aydın sübutları ilə yeni Zühur baş verəcəkdir: lakin o vaxta qədər Həzrət Bəhaullahın, Həzrət Əbdül-Bəhanın və Həzrət Şövqi Əfəndinin sözləri, həmçinin Uca Ədalət Evinin qərarları öz nüfuzlarını saxlamalı və bütün bəhailər onları əldə rəhbər tutmalıdırlar. Heç bir bəhai təlimin xüsusi şərhi və ya xəyali İlahi Vəhy əsasında ayrıca bir məktəb və təriqət yarada bilməz. Bu qərarların əksinə çıxan şəxs "Əhdi pozan" sayılır.

Həzrət Əbdül-Bəha buyurur:

"Təlimin düşmənlərindən biri də o kəsdir ki, o, Həzrət Bəhaullahın sözlərini şərh etməyə, onlara öz anlamı səviyyəsində məna verməyə və ayrıca təriqət yaradaraq öz ətrafına ardıcıllar toplamağa, öz mövqeyini yüksəltməyə

və Təlimdə parçalanma yaratmağa cəhd göstərir" *("Qərbin ulduzu" jurnalı, c.3. s.8).*

Başqa bir məktubunda Həzrət Əbdül-Bəha yazır:

"Bu adamlar (təfriqəçilər) dənizin üzünə yığılmış köpüyə bənzəyirlər: Əhd Dəryasından qalxan dalğa Əbha Səltənətinin gücü ilə bu köpüyü sahilə atacaqdır... Bütün bu təhrif olunmuş fikirlər şəxsi və çirkin məqsədlərin nəticəsidir. Onlar yox olub gedəcəklər, Allahın Əhdi isə mətin və sarsılmaz olaraq qalacaqdır" *("Qərbin ulduzu" jurnalı, c.10, s.95).*

Əgər insanların özləri dindən imtina etmək istəsələr, onları heç nə saxlaya bilməz. Həzrət Əbdül-Bəha buyurur: "Allahın Özü insanı mömin olmağa məcbur etmir. Bunun üçün insan iradəsinin azadlığı lazımdır". Lakin İlahi Əhd bəhai icmasında təriqətçiliyin yaranmasına heç bir imkan vermir.

## PEŞƏKAR RUHANİLƏRİN OLMAMASI

Bəhai Dininin xüsusilə xatırlanmalı, fərqləndirici xüsusiyyətlərindən biri də burada peşəkar ruhanilərin olmamasıdır. Özlərinin bütün vaxtlarını dinin yayılmasına sərf edən müəllimlərə yardım üçün könüllü ianələrə icazə verilir, lakin bütün bəhailər öz imkanları və qabiliyyətləri çərçivəsində təbliğ işində iştirak etməlidirlər, yəni bu dində ruhani vəzifələrin yerinə yetirilməsi baxımından öz dindaşlarından xüsusi imtiyazlarla fərqlənən ayrıca sinif yoxdur.

Keçmiş əsrlərdə ruhanilərin olması zəruri idi, belə ki, insanlar savadsız və təhsilsiz olduğundan, dini təlimin öyrənilməsi, mərasimlərin və ayinlərin icrası, məhkəmə qurulması və s. məsələlərin həlli ruhanilərdən asılı idi.

İndi zəmanə dəyişilmiş, təhsil ümumi xarakter almışdır və əgər Həzrət Bəhaullahın qanunları yerinə yetirilərsə, onda bütün dünyanın uşaqları, həm oğlanlar, həm də qızlar sağlam tərbiyə alacaqlar. Onda hər bir insan müstəqil olaraq Müqəddəs Yazıları öyrənmək və özünə lazım olan həyat Suyunu bilavasitə Çeşmənin Özündən götürmək iqtidarına malik olacaqdır.

Bəhai Dinində dəqiq işlənmiş ayinlər və mərasimlər və onların icrasını tələb edən xüsusi peşə və ya qrup yoxdur və məhkəmə işləri isə bu məqsədlə yaradılmış orqanların öhdəsinə qoyulmuşdur.

Uşağa müəllim lazımdır, lakin əsl müəllimin məqsədi şagirdi onun köməyi olmadan şeylərə öz gözü ilə baxmağa, öz qulaqları ilə eşitməyə və öz ağlı ilə düşünməyə hazırlamaqdır.

Eləcə də bəşəriyyət özünün uşaqlıq dövründə ruhanilərə ehtiyac duyurdu, lakin ruhanilərin həqiqi vəzifəsi insanları ruhanilərsiz keçinməyə hazırlamaqdır ki, insanlar İlahi Zühurlara öz gözləri ilə baxsınlar, Onları öz qulaqları ilə eşitsinlər və onları öz ağılları ilə anlasınlar.

İndi isə ruhanilərin vəzifəsi demək olar, yerinə yetirilmişdir və Bəhai Təliminin məqsədi bu işi başa çatdırmaq, insanların Allahdan başqa bütün hər şeydən müstəqilliyini təmin etməkdir ki, onlar bilavasitə Pərvərdigara, yəni Onun Zühuruna üz tuta bilsinlər.

Hamı Vahid Mərkəzə üz tutduğu zaman anlaşılmazlıqlar və mübahisələr aradan qaldırılacaqdır. İnsanlar bu Mərkəzə nə qədər yaxın olsalar, bir-birilərinə də o qədər yaxın olacaqlar.

# IX FƏSİL

# HƏQİQİ SİVİLİZASİYA

*"Ey Allah adamları! Öz hayınızda olmayın, dünyanı islah etmək və insanların ürəyini və qəlbini paklaşdırmaq barədə düşünün."*

***Həzrət Bəhaullah***

## DİN – SİVİLİZASİYANININ TƏMƏLİDİR

Bəhai dünyagörüşü baxımından insan həyatının həm fərdi və həm də ictimai problemləri elə mürəkkəbdir ki, adi insan ağlı onları müstəqil olaraq həll etmək iqtidarında deyildir. Ancaq o bir olan Allah yaradılmışların məqsədini və ona nail olma üsullarını bilir.

Allah Peyğəmbərlər vasitəsilə adamlara insan həyatının həqiqi vəzifəsini və tərəqqiyə aparan düzgün yolu göstərir. Əsl sivilizasiyaya nail olmaq Peyğəmbər Vəhylərinin göstərişlərinin sədaqətlə yerinə yetirilməsindən asılıdır.

Həzrət Bəhaullah buyurur: “Dünyanın nizamı və onun xalqlarının dincliyi üçün ən böyük alət odur. Dinin sütunlarının zəifləməsi cahillərin güclənməsinə və onların cürətlənmələrinə və mütəkəbbir olmalarına yol açmışdır. Din nə qədər tənəzzül edərsə, allahsızların azğınlığı o qədər artar. Sonda bu ancaq hərc-mərcliyə və çaşqınlığa gətirər. Məni eşidin, ey bəsirət sahibləri, ibrət alın, ey bəsirəti olanlar.”

“Qərbin mədəniyyətinə baxın, dünyanın xalqlarını o necə iztiraba və təlaşa salmışdır. Bir cəhənnəm maşını icad edilmiş və onun elə ölümsaçan bir silah olması üzə çıxmışdır ki, bənzərini bir kəs nə görmüş, nə də eşitmişdir. Belə dərin kök salmış və çox böyük fəsadlar, dünya xalqları bir ümumi məqsəd və ümumi dində birləşməyincə, aradan qaldırıla bilməz.”

“Ey Bəha əhli! Bizim nazil etdiyimiz hər bir əmr varlıq dünyasının qorunması üçün möhtəşəm bir qaladır.” *(Həzrət Bəhaullah, Kəliməti-Firdövsiyyə)*

Avropanın və bütün dünyanın müasir vəziyyəti çox illər bundan əvvəl yazılmış bu sözlərin doğruluğunu bariz şəkildə təsdiqləyir. Peyğəmbərlərin tövsiyələrinə etinasızlıq və dinsizliyin geniş surətdə yayılması dəhşətli miqyaslarda baş verən hərc-mərclik və dağıntılarla müşayiət olunur və qəlblər dəyişməyincə və əsl dinə xas olan məqsədlər qəbul edilməyincə, insan cəmiyyətinin yeniləşdirilməsi tamamilə qeyri-mümkün olan bir işdir.

## ƏDALƏT

Həzrət Bəhaullah “Gizli kəlamlar” adlı kiçik kitabında Peyğəmbər təliminin mahiyyətini qısaca şərh edir. Onun ilk tövsiyəsi belədir: “pak, lütfkar və nurlu bir ürəyə malik ol ki, əzəli, əbədi, daimi və qədim bir səltənətə sahib

olasan." *(Gizli kəlamlar)*. Sonra O, düzgün ictimai həyatın əsas prinsiplərini göstərir:

**"EY RUH OĞLU!**

Mənim nəzərimdə ən sevimli şey insafdır; Məni istəyirsənsə, ondan üz çevirmə. Ondan qafil olma ki, Mənim yanımda əmin tanınasan. Bunun köməyi ilə sən bir şeyi başqalarının gözü ilə deyil, öz gözünlə görərsən və heç kəsin biliyi ilə deyil, öz biliyinlə tanıyarsan. Bunu özün düşün, sənə yaraşan nədir. Həqiqətən, insaf Mənim sənə bir bəxşişim və sənə inayətimin bir əlamətidir. Onu gözünün önündə saxla."

İctimai həyatın başlıca əsası ondan ibarətdir ki, hər bir insan həqiqəti yalandan, doğrunu səhvdən ayıra bilsin və hər şeyi öz gerçəkliyi işığında görsün. Mənəvi və ictimai korluğun başlıca səbəbi və sosial tərəqqinin ən böyük düşməni eqoizmdir. Həzrət Bəhaullah buyurur:

"Ey idrak oğulları! Nazik göz qapağı gözə dünyanı və onda olan şeyləri görməyə mane olur. Əgər tamahkarlıq pərdəsi qəlbin gözünü örtərsə, onda nə baş verər?! Ey insanlar! Günəş şüalarının qarşısını buludlar kəsən kimi tamahkarlıq və paxıllıq zülməti də qəlbin ziyasını qaranlığa bürüyür!" *(Həzrət Bəhaullahın əvvəllər zərdüşti olmuş bəzi iranlı bəhailərə yazdığı Lövhdən)*

Uzun illərin təcrübəsi nəhayət insanları Peyğəmbərin bu təliminin həqiqiliyinə əmin edir ki, eqoist baxışlar və əməllər labüd olaraq ictimai fəlakətlərə gətirib çıxarır, buna görə də bəşəriyyətin şərəfsizliklə məhv olmaması üçün hər bir şəxs yaxınlarının işinə öz şəxsi işi kimi əhəmiyyət verməli və öz maraqlarını bütünlüklə bəşəriyyətin maraqlarına tabe etməlidir.

Həzrət Bəhaullah buyurur:

“Ey insan oğlu! Əgər gözün mərhəmət axtarırsa, onda mənfəətini burax və bəşərin faydasına olan şeylərdən yapış. Əgər gözün ədalətdədirsə, özün üçün seçdiyini başqası üçün seç.” *(Həzrət Bəhaullah, Kəlimәti-Firdövsiyyə)*

## HÖKUMƏT

Həzrət Bəhaullahın Təlimində həqiqi sosial qaydalar məsələsinə dair iki müxtəlif istiqamətli göstəriş vardır. Onlardan birincisi Həzrət Bəhaullahın hökmdarlara yazdığı məktublarında öz ifadəsini tapmışdır və Onun yaşadığı dövrdə mövcud olan hakimiyyət probleminə aid mülahizələridir.

İkinci göstəriş isə bəhai icmasının özündə qurulacaq yeni qaydalar haqqındadır. Burada Həzrət Bəhaullahın məktublarından gətirdiyimiz aşağıdakı iki parça arasında zahirən kəskin fikir ayrılığı duyulur. Bir yerdə O buyurur:

“Allah-taala, Onun Cəlalı daha da ucalsın, insanların ürəklərinə Özünün müstəsna mülkiyyəti kimi baxmış və baxacaqdır. Yerdə qalan bütün şeyləri - dənizləri, torpaqları, sərvətləri və şan-şöhrəti isə O, krallara və hökmdarlara bəxş etmişdir”.

“Və indi bütün insanlar Ən Uca İsimdən möhkəm tutmalı və bütün bəşər nəslinin birliyini yaratmalıdırlar, çünki Ondan başqa qurtuluş və sığınacaq yeri yoxdur” *(Həzrət Bəhaullah, Seçilmiş lövhləri).*

Həzrət Bəhaullahın “Kiçik Sülh” ilə “Ən Böyük Sülh” arasında olan həmin fərqləndirməsinə diqqətlə nəzər yetirdikdə, bir araya sığışmaz görünən bu iki müddəa arasındakı ziddiyyət yox olub gedir. Həzrət Bəhaullah hökmdarlara yazdığı məktublarında onları bir yerə yığışmağa və siyasi sülhə tərəfdar çıxmağa, silahlanmanı azaltmağa,

yoxsulları ağır əzabdan xilas etməyə və onların həyatını yüngülləşdirməyə çağırır.

Beləliklə, Onun sözləri tamamilə aydın göstərir ki, əgər hökmdarlar zamanın tələblərinə cavab verən tədbirləri həyata keçirə bilməsələr, bu, köhnə qaydaları dağıdan müharibələrə və inqilablara gətirib çıxaracaqdır.

Buna görə də Həzrət Bəhaullah bir tərəfdən göstərir ki, "Hal-hazırda bəşəriyyətin duyduğu ehtiyac hakimiyyət sahiblərinə itaət etməkdir"..., digər tərəfdən isə O buyurur: "O kəslər ki, fani şöhrətə nail olub yer üzünün cah-cəlalını və dəbdəbəsini əldə edərək, etinasızlıqla Allahdan üz döndərmişlər, onlar özlərini həm bu dünyadan və həm də axirət dünyasından məhrum etmişlər.

"...Tezliklə Allah Özünün Qüdrətli Əlləri ilə onların var-dövlətlərini əllərindən alacaq və Özünün səxavət və nemət libasını onların əynindən çıxaracaqdır..." "Biz sizin üçün bir vaxt təyin etmişik. Əgər vaxt tamam olarsa və siz üzünüzü Allaha doğru çevirməzsinizsə, onda O hər yandan sizi cəzalandırar və hər tərəfdən sizə əzab küləkləri göndərər." "Çevriliş və hərc-mərclik əlamətləri müşahidə olunmaqdadır, çünki indi mövcud olan nizamın acınacaqlı dərəcədə qüsurlu olması görünür." "Biz bütün dünyada Sənin qələbəni təmin etməyi, hətta öz üzünü Sənə tərəf yönəltmək istəyən bir kral tapılmasa belə, Əmrimizi bütün bəşəriyyət üzərində yüksəltməyi vəd edirik" *(Həzrət Bəhaullah, Seçilmiş lövhləri).*

"Böyük Varlıq xalqların əmin-amanlıq və rahatlığının və aləmin abadlığının ilkin şərti və səbəbi barədə bir yerdə buyurur: Labüd məsələ budur ki, yer üzündə böyük bir məclis qurulsun, hökmdarlar və sultanlar həmin məclisdə Böyük Sülhün əsasının qoyulması üçün yollar və vasitələr barədə müzakirələr aparsınlar. Onun da yolu budur ki, böyük dövlətlər dünyanın rahatlığı üçün öz aralarında sülhə möhkəm can atsınlar. Əgər bir hökmdar başqa bir hökm-

darın üstünə hücum çəksə, hamılıqla birləşib onun qarşısını alsınlar.” *(Həzrət Bəhaullah, Lövhi-Məqsud)*

Həzrət Bəhaullah bu tövsiyələri ilə bu İlahi Gündə hökmdarların ictimaiyyət qarşısında daşıdıqları məsuliyyətin yerinə yetirilməsi şərtlərini açıqlayır. Həzrət Bəhaullah hökmdarları beynəlxalq həmrəyliyə çağırmaqla bərabər, açıqcasına xəbərdarlıq edərək bildirir ki, onların arasında durmadan davam edən mübarizə elə onların öz qüvvələrini məhv edə bilər.

Bizim müasir tariximiz bu xəbərdarlığın haqlı olduğunu təsdiqləyir: sivilizasiyanın tərəqqisi hərbi qüvvələrin gücünü elə artırmışdır ki, müharibə aparacaq tərəflərin hər hansı birinin qələbə qazanması qeyri-mümkün olmuşdur.

“Əgər siz Böyük Sülhü bir kənara atırsınızsa, onda bu Kiçik Sülhdən yapışın ki, bəlkə onun vasitəsilə sizin və sizin kölgənizdə olanların işləri bir qədər yaxşılaşdı.” (Həzrət Bəhaullah, Yazılarından seçmələr)

“Dünyanın sağalması üçün Allahın təyin etdiyi ən böyük dərman və ən mükəmməl vasitə yer üzündəki insanların bir Əmrdə və bir dində birləşməsidir. Bu isə yalnız və yalnız mahir, kamil və Allahdan yardım alan təbibin sayəsində mümkün ola bilər.” *(Həzrət Bəhaullah, Kraliça Viktoriyaya məktubdan)*

“Kiçik Sülh” dedikdə dövlətlərin siyasi birliyi nəzərdə tutulduğu halda, “Ən Böyük Sülh” həm ruhani, həm də siyasi və iqtisadi amilləri əhatələyən birlik deməkdir. “Tezliklə dünyanın nizamı pozulacaq və başqa bir nizam qurulacaq.” *(Həzrət Bəhaullah, Yazılarından seçmələr)*

Keçmiş zamanlarda hökumətin fəaliyyəti xarici və maddi əhəmiyyət daşıyan məsələlərlə məhdudlaşırdısa, indi hökumətin vəzifəsi ondan rəhbərlik etmək bacarığı, fədakarlıq və ruhani biliklər tələb edir ki, buna da yalnız nəzərlərini Allaha tərəf çevirən insanlar nail ola bilərlər.

# SİYASİ AZADLIQ

Həzrət Bəhaullah həm yerli, həm də milli və beynəlxalq idarəetmə orqanlarının seçkili olmasını ideal dövlət quruluşu forması kimi təqdir etsə də, öyrədir ki, bu yalnız insanların fərdi və ictimai inkişafın kifayət qədər yüksək səviyyəsinə çatdıqları zaman mümkün ola bilər.

Təhsil almayan, yalnız eqoist arzuları əldə rəhbər tutan və ictimai idarəetmə işlərində təcrübəsiz olan xalqa birdən-birə tam özünüidarəni tapşırmaq zərərli nəticələr verə bilər. Azadlıqdan səmərəli istifadə etmək qabiliyyətinə malik olmayan insanlara azadlıq verməkdən daha təhlükəli bir şey ola bilməz. Həzrət Bəhaullah "Əqdəs" Kitabında yazır:

"İnsanlara və onların ağlının azlığına nəzər salın. Onlar özlərinə ziyan olan şeyləri istəyir, xeyir olan şeylərdən isə yan keçirlər. Bilin ki, onlar sərgərdan qalmışlar. Biz görürük ki, bəzi insanlar azadlıq istəyir və onunla fəxr edirlər. Onlar aşkar bir cəhalətdədirlər. Çünki hədsiz azadlıq sonda elə bir qarışıqlıqla nəticələnir ki, onun alovunu söndürmək olmur. Hesablayan və hər şeyi Bilən Kəs sizə belə xəbərdarlıq edir.

Bilin ki, azadlığın təcəssümü və təzahürü heyvandır. İnsan isə müəyyən qayda-qanuna tabe olmalıdır ki, bu, onu öz cəhalətindən və məkrlilərin zərərindən qorusun. Azadlıq insanı ədəb və ləyaqət hüdudlarından çıxarar və onu rəzil bir varlığa çevirər.

Baxın, insanlar qoyunlara bənzəyir, onları qorumaq üçün mütləq çoban lazımdır. Bu, şəksiz bir həqiqətdir. Biz bəzi məqamlarda azadlığı bəyənirik, başqalarında isə yox, çünki Biz hər şeyi bilirik.

De: Əsl azadlıq – Mənim əmrlərimə tabe olmaqdadır. Əgər ariflərdənsinizsə, bunu bilin. Əgər insanlar vəhy səmasından onlara nazil olanlara tabe olsalar, özlərinin əsl

azadlıqda olduqlarını görürlər. Xoş o kəsin halına ki, Allahın aləmlərə üstün gələn İradəsinin səmasından nazil olanlardan Onun istəyini anlayar! De: Sizə xeyirli olan azadlıq yalnız Haqq olan Allaha bəndəlik etməkdədir. Kim onun şirinliyini dadsa, onu göylərin və yerin mülkünə dəyişməz!...”

İlahi Təlim geri qalmış irq və millətlərin vəziyyətlərinin yaxşılaşdırması üçün müstəsna vasitədir. Yalnız xalqlar və dövlət xadimləri bu Təlimi öyrənib və onu qəbul etdikləri zaman millətlər onları zəncirləyən buxovlardan azad olacaqlar.

## HÖKMDARLAR VƏ TƏBƏƏLƏR

Həzrət Bəhaullah ən kəskin ifadələrlə istibdadı və zorakılığı qadağan edir. “Gizli kəlamlar”da O yazır:

“Ey yer üzünün zalımları! Zülmkarlıqdan əl çəkin! Zira and içmişəm, heç kəsin etdiyi zülmdən keçməyəcəyəm. Bu bir Əhddir ki, onu Lövhi-Məhfuzda yazmış və İzzət Möhürü ilə möhürləmişəm.”

Qanunların təsdiq edilməsi və icrası kimə etimad olunmuşsa, onlar gərək: “...məşvərət ipindən möhkəm yapışaraq, asayişə, firavanlığa, zənginlik və dincliyə aparacaq şeyləri qəbul etməli və icra mövqeyinə çıxarmalıdırlar. Çünki bundan başqa hər hansı bir tədbir qəbul edilsə, o hərc-mərclik və iğtişaşa səbəb olar.” (*Həzrət Bəhaullah, Lövhi-Dünya)*

Eyni zamanda xalq da qanuna itaət etməli və xalqın ümumi rifahını cəza tədbirləri ilə deyil, təlim metodları və xoşniyyətli nümunə gücü ilə yaxşılaşdırmağa çalışan ədalətli hökumətə loyal və sədaqətli olmalıdır.

Həzrət Bəhaullah buyurur: “Bu insanların hər hansı birinin yaşadığı hər bir ölkədə onlar o ölkənin hökumətinə

sədaqət, dürüstlük və düzlüklə davranmalıdırlar." *(Həzrət Bəhaullah, Bişarat)*

"De: Ey Allah adamları! Vücudunuzu etibar və təqva naxışı ilə bəzəyin. Sonra isə Rəbbinizə gözəl əməllər və tərifəlayiq xasiyyətlə yardım edin. Biz Kitablarımızda, Yazılarımızda, Səhifələrimizdə və Lövhlərimizdə fəsad və ixtilafı qadağan etmişik və bundan istədiyimiz, sizin ucalmağınız və yüksəlməyinizdən başqa bir şey deyil." *(Həzrət Bəhaullah, İşraqat)*

## TƏYİNAT VƏ YÜKSƏLMƏ

Vəzifəyə təyinat zamanı yeganə meyar – həmin vəzifəyə təyin edilənin yararlı olmasıdır. Bu ali mülahizə qarşısında bütün digər keyfiyyətlər – yaşa və vəzifəyə, rütbəyə görə böyüklük, ictimai və maliyyə vəziyyəti, qohumluq əlaqələri və şəxsi dostluq münasibətləri kənarda qalmalıdır. Həzrət Bəhaullah İşraqat Lövhündə buyurur:

"Hökumətlər idarə etdikləri insanların həyat şərtləri ilə tam tanış olmalıdırlar və onlara haqq etdikləri və layiq olduqları vəzifələri verməlidirlər. Hər bir hökmdar və hər bir idarə edən bu məsələyə son dərəcə diqqətlə baxmalıdır ki, xain sədaqətlinin yerini tutmasın, oğru etibarlının yerinə idarə etməsin."

Əmin olmaq üçün diqqəti bir az buna cəmləşdirmək lazımdır: əgər bu prinsiplər hər yerdə qəbul edilsə və tətbiq olunsa, onda bizim ictimai həyatımızda valehedici dəyişikliklər baş verər. Bu zaman hər bir şəxs öz qabiliyyətinə müvafiq təyinat alar, o bütün gücünü öz işinə sərf edər və öz işində məharətli olub, həm özünə, həm də başqalarına hədsiz fayda gətirər.

# İQTİSADİ PROBLEMLƏR

Həzrət Bəhaullahın Təlimi varlılarla kasıblar arasındakı iqtisadi münasibətlərdə islahatlar aparılmasının zəruriliyini qətiyyətlə təkid edir. Həzrət Əbdül-Bəha buyurur:

"Yaşayış vəsaitlərinin bölüşdürülməsi elə aparılmalıdır ki, yoxsulluq və ehtiyac yox olsun və hər bir kəs imkanı daxilində, özünün biliyinə və vəziyyətinə uyğun şəkildə rahatlıqdan və həyat nemətlərindən istifadə edə bilsin.

Halbuki, bəziləri həddindən artıq var-dövlət sahibidir, digərləri isə yoxsulluğun son həddində yaşayır və gündəlik çörəyə möhtacdır. Biri dəbdəbəli sarayda yaşayır, digərinin isə yatmağa yeri də yoxdur. Belə vəziyyət qeyri-normaldır, o dəyişdirilməlidir və bu dəyişikliklər düşünülmüş şəkildə və qanun çərçivəsində həyata keçirilməlidir. Lakin bu o demək deyil ki, insanlar arasında tam bərabərlik olmalıdır, çünki bu cür bərabərlik mümkün deyildir: o xülyadır və heç zaman həyata keçirilə bilməz.

Hətta belə bərabərlik həyata keçirilsə də, o, uzun müddət davam edə bilməz. Əgər belə bərabərliyin yaradılması mümkün olsaydı, o zaman dünya qaydaları pozulardı. İnsan dünyasında isə həmişə qanun və qayda mövcud olmalıdır. İnsan yaradılarkən Allah belə göstəriş vermişdir...

Bəşəriyyət general, kapitan, bütün rütbələrdən olan kiçik zabitlər və sıravi əsgərlər tələb edən böyük orduya bənzəyir və hər birinin də öz vəzifəsi olmalıdır. Təşkilatda tam qaydanı təmin etmək üçün rütbələrin olması mütləq lazımdır.

Ordu, təkcə generallardan və ya kapitanlardan ibarət ola bilmədiyi kimi, yalnız heç bir hakimiyyətə tabe olmayan əsgərlərdən də ibarət ola bilməz..."

"Şübhəsiz kimsə həddindən artıq varlıdırsa, başqaları isə son dərəcədə yoxsuldursa, onda bu ifrat vəziyyəti tarazlaşdırmaq üçün qanunun olması vacibdir. Həm zəngin-

liyi, həm də yoxsulluğu məhdudlaşdırmaq lazımdır. Hər iki ifrat hədd yaxşı deyildir. Biz yoxsulluğun faciəli nəticələrə gətirib çıxarmasını görürüksə, bu o deməkdir ki, biz burada istibdadın əsl əlaməti ilə rastlaşırıq.

İnsanlar qəti tədbirlər görməli və ifrat yoxsulluğa, çoxsaylı kütlələrin bədbəxtliyinə səbəb olan şəraiti yubanmadan dəyişməlidirlər.

İmkanlılar öz artıq var-dövlətlərini könüllü olaraq bölüşdürməli, qəlblərini yumşaltmalı, özlərində mərhəmət hissini inkişaf etdirməli, əzab-əziyyət çəkənlərə, fəlakətə düşənlərə və yaşayış üçün ən zəruri şeylərə ehtiyacı olanlara qayğı göstərməlidirlər.

Hədsiz varlanmaya və ifrat yoxsulluğa dair xüsusi qanunlar verilməlidir. Hamını eyni ədalətlə təmin etmək üçün dövlət qanunları İlahi qanunlara uyğun olmalıdır. Bunlar həyata keçirilməyincə, İlahi qanunlar bərqərar olmayacaqdır.” *(Əbdül-Bəha. Paris söhbətləri, s.140)*

## İCTİMAİ MALİYYƏ VƏSAİTLƏRİ

Həzrət Əbdül-Bəha təklif edir ki, hər bir şəhər, kənd və əyalət imkan daxilində və öz hüdudlarında öz maliyyə ehtiyatlarına sərəncam verməli və ümumdövlət xərcləri üçün bu ehtiyatlardan müəyyən pay ayırmalıdır. Gəlirin başlıca mənbələrindən biri də mütərəqqi gəlir vergisi olmalıdır. Əgər hər hansı bir şəxsin gəliri onun zəruri xərclərini ödəməyə kifayət etmirsə, onda həmin şəxs heç bir vergi verməməlidir.

Lakin gəlirin zəruri xərclərdən artıq olduğu bütün hallarda hökmən vergi qoyulmalıdır, həm də onun faizi gəlirin zəruri xərclərdən artıqlığına müvafiq olaraq yüksəldilməlidir.

Digər tərəfdən əgər hər hansı bir şəxs xəstəlik, məhsulun azlığı, yaxud ondan asılı olmayan digər səbəblər ucbatından özünü və ailəsini lazımi səviyyədə təmin etmək üçün kifayət qədər qazanc əldə edə bilmirsə, onda həmin şəxsə özünü və ailəsini dolandırmaq üçün ictimai fondlardan yardım göstərilməlidir.

Bundan başqa, digər ictimai gəlir mənbələri də vardır: vəsiyyətnamə ilə miras qoyulmuş əmlak, mədənlər, dəfinələr və könüllü ianələr bu qəbildəndir.

Xərclərə gəldikdə isə kimsəsiz xəstələrin, yetimlərin, karlar və korlar məktəblərinin, həmçinin ictimai səhiyyənin saxlanılması nəzərdə tutulmalıdır. Beləliklə, ümumi rifah təmin ediləcəkdir.[32]

## KÖNÜLLÜ İANƏLƏR

Həzrət Əbdül-Bəha 1919-cu ildə Davamlı Sülh Təşkilatı Mərkəzinə göndərdiyi məktubda yazırdı: "Həzrət Bəhaullahın Təlimindəki bir müddəada deyilir ki, hər bir insan başqasının mənafeyini öz mənafeyindən üstün tutmalıdır: bu, bərabərlikdən üstündür və onun mənası bundan ibarətdir ki, insan özünü başqasından üstün tutmasın, əksinə, öz canını və malını başqasına qurban versin.

Lakin bu, insanların sözsüz tabe olduqları qanun kimi məcburi həyata keçirilməməlidir, əksinə, onlar könüllü və öz istəkləri ilə mallarını və canlarını başqaları naminə qurban verməli və bəhailər arasında (İranda) olduğu kimi ehtiyacı olanlara həvəslə kömək etməlidirlər".

---

32 Bu məsələyə dair ətraflı izahlara Həzrət Əbdülbəhanın nəşr olunmuş çıxışlarında, xüsusilə Onun Amerikada söylədiyi məruzələrində rast gəlmək olar.

## HAMI İŞLƏMƏLİDİR

Həzrət Bəhaullahın iqtisadi məsələlərə dair ən mühüm tövsiyələrindən biri hökmən faydalı əməklə məşğul olmaqdır. İnsan cəmiyyətində tüfeylilər və başqasının hesabına dolananlar olmamalıdır. Həzrət Bəhaullah buyurur:

"Hər birinizə vacib buyrulmuşdur ki, sənət, ticarət və sair kimi hər hansı bir işlə məşğul olasınız. Biz fəzlimizdən belə bir işlə məşğul olmağınızı Haqq Allaha ibadət məqamına ucaltdıq. Allahın fəzli və nemətləri üzərində ürəyinizdə düşünün, və səhər və axşam Ona şükrlər edin. Vaxtınızı avaralıq və tənbəlliklə öldürməyin. Özünüzə və başqalarına fayda verən şeylərlə məşğul olun. Üfüqündən hikmət və bəyan günəşinin parladığı Lövhdə belə əmr olunmuşdur.

Allahın nəzərində ən mənfuru oturub dilənəndir. Hər cür ruzi verən Allaha bütünlüklə təvəkkül edərək maddi vəsaitlərin ipindən möhkəm yapışın."

İndi işgüzar aləmdə başqalarını məhv etmək və sarsıtmaq üçün faydasız işə və rəqabətə nə qədər enerji sərf edilir! Hələ də bundan da çox enerji daha zərərli olan üsullara sərf olunur.

Əgər insanlar işi bir vəzifə hesab etsəydilər və Həzrət Bəhaullahın tələb etdiyi kimi bəşəriyyət üçün faydalı olan fiziki və zehni əməklə məşğul olsaydılar, onlar sağlam, təminatlı və alicənab həyat üçün zəruri olan hər şeyə nail olardılar. Bu zaman yoxsullar yaşayan xarabalıqlar, aclıq, dilənçilik, sənaye köləliyi və sağlamlığı pozan ağır əmək də olmazdı.

## SƏRVƏT ETİKASI

Həzrət Bəhaullahın Təliminə görə, halal yolla qazanılmış və düzgün xərclənən sərvət hörmətə və tərifə layiq-

dir. Hər bir xidmət müvafiq olaraq mükafatlandırılmalıdır. Həzrət Bəhaullah "Tarazat" Lövhündə yazır:

"Bəha əhli heç kəsin haqqını danmamalı, sənətkarları möhtərəm tutmalı..."

Həzrət Bəhaullah "İşraqat" Lövhündə faiz haqqında yazır: "Çox insanların buna ehtiyacı vardır. Əgər qazanc əldə etmək imkanı olmasaydı, insanların işləri çökər və ya pozulardı. İndi nadir halda bir insanı tapmaq olar ki, öz soydaşına, həmvətəninə, yaxud öz qardaşına belə bir diqqət, qayğı göstərə və xeyirxahlıq edərək əlverişli şərtlər altında ona borc (bu cür borclardan mənfəət güdülmür və borc verənə istədiyi vaxt onu ödəmək olar) verə.

Ona görə də insanlara fəzlimizin bir əlaməti olaraq, Biz faizi insanlar arasında işləyən digər müamilələr sırasına daxil etdik. Bir halda ki, bu aydın hökm Allahın İradə səmasından nazil olmuşdur, borc pul faizi halaldır və puldan faiz tutmaq düzdür... Lakin bu bir məsələdir ki, mötədillik və insafla həyata keçirilməlidir.

Bizim İzzət Qələmimiz, hikmət əlaməti olaraq və insanlara rahatlıq vermək üçün buna hədd qoymaqdan geri durmuşdur. Bununla belə, Biz Allahın dostlarına tövsiyə edirik ki, ədalətli və insaflı olsunlar, Allahın dostlarını bir-birilərinə mərhəmət və şəfqət göstərməyə sövq edən şeyləri etsinlər.

Fəqət bu işlərin tətbiqi Ədalət Evinin üzvlərinə həvalə edilmişdir ki, onlar zamanın ehtiyaclarına və hikmət gərəyinə uyğun olaraq onları icra mövqeyinə gətirsinlər."

## SƏNAYE QULDARLIĞINA QARŞI

Həzrət Bəhaullah "Kitabi-Əqdəs"də quldarlığı qadağan edir, Həzrət Əbdül-Bəha isə göstərir ki, nəinki quldarlıq, həmçinin sənaye quldarlığı da Allah qanununa ziddir.

1912-ci ildə O, Amerikada olarkən Amerika xalqına demişdi:

"1860 və 1865-ci illər arasında Siz böyük iş görmüsünüz – quldarlığı ləğv etmisiniz, indi isə daha əhəmiyyətli iş görməlisiniz, yəni sənaye quldarlığını da ləğv etməlisiniz... Mən görürəm ki, iqtisadi məsələlərin həlli kapitalın əməyə qarşı və əməyin kapitala qarşı mübarizəsində deyildir; çəkişmələrdə və münaqişələrdə deyil, hər iki tərəfin qarşılıqlı xeyirxah münasibətindədir. Yalnız belə olan halda əsl və ədalətli həyat şəraitinə möhkəm təminat yarana bilər...

Bəhailər arasında başqasından pul qoparan, öz mənfəətini güdən, ədalətsiz adamlar yoxdur, mövcud iqtidara qarşı üsyankar tələblər, yaxud inqilabi çağırışlar yoxdur...

Gələcəkdə heç kəsin başqasının əməyi hesabına külli miqdarda sərvət toplamasına imkan olmayacaqdır. İnsanlar var-dövlət toplamağa tədricən, təbii surətdə, öz arzuları ilə nail olacaqlar. Bu heç zaman müharibə və qantökmə ilə əldə edilməyəcəkdir" *("Qərbin ulduzu" jurnalı, c.7, s.147).*

Həm əməyin, həm də kapitalın mənafeyinin qorunmasının ən yaxşı üsulu tərəflərin dostcasına görüşləri, gəlirlərin bölünməsində onların əməkdaşlığı, yoldaşlığı və iştirakıdır. Dəhşətli silah olan tətillər və lokautlar[33] nəinki sənayeni, eləcə də bütün cəmiyyəti sarsıdır. Buna görə də, hökumətin vəzifəsi mübahisələrin həllində belə vəhşi üsulların tətbiq edilməsinin qarşısını alan vasitələr axtarıb tapmaqdan ibarətdir. 1912-ci ildə Həzrət Əbdül-Bəha Dublində söylədiyi çıxışında demişdir:

"İndi mən sizə Allahın qanunu barəsində danışmaq istəyirəm. Allahın qanununa görə, muzdla işləyən şəxslə-

33 Fəhlələri öz tələblərindən və tətildən əl çəkməyə məcbur etmək üçün sahibkarların öz muəssisəsini bağlayıb, fəhlələri kütləvi surətdə işdən çıxarması.

rin haqqının ödənilməsini yalnız bir əmək haqqı ilə məhdudlaşdırmaq olmaz, onlar həmçinin müəssisənin hər bir gəlirində ortaq olmalıdırlar.

İctimailəşdirmə məsələsi olduqca çətindir. Onu tətillərlə həll etmək olmaz. Dünya dövlətləri yekdilliklə elə təşkilat yaratmalıdırlar ki, həm parlamentlərdən, həm də xalq arasından hörmətli adamlar buraya üzv ola bilsinlər. Onlar bütün səyləri və dərrakələri ilə elə qanun işləyib hazırlamalıdırlar ki, bir tərəfdən kapitalistlər zərərə və ziyana məruz qalmasınlar, digər tərəfdən də fəhlələr gündəlik çörəyə möhtac olmasınlar.

Bu qanunu tamamilə qərəzsiz qəbul etmək lazımdır. Sonra onlar hamıya elan etməlidirlər ki, fəhlələrin hüququ və mənafeləri qorunmuşdur. Eyni zamanda kapitalistlərin də hüquqları toxunulmaz qalır.

Hər iki tərəfin razılığı ilə belə qanun qəbul edildikdən sonra əgər yenə tətil baş verərsə, onda bütün dünya hökumətləri kollektiv surətdə ona qarşı çıxmalıdırlar. Əks təqdirdə vəziyyət daha da gərginləşər, xüsusilə Avropada faciəli hadisələr baş verə bilər.

Ümumavropa müharibəsini yaradan səbəblərdən biri də bu məsələ olacaqdır. Daşınmaz əmlak sahibləri, mədənlərin, fabriklərin və zavodların mülkiyyətçiləri müəssisələrin gəlirlərini fəhlələrlə bölüşdürməli və gəlirlərdən onlara müəyyən pay verməlidirlər ki, onlar öz əmək haqları ilə yanaşı, müəssisənin ümumi gəlirindən də müəyyən pay ala bilsinlər və işə can yandırsınlar" *("Qərbin ulduzu" jurnalı, c.8, №1, s.7.).*

## VƏSİYYƏTNAMƏ VƏ MİRAS

Həzrət Bəhaullahın Təliminə əsasən hər bir şəxs bütün həyatı boyu öz əmlakından istədiyi kimi istifadə etmək

hüququna malikdir, lakin hər bir insan ölümündən sonra onun əmlakı ilə necə hərəkət etmək barəsində vəsiyyətnamə yazmalıdır. Əgər hər hansı bir şəxs vəsiyyətnaməsiz dünyasını dəyişərsə, bu zaman onun əmlakı qiymətləndirilməli və onun yeddi dərəcəli varisləri, yəni, uşaqları, arvadı, yaxud əri, atası, anası, qardaşları, bacıları və müəllimləri arasında birincidən başlayaraq sonuncuyadək getdikcə azalmaqla bölüşdürülməlidir.

Əgər bu dərəcələrdən olan varislərdən hər hansı birisi olmazsa, onda ona çatacaq pay yoxsullara, yetimlərə, dullara və ya ictimai faydalı işlərə xərclənmək üçün ictimai xəzinəyə verilir. Əgər ölənin varisləri yoxdursa, bu zaman onun əmlakı bütünlüklə dövlət xəzinəsinə daxil edilir.

Həzrət Bəhaullahın qanununa görə, hər hansı bir şəxsin, bütün əmlakını bir nəfərə vəsiyyət etməsinə maneçilik yoxdur, amma, təbii ki, hər bir bəhai öz vəsiyyətnaməsini tərtib edərkən, Həzrət Bəhaullahın buyurduğu və mirasın varislərin böyük əksəriyyəti arasında bölüşdürülməsini təmin edən göstərişini əldə rəhbər tutmalıdır.

## KİŞİ VƏ QADIN BƏRABƏRLİYİ

Həzrət Bəhaullahın böyük əhəmiyyət verdiyi ictimai prinsiplərdən biri də hüquq və imtiyazlarda, təlim-tərbiyədə və cəmiyyətdə tutduqları mövqeyə görə qadın və kişilərin bərabərliyidir.

Ümumi təhsil qadın azadlığının ən qüdrətli hərəkətverici qüvvəsidir. Belə təsəvvür var ki, qızlar da oğlanlar kimi təhsil almalıdırlar. Əslində isə qızların təhsil alması oğlanların təhsilindən daha vacibdir, belə ki, qızlar müəyyən vaxtdan sonra ana olacaq və gələcək nəslə tərbiyə verəcəklər.

Uşaqlar yaşıl və kövrək budaqlara bənzəyirlər: əgər onlara edilən ilkin qulluq düzgündürsə, onlar düz yetişəcəklər, əgər ilkin qulluq düzgün deyilsə, bu zaman onlar əyri-üyrü böyüyəcək və pis tərbiyə nəticəsində ömürlərinin sonunadək şikəst qalacaqlar. Buna görə də qızların düzgün təlim-tərbiyəsi ən vacib işdir.

Həzrət Əbdül-Bəha Qərb dövlətlərinə səfərləri zamanı bu məsələyə Bəhai Təlimi mövqeyindən tez-tez izahlar verirdi. O, 1913-cü ilin yanvarında Londonda keçirilən Qadın Azadlığı İttifaqının iclasında demişdi:

"Bəşəriyyət iki qanadı olan quşa bənzəyir: qanadlardan biri – kişi, digəri – qadındır. Hər iki qanad güclü olmasa və eyni bir qüvvə ilə hərəkətə gətirilməsə quş səmaya uça bilməyəcəkdir. Zamanın ruhuna uyğun olaraq qadınlar kamilləşməli, həyatın bütün sahələrində özlərini göstərməli, kişilərlə bərabərləşməli, onların səviyyəsinə yüksəlməli və onlarla eyni hüquqlardan istifadə etməlidirlər. Bu Mənim diləyim və Həzrət Bəhaullahın əsas prinsiplərindən biridir.

Bəzi alimlər belə mülahizə irəli sürürlər ki, kişilərin beyninin çəkisi qadınların beyninin çəkisindən ağırdır və onlar bunu kişilərin üstünlüyünə dəlil sayırlar. Lakin biz həyatda başı kiçik olan kişilərə rast gəlirik ki, onların beyinlərinin çəkisi azdır, lakin onlar böyük ağıl və geniş idrak gücü nümayiş etdirirlər. İri başı və ağır beyni olan kişilər vardır ki, əqli cəhətdən inkişaf etməmişlər. Buna görə də beynin çəkisi ağlın inkişafı və ya üstünlüyü üçün həqiqi meyar deyildir.

Öz üstünlüklərini sübut etməyə çalışan kişilər ona da istinad edirlər ki, qadınlar kişilər kimi böyük xarüqələr göstərməyiblər. Bu, zəif və əsassız dəlildir, belə ki, tarixi faktlara ziddir. Əgər həmin kişilərin tarixdən məlumatı bir az çox olsaydı, onda bilərdilər ki, keçmiş zamanlarda mühüm işlər görmüş qadınlar olmuş və onların fəaliyyəti bir çox cəhətdən böyük hadisələri hazırlamışdır, indiki dövrdə də özlərini ciddi işlərə həsr edən çoxlu qadınlar vardır".

Həzrət Əbdül-Bəha sonra Zinoviyanın[34] və keçmiş dövrlərin digər dahi qadınlarının fəaliyyətlərinə toxunaraq, həvarilərin tərəddüd içində qaldıqları zaman öz inamında möhkəm olan, sarsılmaz Mariya Maqdalenanı xatırlamış və yüksək qiymətləndirmişdir. O, çıxışını davam etdirərək buyurmuşdu:

"Dövrümüzün məşhur qadınları arasında müsəlman ruhanilərindən birinin qızı olan Qürrətül-Eynin[35] adını çəkmək lazımdır.

Həzrət Babın Zühuru zamanı o elə qorxmazlıq, cəsarət və qüvvət göstərmişdi ki, onu dinləyənlərin hamısı heyrətə gəlmişdi. O, İranda keçmiş dövrlərdən bəri mövcud olan adəti pozaraq çadrasını atmış və üzüaçıq çıxış etmişdi. Kişilərlə danışmaq ədəbsizlik sayılsa da, bu cəsur qadın müctəhidlərlə mübahisələr edir və hər dəfə də yığıncaqlarda onlara üstün gələrdi.

İran hökuməti onu həbsxanaya saldı, küçədə onu daşqalaq edir, kafirlikdə günahlandırırdılar. Onu şəhərdən şəhərə sürgün edirdilər, O hər an ölümlə üz-üzə gəlirdi, lakin heç zaman öz bacılarının azadlığı uğrunda mübarizə əzmindən dönmürdü.

O, böyük qəhrəmanlıqla bütün əzablara və təqiblərə sinə gərirdi; hətta həbsxanada olarkən özünə yeni ardıcıllar tapırdı. Vəzirlərdən birinin evində dustaq olarkən ona bu sözlərlə müraciət edərək demişdi: "Siz istədiyiniz vaxt məni öldürtdürə bilərsiniz, lakin siz qadın azadlığının qarşısını ala bilməzsiniz". Qürrətül-Eyn xanımın həyatı faciəli surətdə sona çatmışdı: onu bağa gətirərək boğub öldürmüş və cəsədini quyuya atmışdılar.

..............................................................

34 Palmiranın kraliçası. İsa Məsihdən 267 il sonra Suriya və Misiri işğal etmişdir.

35 "Canlının hərflərindən biri", yəni Babın şagirdi

Həmin gün o, sanki gəlin gedirmiş kimi özünün ən gözəl paltarlarını geymişdi. O, öz həyatını elə fədakarlıqla və mərdliklə qurban vermişdir ki, onu görənlər heyrətə və riqqətə gəlmişdilər. O, həqiqətən əsl qəhrəman qadın idi. Hal-hazırda da İranda bəhailər arasında poetik istedada malik olan qadınlar var ki, çoxsaylı insan iştirak edən yığıncaqlarda böyük natiqlik qabiliyyəti ilə, cəsarətlə çıxış edirlər.

Qadınlar irəliyə doğru inkişaf etməlidirlər: bütün bəşəriyyətin kamilləşməsi naminə elm, ədəbiyyat və tarix sahələrində lazımi biliklərə yiyələnməlidirlər.

Yaxın gələcəkdə onlar öz hüquqlarını əldə edəcəklər. Qadınların necə inadla və çalışqanlıqla biliklərə yiyələnməsini, ölkənin şöhrətini və qüdrətini möhkəmlətməsini, müharibəyə qarşı çıxmalarını, öz hüquq bərabərliklərini və bərabər vəziyyətlərini tələb etmələrini kişilər görəcəklər.

Mən ümidvaram ki, Siz həyatın bütün sahələrində kamilləşəcək və əbədi şöhrət çələngini başınıza qoyacaqsınız".

## QADINLAR VƏ YENİ ƏSR

Qadın məsələsinə layiqli diqqət yetirildiyi və qadınların iradəsinin də ictimai işlərin təşkilində kişilərlə eyni əhəmiyyət kəsb etdiyi zaman, əvvəllər kişilərin hakim rol oynadığı sahələrdə, o cümlədən səhiyyə sahəsində, spirtli içkilərin istifadəsindən çəkinməkdə, şəxsi həyata və ayrılıqda götürülmüş hər bir insana hörmətlə yanaşılmasında biz böyük dəyişikliklər gözləyə bilərik.

Bu sahələrdəki tərəqqinin perspektivli və faydalı nəticələri olacaqdır. Həzrət Əbdül-Bəha buyurur:

"Keçmişdə dünyanı zorakılıq və qəddarlıq idarə edirdi və kişi özünün ağıl və bədəninin gücü və təcavüzkar

keyfiyyətləri sayəsində qadın üzərində hökmranlıq edirdi. İndi vəziyyət dəyişmişdir – güc öz hökmranlığını itirir və qadında güclü olan əqli sayıqlıq, fəhm, sevgi və xidmət göstərmək kimi mənəvi xüsusiyyətlər hökmranlıq etməyə başlayır.

Deməli, yeni era kişilərin keyfiyyətləri ilə qadınların məziyyətlərinin birləşdiyi era olacaqdır, dəqiq desək, bu əsr kişi və qadındakı mədəni başlanğıcların böyük tarazlığa gəldiyi əsr olacaqdır." *("Qərbin ulduzu" jurnalı, c.8, №3, s.4)*

## ZORAKI ÜSULLARDAN İMTİNA

Digər problemlərin həllində olduğu kimi, qadın azadlığı məsələsində də Həzrət Bəhaullah Öz ardıcıllarına zorakı üsullardan çəkinməyi məsləhət görürdü. İctimai dəyişikliklərin həyata keçirilməsinin ən gözəl metodlarının nümunəsini İranda, Misirdə və Suriyada yaşayan bəhai qadınlar nümayiş etdirirlər.

İslam adətlərinin mövcud olduğu bu ölkələrdə müsəlman qadınlar evdən kənar yerlərdə üzlərini kişilərdən gizlətmək üçün çadra örtməlidirlər. Həzrət Bab buyururdu ki, Yeni Təlimdə qadınlar bu təəssüf doğuran sıxıntıdan azad ediləcəklər. Lakin Həzrət Bəhaullah davamçılarına tövsiyə edir ki, xalq maariflənməyincə, əgər mövcud adətlər mühüm əxlaqi məsələlərə toxunmursa, onlara güzəştə getmək lazımdır. Bu, birlikdə yaşadığınız insanların hisslərini təhqir etməkdən, lazımsız münaqişələr yaratmaqdan və qadınları cəmiyyətdə mübarizə alətinə çevirməkdən yaxşıdır.

Buna görə də bəhai qadınlar köhnəlmiş adət olan çadra örtməyin ziyalı insanlar üçün narahatçılıq törətməsini və faydasız olmasını yaxşı bilirlər, lakin buna baxmayaraq,

onlar camaat içinə açıq üzlə çıxmağın əleyhdarlarında fanatik nifrət və ədavət tufanı yaratmaqdansa, bu narahatçılıqlara sakitcə dözməyi daha üstün tuturlar.

Çadra örtmək adəti ilə barışmaq heç vəhclə qorxaqlıq əlaməti deyil, əksinə maarifin gücünə və həqiqi dinin ictimai həyata gətirəcəyi dəyişikliklərə qətiyyətli inam deməkdir.

Bu ölkələrin bəhailəri bütün qüvvələrini öz uşaqlarının, xüsusilə qızlarının maariflənməsinə, həmçinin bəhai ideyalarının təbliğinə və bərqərar olmasına sərf edir və yaxşı başa düşürlər ki, yeni mənəvi həyat xalq arasında inkişaf edib yayıldıqca, köhnəlmiş adət-ənənələrin və xurafatın tədricən aradan çıxması yazda günəş şüalarının təsiri altında yarpaqların və güllərin açıldığı zaman tumurcuğun yox olması kimi təbii və labüd olacaqdır.

## TƏRBİYƏ

Dünya yaranan gündən bütün müqəddəs Peyğəmbərlərin ali məqsədi həmişə insanları tərbiyələndirmək, yəni maarifləndirmək, onlara rəhbərlik etmək, eləcə də onların anadangəlmə keyfiyyətlərini inkişaf etdirmək olmuşdur.

Bəhai Təlimində tərbiyənin vacibliyi və onun imkanlarının qeyri-məhdudluğu ən parlaq ifadələrlə verilmişdir. Müəllim, tərbiyəçi – sivilizasiyanın ən qüdrətli amilidir. Onların yerinə yetirdikləri vəzifə insanların arzulaya biləcəkləri ən yüksək vəzifədir.

Tərbiyə ana bətnindən başlayaraq insan ömrünün axırınadək davam edir. O, düzgün həyat tərzinin daimi zərurəti, həm fərdi, həm də ictimai firavanlığın təməlidir. Düzgün tərbiyə ümumi vüsət alan zaman bəşəriyyət dəyişəcək və dünya Cənnətə çevriləcəkdir.

Hal-hazırda yaxşı tərbiyə almış insan, həqiqətən ən nadir hadisələrdən biridir, belə ki, hər bir kəs uşaqlıqdan ona aşılanmış yalançı təəssüratları, uydurulmuş idealları, yalnış təsəvvürləri və pis vərdişləri özündə daşıyır.

Olduqca az insan tapılar ki, uşaqlıq çağlarından ona Allahı bütün qəlbi ilə sevməyi və həyatını Ona qurban verməyi, bəşəriyyətə xidməti həyatın ali məqsədi saymağı, hamının xeyirxahı olmaq və ümumi firavanlığa nail olmaq üçün öz gücünü inkişaf etdirməyə böyük səy göstərməyi öyrətsinlər. Bütün bunlar, əlbəttə, yaxşı tərbiyənin əsas amilləridir.

İnsanların öz yaddaşlarını sadəcə olaraq riyaziyyat, qrammatika, coğrafiya, dilçilik və s. biliklərlə zənginləşdirməsi insan həyatı üçün faydalı olan alicənab keyfiyyətlərin formalaşdırılması ilə müqayisədə çox az əhəmiyyət kəsb edir. Həzrət Bəhaullah buyurur ki, tərbiyə ümumi səciyyə daşımalıdır:

"Hər bir qız və oğlan övladının oxumağı, yazmağı və Müqəddəs Lövhdə təsbit olunan hər bir şeyi öyrənməsini təmin etmək hər bir ataya fərzdir. Kimsə bu hökmə riayət etməzsə və əgər o zəngin olarsa, onda Əminlər uşaqların təlim-tərbiyəsinin məsrəflərini ondan alsınlar, əgər zəngin deyilsə, məsələ Ədalət Evinə həvalə olunur. Həqiqətən, Biz onu yoxsul və möhtaclar üçün sığınacaq etdik. Öz oğlunu və ya başqasının oğlunu böyüdüb tərbiyə verən Mənim oğlumu böyüdüb tərbiyə vermiş sayılır." *(Həzrət Bəhaullah, İşraqat)*

"İstər qadın, istər kişi, hər kəs, ticarət və ya kənd təsərrüfatı və ya başqa bir məşğuliyyət vasitəsilə əldə etdiyi qazancın müəyyən bir hissəsini uşaqların təlim-tərbiyəsi üçün etibarlı bir şəxsə əmanət etməlidirlər ki, Ədalət Evinin Əminlərinin bilgisi ilə bu məqsədlə sərf edilsin." *(Həzrət Bəhaullah, Lövhi-Dünya)*

## ANADANGƏLMƏ XASİYYƏT FƏRQLƏRİ

Bəhai Təliminə görə, uşağın xasiyyəti mum deyildir ki, tərbiyəçinin istəyindən asılı olaraq onu hər hansı bir formaya salmaq mümkün olsun. Əksinə, hər bir kəs ilk başlanğıcdan Allah tərəfindən ona verilən xasiyyətə və fərdiliyə malikdir ki, bu yalnız xüsusi yolla ən yaxşı tərəfə inkişaf etdirilə bilər; bu yol bütün hallarda yeganədir. Dünyada eyni qabiliyyətlərə və istedadlara malik olan iki insan tapmaq olmaz və həqiqi tərbiyəçi heç zaman iki müxtəlif xasiyyətli insanı zorla eyni cür formaya salmağa çalışmamalıdır. Əslində, o heç zaman, nə cür xarakter olursa-olsun, ona hər hansı bir formanı güclə təlqin etməyə səy göstərməməlidir. Əksinə, o inkişaf edən gənc xasiyyətin gücünü qayğıkeşliklə qoruyar və həvəsləndirər, ehtiyac duyduğu köməyi və mənəvi qidanı ona verər.

Tərbiyəçinin işi müxtəlif bitkilərə qulluq edən bağbanın işinə bənzəyir. Bir bitki güclü günəş işığını, digəri isə sərin kölgəliyi xoşlayır; biri bol nəmliyi, digəri isə quru torpağı sevir; biri qumsallıqda, digəri isə münbit torpaqda daha yaxşı boy atır. Deməli, hər bir bitki özünün inkişafına lazım olan bütün zəruri şeyləri almalıdır, yoxsa bitkinin mükəmməl xüsusiyyətləri heç zaman tam üzə çıxa bilməz.

Həzrət Əbdül-Bəha buyurur: “Peyğəmbərlər etiraf edirlər ki, tərbiyə bəşəriyyətə böyük təsir göstərir, lakin bunu da bildirirlər ki, insanların ağılları və idrakı öz təbiətlərinə görə müxtəlifdir. Biz görürük ki, eyni yaşlı, eyni mənşəli və bir irqdən və hətta eyni bir ailədən olan, eyni bir müəllimdən dərs alan uşaqlar əqli mənimsəmə qabiliyyətlərinə görə fərqlənirlər.

Balıqqulağı necə məharətlə işlənib cilalansa da, ondan heç zaman mirvari olmaz. Qara daş heç zaman bərq vuran brilyanta çevrilə bilməz. Tikanlı maldili bitkisinə ən yüksək qulluq göstərilsə də, o heç zaman müqəddəs ağaca

çevrilməz. Yəni, tərbiyə insan təbiətinin əsl xəzinəsini dəyişmir, lakin ona ecazkar təsir göstərir. Tərbiyənin bu təsir gücü ilə insan mahiyyətində gizlənən bütün xeyirxahlıqlar və qabiliyyətlər üzə çıxarılacaqdır" *(Əbdül-Bəhanın məktubları. c.3, s.577).*

## XARAKTERİN FORMALAŞMASI

Tərbiyədə ən vacib məsələ xarakterin formalaşmasıdır. Bu baxımdan əyani nümunə öyüd-nəsihətdən daha səmərəlidir və buna görə də uşağın boya-başa çatdığı cəmiyyət, valideynlərin, müəllimlərin həyat tərzi və xarakteri müstəsna əhəmiyyətə malik olan amillərdir.

Allahın Peyğəmbərləri insanların ən böyük tərbiyəçiləridir və buna görə də uşaq dərketmə həddinə çatan kimi Onların həyatı və nəsihətləri haqqında ona məlumat verilməlidir.

Gələcək sivilizasiyanın əsas prinsiplərini bəyan edən dahi Müəllim Həzrət Bəhaullahın sözləri xüsusilə böyük əhəmiyyətə malikdir. Belə ki, O buyurur:

"Qüdrət və Şərəf səmasından nazil olan nə varsa, hamısını uşaqlarınıza öyrədin ki, onlar məlahətli səsləri ilə Mərhəmətlinin kəlamlarını Məşriqül-Əzkar Məbədlərində oxusunlar" *"Qərbin ulduzu" jurnalı, c.9, №7, s.81).*

## İNCƏSƏNƏT, ELM, SƏNƏT

İncəsənətin, elmlərin, sənətlərin və faydalı peşələrin öyrədilməsi vacib və zəruri sayılır. Həzrət Bəhaullah buyurur: "Bilik insan həyatının qanadı və onun yüksəlməsi üçün nərdivandır. Onu əldə etməyə hər kəs mükəlləfdir. Lakin o elmlər əldə edilməlidir ki, yer üzü insanlarına fay-

da gətirsin, daha o elmlər yox ki, sözlə başlayıb sözlə qurtarır. Elm və sənət adamlarının dünya insanlarına böyük haqları keçmişdir... Doğrudan da, bilik insanın əsl sərvəti və onun şərəf, nemət, sevinc, yüksəliş, şadlıq və fərəh mənbəyidir.” *(Həzrət Bəhaullah, Təcəlliyat)*

## CANİLƏRLƏ RƏFTAR

Canilərlə düzgün davranmaq barəsində Həzrət Əbdül-Bəha belə buyurur: “...Ən vacib məsələ cəmiyyətin elə tərbiyə edilməsidir ki, orada cinayətkarlığa yol verilməsin. İnsanları elə tərbiyələndirmək olar ki, onlar cinayət törətməkdən çəkinsinlər və cinayət onlara ən böyük cəza kimi görünsün. Onda cəza tələb edən heç bir cinayət törədilməz...

...Əgər hər hansı bir şəxs kiməsə zülm edərsə, onun ləyaqətinə toxunarsa, yaxud onun hüququnu pozarsa və zülm edilən də onunla eynilə bu cür rəftar edərsə, onda bu, qisas sayılır və belə hərəkət məzəmmətə layiqdir. Əgər “X” “Y”-in şərəfinə toxunarsa, “Y”-də “X” kimi hərəkət etməli deyil və əgər o belə davranarsa, onda bu qisas almaqdır, bu isə layiqli hərəkət deyil. Əksinə, o, pisliyə yaxşılıqla cavab verməlidir. O, onu təhqir edəni nəinki bağışlamalı, hətta imkan daxilində öz zülmkarına xidmət də etməlidir. Belə davranış insana layiq hərəkətdir, axı o, qisas almaqdan nə fayda götürür? Hər iki hərəkət eyni qiymətə bərabərdir: əgər onlardan biri məzəmmətə layiqdirsə, deməli, hər ikisi məzəmmət edilməlidir. Aralarındakı fərq yalnız ondadır ki, biri bu hərəkəti əvvəl digəri isə sonra edir.

Lakin cəmiyyətin müdafiə olunmaq və özünü qorumaq hüququ vardır: qatilə qarşı nə düşmənçiliyi, nə də nifrəti olmayan cəmiyyət, yalnız başqalarının müdafiəsi və təhlükəsizliyi naminə qatili həbsxanaya salır...”

Buna görə də İsa Məsih buyurur:

"Pisliyə müqavimət göstərmə; fəqət kim sənin sağ yanağına vurarsa, ona o birini də çevir" (İncil. Matta, 5:39). Peyğəmbər bu tövsiyəni ona görə etmişdir ki, insanlara şəxsi qisas almamağı öyrətsin. Bu, o demək deyildir ki, qurd qoyun sürüsünə basqın edərsə, qurda hələ mükafat da vermək lazımdır; əksinə, əgər Məsihin Özü qurdun qoyunları parçalamaq məqsədilə tövləyə girdiyini görsəydi, şübhəsiz ki, O buna yol verməzdi..."

İctimai asayişin möhkəmliyi bağışlamağa deyil ədalətə əsaslanır. Həzrət İsanın "təhqiri bağışlamaq və unutmaq" sözləri o demək deyildir ki, əgər hər hansı bir millət sizə basqın edərək, evlərinizi yandırırsa, var-dövlətinizi talan edirsə, arvadınızı, uşaqlarınızı və qohumlarınızı zorlayırsa, namusunuza toxunursa, siz bu qəddar düşmənə qarşı münasibətdə itaətkarlıq göstərib ona öz işlərini davam etdirməyə icazə verəsiniz.

Xeyr, İsanın sözləri yalnız iki nəfərin bir-birinə olan münasibətlərinə aiddir. Əgər bir şəxs digərinə qarşı haqsızlıq edərsə, təhqir olunan onu bağışlamalıdır. Lakin cəmiyyət insan hüquqlarını qorumalıdır.

Əlavə edilәsi bir şey qalır ki, cəmiyyət gecə-gündüz müxtəlif cəza qanunlarının tərtib edilməsi, cəza alətlərinin və vasitələrinin hazırlanması və qurulması ilə məşğuldur. İnsanlar həbsxanalar tikir, zəncirlər, qandallar hazırlayır, sürgün və köçürmə yerləri və digər əzab-əziyyət vermək üsulları axtarıb tapır və elə düşünürlər ki, bu tədbirlərlə cinayətkarları islah edəcəklər, halbuki bu tədbirlər mənəviyyatların korlanmasına və xarakterlərin pozğunlaşmasına səbəb olur.

Halbuki bunun əksinə olaraq, cəmiyyət böyük fədakarlıqla və var qüvvəsi ilə insanların tərbiyə edilməsinə çalışmalı, onları kamilləşməyə, gündən-günə daha çox biliklərə yiyələnməyə, xeyirxahlığa, özlərinin əxlaqının

qayğısına qalmağa və qüsurlardan çəkinməyə həvəsləndirməlidir. Bu zaman bizim həyatımızda cinayətkarlığa yer qalmayacaqdır". *(Əbdül-Bəha. Suallara cavablar. s.307-312)*

## MƏTBUATIN TƏSİRİ

Həzrət Bəhaullah insanlar arasında maarifin və biliklərin yayılmasında mühüm vasitə kimi düzgün mövqe tutan mətbuatın əhəmiyyətini və mədəni qüvvəsini etiraf edir. O buyurur:

"Bu gün yerin sirləri insanların gözü qarşısında açılmışdır. Sürətlə peyda olan qəzet səhifələri, doğrudan da, dünyanın güzgüsüdür. Onlar müxtəlif xalqların və tayfaların əməllərini və işlərini əks etdirir. Onları həm əks etdirir, həm də onlardan xəbər verir. Onlar eşidən, görən və danışan aynalardır. Bu heyrətamiz və qüdrətli bir təzahürdür. Lakin onun yazarları qərəzdən və yamandan pak olmalı, ədalət və insaf libası ilə bəzənməlidirlər. Onlar mümkün qədər vəziyyəti araşdırmalı və faktları dəqiqləşdirməli, sonra isə yazıya almalıdırlar.

Bu Məzluma gəlincə isə, qəzetlərdə Onun haqqında yazılanların çoxu həqiqətdən uzaqdır. Qərəzsiz nitq və doğruluq yüksək məqam və mərtəbəyə malik olduğundan, elm səmasının üfüqündə parlayan günəş kimidir." *(Həzrət Bəhaullah, Tarazat)*

# X FƏSİL

# SÜLHƏ GEDƏN YOL

*"Həqiqətən, bu qul indi ona görə gəlmişdir ki, dünyanı canlandırsın və bütün yer üzünün sakinlərini bir ittifaqda birləşdirsin. Allahın istədiyi tezliklə baş verəcəkdir və sən yer üzünün Əbha Cənnətinə döndüyünü görəcəksən."*

***Həzrət Bəhaullah, Rəis Lövhü***

## RAZILIQ ƏVƏZİNƏ MÜBARİZƏ

Sonuncu yüzillik ərzində alimlər heyvanat və bitkilər aləmində yaşayış uğrunda gedən mübarizə məsələsinin öyrənilməsinə dair çoxlu araşdırmalar aparmışlar. Onların əksəriyyəti ictimai həyatdakı hərc-mərcliyin əsasında təbiət aləminin aşağı inkişaf mərhələsində hökm sürən elə həmin prinsiplərin durduğunu bəyan etmişlər. Beləliklə, onlar belə nəticəyə gəlmişlər ki, rəqabət və mübarizə həyatın zəruri şərtidir və cəmiyyətin nisbətən zəif üzvlərinin amansızcasına öldürülməsi qanunidir, hətta irqin yaxşılaşması üçün zəruri vasitədir.

Lakin Həzrət Bəhaullah öyrədir ki, əgər biz tərəqqi pillələri ilə inkişaf etmək istəyiriksə, onda geriyə, heyvanlar aləminə baxmaqdansa, uzaq gələcəyə və İlahiyə üz çevirməli, Peyğəmbərlərimizin göstərişlərini əldə rəhbər tutmalıyıq. Peyğəmbərlərin öyrətdikləri ittifaq, əmin-amanlıq və mərhəmət prinsipləri heyvanat aləmində hökm sürən özünü qorumaq prinsipinə tamamilə ziddir. Biz bunlardan birini seçməliyik, çünki, onlar bir araya sığmırlar.

Həzrət Əbdül-Bəha buyurur:

"Təbiət aləmində yaşayış uğrunda mübarizə hakim mövqedədir və bunun da nəticəsində daha yaxşı uyğunlaşan qalib gəlir. Daha güclü olanın yaşaması qanunu bütün çətinliklərin başlanğıcıdır. Bu qanun insanlar arasında müharibələrə və çəkişmələrə, nifrətə və düşmənçiliyə səbəb olur. Təbiətdə heyvanlar aləminə xas olan səciyyəvi xüsusiyyətlər – despotizm, eqoizm, zülm, yaşayış yerlərindən sıxışdırmaq, başqalarının hüquqlarını əllərindən almaq və digər mənfi keyfiyyətlər cəmiyyətdə də mövcuddur.

Buna görə də nə qədər ki, bəşər övladları arasında heyvanat aləminin, təbiətin qanunları hökm sürür, cəmiyyətdə uğur, xoşbəxtlik, dinclik və firavanlıq qeyri-mümkündür. Təbiət müharibəni sevir, təbiət qana susamışdır, təbiət zülmkardır, çünki təbiətin Qadir Allahdan xəbəri yoxdur. Məhz buna görə də bu amansız keyfiyyətlər heyvanlar aləmi üçün təbiidir.

Öz mərhəmət və böyük məhəbbəti sayəsində Allah-taala Peyğəmbərlərini və Müqəddəs Vəhy Kitablarını ona görə göndərmişdir ki, insanlar İlahi tərbiyənin vasitəsilə təbiətlərinə xas olan pozğunluqdan və nadanlıq zülmətindən azad olsunlar, xeyirxahlıq idealları və mənəvi dəyərlərlə mətinləşsinlər, mərhəmət hisslərinin şəfəqinə çevrilsinlər.

Lakin yüz min dəfə təəssüf olsun! Millətlər arasında mövcud olan xurafatlar, uydurulmuş ixtilaflar və dini qarşıdurmalar ümumi tərəqqinin məhv edilməsinə və ləngiməsinə səbəb olmuşdur. Geriyə doğru bu hərəkət ondan irəli gəlmişdir ki, İlahi tərbiyənin prinsipləri və Peyğəmbərlərin təlimləri tamamilə unudulmuşdur" *("Qərbin ulduzu" jurnalı, c.8, s.15).*

## ƏN BÖYÜK SÜLH

Peyğəmbərlər bütün dövrlərdə "yer üzündə sülh və insanlar arasında əmin-amanlıq" erasının gələcəyini əvvəlcədən xəbər vermişlər. Həzrət Bəhaullah aydın və hikmətli ifadələrlə bu vədləri təsdiq edərək buyurur ki, indi onları həyata keçirmək vaxtı yetişmişdir.

Həzrət Əbdül-Bəha buyurur:

"...Bu ecazkar erada yer üzü dəyişəcək, insanlar əmin-amanlıq və gözəllik şəraitində yaşayacaqlar. Çəkişmələr, münaqişələr və qətllər ahəngdarlıq, doğruluq və qarşılıqlı razılaşma ilə əvəz olunacaqdır: millətlər, xalqlar, irqlər və dövlətlər arasında məhəbbət və dostluq yaranacaqdır. Əməkdaşlıq və müttəfiqlik bərqərar olacaqdır: nəhayət ki, müharibələr tamamilə qadağan ediləcəkdir. Ümumdünya sülhü öz çadırını yer üzündə quracaq və müqəddəs həyat ağacı elə böyüyəcəkdir ki, onun kölgəsi Şərqi və Qərbi bürüyəcəkdir.

İndi bir-biri ilə qurd və quzu, bəbir və çəpiş, şir və buzov kimi rəftar edən güclülər və zəiflər, varlılar və yoxsullar, barışmaz təriqətlər və düşmən millətlər bir-birilə böyük məhəbbət və dostluqla, ədalət və şəfqətlə dolanacaqlar. Dünya elmlərlə, Varlığın real mahiyyətinin sirlərinin dərki və Allahın dərki ilə dolacaqdır" *(Əbdül-Bəha, Suallara cavablar, s.73).*

## DİNİ MÖVHUMATLAR

Ən Böyük Sülhün yer üzündə necə qurulacağını aydın görmək üçün keçmişdə müharibələrə gətirib çıxaran əsas səbəbləri araşdırmaq və bu səbəblərin aradan qaldırılmasından ötrü Həzrət Bəhaullahın irəli sürdüyü təkliflərlə tanış olmaq lazımdır.

Müharibələri doğuran səbəblərdən başlıcası dini mövhumatlar olmuşdur. Bununla əlaqədar olaraq Bəhai Təlimində açıq-aydın göstərilir ki, müxtəlif dinlərə və təriqətlərə mənsub olan insanlar arasında düşmənçilik və çəkişmələr əsl dinə görə deyil, əksinə, əsl dinin olmaması və onun mövhumatla, təqlidlə əvəzlənməsi, yalnış şərh edilməsi nəticəsində baş verirdi.

Həzrət Əbdül-Bəha Parisdə etdiyi söhbətlərinin birində buyurur:

“Din qəlbləri və ürəkləri birləşdirməyə, yer üzündən müharibələrin və çəkişmələrin silinib atılmasına xidmət etməlidir. O, mənəviyyat yaratmalı və hər bir insanın həyatına şəfəq saçmalıdır. Əgər din nifrətə və çəkişməyə səbəb olursa, onda dinsiz keçinmək daha yaxşıdır və belə dindən imtina etmək əsl dini hərəkətdir. Çünki hər bir müalicə vasitəsi xəstəliyin sağalmasına xidmət etməlidir və əgər dərman xəstəliyi kəskinləşdirirsə, onda ən yaxşısı ondan imtina etməkdir. Məhəbbətə və birliyə aparmayan din – din deyildir” *(Əbdül-Bəha, Paris söhbətləri. s.180)*.

Digər bir yerdə Həzrət Əbdül-Bəha buyurur:

“Bəşər tarixinin əvvəllərindən bu günədək dünyada mövcud olan müxtəlif dinlərin ardıcılları bir-birilərini lənətləmiş və yalançılıqda günahlandırmışlar. Onlar daim bir-birilərindən kənar gəzmiş, bir-birilərinə qarşılıqlı nifrət və düşmən münasibəti bəsləmişlər. Dini müharibələr tarixinə nəzər salaq... Ən böyük dini müharibələrdən biri iki yüz ildən artıq davam edən səlib yürüşləridir. Bəzən

səlibçilər qalib gələrək müsəlmanları qırmış, qarət etmiş və əsir götürmüşlər; bəzən isə müsəlmanlar qələbə çalaraq işğalçıları öldürmüş və qarşılarına çıxan hər şeyi darmadağın etmişlər. Beləcə onlar gah coşqunluqla vuruşmuş, gah da zəifləyib geri çəkilmişlər. İki əsr ərzində müharibə edən Avropa fanatikləri özlərindən sonra Şərqi kül qalağı və xarabalıqlar içində qoyub getdilər və öz dövlətlərini isə qiyam və iğtişaşlar içində gördülər. Bu "Müqəddəs müharibələr"dən yalnız biri idi.

Dini müharibələr çox olmuşdur. Xristianlığın protestant və katolik təriqətləri arasında gedən mübarizə və çəkişmə nəticəsində doqquz yüz min protestant şəhid olmuşdur. Hələ nə qədər insan həbsxanalarda əzab çəkmiş və əsirlərlə necə də amansız rəftar olunmuşdur. Və bütün bunların hamısı din naminə edilmişdir.

Xristianlar və müsəlmanlar yəhudiləri şeytanın törəməsi və Allahın düşməni saymışlar. Buna görə də onlar yəhudiləri lənətləmiş və təqib etmişlər. Çoxlu yəhudi öldürülmüş, onların evləri yandırılıb talan olunmuş, uşaqları isə əsir aparılmışdır. Yəhudilər də öz növbəsində xristianlara dinsiz dönüklər, müsəlmanlara isə Musa Peyğəmbərin qanunlarını pozanlar və düşmənlər kimi baxmışlar. Buna görə də yəhudilər qisas almağa çağıraraq onları hələ də lənətləyirlər.

Həzrət Bəhaullahın Günəşi Şərqdən şəfəq saçaraq bəşəriyyətin birliyi haqqında Xoş Xəbəri elan etdi. O bütün insanlara aşağıdakı sözlərlə müraciət etdi: "Siz hamınız bir ağacın meyvələrisiniz, İlahi mərhəmət ağacı və şeytan ağacı kimi iki ağac yoxdur. Buna görə də biz bir-birimizlə böyük məhəbbətlə davranmalıyıq...

Biz heç bir xalqa şeytanın xalqı kimi baxmamalı, bütün insanları Canlı (Həyy) Allahın bəndələri kimi dərk edib qəbul etməliyik. Məsələ ondadır ki, bəziləri nadandır, onlara yol göstərmək lazımdır; bəziləri savadsızdır,

onlara təlim vermək lazımdır. Bəziləri uşaq kimidir, onları tərbiyələndirmək lazımdır ki, kamilləşsinlər. Bəziləri isə xəstə və ədəbsizdirlər, onların əxlaqı təmizlənənədək onları müalicə etmək lazımdır. Xəstəyə xəstə olduğu üçün nifrət etmək lazım deyil. Uşaqdan uşaq olduğu üçün uzaqlaşmaq olmaz. Savadsıza avam olduğuna görə nifrət bəsləmək lazım deyil. Hamıya təlim-tərbiyə vermək və məhəbbətlə kömək göstərmək lazımdır. Elə hərəkət etmək lazımdır ki, bütün insanlar Allahın kölgəsində böyük firavanlıq, sonsuz xoşbəxtlik və təhlükəsizlik içində yaşaya bilsin" *("Qərbin ulduzu" jurnalı, c.8, s.76).*

## **İRQİ VƏ VƏTƏNPƏRVƏRLİK XURAFATLARI**

İnsan nəslinin birliyinə dair Bəhai Təlimi müharibələrin digər bir səbəbi olan irqi xurafatların kökünü kəsir. Bəzi irqlər "daha güclü olanın yaşaması" prinsipinə əsaslanaraq, özlərini digərlərindən üstün sayır və belə düşünürlər ki, bu onlara daha zəif olan irqləri öz mənafeləri naminə istismar etmək və hətta məhv etmək hüququ verir.

Dünya tarixinin ən qara səhifələrindən çoxu bu prinsipin amansızcasına tətbiqindən xəbər verir. Lakin bəhai nöqteyi-nəzərincə, bütün irqlər Allah qarşısında bərabərdirlər. Hamı anadangəlmə gözəl qabiliyyətlərə malikdir; hamının yalnız öz inkişafı üçün uyğun olan tərbiyəyə ehtiyacı vardır və hər bir kəs başqasını zəiflətmək əvəzinə, öz fəaliyyəti ilə insan cəmiyyətinin bütün üzvlərinin həyatını yaxşılaşdıra və zənginləşdirə bilər. Həzrət Əbdül-Bəha buyurur:

"İrqi təəssübə gəldikdə isə, bu tamamilə xam xəyaldır, sadəcə mövhumatdır, belə ki, biz hamımız yeganə insan nəsli kimi Allah tərəfindən yaradılmışıq... Əvvəllər

müxtəlif ölkələr arasında heç bir sərhəd yox idi və torpağın heç bir hissəsi ayrıca olaraq bu və ya digər xalqa mənsub deyildi.

Allahın yanında müxtəlif irqlər arasında heç bir fərq yoxdur. Bəs insan bu xurafatı nə üçün uydurmalı idi? Belə bir uydurmaya görə düşmənçilik etməyə dəyərmi? Allah insanları ona görə yaratmayıb ki, onlar bir-birilərini qırsınlar. Bütün irqlər, xalqlar və tayfalar Səmavi Atanın Səxavətindən bərabər pay alırlar. Buna görə də insanlar arasında yeganə fərq onların ləyaqətli, xeyirxah, mömin olmasında və Allah qanunlarına itaət etməsindədir.

Bəziləri məşəl kimi işıq verir, digərləri isə bəşəriyyət səmasındakı ulduzlar kimi şəfəq saçırlar. Milliyyətindən, dinindən və ya dərisinin rəngindən asılı olmayaraq, bütün insanları sevən şəxslər – ən ali insanlardır". *(Əbdül-Bəha. Paris söhbətləri, s.137)*

İrqi xurafatlarla yanaşı, siyasi və milli vətənpərvərlikdən doğan xurafat da zərərlidir. İndi elə vaxt gəlmişdir ki, dayaz millətçilik təəssübkeşliyi öz yerini bütün dünyanı vətən sayan geniş vətənpərvərlik hisslərinə verməlidir. Həzrət Bəhaullah buyurur:

"Keçmişdə nazil olmuşdur: "Vətənə məhəbbət imandandır." Amma Əzəmət Dili Öz Zühur dövründə belə buyurub: "O kəs fəxr etməsin ki, vətənini sevir, fəxr etsin o kəs ki, dünyanı sevir." Bu ali kəlamlarla zahir olan güclə O, insanların könül quşlarına təzə bir uçuş öyrətdi, onlara yeni bir təkan verdi, Allahın müqəddəs Kitabından məhdudiyyət və təqlidin izini sildi." *(Həzrət Bəhaullah, Lövhi-Dünya)*

## ƏRAZİ İDDİALARI

Müharibələrin əksəriyyətinin səbəbi, bir parça torpağı işğal etməyə çalışan iki və yaxud daha çox millət arasın-

dakı rəqabət olmuşdur. Mülkiyyət hərisliyi çox vaxt ayrı-ayrı insanlar arasında çəkişmələrə gətirib çıxarmışdır. Bəhai Təlimi nöqteyi-nəzərincə, torpaq, əslində ayrı-ayrı şəxsiyyətlərə, yaxud dövlətlərə deyil, bütün insanların hamısına məxsusdur, hətta daha doğrusu, o, yalnız Allaha məxsusdur, bütün insanlar isə yer üzünün yalnız müvəqqəti sakinləridirlər.

Benqazi[36] döyüşü ilə əlaqədar Həzrət Əbdül-Bəha buyurmuşdur: "Benqazi yaxınlığındakı döyüş haqqında xəbər Mənim qəlbimi kədərləndirdi. Mən dünyada hələ də mövcud olan insan vəhşiliyinə təəccüblənirəm. Axı səhərdən axşamadək necə bir-birini öldürmək, öz yaxın adamlarının qanını tökərək döyüşmək olar? Axı məqsəd nədir? Bir parça torpağı ələ keçirmək?

Hətta heyvanlar da vuruşarkən, onların buna əsaslandırılmış və tutarlı dəlilləri olur. Necə dəhşətli haldır ki, mövcudatın ən yüksək pilləsində duran insan elə alçalır ki, bir parça torpağa yiyələnmək üçün bir-birini öldürür və öz yaxınlarına bədbəxtlik gətirir. Beləliklə, yaradılmışların ən alisi materiyanın ən aşağı növü olan torpaqdan ötrü qatilə çevrilir. Torpaq bir xalqa deyil, bütün xalqlara məxsusdur. Torpaq insanın yaşayış məskəni deyil, onun məzarıdır.

Fateh nə qədər dahi olsa da, o nə qədər ölkələri qul halına salsa da, bu xarabazara çevrilmiş torpaqların heç bir hissəsini – yalnız öz məzarı olan bir qarış torpaqdan savayı – özünə götürməyə qadir deyildir.

Əgər hər hansı bir ölkənin məqsədi ərazisini genişləndirmək, əhalinin vəziyyətinin yaxşılaşmasına və sivilizasiyanın yayılmasına xidmət edirsə, onda bu, sülh yolu ilə əldə edilə bilər. Lakin insanlar özlərinin şöhrətpərəst

36 Bu döyüş 1911-ci il sentyabrın 29-da İtaliya ilə Türkiyə (Osmanlı) arasında başlamışdır.

məqsədlərini həyata keçirmək naminə müharibəyə əl atırlar. Mənasız şöhrətpərəstlik və kiçik bir qrupun şəxsi mənafeyi naminə saysız-hesabsız ailə ocaqları dəhşətli fəlakətlərə düçar edilir, yüzlərlə kişi və qadının ürəkləri sındırılır!

Sizin hamınıza tövsiyə edirəm: bütün fikirlərinizi və qəlbinizi məhəbbətə və birliyə yönəldin. Savaş fikri gəldikdə, ona qarşı daha güclü olan sülh fikrini qoyun. Nifrət fikri isə daha güclü olan məhəbbət fikri ilə dağıdılmalıdır Bu dünyanın əsgərləri bir-birilərini öldürmək üçün qılınclarını sıyıranda, Allahın əsgərləri bir-birilərini sevinclə qucaqlamağa can atırlar.

Buna görə də insanlar arasındakı bu vəhşiliklər təmiz qəlbdə və səmimi niyyətlərdə təzahür edən Allahın mərhəməti sayəsində yox olmalıdır. Elə düşünməyin ki, Ümumdünya Sülhünün bərqərar olması mümkün olmayan idealdır. Xeyr, Allahın istəyi üçün qeyri-mümkün olan heç nə yoxdur. Əgər siz bütün qəlbinizlə yer üzündəki hər bir irqlə dostluğa çalışsanız, sizin düşüncəniz maddi və mənəvi şəkildə mütləq yayılacaqdır: o başqalarının da arzusuna çevriləcək, bütün insanların ağıllarına hakim olana qədər sürətlə inkişaf edəcəkdir" *(Əbdül-Bəha, Paris söhbətləri, s.23).*

## BEYNƏLXALQ DİL

Müharibələri doğuran başlıca səbəblərlə və onları aradan qaldırmaq üsulları ilə tanış olduqdan sonra Ən Böyük Sülhə nail olmaq məqsədilə Həzrət Bəhaullahın təklif etdiyi bəzi əsas müddəaları nəzərdən keçirək.

Birinci təklif Ümumdünya köməkçi dilinin yaradılmasına aiddir. Həzrət Bəhaullah bu dil barəsində "Kitabi-Əq-

dəs”də və Özünün çox saylı Lövhlərində yazır. Belə ki, O, “İşraqat” Lövhündə buyurur:

“Altıncı İşraq (Parıltı) insan övladları arasında ittihad və ittifaqdır. Əzəldən birliyin nuru öz şəfəqlərini dünyanın üzərinə səpmişdir, o birliyə nail olmağın ən böyük vasitələri bütün dünya xalqlarının bir-birilərinin yazılarını və dillərini başa düşmələridir. Əvvəlki Risalələrimizdə də Biz Ədalət Evinin üzvlərinə həvalə etmişdik ki, ya hazırda mövcud olan dillərin arasından birini seçsinlər, ya da yenisini qəbul etsinlər, eynilə də ümumi bir yazı seçsinlər və hər ikisi dünyanın bütün məktəblərində tədris edilsin.”

Həzrət Bəhaullah Beynəlxalq Dilin yaradılması təklifini irəli sürdüyü zaman Polşada taleyinə bu təklifin həyata keçirilməsində aparıcı rol oynamaq yazılmış Lüdviq Zamenqof adlı bir uşaq dünyaya göz açdı. Beynəlxalq Dil yaradılması ideyası Zamenqofun həyatını demək olar ki, lap uşaqlıq çağlarından tamamilə bürümüşdü. Gərgin əmək nəticəsində o, bütün dünyaya yayılmış, otuz beş ildən artıq bir müddət ərzində sınaqlardan çıxmış və yararlı beynəlxalq ünsiyyət vasitəsinə çevrilmiş esperanto adlanan bir dil işləyib hazırladı. Esperanto dilinin üstünlüyü bundan ibarətdir ki, onun öyrədilməsinə ingilis, fransız və ya alman dili kimi dillərin öyrənilməsi üçün zəruri olan vaxtın iyirmidə bir hissəsi kifayət edir.

1913-cü ilin fevralında Parisdə esperantoçuların təşkil etdikləri qəbulda Həzrət Əbdül-Bəha buyurmuşdur:

“Hal-hazırda Avropadakı fikir ziddiyyətlərinin başlıca səbəblərindən biri dillərin müxtəlifliyidir. Biz deyirik: bu adam almandır, digəri italyandır, sonra biz ingilisi və fransızı qarşılayırıq. Baxmayaraq ki, onlar eyni bir irqə mənsubdurlar, lakin dilləri onların öz aralarında ünsiyyət saxlamalarına ən böyük maneədir. Əgər Beynəlxalq köməkçi dil olsaydı və bu dildən istifadə olunsaydı, bu zaman onların hamısı bir-birinə doğma sayılardılar.

Həzrət Bəhaullah bu Beynəlxalq Dil barədə hələ qırx il bundan əvvəl yazmışdır. O buyurmuşdur ki, Beynəlxalq Dil qəbul edilməyincə dünyanın müxtəlif qitələri arasında tam birlik həyata keçirilə bilməz, çünki biz görürük ki, bir-birini başa düşməmək insanları qarşılıqlı əməkdaşlıqdan uzaqlaşdırır və bu hal yalnız Beynəlxalq Dilin vasitəsilə aradan qaldırıla bilər.

Ümumiyyətlə desək, Şərq xalqlarının Qərbdə baş verən hadisələr haqqında tam məlumatları yoxdur və onlar bir-birilərinə rəğbət bəsləyə bilmirlər. Onların fikirləri ağzıbağlı qutulardadır və Beynəlxalq Dil onları açan açar olacaqdır. Əgər biz Beynəlxalq Dilə yiyələnsəydik, Qərbin kitabları çox asanlıqla bu dilə tərcümə olunardı və Şərq xalqları onların məzmunlarından xəbərdar olardılar. Eynilə Şərqin kitabları da qərblilər üçün bu dilə tərcümə edilərdi.

Ümumi dil Şərqlə Qərbin birləşməsində ən böyük vasitə olacaqdır. O, bütün dünyanı bir evə çevirəcək və bəşəriyyətin tərəqqisində ən güclü təkan olacaqdır. O, bəşəriyyətin birlik bayrağını yüksəldəcəkdir. O, yer üzünü ümumi dövlətə çevirəcəkdir. O, insan övladları və müxtəlif irqlər arasında məhəbbət və dostluq rəmzi olacaqdır.

Allaha şükr olsun ki, doktor Zamenqof esperantonu yaratdı. Bu dil elə tərtib edilmişdir ki, beynəlxalq ünsiyyət vasitəsi ola bilər. Biz hamımız bəşəriyyət qarşısında ən yüksək xidmət kimi qiymətləndirilən bu alicənab işə görə doktor Zamenqofa[37] minnətdar olmalı və təşəkkür etməliyik.

Esperanto dilinin ümumbəşəri olması üçün bu dili yayanlar bütün qüvvələrini səfərbər edəcəklər. Buna görə də

37 Qeyd etmək lazımdır ki, doktor Zamenqofun qızı Lidiya fəal bəhai olmuşdur.

bizim hər birimiz onu öyrənməli və bacardıqca geniş yaymalıyıq ki, o günü-gündən daha böyük miqyasda tanınsın, bütün xalqlar və dünya hökumətləri tərəfindən qəbul edilsin və bütün ictimai məktəblərin tədris proqramlarının tərkib hissəsi olsun. Mən ümidvaram ki, esperanto gələcəkdə bütün beynəlxalq konfransların və konqreslərin dilinə çevriləcəkdir.

Beləliklə, insanlar yalnız iki dil – ana dili və beynəlxalq dil öyrənməlidirlər. Onda bütün insanlar arasında əsl birlik yaranacaqdır. Diqqət verin, indi müxtəlif millətlərlə ünsiyyətə girmək necə də çətindir. Hətta əlli dil öyrəndikdən sonra da elə bir ölkədə ola bilərsən ki, onun dilini bilməyəsən. Buna görə də Mən ümidvaram ki, esperantonun geniş vüsət alması üçün siz hər cür səy göstərəcəksiniz.” *(Əbdül-Bəha. Paris söhbətləri, fevral 1913-cü il)*

Esperanto haqqında bu istinadların səciyyəvi və həvəsləndirici olmasına baxmayaraq, bu da bir həqiqət olaraq qalır ki, Həzrət Bəhaullahın buyurduqları barədə Ədalət Evi qərar çıxarmayınca Bəhai dininin esperanto və ya hər hansı bir canlı, yaxud süni yaradılmış dilə münasibətdə heç bir öhdəliyi yoxdur.

Həzrət Əbdül-Bəha buyurur:

“Esperantonun əsasına qoyulan məhəbbət və əmək hədər getməyəcəkdir, lakin yalnız bir şəxsiyyət ümumi, universal dil yarada bilməz” *(Əbdül-Bəha Londonda. s.95).*

Hansı dili qəbul etmək lazımdır? O təbii və ya süni olacaq bu barədə qərarı dünyanın millətləri çıxarmalıdır.

## ÜMUMDÜNYA MİLLƏTLƏR CƏMİYYƏTİ

Həzrət Bəhaullahın xüsusi olaraq tez-tez vurğuladığı digər təklif ümumi sülhün qorunub saxlanması üçün Ümumdünya Millətlər Cəmiyyətinin yaradılmasıdır. Hələ

Əkka[38] qalasında əsirlikdə olarkən O, kraliça Viktoriyaya yazdığı lövhündə buyururdu:

“Ey yer üzünün hökmdarları, barışın! Onda sizin öz dövlətlərinizdə daxili asayişin qorunmasına lazım olan miqdardan artıq silahlanmaya ehtiyacınız olmayacaq. Ey yer üzünün kralları, birləşin! Çünki bunun sayəsində sizin aranızdakı çəkişmə tufanı səngiyər və sizin təbəələriniz rahatlıq tapar. Əgər sizlərdən hər hansı biri başqasına silah qaldırarsa, hamınız ona qarşı çıxış edin, çünki bu əsl ədalətdən başqa bir şey deyildir”.

1875-ci ildə Həzrət Əbdül-Bəha Ümumdünya Millətlər Cəmiyyətinin təsis edilməsini qabaqcadan görmüşdü. Xüsusilə maraqlıdır ki, hal-hazırda[39] buna bənzər təşkilatın yaradılması yolunda ciddi addımlar atılır. O yazırdı:

“Bəli, əsl sivilizasiya öz bayrağını yalnız o zaman qaldırar ki, alicənablığın və təşəbbüskarlığın parlaq çırağı olan bir neçə hökmdar qətiyyətlə və şövqlə ruhlanaraq bütün bəşəriyyətin rifahı və xoşbəxtliyi naminə ümumdünya sülhü barəsində məsələnin müzakirə edilməsi üçün ayağa qalxarlar. Dövlətlərin konfransını çağırmaq, möhkəm və sarsılmaz şərtlərlə davamlı müqavilə bağlamaq üçün onlar bütün vasitələrdən istifadə etməlidirlər. Bu müqaviləni bütün bəşər cəmiyyətinin müzakirəsinə və bəyənilməsinə təqdim etmək lazımdır.

Həqiqətən, Ümumdünya Sülhünün və əmin-amanlığının rəhni olan bu ən böyük iş bütün insanlar üçün müqəddəs olmalıdır və bütün qüvvələri bu ən böyük müqavilənin möhkəmləndirilməsinə və gücləndirilməsinə istiqamətləndirmək lazımdır.

..............................................................

38 1868-ci ildən 1870-ilədək.
39 Müəllif bunu 1919-1920-ci illərdə yazmışdır.

Bu beynəlxalq saziş hər bir dövlətin sərhəd və hüdudlarını müəyyənləşdirməli və hökumətlərin fəaliyyət yollarını göstərməlidir. Bağlanması nəzərdə tutulan bütün müqavilələr və həmçinin dövlətlər arasında yaradıla biləcək qarşılıqlı münasibətlər və əlaqələr bu sazişdə göstərilməlidir. Eləcə də, bütün dövlətlər üçün silahlanmanın miqyası müəyyənləşdirilməlidir, belə ki, onların biri tərəfindən silahların və ordunun sayının artırılması başqa dövlətlərdə şübhə oyada bilər.

Bu böyük sazişin təməli hər hansı bir müddəanı pozan dövlətin ram edilməsi və tabe olunması prinsipi üzərində qurulmalıdır və əgər belə hadisə baş verərsə, nəinki bütün dövlətlər ona qarşı çıxmalı, həmçinin bütün dünya xalqları da birləşmiş qüvvələri ilə həmin hökuməti devirməlidirlər. Əgər dünyanın xəstə bədəninə belə böyük vasitə tətbiq edilərsə, onda dünya tam bərabərlik və rahatlıq əldə edər və birdəfəlik müalicəyə nail olar”. *(Əbdül-Bəha, İlahi Sivilizasiyanın Sirri, s.64-65)*

Millətlər Cəmiyyəti Həzrət Bəhaullahın təsvir etdiyi əsas beynəlxalq qurumlar tipinə uyğun gəlmədiyindən[40] bəhailər onun quruluşunda ciddi nöqsanlar görürlər.

1919-cu il dekabrın 17-də Həzrət Əbdül-Bəha bəyan etmişdi: “Hal-hazırda Ümumdünya Sülhü böyük əhəmiyyət kəsb edir, lakin onun təməlinin etibarlı, idarəsinin möhkəm və binasının samballı olması üçün əqidə birliyi daha mühümdür... Millətlər Cəmiyyəti mövcud olsada o hələ Ümumdünya Sülhünü bərqərar etmək iqtidarına malik deyildir. Lakin Həzrət Bəhaullahın təsvir etdiyi Ali Tribunal bu müqəddəs vəzifəni hədsiz qüvvəsi və hakimiyyəti ilə icra edəcəkdir” *(Əbdül-Bəhanın Davamlı Sülh barədə Haaqadakı Mərkəzi Təşkilata yazdığı məktubdan).*

..............................................................

40 Bu həmçinin Birləşmiş Millətlər Təşkilatına (BMT) da aiddir.

# BEYNƏLXALQ ARBİTRAJ

Həzrət Bəhaullah həmçinin millətlər arasında yaranan bütün münaqişələri hikmətlə və ədalətlə həll etmək üçün Beynəlxalq Arbitraj Məhkəməsinin təsis olunmasında təkid edirdi.

Həzrət Əbdül-Bəha Beynəlxalq Arbitraj haqqında məsələyə dair 1911-ci ilin avqustunda Mohonqda keçirilən konfransın katibinə ünvanladığı məktubunda yazırdı:

"Təxminən əlli il bundan əvvəl Həzrət Bəhaullah "Kitabi-Əqdəs"də xalqlara ümumi sülh yaratmaq hökmü vermiş və bütün millətləri İlahi süfrə – beynəlxalq arbitraj ətrafında toplanmağa çağırmışdı, yəni millətlər arasında sərhədlər, milli ləyaqət, mülkiyyət və digər vacib həyati mənafelər zəminində yaranmış bütün münaqişələr arbitraj qaydasında elə həll oluna bilər ki, heç bir millət çıxarılmış qərarın icrasından yayınmağa cəsarət edə bilməsin.

İki millət arasında mübahisə baş verərsə, bu məsələyə Beynəlxalq Arbitraj Məhkəməsi baxmalı və iki şəxsin mübahisəsi zamanı məhkəmənin çıxardığı qərara bənzər tam ədalətli hökm çıxarmalıdır.

Arbitraj Məhkəməsinin qərarı qəti olmalıdır və əgər nə vaxtsa hər hansı bir dövlət təkbaşına bu qərarı pozmağa cəsarət edərsə, bütün digər dövlətlər qərarı pozan dövləti susdurmalıdırlar.

1911-ci ildə Parisdə etdiyi söhbətlərin birində Həzrət Əbdül-Bəha buyurmuşdur:

"Dünya xalqları və hökümətləri hər bir millətdən və dövlətdən seçilmiş nümayəndələrdən ibarət Beynəlxalq Arbitraj Məhkəməsi təsis etməlidirlər. Bu ali tribunalın iclasları onun bütün üzvlərinin tam birliyi və razılığı şəraitində keçməlidir. Beynəlxalq xarakterli bütün münaqişələr – müharibənin qarşısını almaq məqsədi daşıyan və hər hansı mübahisənin dinc həllini tapmaq niyyəti güdən bu

məhkəməyə verilməlidir” *(Əbdül-Bəha, Paris söhbətləri, s.145).*

Millətlər Cəmiyyətinin yaradılmasından xeyli əvvəl, 1899-cu ildə Haaqada Daimi Arbitraj Tribunalı təsis edilmişdi və həmin tribunal bir çox beynəlxalq konvensiyalar[41] imzalamışdı. Lakin onların əksəriyyəti Həzrət Bəhaullahın müdrik tövsiyələrinə müvafiq gəlmirdi.

Dünyanın iki qüdrətli dövləti arasında mübahisəli məsələlərin həllini öz üzərinə götürən heç bir konvensiya bağlanmamışdı. “Həyati məsələlərə”, “şərəf” və “müstəqilliyə” dair ixtilaflardan qəsdən yan keçilirdi. Bundan başqa müqavilələrdə onu imzalayanların həmin müqavilələrdəki şərtlərə riayət edəcəyinə dair həqiqi təminat da nəzərdə tutulmurdu.

Həzrət Bəhaullahın arbitraj təhqiqatı haqqında təliminə gəldikdə isə, o bütün məsələləri, o cümlədən, sərhədlər, milli şərəf və həyati maraqlara dair bütün məsələləri əhatə edir: həm də nəzərə almaq lazımdır ki, bu təlimə əsasən, arbitraj müqavilələrinə Millətlər Cəmiyyətinin yüksək təminatı verilməlidir. Yalnız bu qaydaları tam həyata keçirməklə Beynəlxalq Arbitraj öz vəzifələrini yerinə yetirə bilər və müharibə dəhşətləri yer üzündən həmişəlik silinər.

## SİLAHLARIN AZALDILMASI

Həzrət Əbdül-Bəha buyurur:

“Dünyanın bütün dövlətləri qarşılıqlı razılıq əsasında eyni vaxtda silahsızlaşdırılmalıdırlar. Əgər dövlətlərdən

41 Beynəlxalq saziş, muqavilə, razılaşma.

biri tərksilah edilərsə, o biriləri isə bundan imtina edərlərsə, onda bu məqsəd yerinə yetirilməyəcəkdir.

Dünya millətləri bu son dərəcə mühüm məsələdə elə bir qərara gəlməlidirlər ki, onların hamısı birlikdə bəşəriyyəti qıran ölüm silahlarından yaxalarını qurtara bilsinlər. Nə qədər ki, bir dövlət öz hərbi və dəniz qüvvələrini artırmaqda davam edəcək, digər dövlətlər də özlərinin həqiqi və ya güman edilən maraqlarından doğan tələbatlarına görə bu ağılsız yarışa qoşulmaq məcburiyyətində qalacaqlar" *(Mirzə Əhməd Söhrabın gündəliyi, 1914-cü il, 11-14 may).*

## ZÜLMƏ MÜQAVİMƏT GÖSTƏRMƏMƏK

Həzrət Bəhaullahın ciddi təlimatına əsasən, bəhailərə dini təşkilat kimi, hətta müstəsna hallarda özlərini müdafiə məqsədi ilə də silahdan istifadə etmək və gəzdirmək qadağandır. İranda Həzrət Babın və Həzrət Bəhaullahın minlərlə ardıcılı öz əqidələrinə görə şəhid edilmişlər. Babilər hərəkatının əvvəllərində bəzi babilər özlərini və ailələrini qoruyarkən silaha əl atmış və bu zaman qeyri-adi cəsarət və qəhrəmanlıq göstərmişlər. Lakin Həzrət Bəhaullah bunu onlara qadağan etmişdir.

Həzrət Əbdül-Bəha yazır:

"Həzrət Bəhaullah Zühurunun ilk çağlarında bəyan etdi ki, təlimin buna bənzər vasitələrlə yayılmasına, hətta özünü müdafiə məqsədi daşısa da, heç vəchlə icazə verilə bilməz. O, qılınc qanunundan imtina etdi və "Cihad" (Müqəddəs müharibə) haqqında göstərişi ləğv etdi. O buyurur: "Öldürülməyiniz başqalarını öldürməyinizdən yaxşıdır. Allahın Əmri Onun tərəfdarlarının mətinliyi və sədaqəti ilə təbliğ edilməlidir. Onlar bütün dünyəvi nemətlərdən imtina etsələr və gözlərini yer üzündəki bütün şey-

lərdən çevirsələr, öz həyatlarını Allaha xidmətə həsr etsələr və qorxmazlıqla həqiqəti elan etməyə qalxsalar, bu zaman Allah kəlamı qalib gələr və zəfər qazanar.

Bu mübarək qəlblər Allahın Əmri yolunda öz qanlarını tökməklə bu təlimin həqiqiliyinə şəhadət verir və öz inamları, fədakarlıqları və sədaqətləri ilə Allahın Qüdrətli olmasını və Öz Əmrini yaymağa, itaətsizlərə qalib gəlməyə həmişə qadir olduğunu təsdiqləyirlər; onlar Allahdan başqa müdafiəçi axtarmırlar və düşmən qarşısında dayanaraq həyatlarını qurban verməyə və şəhidliyi gülər üzlə qarşılamağa hazırdırlar" *(Əbdül-Bəha tərəfindən bu kitab üçün yazılmışdır).*

Həzrət Bəhaullah Onun Təliminin ardıcıllarından birinə yazırdı:

"Şükr olsun Sənə, ey Allah! Bu iman gətirənlərin dağıdıcı silahlara ehtiyacları yoxdur. Onlar bütün qüvvələrini yer üzərində sülhü bərqərar etməyə yönəldiblər. Onların ordusu – xeyirxah əməllər, sərkərdəsi isə Allah xofudur. Bəxtiyar o kəsdir ki, qərəzsizdir.

Allaha and olsun! Bu insanlar özlərinin dözümü və təmkini, itaətkarlığı və mütiliyi ilə ədalət rəmzinə çevrilmişlər. Onların itaətkarlığı o dərəcəyə çatmışdır ki, dünya tarixində bənzəri olmayan və heç bir xalqın hələ görmədiyi işgəncələr verilməsinə baxmayaraq, onlar əzablı şəhidliyi qəbul etmiş, lakin başqalarını öldürməmişlər.

Hətta əllərini belə müdafiə olunmaq üçün qaldırmadan bu əzablara dözməyə onları nə vadar edirdi, onların belə itaətkar və təmkinli olmasına səbəb nə idi? Bu Uca Qələmin qərəzsiz qadağasının və bütün bəşəriyyətin hökmdarı Haqq-taalanın qüdrəti ilə möhkəmlənmiş rəhbərliyin nəticəsi idi." *(Həzrət Bəhaullah, Qurdun oğluna məktub)*

Həzrət Bəhaullahın pisliyə və zülmə müqavimət göstərməmək haqqındakı təliminin düzgünlüyü onun nəticələri ilə sübuta yetirilmişdir. İranda qətlə yetirilmiş hər

bir mömininin əvəzinə Bəhai Dini öz sıralarına yüzlərlə yenilərini qəbul edirdi. Bu şəhidlər sevinc və rəşadətlə öz həyatlarını çələng kimi Rəbbin ayaqları altına atmaqla, dünyaya əyani surətdə göstərirdilər ki, onlar ölümün qorxuda bilmədiyi yeni həyat tapmışlar. Sözlə ifadəsi mümkün olmayan elə dolğun və xoşbəxt həyat tapmışlar ki, onunla müqayisədə yer üzünün ləzzətləri yalnız tərəzidəki tozdur, ən əzablı fiziki işgəncə isə, hava kimi yüngül və boş bir şeydir.

## ƏDALƏTLİ MÜHARİBƏ

Həzrət Bəhaullah da İsa Peyğəmbər kimi Öz ardıcıllarına zülmə müqavimət göstərməmək və öz düşmənlərini bağışlamaq prinsipinə riayət etməyi məsləhət görürdü, lakin Onun təliminə görə, cinayətkarları cəzalandırmaq, ölkədə zorakılığın və ədalətsizliyin qarşısını almaq dövlətin vəzifəsidir.

Əgər ayrı-ayrı şəxslər təhqirə və təqibə məruz qalırlarsa, onlar bağışlaya və qisas almaya bilərlər. Lakin dövlət qətl törədənləri və qarətçiləri cəzasız qoymamalıdır. Cinayətkarlığın qarşısını almaq və caniləri cəzalandırmaq humanist dövlətin borcudur. Bu həmçinin bütün xalqlara da aiddir. Əgər hər hansı bir dövlət digər dövlətə zülm edir və onu incidirsə, bu zaman bütün digər dövlətlər zülmkara qarşı birgə çıxış etməlidirlər.

Həzrət Əbdül-Bəha buyurur:

“Ola bilər ki, hansısa davakar və vəhşi tayfa müəyyən bir milləti bütünlüklə qırmaq məqsədi ilə azğıncasına hücuma keçsin. Belə vəziyyətdə müdafiə olunmaq zəruri tədbirdir”.

Lakin bu günədək xalqların fəaliyyəti onunla məhdudlaşmışdır ki, bir millətin başqa millət üzərinə hücumu

zamanı, digərləri bitərəf qalmış və bu təhlükə onların öz maraqlarına toxunmayınca, onlar öz üzərlərinə heç bir məsuliyyət götürməmişlər.

Hücuma məruz qalan millət nə qədər zəif və köməksiz olsa da, müdafiənin bütün ağırlığı onun üzərinə düşmüşdür. Həzrət Bəhaullah mövcud qaydaya qarşı çıxaraq, fərdi və kollektiv məsuliyyəti yalnız təcavüzə məruz qalan millətin deyil, həm də bütün digər millətlərin üzərinə qoyur, belə ki, bütün bəşəriyyət bir icmanı təmsil etdiyindən millətlərdən birinə təcavüz etmək bütün icmaya təcavüz etmək deməkdir və onun qarşısı bütün icma tərəfindən alınmalıdır.

Əgər bu doktrina hamı tərəfindən qəbul edilsəydi, başqa millətin üzərinə hücuma hazırlaşan hər bir millət əvvəlcədən bilərdi ki, o yalnız bir dövlətin deyil, bütün dünya dövlətlərinin müqaviməti ilə rastlaşacaqdır. Bunu dərk etmək ən cəsarətli və ən davakar millətin qarşısını almağa kifayət edərdi.

Sülhə can atan ayrı-ayrı xalqların lazımi qədər güclü ittifaqı yaranarsa, onda müharibə anlayışı keçmişin hadisəsi olaraq qalar. Əvvəlki beynəlxalq hərc-mərclik vəziyyətindən yeni beynəlxalq həmrəylik vəziyyətinə keçid dövründə təcavüzkar müharibələrin baş verməsi hələ mümkündür və belə hallarda beynəlxalq həmrəylik, ittifaq və sülh naminə hərbi və digər cəza tədbirlərinin tətbiq edilməsi müsbət xarakterli tədbirlər kimi qəbul olunmalıdır. Bu məsələyə dair Həzrət Əbdül-Bəha yazır:

“Hətta müharibə bəzən sülh yaranmasına böyük əsas verir, dağıntı isə onun yenidən qurulmasına səbəb olur. Məsələn, əgər müdrik hökmdar təcavüzkarın hücumunun qarşısını almaq məqsədi ilə öz qoşununu onun üzərinə yeridirsə, yaxud dövləti və parçalanmış xalqı birləşdirmək üçün ədalətli niyyət uğrunda vuruşursa və döyüş meydanında fərqlənirsə, bu zaman qəzəb mərhəmətə çevrilir və

zülmkarlığın bu zahiri görkəmi arxasında Ədalətin mahiyyəti dayanır və belə müharibə - sülhün təməl daşıdır. İndi hər bir qüdrətli hökmdarın vəzifəsi dünyada ümumi sülhü bərqərar etməkdir, çünki bu, həqiqətən bütün xalqların azadlığı deməkdir" *(Əbdül-Bəha, İlahi Sivilizasiyanın Sirri, s.65).*

## ŞƏRQLƏ QƏRBİN İTTİFAQI

Ümumi sülhün yaranmasına kömək edən amillərdən biri də Şərqlə Qərbin birliyidir. Ümumi sülh nəinki təkcə düşmənçilik fəaliyyətlərinin dayandırılmasıdır, o eyni zamanda bir-birilə əlaqəsi kəsilmiş dünya xalqlarının qiymətli bəhrələr verəcək məhsuldar ittifaqı və səmimi həmrəyliyidir.

Özünün Paris söhbətlərinin birində Həzrət Əbdül-Bəha buyurur:

"Bizim dövrümüzdə olduğu kimi, keçmişdə də həqiqət Günəşi Şərqin üfüqündən doğmuşdur. Musa Peyğəmbər Şərqdə insanları tərbiyələndirmiş və onlara rəhbərlik etmişdir; İsa Peyğəmbər də orada Zühur etmişdir; Məhəmməd Peyğəmbərin də missiyası Şərq xalqları üçün təyin olunmuşdur. Həzrət Bab da Şərqdə – İranda zühur etmişdir, Həzrət Bəhaullah da həmçinin Şərqdə zühur etmiş və xalqı öyrətmişdir. Bütün dahi müəllimlər Şərqin üfüqündən zühur etmişlər.

İsa Məsihin Günəşi Şərqdə doğsa da, onun şəfəqləri Qərbdə parladı və onun parıltısı burada daha aydın göründü. Onun Təliminin İlahi nuru Qərb dünyasını daha gur işıqlandırdı və doğulduğu ölkədən fərqli olaraq, burada daha sürətlə yayılmağa başladı.

Bizim günlərimizdə Şərqin maddi tərəqqiyə, Qərbin isə mənəvi tərəqqiyə ehtiyacı var. Buna görə də yaxşı olar-

dı ki, Qərb dünyası Şərqin mənəvi nurundan faydalansın, əvəzində isə elmi və texniki sahələrdə əldə etdiyi nailiyyətləri Şərqlə bölüşdürsün. Bu bəhrələr qarşılıqlı mübadilə edilməlidir. Şərq və Qərb birgə səyləri ilə özlərinin çatışmayan ehtiyaclarını ödəməlidirlər.

Bu ittifaq onları mənəvi mədəniyyətin maddi dəyərlərlə birləşdiyi həqiqi sivilizasiyaya gətirəcəkdir. Belə qarşılıqlı mübadilə insanların böyük ahəngdarlığına və həmrəyliyinə xidmət edəcəkdir: o, xalqlar arasında ən böyük kamilliyə və sarsılmaz ittifaqa gətirib çıxaracaqdır. Yer üzü Cənnətə dönəcək və Allaha xas olan bütün keyfiyyətlər güzgüdəki kimi onda əks olunacaqdır.

Buna görə də biz Şərq və Qərb xalqları bu yüksək idealları yerinə yetirmək və dünyanın bütün insanları arasında ittifaqı möhkəmləndirmək naminə həm qəlbən, həm də ruhən, gecə-gündüz çalışmalıyıq. Onda sevinc insanların qəlbini bürüyəcək və onlar oyanacaqlar; insanlar öz işlərində böyük uğurlar qazanacaq, bütün bəşəriyyətin xoşbəxtliyi həyata keçəcəkdir. Bu, yer üzündə yaranacaq həmin Cənnət olacaqdır ki, bütün bəşəriyyət Şərəf Padşahlığının ittifaq və birlik çadırı altında toplanacaqdır" *(Əbdül-Bəha. Paris söhbətləri, s.17).*

## XI FƏSİL

## MÜXTƏLİF TƏLİMLƏR VƏ TƏLİMATLAR

"Bilin ki, bulaq kimi əbədi və tükənməz olan və heç zaman dəyişməyən məhəbbət qanunundan başqa, hər bir dövrdəki və bütün dinlərdəki İlahi qanunlar zamanın tələblərinə uyğun olaraq dəyişir."

***Həzrət Bəhaullah***

## RAHİBLİK HƏYATI

Həzrət Bəhaullah da Məhəmməd Peyğəmbər kimi Öz ardıcıllarına tərkidünya həyat tərzi sürməyi qadağan edir. Onun III Napoleona yazdığı Lövhdə oxuyuruq:

"Ey rahiblər güruhu! Hücrələrdə və monastırlarda tənhalığa çəkilməyin. Mənim hökmüm ilə onları tərk edin, sizə və bütün bəşəriyyətə fayda gətirən işlərlə məşğul olun... Evlənin ki, sizin törəmələriniz sizdən sonra yerinizi tutsunlar. Həqiqətən, Biz pozğunluğu sizə qadağan etmişik və sədaqəti sizə tövsiyə etmişik. Siz isə özünüzün seçdiyiniz yola gedərək, Allahın yoluna arxa çevirmisiniz.

Allahdan qorxun və ağılsız olmayın. İnsandan başqa Mənim torpağımda Mənim Adımı kim ucalda bilər və Mənim keyfiyyətlərim və əlamətlərim başqa cür necə aşkarlana bilər? Bunun üzərində düşünün və xurafat pərdəsi altında olanlardan və qəflət yuxusunda yatanlardan olmayın.

Evlənməyən həmin kəs (yəni İsa Peyğəmbər) xainlər tərəfindən təqib edildiyindən yaşamaq üçün Özünə nə bir mənzil, nə də Öz başını qoymağa bir yer tapmırdı. İsa Peyğəmbər xəyanətin qurbanı oldu. Onun müqəddəsliyi sizin nəyə inanmağınızdan və sizin nə təsəvvür etdiyinizdən deyil, yalnız Bizdə olan həqiqətdən asılıdır. Yer üzündə yaşayanların hamısının təsəvvürlərindən yüksək olan Onun uca məqamını dərk etmək üçün Allaha yalvarın. Bunu dərk edənlərin hamısı xoşbəxtdir..." *(Həzrət Bəhaullahın bəyanı, s.106)*

Təəccüblü deyilmi ki, İsa Peyğəmbər Öz şagirdlərini evli insanlar arasından seçdiyi halda və həm Onun Özü, həm də həvariləri insanlarla sıx dostluq şəraitində və olduqca yaxın münasibətlərdə, xeyirxah həyat yaşadıqları halda, bəzi xristian təriqətləri ruhanilər üçün rahiblik və nigahsızlıq institutu təsis etmişlər?

Bu məsələ ilə əlaqədar olaraq Qurani-Kərimdə buyurulur:

"...Məryəm oğlu İsanı göndərib Ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik (tərkidünyalıq) icad etdilər. Biz rahibliyi onlara vacib buyurmamışdıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir" *(Quran, əl-Hədid surəsi 27)*.

Əgər keçmiş zamanlarda tərkidünyalıq həyatına bəraət qazandırmaq üçün nə isə bir bəhanə tapmaq olardısa, Həzrət Bəhaullah bəyan edir ki, hal-hazırda bu cür həyat

keçirməyə heç bir əsas yoxdur. Doğrudan da aydındır ki, çoxsaylı mömin və təqvalı adamların başqa insanlarla ünsiyyətdən imtina etmələri və himayəçilik vəzifəsindən və məsuliyyətindən yayınmaları bəşəriyyətin mənəvi yoxsulluğuna gətirib çıxara bilər.

## NİGAH

Bəhai Təlimində nigahın yeganə forması monoqamiyadır.[42] Bununla yanaşı Həzrət Bəhaullah nigahın həm evlənən tərəflərin, həm də valideynlərin razılığı ilə bağlanmasını vacib buyurmuşdur. O, "Kitabi-Əqdəs"də yazır:

""Bəyan" Kitabına (Həzrət Babın Vəhyləri) əsasən, yalnız evlənənlərin razılığı nigah bağlanmasına kifayət edirdi. İnsanlar arasında dostluq, məhəbbət və birlik münasibətlərini möhkəmləndirmək arzusundan ilhamlanaraq, onlar arasında düşmənçiliyə və xoşagəlməz münasibətlərə yol verməmək naminə Biz bu məsələni həmçinin valideynlərin də razılıq verməsindən asılı etdik".

Həzrət Əbdül-Bəha bu məsələyə dair Ona müraciət etmiş bir bəhaiyə yazır:

"Nigah məsələsinə gəldikdə isə, Allahın Qanununa görə əvvəlcə sən özün gərək kimisə seçəsən, sonra isə ata və ananın da razılığı vacibdir, lakin sənin seçəcəyin vaxtadək onların qarışmağa haqları yoxdur" *(Əbdül-Bəhanın Məktubları, c.3, s.563).*

Sonra Həzrət Əbdül-Bəha buyurur ki, bu ehtiyat tədbiri nəticəsində nigahla qohum olan bəhailər arasında xristian və müsəlman ölkələrində geniş vüsət almış gərgin münasibətlər demək olar ki, müşahidə edilmir.

.............................................................

42 Təknigahlılıq, birərlilik, birarvadlılıq

Bununla yanaşı bəhailər arasında boşanma halları olduqca nadir hadisədir. Nigah məsələsinə dair O yazır:

"Bəhailərin izdivacı hər iki tərəfin birliyi və qəlbən bağlılığı deməkdir. Onlar bir-birilərinə böyük diqqətlə yanaşmalı və hər biri digərinin xasiyyətinin özünəməxsus cəhətlərini bilməlidir. Onlar arasındakı möhkəm ittifaq əbədi əlaqəni təmin etməli, onların niyyətləri isə qəlblərinin doğmalığı, dostluq, razılıq və əbədi həyata meyl etmək olmalıdır...

Bəhai nigahına əsasən, kişi və qadın mənəvi və cismani baxımdan elə birləşməlidirlər ki, onların birliyi Allah-taalanın hər iki dünyasında əbədi olsun və onlar bir-birinin mənəvi kamilliyinə qarşılıqlı kömək göstərsinlər" *(Əbdül-Bəhanın Məktubları)*.

Bəhailərdə kəbin mərasimi olduqca sadədir: yeganə şərt ondan ibarətdir ki, bəy və gəlin ən azı iki nəfər şahidin hüzurunda deməlidirlər: "Həqiqətən, biz Allahın İradəsilə tamamilə razıyıq".

## BOŞANMA

Nigah barəsində olduğu kimi, boşanma haqqında da Peyğəmbərlərin hökmləri zamanın tələblərinə müvafiq olaraq dəyişmişdir. Həzrət Əbdül-Bəha bu məsələyə dair Bəhai Təlimini belə şərh edir: "Ər-arvad arasında bir-birilərinə qarşı ikrah hissinin yaranması və boşanmanın labüd hala çevrilməsi istisna olmaq şərtilə, dostlar (bəhailər) boşanmadan xüsusilə çəkinməlidirlər. Belə olan halda onlar Ruhani Məhfilin icazəsi ilə boşanma haqqında qərara gələ bilərlər, lakin bu zaman onlar bir il gözləmə müddəti ərzində birgə yaşayışa dözməlidirlər.

Əgər bu bir ilin ərzində onlar arasında əvvəlki hüsn-rəğbət, məhəbbət və razılıq bərpa olunmasa, bu za-

man boşanma həyata keçirilir... Allahın Səltənəti fikir ayrılığına deyil, xüsusilə ərlə arvad arasında harmoniyaya, məhəbbət, birlik, doğmalıq və əməkdaşlığa əsaslanır. Əgər boşanma onlardan birinin ucbatından baş verirsə, şübhəsiz, o, böyük çətinliklərlə rastlaşacaq, böyük bəlalara düçar olacaq, onun həyatı pozulacaq və o öz hərəkətinin peşmançılığını çəkəcəkdir" (Əbdül-Bəhanın Amerika bəhailərinə məktubundan).

Bəhailər digər məsələlərdə olduğu kimi, boşanma məsələsində də təkcə öz təlimlərinə deyil, həmçinin yaşadıqları ölkənin qanunlarına əməl edirlər.

## BƏHAİ TƏQVİMİ

Müxtəlif xalqlarda, müxtəlif zamanlarda vaxtı hesablamaq və tarixi müəyyənləşdirmək üçün bir çox müxtəlif üsullar mövcud olmuşdur və indinin özündə də gündəlik həyatımızda müxtəlif təqvimlərdən istifadə olunur: Qərbi Avropada – Qriqorian, Şərqi Avropanın bir çox ölkələrində – Yulian, yəhudilər arasında Yəhudi və İslam ölkələrində isə müsəlman təqvimləri.

Həzrət Bab qabaqcadan xəbər verdiyi Vəhyin böyük əhəmiyyətini vurğulayaraq yeni təqvim təsis etmişdir. Bu təqvimdə də Qriqorian təqvimində olduğu kimi ilin hesablanması Ay ili ilə deyil, Günəş ili sistemi ilə hesablanır.

Bəhai təqvimi hər birində 19 gün olan 19 aydan ibarətdir (yəni, 361 gündən). Bəhai ilini günəş ili təqvimi ilə bərabərləşdirmək üçün onsəkkizinci və ondoqquzuncu aylar arasında, qısa ildə dörd gün, uzun ildə isə beş gün əlavə edilir. Hər bir aya Allahın sifətləri olan adlar verilmişdir.

Bəhailərdə yeni ilin başlanması qədim İrandakı yeni il kimi astronomik hesablama ilə, yəni yazda gecə ilə gündüzün bərabərləşdiyi andan (martın 21-dən) müəyyənləşdi-

rilmişdir. Bəhai erası öz başlanğıcını 1844-cü ildən (hicri tarixi ilə 1260-cı ildən), yəni Həzrət Babın Öz Missiyasını bəyan etdiyi ildən götürür.

Yaxın gələcəkdə bütün dünya xalqlarında ümumi təqvim qəbul etmək zərurəti yaranacaqdır. Buna görə də tamamilə haqlı olaraq belə bir fikir söylənilir ki, xalqlar birliyi əsri olan yeni əsr tənqid və iradlara məruz qalan və böyük sayda əhalinini istifadəsi üçün yararsız olan əvvəlki təqvimlərdən fərqlənən, yeni təqvimə malik olmalıdır. Sadəliyinə və rahatlığına görə Həzrət Babın təklif etdiyi təqvimdən üstün olan digər təqvim tapmaq çətindir. Bəhai təqvimində aşağıdakı aylar qəbul edilmişdir:

## RUHANİ MƏHFİLLƏR

Özünün dünyəvi missiyasını başa çatdırmamışdan əvvəl Həzrət Əbdül-Bəha Həzrət Bəhaullahın Yazılarında göstərilən inzibati qaydaların inkişafının təməlini qoymuşdur. Ruhani Məhfillərin yüksək əhəmiyyətini göstərmək məqsədilə Həzrət Əbdül-Bəha bir tərcüməyə dair yazdığı məktubunda buyurur ki, hətta Həzrət Əbdül-Bəhanın Özü tərəfindən əvvəlcədən yoxlanmasına və düzəlişlər edilməsinə baxmayaraq, bu tərcümə nəşr edilməzdən əvvəl Qahirə Ruhani Məhfili tərəfindən təsdiqlənməlidir.

Ruhani Məhfil dedikdə hər il hər bir yerli bəhai icmasının seçdiyi və bu icma üzvləri arasındakı qarşılıqlı münasibətlərə aid olan bütün məsələlərə dair qərarlar qəbul etmək hüququ verilmiş doqquz nəfərdən ibarət inzibati orqan nəzərdə tutulur. “Ruhani Məhfil” adı müvəqqəti xarakter daşıyır, belə ki, gələcəkdə bu orqanlar “Ədalət Evi” adlanacaqlar.

Kilsə təşkilatlarından fərqli olaraq, bəhailərin bu orqanları ruhani səciyyədən daha çox ictimai xarakter

# BƏHAİ TƏQVİMİNDƏ AŞAĞIDAKI AYLAR QƏBUL EDİLMİŞDİR:

| Ayların sıra nömrəsi | Ayların ərəbcə adları | Azərbaycan dilinə tərcüməsi | Ayların birinci günləri (miladi təqvimdə) |
|---|---|---|---|
| 1 | Şəhr-ül-Bəha | Bəha | 21 mart |
| 2 | Şəhr-ül-Cəlal | Cəlal | 9 aprel |
| 3 | Şəhr-ül-Camal | Gözəllik | 28 aprel |
| 4 | Şəhr-ül-Əzəmət | Əzəmət | 17 may |
| 5 | Şəhr-ün-Nur | İşıq | 5 iyun |
| 6 | Şəhr-ür-Rəhmət | Rəhmət | 24 iyun |
| 7 | Şəhr-ül-Kəlimat | Kəlmələr | 13 iyul |
| 8 | Şəhr-ül-Kamal | Kamillik | 1 avqust |
| 9 | Şəhr-ül-Əsma | Adlar | 20 avqust |
| 10 | Şəhr-ül-İzzət | İzzət | 8 sentyabr |
| 11 | Şəhr-ül-Məşiyyət | İradə | 27 sentyabr |
| 12 | Şəhr-ül-İlm | Elm | 16 oktyabr |
| 13 | Şəhr-ül-Qüdrət | Qüdrət | 4 noyabr |
| 14 | Şəhr-ül-Qövl | Söz | 23 noyabr |
| 15 | Şəhr-ül-Məsail | Suallar | 12 dekabr |
| 16 | Şəhr-üş-Şərəf | Şərəf | 31 dekabr |
| 17 | Şəhr-üs-Sultan | Sultan | 19 yanvar |
| 18 | Şəhr-ül-Mülk | Mülk | 7 fevral |
| Fevral ayının 26-dan mart ayının 1-i də daxil olmaqla yerləşdirilən "Əyyami-Ha” [43] | | | |
| 19 | Şəhr-ül-Əla | Əla | 2 mart |

............................................................

43 “Əlavə günlər”

daşıyır. Buna görə də, onlar icmada birliyin və ədalətin möhkəmlənməsi, bəhailər arasında mülki məhkəmələrə müraciət olunması qadağan edilmiş bütün məsələləri və çətinlikləri həll etmək məqsədilə tez-tez yığılırlar.

Ruhani Məhfil heç vəhclə keşişlər və ruhanilərlə eyni mənalı institut deyildir. Lakin buna baxmayaraq o, təlimi və birliyi qorumalı, fəal xidməti mükafatlandırmalı, ümumi yığıncaqlar və çıxışlar təşkil etməli, bəhailərin ictimai əmlakını idarə etməli və həmçinin bu icmanı həm yüksək dairələrlə əlaqələrdə və həm də digər bəhai icmaları ilə münasibətlərdə təmsil etməlidir.

Yerli və Milli Ruhani Məhfillərinin vəzifəsi bu kitabın Həzrət Əbdül-Bəhanın İradəsi və Vəsiyyətinə həsr olunmuş sonuncu fəslində ətraflı izah edilmişdir; lakin Şövqi Əfəndi Ruhani Məhfillərin əsas vəzifələrini aşağıdakı kimi müəyyənləşdirir:

“Rəhbərlik və təbliğ, həmçinin genişlənmə və möhkəmlənmə vasitələri və üsulları Təlimin mənafeyi üçün olduqca böyük əhəmiyyət kəsb etməsinə baxmayaraq, bunlar heç də Ruhani Məhfilin bütün diqqətini tamamilə özünə cəlb edən yeganə məsələlər deyildir. Həzrət Bəhaullahın və Həzrət Əbdül-Bəhanın lövhlərinin diqqətlə öyrənilməsi göstərir ki, hər yerdə dostların seçdikləri nümayəndələrin üzərinə qoyulan digər vəzifələr Təlim üçün heç də az həyati əhəmiyyət kəsb etmir.

Ruhani Məhfillərin üzərinə sayıq, ehtiyatlı, tədbirli və hikmətli olmaq, Təlimin məbədini bədniyyətli insanlardan və düşmənlərin kəskin hücumlarından yorulmadan qorumaq vəzifəsi qoyulmuşdur.

Ruhani Məhfillər bütün qüvvələrini dostlar arasında dostluğun və məhəbbətin möhkəmlənməsinə, ürəklərdə hər hansı bir inamsızlıq, soyuqluq və bir-birinə yad münasibət bəslənməsi izlərinin silinməsinə yönəltməli, əvəzində isə Təlimin işində fəal və səmimi əməkdaşlığı təmin

etməlidir. Onlar irqindən, sinfindən və dinindən asılı olmayaraq, daim bacardıqca daha çox kasıblara, xəstələrə, yetimlərə və dul qadınlara kömək etməlidirlər.

Onlar özlərinin bütün qüvvələri ilə gənclərin təhsil almasına və ruhani cəhətdən maariflənməsinə kömək göstərməli, uşaqları tərbiyələndirməli, imkan daxilində bəhai tədris müəssisələri təsis etməli, onlara rəhbərlik etməli, onların fəaliyyətini öz nəzarətləri altına almalı və onların gələcək inkişafını və genişlənməsini yüksək səviyyədə təmin etməlidirlər.

Onlar müntəzəm olaraq dostların yığıncaqlarını keçirməli, hər ilin bayramlarını və ildönümlərini qeyd etməli, eləcə də bütün dindaşlarının əqli, ruhani və ictimai mənafelərini təşviq etmək və icmaya xidmət etmək məqsədilə xüsusi iclaslar çağırmalıdır.

Hal-hazırda Bəhai Təlimi hələ özünün körpəlik mərhələsində olduğundan Ruhani Məhfillər bütün bəhai nəşrlərini və tərcümələrini nəzarəti altına almalı və xüsusilə, çalışmalıdır ki, oxuculara təqdim edilən bütün bəhai ədəbiyyatı münasib və ən layiqli şəkildə çap olunsun.

Bəhai təşkilatlarına xas olan böyük imkanlar yalnız o zaman qiymətləndirilə bilər ki, liderlərə məsuliyyət və təvazökarlıq hissləri və cəmiyyətin hər bir üzvünə zəruri loyallıq duyğusu aşılayan mənəvi qüvvələrdən məhrum olmuş müasir sivilizasiyanın necə sürətlə parçalanması hamı tərəfindən başa düşülsün.

## BAYRAMLAR

Bəhai Dini ardıcıllarının sevinc və fərəh hissləri il boyu keçirilən bir sıra bayramlarda və ildönümlərində öz parlaq ifadəsini tapır. 1912-ci ildə İskəndəriyyədə Novruz Bayramı (Yeni il) barəsində söhbətində Həzrət Əbdül-Bəha buyurmuşdur:

## BƏHAİ BAYRAMLARI, İLDÖNÜMLƏRİ VƏ ORUCLUQ GÜNLƏRİ

| | |
|---|---|
| 1. Novruz Bayramı (Bəhailərin yeni ili) | 21 mart |
| 2. Rizvan Bayramının birinci günü (Bəhaullahın Bəyanı) | 21 aprel |
| 3. Rizvan Bayramının doqquzuncu günü | 29 aprel |
| 4. Rizvan Bayramının onikinci günü | 2 may |
| 5. Həzrət Babın Bəyanı və Həzrət Əbdül-Bəhanın mövlud günü | 23 may |
| 6. Həzrət Bəhaullahın süudu | 29 may |
| 7. Həzrət Babın şəhid edilməsi | 9 iyul |
| 8. Həzrət Babın mövlud günü | 20 oktyabr |
| 9. Həzrət Bəhaullahın mövlud günü | 12 noyabr |
| 10. Əhd günü | 26 noyabr |
| 11. Həzrət Əbdül-Bəhanın süudu | 28 noyabr |
| 12. Orucluq günləri (Əla ayının 1-dən 19-dək) | martın 2-dən 20-dək. |

“Hər bir dövrün İlahi dinlərində xüsusi sevinc günləri və müqəddəs bayramlar var. Belə günlərdə işin mahiyyətindən asılı olmayaraq bütün məşğuliyyətlər, istər ticarət, sənaye, kənd təsərrüfatı, istərsə də hər hansı bir digər iş olsun, qadağan edilir. Həmin günlərdə hamı sevinməli, bir yerə toplanmalı və təntənəli yığıncaq keçirməlidirlər; birliyin, dostluğun və həmrəyliyin təcəssümünü duymaq üçün hökmən bir yerə yığışmaq lazımdır.

Bir halda ki, bu xoşbəxtlik günüdür, deməli, onu məqsədsiz keçirmək, ancaq şənlənmək və boş-boşuna vaxt keçirməklə qənaətlənmək olmaz. Bu günlərdə hökmən yeni təşəbbüslər meydana çıxmalı və elə işlərin təməli qoyulmalıdır ki, onlar cəmiyyət üçün daim dəyərli və faydalı ola bilsin. Hal-hazırda insanlara haqqın yolunu öyrətməkdən əhəmiyyətli, vacib başqa bir şey yoxdur.

Şübhəsiz, bu günlərdə Allahın dostları elə maddi və mənəvi xeyriyyəçilik tədbirləri görməlidirlər ki, o nəinki bəhailər dairəsinə faydalı olmaqla məhdudlaşmasın, həmçinin geniş ümumbəşəri əhəmiyyət kəsb etsin...

İndiki dövrdə – Bəhai Dini dövründə hər bir xeyriyyəçilik işi, istisnasız olaraq, bütün bəşəriyyət üçün faydalı olmalıdır, çünki bu, İlahi Mərhəmətin təzahürü dövrüdür. Buna görə də Mən ümidvaram ki, Allah dostlarının hər biri bütün bəşəriyyət üçün Allahın Mərhəmətinə çevriləcəkdir”.

Novruz (Yeni il) və Rizvan bayramları, Həzrət Babın və Həzrət Bəhaullahın mövlud günləri, eləcə də Həzrət Babın Bəyanı və həmin günə düşən Həzrət Əbdül-Bəhanın mövlud günü bəhailər üçün ən böyük sevinc günləridir.

İranda bəhailər arasında bu günlərdə təntənəli qəbullar və qonaqlıqlar təşkil edilir, məclis iştirakçıları musiqi çalır, mahnı oxuyur, nitq söyləyir, bu günlərə həsr olunmuş şeirlər və məktublar oxuyurlar. Onsəkkizinci və ondoqquzuncu aylar arasında, yəni fevral ayının 26-dan mart ayının 1-i də daxil olmaqla qoyulan “əlavə günlər” *(Əy-*

*yami-Ha)* dostları qonaq qəbul etmək və qonaq getmək, onlara hədiyyələr vermək, kasıblara və xəstələrə kömək göstərmək günləridir.

Həzrət Babın şəhid edilməsi, Həzrət Bəhaullahın və Həzrət Əbdül-Bəhanın süud günləri hər il təntənəli yığıncaqlarda qısa nitqlər söyləməklə, ziyarətnamə və dualar oxumaqla keçirilir.

## ORUC

Qonaqpərvərlik və xeyirxahlıq göstərmək məqsədi daşıyan "Əyyami-Ha" günlərindən sonra gələn ondoqquzuncu ay orucluq ayıdır. Oruc tutan şəxs günəş çıxandan günəş batanadək ondoqquz gün ərzində özünü hər cür yeməkdən və içməkdən saxlamalıdır. Orucluq həmişə mart ayında gecə ilə gündüzün bərabərləşdiyi eyni bir vaxtda – yəni şimal yarımkürəsində bahar və cənub yarımkürəsində isə payız olduğu zaman qurtarır.

Orucluq ayı heç zaman oruc tutmaq üçün üzücü olan yayın şiddətli isti günlərinə və ya qışın sərt soyuğuna düşmür. Bundan başqa, ilin bu dövründə yer kürəsinin insan yaşayan bütün məntəqələrinin hər yerində günün çıxması və batması vaxtı təxminən səhər saat 6-dan axşam saat 6-ya qədərdir. Uşaqlar, xəstələr, səfərdə olanlar, qocalar və fiziki baxımdan zəiflər, hamilə qadınlar və südəmər körpələri olan analar oruc tutmaqdan azaddırlar.

Bəhai Təliminə əsasən, hər il müntəzəm oruc tutmağın fiziki sağlamlıq üçün faydalı tədbir olması barəsində xeyli dəlillər vardır. Lakin bəhailərdə yeməyin məqsədi sadəcə olaraq qidalanmaq deyil, bizim mənəvi qidamızı təşkil edən Allahın zikri olduğu kimi, bəhai orucunun mahiyyəti də yalnız yeməkdən imtina etməkdən ibarət deyildir, hərçənd yeməkdən imtina olunması bizim bədənimizin təmizlənməsinə kömək göstərir; orucun əsl mənası nəfsin

istəklərindən imtina etmək və Allahdan başqa hər şeydən üz döndərməkdir.

Bununla əlaqədar olaraq Həzrət Əbdül-Bəha buyurur:

"Oruc – rəmzdir; o bütün nəfsani istəklərdən özünü saxlamaq deməkdir. Oruc tutmaq bu istəklərdən özünü saxlamağın rəmzi xatırlanmasıdır. Yəni insan özünü qida qəbul etməkdən saxladığı kimi, özünün bütün şəhvət və ehtiraslarından da imtina etməlidir. Yalnız qida qəbul etməkdən özünü saxlamaq ruha təsir göstərmir; bu ancaq rəmzdir, xatırlamadır. Əks halda, oruc tutmağın heç bir əhəmiyyəti yoxdur. Bu məqsədlə oruc tutmaq yemək-içməkdən özünü tamamilə saxlamaq demək deyildir. Qidalanmanın qızıl qaydası – nə həddindən artıq çox, nə də həddindən artıq az yemək qəbul etməməkdir; orta həddə riayət etmək vacibdir.

Hindistanda yemək-içməkdən özünü kəskin surətdə saxlayan təriqət var: onlar tədricən qida qəbul etməyi o qədər azaldırlar ki, axırda qida qəbul etmədən yaşayırlar. Əgər insan qida qəbul etməmək nəticəsində zəifləmişdirsə, o nə fiziki, nə də əqli cəhətdən Allaha ibadət edə bilməz. Belə insan sağlam düşünə bilməz" *(Xanım Stivensin 1911-ci il iyun ayındakı iki həftəlik İcmalından)*.

## TOPLANTILAR

Həzrət Əbdül-Bəha Allahı birlikdə mədh etmək, həmçinin dini Təlimatların öyrənilməsi və çatdırılması, dinin tərəqqisinə dair fikir mübadiləsi etmək üçün möminlərin müntəzəm olaraq təşkil etdiyi toplantıları yüksək qiymətləndirir. Özünün lövhlərinin birində O buyurur:

"Allah-taalanın İradəsi belədir ki, Mərhəmətlinin dostları və bəndələri arasında birlik və ahəngdarlıq günü-gündən möhkəmlənsin. Nə vaxta qədər ki, bunlar həyata keçirilməyəcək, işlər də heç bir vasitə ilə irəli getməyəcəkdir.

Ruhani Məhfillər ümumi ahəngdarlığa və birliyə nail olmaq üçün ən böyük vasitədir. Fövqəladə əhəmiyyətə malik olan bu məsələ Allahın köməyini maqnit kimi çəkib gətirir" *(Əbdül-Bəhanın məktubları, c. 7, s. 125).*

Bəhai Ruhani Məhfilində siyasi məsələlərə və dünyəvi işlərə dair çəkişmələrdən və mübahisələrdən uzaqlaşmaq lazımdır. Möminlərin yeganə məqsədi İlahi həqiqəti öyrətmək və öyrənmək, Allah Məhəbbəti ilə dolu qəlbləri fəth etmək, Tanrının İradəsinə tamamilə itaət etmək vərdişinə yiyələnmək və İlahi Səltənətin başlanmasına köməklik göstərmək olmalıdır.

1912-ci ildə Nyu-Yorkda etdiyi çıxışlarının birində Həzrət Əbdül-Bəha buyurmuşdu:

"Bəhai toplantısı səma sakinlərinin yığıncağı olmalıdır. O, səma sakinlərinin nuru ilə işıqlanmalıdır. Qəlblər həqiqət Günəşinin şəfəqlərini əks etdirən güzgüyə bənzəməlidir. Hər kəsin sinəsi teleqraf rabitəsi qovşağına oxşamalıdır. Onun telləri qəlbin dərinliyindən mələklərin toplantısınadək elə uzanmalıdır ki, ürəklərin səsləri onların arasında fikir mübadiləsi edə bilsin. Əbha Səltənətindən bu yol ilə süzülən ilham bütün məsləhətləşmələrdə həmrəylik yaradacaqdır. Sizin aranızda razılıq, birlik və məhəbbət nə qədər çox olsa, Allahın himayəsi və Camali-Mübarəkin köməyi də bir o qədər möhkəm olacaqdır".

Həzrət Əbdül-Bəha lövhlərinin birində buyurur: "Bu toplantılarda kənar söhbətlərdən tamamilə uzaqlaşmaq lazımdır. Bu toplantılar Allahdan nazil olmuş müqəddəs kəlamların avazla oxunması, həmçinin Allah Əmrinə dair məsələlərin müzakirəsi, dəlillərin izahı, aydın və əyani səbəblərin göstərilməsi və eləcə də bütün məxluqatın Sevimlisi olan Kəsin yazılarının dərindən öyrənilməsi ilə məhdudlaşmalıdır.

Toplantıya gəlməzdən əvvəl bütün iştirakçılar ən təmiz paltar geyməlidirlər: onlar üzlərini Əbha Səltənətinə tutmalı və sonra isə yığıncaqda itaətkarlıq və mütilik ruhunda çıxış etməlidirlər. Müqəddəs Yazıların oxunuşu zama-

nı onlar özlərini sakit və səssiz-səmirsiz aparmalıdır. Hər hansı bir şəxs danışmaq istəyərsə, o bunu tam nəzakətlə və toplantıda iştirak edənlərin razılığı ilə etməli, bu zaman fikrini aydın və sadə şəkildə ifadə etməlidir".

## ON DOQQUZ GÜN GÖRÜŞLƏRİ

Həzrət Əbdül-Bəhanın vəfatı dövründən başlanan İnzibati Qaydaların inkişafı ilə əlaqədar olaraq, hər 19 gündə bir dəfə, yəni hər bəhai ayının birinci günü görüş keçirmək qərara alınmışdır. Bu görüşlərin xüsusi əhəmiyyətə malik olması öz ifadəsini onda tapır ki, bu görüşlərə təkcə Allahı mədh etmək və Müqəddəs Kitablardan parçalar oxumaq məclisləri kimi baxılmır, eyni zamanda bəhai icmasının bütün cari işlərinə dair ümumi fikir mübadiləsi üçün təyin olunmuş yığıncaq kimi baxılır. Dostların görüşdükləri bu yığıncaqlarda Ruhani Məhfillərin öz hesabatlarını icmaya təqdim etməsinə, icma üzvlərini planların müzakirəsinə dəvət etməsinə və həmçinin onların yeni və yaxşı iş metodları barəsində öz təkliflərini irəli sürməsinə imkan yaranır.

## MƏŞRİQUL-ƏZKAR

Həzrət Bəhaullah Öz ardıcıllarına hər bir ölkədə və şəhərdə ibadət etmək üçün məbədlər tikmək tövsiyəsini vermişdir. O, bu məbədlərə "Məşriqul-Əzkar", yəni "Allahın zikrinin işıqlandığı yer" adını vermişdir.

Məşriqul-Əzkar doqquztərəfli günbəzlə tamamlanmış bina təəssüratı yaratmalı və imkan daxilində həm layihə, həm də incəsənət baxımından gözəl olmalıdır. Əgər o, ağaclar və güllər əkilmiş, təlim-təhsil, xeyriyyəçilik və ictimai məqsədlər üçün tikilmiş binalarla əhatələnmiş və fəvvarələri olan bağda ucaldılsa daha yaxşı olar: belə olarsa,

məbəddə Allaha ibadət etmək həmişə təbiətin və incəsənətin gözəlliklərinə ehtiramlı heyranlıq hissləri keçirməklə və həmçinin insanların sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün əməli fəaliyyətlərlə sıx bağlana bilər.[44]

İranda bəhailər hələ indiyədək birlikdə ibadət etmələri üçün Məbəd tikdirə bilməmişlər, buna görə də ilk böyük Məşriqul-Əzkar Türkmənistanın Aşqabad şəhərində tikilmişdir.[45] 1912-ci ildə Amerikaya səfəri zamanı Həzrət Əbdül-Bəha Çikaqodan bir neçə mil şimalda yerləşən Miçiqan gölü sahilində tikiləcək bəhailərin ikinci ibadət evinin təməl daşını qoymuşdu.[46]

..............................................................

44 Məşriqul Əzkardan danışarkən ingilis şairi Tennisonun aşağıdakı şeirini xatırlamaq yerinə düşərdi:

*"Yuxuda gördüm mən, daşı-daş üstə,*
*Tikib ucaldıram Müqəddəs Məbəd.*
*Bu Məbəd nə kilsə, nə məscid, nə paqodadır,*
*Lakin əzəmətli, həm də sadədir.*
*Səma yellərinə daim açıqdır,*
*Bura köçüb gəlmiş, məskən salmışdır:*
*Həqiqət, Əmniyyət, Sevgi, Ədalət".*

***Əkbərin xəyalları, 1892-ci il.***

45 Birinci İbadət Evi olan bu Məbəd 1948-ci ildə baş verən zəlzələ nəticəsində ciddi zədələnmiş və 1963-cü ildə yerli orqanlar tərəfindən dağıdılmışdır.
46 Vilmettdəki bu Məbədin tikintisi 1953-cü ildə başa çatdırılmışdı. O vaxtdan başlayaraq Kampalada (Uqanda), Sidneydə (Avstraliyada), Frankfurt əyaləti, Lançeqhaynda (Almaniya), Panama-Sitidə (Panama), Apiada (Samoada) və Yeni-Dehlidə (Hindistan) Bəhai Məbədləri ucaldılmışdır. Daha 123 Məbədin tikilməsi üçün yeni torpaq sahələri alınmışdır. İndi qərar dəyişilmişdir. Yaxın gələcəkdə Yeni İbadət Evlərinin inşaatı planlaşdırılmadığından, möminlərin verdikləri ianələr dinin təbliğinə, kasıblara yardım göstərilməsinə və təlim–tərbiyə işlərinə xərclənir.

Həzrət Əbdül-Bəha “Ana Məbədə” dair Öz lövhlərində yazır:

“Allaha şükr olsun ki, indi dünyanın bütün ölkələrindən imkan daxilində Amerikadakı Məşriqul-Əzkarın fonduna müntəzəm olaraq ianə göndərilir... Adəm dövründən bu günədək heç yerdə hələ görünməyib ki, Asiyanın ucqar ölkələrindən Amerikaya ianə göndərilsin. Bu Allah Əhdinin gücü sayəsində baş verir. Həqiqətən, bu, düşüncəli insanları təəccübləndirən bir haldır. Ümidvarıq ki, Allahın dostları daha böyük comərdlik göstərəcək və bu Məbədin inşası üçün lazımi məbləği yığacaqlar...

Hər kəs öz iradəsi ilə hərəkət etməkdə azaddır. Əgər kimsə öz vəsaitini başqa məqsədlərə yönəltmək istəyirsə, qoy bunu etsin. Onun işlərinə heç vəchlə qarışmayın, lakin onu əmin edin ki, hal-hazırda ən vacib iş Məşriqul-Əzkarın tikintisidir.

Bu Məbədin sirri böyükdür və indi açıqlana bilməz, lakin İbadət Evinin inşası hal-hazırda birinci dərəcəli əhəmiyyətə malikdir. Məşriqul-Əzkar üçün onun tərkib hissəsi olan yardımçı müəssisələrin də tikilməsi nəzərdə tutulmuşdur, o cümlədən: yetimlər üçün məktəb, imkansızlar üçün xəstəxana və aptek, əmək qabiliyyətini itirənlər üçün ev, ali təhsil məktəbi və qonaq evi. Məşriqul-Əzkar hər bir şəhərdə bu prinsip üzrə tikilməlidir. Məşriqul-Əzkarda hər səhər ibadət edilir, lakin Məbədin içində orqan[47] olmamalıdır. Hər cür bayramlar, qonaqlıqlar, qəbullar, ümumi yığıncaqlar və Ruhani Məhfillərin konfransları Məşriqul-Əzkarın yaxınlığında tikilmiş binalarda keçirilməlidir. Münacatlar və İlahi Yazılar Məbədin daxilində musiqi alətinin müşayiəti olmadan məlahətli səslə oxun-

47 Orqan, içərisinə görüklə hava vurularaq çalınan dilli musiqi aləti.

malıdır. Məşriqul-Əzkarın qapıları bütün insanların üzünə açıq olmalıdır...

Bu müəssisələr, yəni məktəblər, xəstəxanalar, yetimlər, qocalar və qonaqlar üçün evlər, ali təhsil məktəbləri və digər xeyriyyəçilik müəssisələri tikilib başa çatdırıldıqdan sonra onların qapıları bütün xalqlar və dinlər üçün açılacaq və qətiyyən heç bir ayırıcı xətt[48] olmayacaqdır. Bu müəssisələrə daxil olan xeyriyyəçilik vəsaitləri mənşəyi, milləti, irqi və dini mənsubiyyətindən asılı olmayaraq hamıya bərabər xərclənəcəkdir.

Onların qapıları bütün bəşəriyyətin üzünə həmişə açıq olacaqdır. Bu müəssisələrdə heç bir yalnış fikir təlqin edilməyəcəkdir: burada tam məhəbbət hökm sürəcəkdir. Mərkəzi binadan ibadət etmək və dua oxumaq üçün istifadə olunacaqdır. Beləliklə, din elmlə ahəngdar fəaliyyət göstərəcək, elm dinə kömək etməyə başlayacaq və hər ikisi bütün bəşəriyyətə mənəvi və maddi rifah gətirəcəkdir".

## AXİRƏT HƏYATI

Həzrət Bəhaullah buyurur ki, cismani həyat bizim mövcudluğumuzun rüşeym mərhələsini özündə təmsil edir və insan ruhunun bədəndən qurtuluşu yeni doğuluşa bənzəyir və bu zaman o daha kamil və azad həyata qovuşur. Bununla əlaqədar olaraq O yazır:

"Ruh və insan öləndən sonra onun yaşaması haqqında sual vermişdin. Bil ki, bədəndən ayrıldıqdan sonra ruh elə bir görkəmdə Allahın hüzuruna yüksəlir ki, qərinələr,

.............................................................

48 Sülh danışıqları gedən zaman müharibə edən tərəflərin mövqeləri arasında qoyulan və ya mübahisəli ərazilərin sərhədlərini təyin edən xətt

əsrlər, dünyanın fəlakətləri və hadisələri onu dəyişdirə bilməz. Və Allahın səltənəti, hökmranlığı, qüdrəti və hakimiyyəti durduqca, o da qalar. Və onda Allahın əlamətləri və sifətləri, Allahın inayət və lütfləri təzahür edər. Qələmin, bu məqamı, onun ülviyyət və ucalığını təsvir etməyə qüdrəti çatmır. Fəzlin əli onu elə bir məqama daxil edər ki, bunu heç bir sözlə anlatmaq və dünyada olan şeylərlə təsvir etmək mümkün deyil. Xoş o ruhun halına ki, insanların şühbələrindən pak bir halda bədəndən çıxar. Belə bir ruh öz Rəbbinin İradəsi ilə hərəkət edib uca cənnətə daxil olar, yüksək behiştin huriləri onun ətrafına toplaşar, o, Allahın peyğəmbərləri və övliyaları ilə ünsiyyətdə olub onlarla söhbət edər və aləmlərin Rəbbi olan Allahın yolunda başına gələnləri onlara danışar. Əgər bir kəs ərşin və yerin Rəbbi olan Allahın aləmlərində onun üçün müəyyən olunanlardan agah olsa, dərhal bu ən uca, ən yüksək, ən müqəddəs və ən şərəfli məqama çatmaq şövqü ilə alışıb yanar.

Bunu təsvir etmək mümkünsüzdür və lazım da deyil, ondan yalnız bildirilən qədər danışmaq olar. Peyğəmbərlər və Elçilər yalnız insanları haqqın doğru yoluna istiqamətləndirmək üçün gəlmişlər. Məqsəd bu olmuşdur ki, bəndələr tərbiyə alsınlar və dünyalarını dəyişərkən, tam paklıq, müqəddəslik və saflıq halətində Ulu Rəfiqin hüzuruna yollansınlar.

Allaha and olsun, belə ruhların işığı dünyanın tərəqqisinə və insanların məqamının yüksəlməsinə səbəb olur. Onlar varlığın mayası, dünyadakı zühurların və sənətlərin başlıca səbəbləridirlər. Onların sayəsində buludlardan yağış yağar və yerdə bitkilər bitər. Heç bir şey səbəbsiz, məqsədsiz və əsassız mövcud deyil. Və ən böyük səbəb pak ruhlar olmuşdur və olacaqdır. Bu aləmlə o aləmin fərqi ana bətni ilə bu dünyanın fərqi kimidir. *(Həzrət Bəhaullahın Yazılarından seçmələr, N81).*

Həzrət Əbdül-Bəha həmçinin belə buyurur:

''Bu dünyada insana bəlli olmayan sirrləri o, mələkut aləmində aşkarlayacaqdır və ona orada həqiqətin sirri məlum olacaqdır; vaxtı ilə onunla əlaqəsi olmuş adamlar haqqında o necə də çox biləcək və ya öyrənəcəkdir. Şübhəsiz, pak nəzər əldə etmiş və bəsirət əta edilmiş müqəddəs ruhlar Əbha Mələkutunda bütün sirlərə vaqif olacaq və hər bir uca ruhun həqiqi məqamına şahid olacaq. Hətta onlar o dünyada Allahın Camalını aydın seyr edəcəklər. Onlar, həmçinin, Allahın bu səmavi toplantıda iştirak edən həm keçmiş, həm də indiki bütün dostlarını tapacaqlar.''

''Bütün bu adamlar arasındakı fərq və təfavüt onlar bu fani dünyadan köçdükdən sonra, təbii ki, aşkar olacaqdır. Lakin bu fərq məkana deyil, ruha və şüura vicdana aiddir. Çünki İlahi Mələkut zaman və məkandan ucadır; bu başqa bir dünya, başqa bir aləmdir. Lakin mömin ruhlara şəfaət hədiyyəsi vəd edilmişdir. Yəqin bil ki, ilahi aləmlərdə ruhani sevgililər bir-birini tanıyacaq və bir-birinin vüsalını axtaracaqlar, ancaq ruhani vüsal. Eynilə, bir kəsin başqasına bəslədiyi məhəbbət də Mələkut aləmində unudulmayacaqdır. O cür də, sən maddi dünyada yaşadığın həyatı da orada yaddan çıxarmayacaqsan. *(Əbdül-Bəhanın məktubları, c.1, s.205).*

## CƏNNƏT VƏ CƏHƏNNƏM

Həzrət Bəhaullah və Həzrət Əbdül-Bəha buyururlar ki, bəzi əvvəlki dini yazılarda Cənnət və Cəhənnəmin təsviri dünyanın yaradılması haqqında Bibliyadakı hekayə kimi faktik sübut olunmuş məna deyil, rəmzi mahiyyət daşıyır. Onların Təliminə görə, Cənnət – kamillik vəziyyətidir, Cəhənnəm isə qeyri-kamillik və naqislik vəziyyətidir: Cənnət – Allahın İradəsi ilə razılıq və yaxın insanlarla

razılıq deməkdir, Cəhənnəm isə bu razılığın olmamasıdır; Cənnət ruhani həyatın varlığıdır, Cəhənnəm isə ruhani ölüm vəziyyətidir. İnsan hələ sağlığında, özünün yer üzü həyatında Cənnətdə və ya da Cəhənnəmdə ola bilər. Cənnət həzzləri ruhani həzzlərdir, Cəhənnəm əzabları isə həmin həzzlərdən məhrum olmaqdır.

Həzrət Əbdül-Bəha buyurur:

"İnsanlar dinin işığı ilə qüsurlar zülmətindən azad olaraq həqiqət Günəşinin şəfəqləri ilə nurlandıqda və bütün xeyirxah keyfiyyətlərlə nəcibləşdikdə, onlar bunu ən böyük mükafat və əsl Cənnət hesab edirlər. Həmçinin, onlar belə hesab edirlər ki, mənəvi cəza – bu maddi dünyanın əsiri olmaq, Allahdan uzaqlaşmaq, amansız və nadan olmaq, şəhvani istəklər bataqlığına batmaq, heyvani ehtiraslara qərq olmaq və bütün mənfi keyfiyyətlərin daşıyıcısına çevrilməkdir... bütün bunlar ən böyük cəza və əzabdır...

Axirət aləminin mükafatı insanın maddi dünyasını dəyişəndən sonra ruhi dünyalarda əldə etdiyi kamillik və rahatlıqdan, Səma Səltənətinin müxtəlif ruhi nemətlərinə layiq görülməkdən, qəlbin və ruhun istəklərinin həyata keçməsindən və Mərhəmətli Allahı Onun Əbədi Səltənətində seyr etməkdən ibarətdir.

Eləcə də o dünyadakı cəza Allahın xüsusi Mərhəmətindən və Onun mütləq səxavətindən məhrum olmaqdan və ruhun ən aşağı həyat pilləsinə enməsindən ibarətdir. Allahın bu Mərhəmətindən məhrum olan hər bir kəs ölümdən sonra öz mövcudluğunu davam etdirməsinə baxmayaraq, mömin insanların gözündə ölü sayılacaqdır...

O dünyanın var-dövləti Allaha yaxın olmaqdan ibarətdir. Beləliklə, Allah Dərgahına yaxın olanlar başqaları üçün dua edə bilərlər və onların duaları Allah tərəfindən qəbul olunacaqdır... Hətta günah içində və inamsızlıqla ölənlərin də vəziyyəti dəyişilə bilər, yəni onlar Allahın Ədalət Məhkəməsi ilə deyil, Allahın Mərhəməti sayəsində

Allah tərəfindən bağışlana bilər, çünki mərhəmət – əməllərə görə əvəzini vermək deyildir, Ədalət Məhkəməsi isə əməllərə görə əvəzini verməkdir.

Beləliklə, biz bu dünyada olduğu kimi, o dünyada da bu ruhlara dua etmək gücünə malik olacağıq, yəni Allahın Səltənətində də biz həmin gücə malik olacağıq... Deməli, o dünyada da ruhlar kamilləşə bilərlər. Buna görə də onlar bu dünyada dua etmək vasitəsilə Allahın Mərhəmətinə nail ola bildikləri kimi, o dünyada da onlar bağışlanmalarını xahiş edə bilər və dua vasitəsilə İlahi Nurun şəfəqləri ilə nurlana bilərlər...

Həm maddi formanın dağılmasına qədərki dövrədək və həm də o dağıldıqdan sonrakı dövrdə insanın kamilləşməsi onun maddi vəziyyəti baxımından deyil, ruhani keyfiyyətləri baxımından baş verir. Müəyyən mövqeyə çatan insan yenə də həmin insan olaraq qalır və sonrakı inkişafını yalnız öz keyfiyyətləri əsasında davam etdirir, çünki elə bir daha yüksək mövqe yoxdur ki, kamil insan ora daxil ola bilsin. O yalnız insan dünyası çərçivəsində inkişaf edir. İnsanın kamilləşməsi qeyri-məhduddur. Məsələn, insan nə qədər bilikli olsa da, ondan da bilikli adamı təsəvvürümüzə gətirə bilərik. Deməli, insan ölümündən sonra da öz ruhani keyfiyyətlərini və kamilliyini inkişaf etdirə bilər" *(Əbdül-Bəha,Bəzi suallara cavablar).*

## **İKİ DÜNYANIN BİRLİYİ**

Həzrət Bəhaullahın Təliminə görə, bəşəriyyətin birliyi, nəinki hələ canlı olan insanlara, həmçinin cismani örtüyə bürünməsindən və ya ondan məhrum olmasından asılı olmayaraq bütün insan məxluqatına aiddir. Nəinki yer üzündə yaşayan bütün insanlar, eləcə də ruh aləmində

olanlar da eyni bir orqanizmin hissələridir və bu iki hissə bir-birindən sıx surətdə asılıdır.

Onlar arasındakı mənəvi əlaqə mümkün olmayan və qeyri-təbii bir iş deyil, əksinə, bu əlaqə daimi və labüddür. Bu həyati əlaqə ruhi qabiliyyətləri hələ kifayət qədər inkişaf etməyən insanların şüuru üçün anlaşılmazdır, lakin insanda bu qabiliyyətin inkişaf səviyyəsi ilə əlaqədar olaraq axirət dünyasındakı ruhlarla əlaqə insanların şüurunda tədricən daha aydın və daha anlaşıqlı olur. Peyğəmbərlər və müqəddəs şəxslər üçün bu cür ruhani əlaqə insanlarla adicə görüşmək və söhbət etmək qədər realdır. Həzrət Əbdül-Bəha buyurur:

"Peyğəmbərlərin xəyali görmə qabiliyyəti yuxugörmə deyil, real həqiqət olan ruhani vəhydir. Məsələn, onlar deyəndə ki: "Mən filan qiyafəli adam gördüm, ona belə və belə dedim və o mənə belə məsləhət verdi", bu görmələr yuxuda deyil, ayıq vəziyyətdə baş verir; ruhani vəhy elə budur... Bu vəhyin əsasını elə əlaqə təşkil edir ki, o hər hansı bir təxəyyülün dərk etməsindən kənardadır və belə ünsiyyət zaman və məkanla məhdudlaşmır.

Məsələn, İncildə deyilir ki, Tabor dağında Musa və İlyas Peyğəmbər İsa Peyğəmbərin yanına gəldilər. Tamamilə aydındır ki, zaman və məkan baxımından bu cismani görüş mümkün deyildir. Bu ruhi ünsiyyətdir... Bu qəbildən olan ünsiyyət həqiqətən baş verir. Onlar insanların ağıllarına və düşüncələrinə ecazkar təsir göstərir və qəlblərin böyük yaxınlığına aparır" *(Əbdül-Bəha, Bəzi suallara cavablar)*.

Həzrət Əbdül-Bəha fövqəl-təbii ruhi qabiliyyətlərin gerçəkliyini təsdiqləyərək, onların vaxtından qabaq və zorla inkişaf etdirilməsinin əleyhinə çıxır. Əgər Peyğəmbərlərin bizə göstərdikləri ruhani tərəqqi yoluna riayət etsək, bu qabiliyyətlərin inkişafı üçün lazımi vaxt gələndə onlar təbii olaraq inkişaf edəcəklər.

O buyurur: “Bu dünyada olarkən ruhi qüvvələrə toxunmaq o dünyadakı ruhun vəziyyətinə müdaxilə etmək deməkdir. Bu qüvvələr realdır, lakin adətən bu dünyada özlərini büruzə vermirlər. Ana bətnindəki uşağın gözləri, qulaqları, əlləri, ayaqları və s. əzaları var, lakin onlar fəaliyyət göstərmirlər. Maddi dünyadakı həyatın bütün məqsədi ondan ibarətdir ki, bu qüvvələr həqiqət Dünyasına daxil olsunlar və mənsub olduqları o dünyada fəallaşsınlar” *(Miss Bektonun Əbdül-Bəha tərəfindən yoxlanılmış qeydlərindən).*

Əbədiyyətə yüksəlmiş ruhlarla nə bu ruhların naminə, nə də bekarçılıqdan doğan maraq xatirinə ünsiyyətə girməyə çalışmaq lazım deyil, əksinə, bu dünyanı tərk etmiş ruhları sevmək və onlara dua oxumaq lazımdır, bu yer üzündə yaşayan hər bir kəsin həm borcu, həm də vəzifəsidir və bu hər bir bəhainin öhdəsinə qoyulmuş tapşırıqdır.

Həzrət Əbdül-Bəha buyurur: “Başqalarının xeyrinə Allahın Mərhəmətini qazanmaq Allahın Peyğəmbərlərə və müqəddəs şəxslərə olan lütfkarlığıdır. İsa Məsih həm yer üzündə yaşadığı dövrdə, həm də, şübhəsiz, indi Səma Səltənətində olduğu dövrdə Öz düşmənlərinin bağışlanması üçün Allahdan xahiş etmək gücünə malikdir”.

(“Allah onun günahından keçsin” və ya bu mənanı verən başqa sözləri demədən Həzrət Əbdül-Bəha heç zaman vəfat etmiş insanın adını xatırlamazdı.)

“Peyğəmbərlərin ardıcılları da, ruhların bağışlanması üçün dua etmək gücünə malikdirlər. Buna görə də biz elə düşünməməliyik ki, etiqadsız vəfat etmişlərin ruhları əbədi əzablara və ruhi ölümə məhkum edilmişdir, çünki bu ruhların bağışlanması üçün xahişlərin təsiredici qüvvəsi vardır...

Bu dünyada varlılar kasıblara kömək etdikləri kimi, o dünyada da ruhən varlılar ruhən kasıblara kömək etməlidirlər. Hər iki dünyadakı məxluqlar Allahın yaratdığı var-

lıqlardır. Onlar həmişə Allahdan asılıdırlar. Onlar müstəqil deyillər və heç zaman da müstəqil olmayacaqlar. Allahın Mərhəmətinə olan ehtiyac üzündən onlar dua edirlər və nə qədər çox dua edirlərsə, bir o qədər zənginləşirlər. Onlar nəyə yiyələnirlər? Onların sərvəti nədir? O dünyada başqa var-dövlət yoxdur, şəfaətdən başqa heç bir digər kömək və himayə də yoxdur. Buna görə də tam inkişaf etməmiş ruhlar əvvəlcə yüksək ruhların diləyi və duası nəticəsində, sonra isə öz dualarının vasitəsilə kamilləşə bilərlər" (1904-cü ildə Əbdül-Bəhanın miss Rozenberq ilə etdiyi söhbətdən).

Digər bir yerdə o buyurur:

"O dünyada ucalmış ruhlar yer üzündə olan ruhlardan fərqli xüsusiyyətlərə yiyələnirlər. Buna baxmayaraq, onların arasında gerçək və tam ayrılıq olmur. Dua bu iki vəziyyəti yaxınlaşdırır: buna görə də onlar sizə dua etdikləri kimi, siz də bu ruhlara dua edin" *(Əbdül-Bəha Londonda, s.97).*

"Biz məhəbbət və inam vasitəsilə bu dünyanı Yeni vəhydən xəbərsiz tərk edənlərin ruhlarını işıqlandıra bilərikmi?" – sualına Həzrət Əbdül-Bəha belə cavab vermişdir: "Bəli, əlbəttə, bir halda ki, səmimi dua həmişə öz gücünü göstərir, deməli, o dünyada da onun təsiri böyükdür. Lakin duanın həqiqi və əsl təsiri bu dünyada deyil, o dünyadadır" *(Meri Hanfordun qeydləri, Paris, 1911-ci il).*

Həzrət Bəhaullah Öz lövhlərinin birində yazır: "Ən Uca Cənnət sakinləri, həmçinin Əzəmət Mülkünün məskunları və Səma əhli Qüdrətli və Şərafətli Allahın Əmri ilə ona verilmiş tapşırığı yerinə yetirən kəsə dua edəcəklər".

"Nə üçün qəlbimiz tez-tez qeyri-ixtiyari olaraq bu dünyanı tərk edən dostumuzu xatırlayır sualına Həzrət Əbdül-Bəha belə cavab vermişdir: "Dünya yaradılarkən Allahın Qanunu belə olmuşdur ki, zəif güclüyə arxalanmalıdır. Sizin müraciət etdiyiniz o kəslər, hətta hələ onlar bu dünyada yaşasalar da, Allahın Qüdrətinin sizə nazil ol-

masında vasitəçi ola bilərlər, – lakin bütün insanlara qüvvə bəxş edən yalnız Allahın Müqəddəs Ruhudur” *(Əbdül-Bəha Londonda, s.97).*

## ŞƏRİN YOXLUĞU

Bəhai fəlsəfəsinə görə, Allahın bir olması nəzəriyyəsindən belə nəticə çıxır ki, şər adlı bir hal mövcud ola bilməz, çünki sonsuz həqiqət birdir. Əgər bu Vahid həqiqətdən asılı olmayan, hər hansı digər bir qüvvə mövcud olsaydı və ya ona qarşı çıxsaydı, bu zaman o, sonsuz ola bilməzdi. Bu baxımdan zülmət işığın yoxluğu və yaxud işığın çox cüzi dərəcəsi olduğu kimi, şər də yalnız xeyirin yoxluğu və ya zəif dərəcəsidir, yəni onun inkişaf etməmiş vəziyyətidir. Pis xasiyyətli insan o kəsdir ki, onun təbiətinin yüksək keyfiyyətləri hələ inkişaf etməmişdir. Əgər o özünüsevərdisə, şər onda deyildir ki, o özünü sevir, çünki hər hansı bir sevgi, hətta özünü sevmək də yaxşı və İlahidir. Şər ondadır ki, bu cür miskin və hədsiz özünüsevərliklə o, Allahı və başqalarını aldadır. O, özünü ən ali canlı sayır və düşüncəsizliklə sevimli itini tumarladığı kimi, öz miskin təbiətini də əzizləyir. Lakin iti tumarlamaq zərərsiz olduğu halda, öz ehtiraslarına tabe olmaq çox pis nəticələrə gətirib çıxarır.

Həzrət Əbdül-Bəha məktublarının birində buyurur: “Əbdül-Bəhanın bəzi möminlərə dediyi: “şər özlüyündə tamamilə mövcud deyildir” – fikrinə tutduğunuz irada gəldikdə isə, bəli, bu belədir. Məsələn, bəşəriyyət üçün yolunu azmaqdan və həqiqətdən uzaqlaşmaqdan böyük şər ola bilməz. Beləliklə, yolunu azmaq – yol göstərənin olmamasıdır, zülmət – işığın yoxluğu, yalan – düzlüyün yoxluğu, korluq – görmənin yoxluğu, karlıq – eşitmənin yoxluğudur. Deməli, yolunu azmaq, korluq, karlıq, cahil-

lik bizə mövcud görünsə də, həqiqətdə, heç bir varlığa malik deyildir”.

Başqa bir yerdə O buyurur: “Yaradılmışlar aləmində şər yoxdur: hər şey – xeyirdir. Hətta müəyyən insanlarda anadangəlmə bəzi keyfiyyətlər və xüsusiyyətlər məzəmmətə layiq görünsələr də, əslində belə deyildir. Məsələn, dünyaya gəldiyi ilk gündən başlayaraq uşaq əmizdirilərkən onda acgözlük, qəzəb, kin əlamətləri müşahidə edilir. Elə təəssürat yaranır ki, həm xeyir, həm də şər insanın təbiətində anadangəlmədir, lakin bu mövcudatdakı və təbiətdəki mütləq xeyirə ziddir.

Cavab belədir ki, acgözlük, yəni mümkün qədər çox şey əldə etməyə çalışmaq, əgər yerində özünü göstərirsə, o, tərifəlayiq keyfiyyətdir. Məsələn, əgər insan elmləri öyrənməyə və biliklərə yiyələnməyə, yaxud mərhəmətli, alicənab və ədalətli olmağa çalışırsa – bu, fövqəladə surətdə tərifəlayiqdir. Əgər o, hiddət və qəzəbini vəhşi heyvana bənzəyən qaniçən zülmkarlara qarşı yönəldərsə, onda bu da tərifəlayiqdir; lakin, əgər o, bu keyfiyyətləri yerində işlətmirsə, onda bu, məzəmmətə layiqdir.

Eləcə də bunlar insan həyatının əsasını təşkil edən bütün anadangəlmə keyfiyyətlərə aiddir: əgər bu keyfiyyətlər lazım olmayan istiqamətlərə yönəldilərsə, bu zaman onlar tənəyə layiq keyfiyyətlərə çevrilərlər. Buna görə, aydındır ki, məxluqat özlüyündə tam xeyirdən ibarətdir” (Əbdül-Bəha, Bəzi suallara cavablar).

Şər həmişə həyatda xeyirin yoxluğu deməkdir. Əgər insanın rəzilliyə meylləri həddindən artıq inkişaf etmişdirsə, onda çarə bu rəzil keyfiyyətlərin kökünün kəsilməsində deyil, əksinə, ondadır ki, insan təbiətinin ali keyfiyyətləri inkişaf etdirilərək, lazımi tarazlıq bərpa olunsun. İsa Peyğəmbər buyuyur: “Sən Ona bütün bəşər üzərində səlahiyyət verdin ki, Ona verdiyin şəxslərin hamısına əbədi həyat versin. “ *(İncil, Yəhya, 17:2).*

Bizim hamımızın ehtiyac duyduğumuz həyat budur – həyatdan da artıq olan əsl və həqiqi həyat. Həzrət Bəhaullahın Missiyası da İsanınkı kimidir. "İndi – O deyir, – Bu qul dünyanı canlandırmaq üçün gəlib" (Həzrət Bəhaullah, Rəis Lövhü). Və O, Öz ardıcıllarına müraciət edərək buyurur: "Mənim arxamca onun üçün gəlin ki, Biz sizdən bəşəriyyəti canlandıranlar yaradaq" *(Həzrət Bəhaullah, Roma Papasına məktub).*

## XII FƏSİL

## DİN VƏ ELM

*“Məhəmməd Peyğəmbərin kürəkəni Həzrət Əli buyurub: “Elmə uyğun gələn bütün nə varsa, həmçinin dinə də uyğundur. İdraka uyğun gəlməyən şeyi din qəbul etməməlidir. Din və elm əl-ələ yanaşı addımlayırlar. Elmə qarşı çıxan hər hansı din – cəhalətdir.”*

***Həzrət Əbdül-Bəha, Paris söhbətləri***

### FİKİR AYRILIĞI SƏHVLƏRDƏN YARANIR

Həzrət Bəhaullah Təliminin əsas prinsiplərindən biri də budur ki, həqiqi elm və həqiqi din öz aralarında razılığa gəlməlidir. Həqiqət birdir və hər hansı bir münaqişə həqiqətdən deyil, səhvlərdən yaranır. Bununla belə, nəyi elm və nəyi isə din adlandırmaq məsələsi ətrafında bütün keçən əsrlər boyu amansız mübahisələr baş vermişdir.

Lakin bu çəkişmələrə tam həqiqət işığında nəzər salsaq, həmişə belə qənaətə gələrik ki, onlar nadanlığın, cə-

halətin, təəssübkeşliyin, şöhrətpərəstliyin, tamahkarlığın, əqli məhdudiyyətin, dözümsüzlüyün, tərsliyin və s. ucbatından əmələ gəlmiş, yəni, həm dinin və həm də elmin yeganə, həqiqi ruhuna yad amillərdən yaranmışdır.

Heksli[49] deyir: "Filosofların böyük əsərləri və fikirləri onların şəxsi intellektinin bəhrəsi olmaqdan daha çox, onların intellektini istiqamətləndirən yüksək dini ruhlarının nəticəsidir. Həqiqət onlara məntiqi mühakimələr sayəsində deyil, daha çox onların dözümü, məhəbbəti, sədaqəti, fədakarlığı sayəsində açıqlanır. Riyaziyyatçı Bul təsdiq edir ki, həndəsi induksiyalar[50] öz mahiyyəti etibarilə məhdud insan ağlının sonlu kəmiyyətləri işıqlandırmaq üçün Sonsuz Zəkaya duaetmə prosesidir".

Dahi Peyğəmbərlər və elmin baniləri heç zaman bir-birilərini inkar etməmişlər, bu dahi dünya müəllimlərinin ləyaqətsiz ardıcılları isə onların təlimlərinin ruhunu deyil, hərfi mənasını əldə əsas tutaraq, sonrakı Peyğəmbərləri təqib etmiş və tərəqqinin qatı düşmənlərinə çevrilmişlər. Onlar Peyğəmbərlərin təlimlərindən bəzilərinə xüsusi əhəmiyyət verərək onları məhdud ağılları ilə şərh etmiş və öz izahlarını yeganə düzgün hesab etmişlər.

Allah Öz tükənməz səxavəti sayəsində başqa bir yerə daha parlaq işıq salanda və bu ilham işığı yeni daşıyıcının əlində əvvəlkindən daha gur şəfəq saçanda, onlar yeni təlimin işığını alqışlamaq və yeni dirçəlişlə əlaqədar Səmavi Ataya təşəkkürlə təzim etmək əvəzinə, təşvişə düşür və qəzəblənirlər.

Bu yeni işıq onların düşüncələrinə uyğun gəlmədiyinə, ümumi qəbul edilmiş çalarlara malik olmadığına və gü-

.............................................................

49 Heksli Tomas Henri (1825-1895) – ingilis alimi, bioloq, Ç. Darvinin dostu.
50 Xüsusi mülahizələrdən ümumi nəticə çıxarmaq üsulu.

man edilən yerdən şəfəq saçmadığına görə, həmin şəxslərin fikrincə nəyin hesabına olursa olsun söndürülməlidir ki, insanları yolundan azdırmasın və onları küfr yoluna istiqamətləndirməsin. Peyğəmbərlərin yeni və daha kamil həqiqətinə qarşı çıxan və özlərinin həqiqət saydıqlarını qoruyan düşmənlərinin əksəriyyəti məhz bu qrupa mənsub olanlar, yəni korları aparan korlar olmuşlar.

Daha aşağı qruplara mənsub olan başqaları isə öz xudbin maraqları ucbatından həqiqətə qarşı mübarizə aparır və ya öz mənəvi keylikləri və ətalətlərinə görə tərəqqiyə aparan yola sədd çəkirlər.

## PEYĞƏMBƏRLƏRİN TƏQİB EDİLMƏSİ

Dahi Peyğəmbərlər zühur etdikləri zaman həmişə insanlar tərəfindən təqib edilmişlər. Onlar və onların ilk ardıcılları təqib edənlər tərəfindən hər cür təhqirlərə və təzyiqlərə məruz qalsalar da, Allah yolunda öz varlıqlarını və canlarını qurban vermişlər. Hətta bizim dövrümüzdə də vəziyyət dəyişməmişdir. 1844-cü ildən başlayaraq İranda Həzrət Babın və Həzrət Bəhaullahın minlərlə ardıcılları öz dini əqidələrinə görə əzablı ölümə məruz qalmış və onların çox hissəsi həbsxanalara və sürgünlərə göndərilmiş, səfalət və zəlalət içində yaşamışlar. Böyük dinlərdən olan bu sonuncu din əvvəlki dinlərdən daha çox qanla yuyulmuş və onun ardıcıllarının şəhid edilməsi son dövrlərədək davam etmişdir.

Elmin yenilikçiləri ilə də eyni hadisə baş vermişdir. Belə ki, Cordano Bruno bir sıra ideyaları ilə yanaşı, Yerin Günəş ətrafında fırlanması fikrini iddia etdiyinə görə 1600-cü ildə bidətçi kimi tonqalda yandırıldı. Bir neçə ildən sonra kamil filosof zirvəsinə yüksəlmiş Qalileo Qali-

ley həmin cəzaya məruz qalmamaq üçün diz çökmüş halda eyni nəzəriyyədən imtina etmək məcburiyyətində qaldı.

Sonralar təkamül nəzəriyyəsinin ardıcılları və eləcə də yeni geologiyanın pionerləri dünyanın təxminən altı min il bundan əvvəl altı gün ərzində yaranması haqqında Tövrat Təlimini şübhə altına almağa cəsarət etdikləri üçün amansızcasına təqib olunmuşlar. Yeni elmi həqiqətlərə qarşı müxalifət təkcə kilsə tərəfindən deyildi, dindəki ortodoksallar kimi, elmdəki "ortdoksallar" da hər bir yeniliyə və tərəqqiyə qarşı qısqanclıqla müqavimət göstərirdilər.

Xristofor Kolumb dövrünün bədnam alimləri tərəfindən həqarətlə məsxərəyə qoyuldu, belə ki, onlar özlərindən razı halda israr edirdilər ki, yer kürəsinin əks tərəfinə enən gəmilər antipodlaradək gedib çata bilsələr də, onlar heç vəchlə geri qalxa bilməzlər. Elektrik təliminin banilərindən biri Qalvani[51] də alim həmkarları tərəfində məsxərəyə qoyuldu və "qurbağaların rəqs müəllimi" adlandırıldı.

Qan dövranını kəşf edən Harvey[52], öz həmkarları tərəfindən gülüş hədəfinə çevrilmiş və "bidətçi" kəşfinə görə professor kafedrasından qovulmuşdu. Stivenson lokomotivi ixtira edəndə, avropalı riyaziyyatçılar bu kəşfi ciddi surətdə öyrənmək əvəzinə, illərlə özlərindən razı halda sübut edirdilər ki, lokomotiv heç zaman hamar relslər üzərində ağırlığı çəkib apara bilməz, çünki təkərlər sürüşəcək və qatar yerindən tərpənə bilməyəcəkdir.

Bunlara bənzər hallara həm qədim, həm də yeni tarixdən və hətta bizim dövrümüzdən saysız-hesabsız başqa

..............................................................

51 Qalvani Luici-Aloizi (1737-1798) – İtalyan anatomu və fizioloqu. Elektrofiziologiya elminin banisi.

52 Harvey Uilyam (1578-1657) – İngilis həkimi, fizioloqu və embrioloqu, qandövranı nəzəriyyəsinin və həmçinin bütün müasir Fiziologiya və embriologiya elminin banisi.

misallar da gətirmək olar. Esperanto dilini kəşf edən doktor Zamenqof da dəyərli beynəlxalq dil yaratdığına görə Kolumb, Qalvani, Harvey və Stivenson kimi məsxərə, nifrət obyektinə çevrilmiş və səfeh iddialara qarşı mübarizə aparmaq məcburiyyətində qalmışdır. Hətta esperanto dili də bu yaxınlarda, yəni 1887-ci ildə dünyaya təklif edilməsinə baxmayaraq, özünə məxsus qurbanlar vermişdir.

## BARIŞIĞIN SÜBHÜ

Təxminən son yarım əsrdə zamanın ruhunda dərin dəyişiklik baş vermiş, Həqiqət İşığının şəfəqləri fonunda sonuncu yüzilliyin mübahisələri anlaşılmaz, qəribə görünmüş və əhəmiyyətini itirmişdir.

Haradadır dini yer üzündən silməklə hədələyən lovğa materialistlər və ehkamçı ateistlər? Haradadır onların irəli sürdüyü ehkamları inkar edən, bütün insanları Cəhənnəm oduyla və lənət əzabıyla qorxudan özündən razı moizəçilər?

Onların qaldırdıqları hay-küylərin əks-sədası hələ də gəlib bizə çata bilər, lakin onların ömrü sürətlə sona yetməkdə və təlimləri nüfuzdan düşməkdədir. Biz indi görə bilirik ki, ətrafında ən amansız mübahisələrin aparıldığı təlimlərin nə həqiqi çəkisi, nə də həqiqi dini mahiyyəti olmuşdur. Müasir psixoloji tədqiqatlar əsasında hansı alim israr edə bilər ki, "qara ciyər öd ifraz etdiyi kimi, beyin də eləcə fikir ifraz edir?" Yaxud "bədənin məhv olması hökmən ruhun məhv olması ilə nəticələnir?!".

Biz indi bilirik ki, fikrin həqiqətən azad olması üçün o, yalnız maddi aləmlə məhdudlaşdırılmamalı, psixoloji və ruhani həyatın yüksək fəzalarına yüksəlməlidir. Hal-hazırda bizim təbiət haqqında bütün mövcud biliklərimiz hələ aşkar edəcəyimiz kəşflərlə müqayisədə dəryada damcıdan başqa bir şey deyildir.

Buna görə də, biz möcüzələrin mümkünlüyünü təbiət qüvvələrinin pozulması mənasında deyil, bir vaxtlar əcdadlarımıza elektrik və rentgen şüaları məlum olmadığı kimi hələ bizə məlum olmayan aşkar qüvvələrin fəaliyyətinin təzahürü kimi qəbul edirik.

Digər tərəfdən, indi bizim aparıcı din müəllimlərimizdən kim hələ də iddia edər ki, ruhun xilas olunması üçün dünyanın guya altı gün ərizində yaradılmasına, yaxud Misirdə tüğyan edən taun xəstəliyinin "Çıxış" kitabında verilmiş təsvirinin hərfən düzgün olmasına, yaxud Yeşua ibn Nuna Öz düşmənlərini təqib etmək imkanı vermək məqsədilə Günəşin göydə dayanmasına (yəni, yer kürəsinin öz oxu ətrafında hərəkətinin dayanmasına), yaxud Müqəddəs Afanasinin dini Təlimindən imtina edən şəxsin əbədi ölümə məhkum olmasına hökmən inanmaq lazımdır?

Buna bənzər inamlar belə formada hələ də təkrarlana bilər, lakin kim onları hərfi mənada və danışıqsız qəbul edər? İnsanların qəlbləri və ağılları üzərində onların hökmranlığı sona çatmışdır və yaxud sürətlə sona çatmaq üzrədir. Din aləmi bu cür fikirlərin, inamların və ehkamların məhv edilməsinə şərait yaradan və həqiqətin azad inkişafına təkan verən elm adamlarına minnətdar olmalıdır.

Lakin elm aləmi əsl müqəddəslərə və mistiklərə daha çox minnətdar olmalıdır: onların həm tərəfdarlarının, həm də əleyhdarlarının yekdilliklə bildirdiklərinə görə, onlar ruhani idrak yolu ilə əldə etdikləri həyat əhəmiyyətli həqiqətlərdən möhkəm yapışaraq dinsiz dünyaya nümayiş etdirmişlər ki, həyat öz mahiyyətinə görə yemək qayğısına qalmaqdan daha mühüm məna daşıyır və gözəgörünməz aləm bizim gözümüzə görünən aləmdən xeyli böyükdür.

Bu alimlər və müqəddəslər doğan günəşin ilk şəfəqlərini tutan və onları özlərindən aşağıda yerləşən dünyada əks etdirən dağ zirvələrinə bənzəmişlər, lakin indi günəş artıq doğmuş, onun şəfəqləri bütün dünyanı işıqlandırmış-

dır. Həzrət Bəhaullahın Təlimində biz həm ürəkləri, həm də ağılları qane edən, dini və elmi tam razılığa gətirən həqiqətin parlaq təzahürünü görürük.

## HƏQİQƏT AXTARIŞINDA

Həzrət Bəhaullahın Təlimində həqiqətin dərk edilməsinə aparan yollar din ilə elmin tam harmoniyada olduğunu təsdiqləyir. Həqiqətin maneəsiz tədqiq edilməsi imkanına malik olmaq üçün insan hər cür xurafatdan azad olmalıdır.

Həzrət Əbdül-Bəha buyurur:

"Həqiqəti tapmaq üçün biz özümüzü xurafatdan və səthi, köhnəlmiş anlayışlardan təmizləməliyik; aydın, fərasətli ağıla malik olmalıyıq. Əgər bizim varlığımızın piyaləsi özünüsevərliklə doludursa, onda orada həyat cövhəri üçün yer qalmayacaqdır. Özümüzü haqlı, qalanları isə yolunu azmış hesab etməyimiz xalqların birliyinə aparan yolda ən böyük maneədir. Əgər biz həqiqətə nail olmaq istəyiriksə, onda bu birlik ən əhəmiyyətli məqamdır, çünki həqiqət birdir..."

"Heç bir həqiqət digər həqiqətə zidd ola bilməz. Hansı çıraqdan saçmasından asılı olmayaraq, işıq gözəldir; hansı bağçada açmasından asılı olmayaraq, qızılgül gözəldir; istər Şərqdən olsun, istərsə də Qərbdən, haradan parlamasına baxmayaraq, ulduz nurludur. Xurafatdan azad olun və onda siz hansı üfüqdən boylanmasından asılı olmayaraq, Həqiqət Günəşini sevəcəksiniz. Bu zaman başa düşəcəksiniz ki, İsa Məsihdə şəfəq saçan İlahi Nur, Musada və Buddada da şəfəq saçmışdır. Həqiqəti axtarmaq elə budur...

Bu həmçinin o deməkdir ki, biz həqiqətə aparan yolu kəsən əvvəllər öyrəndiyimiz hər şeydən imtina etməliyik. Əgər lazım gələrsə, biz yenidən tərbiyə olunmaqdan qorxmamalıyıq. Hər hansı bir dinə və ya şəxsiyyətə olan

məhəbbətin bizim gözümüzü kor etməsinə imkan verməməliyik, qoymamalıyıq ki, mövhumatın buxovlorı bizim əl-qolumuzu bağlasın. Biz bütün bu zəncirləri öz üzərimizdən atıb həqiqəti sərbəst ağılla axtardığımız zaman öz məqsədimizə çata bilərik" *(Əbdül-Bəha, Paris söhbətləri, s.120).*

## HƏQİQİ AQNOSTİSİZM[53]

Bəhai Təlimi Allahın Mahiyyətinin insan idrakından yüksəkdə durması barədə elm və fəlsəfənin fikri ilə razılaşır. Böyük İlkin Səbəbin Mahiyyətinin dərkedilməzliyini Tomas Heksli və Herbert Spenser təkidlə israr etdikləri kimi, Həzrət Bəhaullah da öyrədir ki, "Allah hər şeyi biləndir, lakin Onu dərk etmək mümkünsüzdür".

Allahın Mahiyyətinin dərk edilməsi "yolu bağlı və keçilməzdir"; axı məhdud qeyri-məhdudu necə dərk edə bilər, damcı dəryanı necə əhatələyə bilər və yaxud günəş şüasında dolaşan toz zərrəsi kainatı necə ağuşuna ala bilər? Lakin bütün kainatın özü Allahın mövcud olmasının bariz ifadəsidir. Hər damcı suda dəryalarca bilik gizlənmişdir və hər toz zərrəsi özündə ən dərrakəli alimin ağlının dərk etmədiyi dünyalar qədər məna daşıyır.

Materiyanın mahiyyətinə dair öz tədqiqatlarını davam etdirən fiziklər kütlədən molekula, molekuldan atoma, atomdan elektron və efirə qədər gəlib çıxmışlar, lakin hər addımda tədqiqatın çətinliyi o dərəcəyə çatır ki, ən dərin zəka daha dərinliyə nüfuz edə bilmir və yalnız əbədi olaraq anlaşılmaz sirlərə bürünmüş naməlum sonsuzluq qarşısında səssiz pərəstişlə baş əyir.

.............................................................

53 Obyektiv aləmin dərk edilə bilməsini inkar edən fəlsəfi cərəyan.

“Çiçək, mən səni divarın çatından qoparmışam, sənin kökünü və bütünlüklə səni öz əlimdə tutmuşam. Lakin əgər mən dərk edə bilsəydim ki, sən, sənin kökün və başdan-başa sənin özün nəsən, onda mən anlaya bilərdim ki, insan nədir və Allah nədir” *(Tennison).*

Əgər divar çatındakı gül və ya materiyadakı kiçicik atom ən dərin zəkalar üçün sirr olaraq qalırsa, onda insan kainatı necə dərk edə bilər? O, bütün hadisələrin sonsuz səbəbiyyətini necə aydınlaşdırıb təsvir edə bilər? Ona görə də təbiət və ya Allahın Mahiyyəti barədə bütün teoloji düşüncələr boş və yararsız ideyalar kimi kənara tullanmalıdır.

## ALLAHIN TANINMASI

Allahın Mahiyyəti dərkedilməz olmasına baxmayaraq, Onun Mərhəmətinin təzahürləri hər yerdə açıqcasına görünür. İlkin Səbəb dərkedilməz olsa da, Onun təsiri bizim bütün fəaliyyətimizdə özünü göstərir. Rəsm əsərinin öyrənilməsi rəssamın özünü anlamaq imkanı verdiyi kimi, eləcə də kainatı onun hər hansı bir aspektində öyrənmək, yəni təbiəti və ya insanı, gözəgörünən və gözəgörünməyən məxluqatı öyrənmək Allahın Yaradıcılığının dərk edilməsinə gətirib çıxarır və İlahi həqiqət axtarıcısına Onun Əzəməti barədə həqiqi təsəvvür verir.

“Göylər Allahın əzəmətini bəyan edir, göy qübbəsi əllərinin işini elan edir. Hər gün ertəsi günə nəql edir, hər gecə o biri gecəyə bilik verir.” *(Zəbur, 19:1-2).*

## İLAHİ MƏZHƏRLƏR

Günəş işığına qoyulan maddi əşyalar günəş işığını az və ya çox dərəcədə əks etdirdiyi kimi, bütün şeylər də

Allahın Səxavəti haqqında az və ya çox dərəcədə şəhadət verir. His qalağı günəş işığını az, daş ondan çox, təbaşir parçası isə daha çox əks etdirir; lakin bütün bu inikaslarda, biz parlaq günəşin nə formasının, nə də rənginin izini görmürük. Yalnız mükəmməl güzgü günəşin əsl formasını və rəngini əks etdirir, belə ki, biz güzgüyə baxarkən sanki günəşin özünü görürük.

Beləliklə, bütün əşyalar bizə Allahdan xəbər verir. Allahın əlamətlərindən daş bizə az danışa bilər, çiçək ondan çox, xüsusi hissiyyata, instinktə və hərəkət qabiliyətinə malik heyvanlar isə, daha çox məlumat verə bilər. İnsan hətta öz inkişafının ən aşağı pilləsində olsa belə, onda ecazkar Yaradıcıdan söz açan möcüzəli xüsusiyyətlərin izlərini tapa bilirik.

Şairlər, müqəddəslər və dahilərdə biz İlahi xüsusiyyətlərin təzahürlərinə daha çox rast gəlirik. Dinlərin baniləri olan böyük Peyğəmbərlərə gəldikdə isə, onlar elə mükəmməl güzgülərdir ki, Allahın Məhəbbəti və Müdrikliyi onların vasitəsilə bütün bəşəriyyətə əks etdirilir. Qəlbləri xudbinlik və xurafatla dolu olan insanlar üzü tozla örtülüb tutqunlaşmış güzgüyə bənzəyirlər, Peyğəmbərlər isə sanki Allahın İradəsini bütünlüklə əks etdirən tamamilə təmiz və qüsursuz güzgülərdir.

Buna görə də onlar bəşəriyyətin ən böyük tərbiyəçiləridirlər. Onlarda təzahür edən İlahi Təlim və Müqəddəs Ruhun Qüdrəti bəşəriyyətin tərəqqisinə səbəb olmuş və olacaqdır, belə ki, Allah-taala Öz Mərhəmətini insanlara, onların öz içərisindən seçilmiş şəxslər vasitəsilə göndərir.

Daha yüksək ruhani pillədə dayanan hər bir insan özündən aşağı pillədə olana köməklik göstərir; ən yüksək məqamda olan şəxsiyyətlərə gəldikdə isə, onlar bütün bəşəriyyətə kömək edirlər. Bu ona bənzəyir ki, əgər insanlar arasında hər hansı bir cəzbetmə əlaqəsi olsaydı, onlardan biri öz yoldaşlarından yuxarı qalxan zaman on-

ların arasındakı əlaqə telləri gərilmiş olardı. Dostları onu geri çəkməyə çalışarkən, o da yoldaşlarını eyni qüvvə ilə öz arxasınca çəkməyə səy göstərəcəkdir.

O nə qədər çox yuxarı qalxarsa, onu geriyə çəkən dünyanın ağırlığını bir o qədər çox hiss edəcəkdir. Lakin, ondan yuxarıda duran, sayca az olan insanların vasitəsilə nail olduğu İlahiköməkdən o, daha çox asılı vəziyyətə düşəcəkdir. Hamıdan yüksəkdə isə dahi Peyğəmbərlər və xilaskarlar, İlahi Təzahürlər, yəni hər biri öz dövründə yoldaşlarının və ya özlərinə bərabər şəxslərin köməyi olmadan, yalnız Allahın yardımı ilə bütün dünyanın ağırlığını çəkmiş kamil insanlar dayanırlar.

İsa Peyğəmbər barəsində deyilmiş: "Bizim günahlarımızın ağırlığı Ona düşmüşdür" kəlamını bütün Peyğəmbərlərə şamil etmək olar.

Onların hər biri Öz ardıcılları üçün "Yol, həqiqət və həyat" olmuşdur. Onların hər biri Allah Mərhəmətini arzulayan hər bir qəlbə onu çatdıran yol olmuşdur. Bəşəriyyətin yüksəlişinə dair Allahın ən böyük planında Onların hər biri Öz missiyasını yerinə yetirmişdir.

## YARADILIŞ

Həzrət Bəhaullah öyrədir ki, zaman baxımından kainatın əvvəli yoxdur. Kainat – Böyük İlkin Səbəbin fasiləsiz şəkildə emanasiyasıdır (nəşət etməsidir). Xaliqin (Yaradıcının) həmişə xilqəti (yaratdığı) olmuş və həmişə də olacaqdır. Dünyalar və sistemlər yaranır və dağılır, lakin kainat bütövlükdə əbədi olaraq qalır. Hər bir birləşmə müəyyən zamandan sonra dağılır, lakin onun tərkib elementləri qalır. Dünyanın yaradılması, habelə su çiçəyinin, yaxud insan bədəninin yaradılması "heç nədən nə isə yaratmaq" deyil; bu, əvvəllər səpələnmiş, lakin indi vahid

bütöv kimi birləşmiş, yaxud əvvəllər gizli və gözə-görünməz olan, indi isə gözə-görünən formaya düşmüş elementlərin birləşməsidir.

Zaman keçdikcə elementlər yenə də parçalanaraq ətrafa səpələnəcək, formaca yox olacaqlar, lakin əslində heç nə itmir və azalmır; köhnə və parçalanıb dağılmış birləşmələrdən həmişə yeni birləşmələr və yeni formalar yaranır. Həzrət Bəhaullah dünyanın yaranma tarixinin altı min il deyil, milyon və milyard illər olduğunu israr edən alimləri dəstəkləyir. Təkamül nəzəriyyəsi yaradıcı qüvvəni inkar etmir, o, ancaq onun təzahür tərzini təsvir etməyə çalışır.

Dünyanın yaradılması haqqında yəhudilərin dini kitablarındakı bayağılaşdırılmış və qətiyyətli iddialarla müqayisədə, astronom, geoloq, bioloq və fiziklər tərəfindən, düzgün qiymətləndirilmiş, maddi dünyanın ecazkar tarixinin gözlərimiz qarşısında tədricən canlandırılan mənzərəsi, bizdə daha çox pərəstiş və ehtiram oyatmaq qabiliyyətinə malikdir.

Qeyd etməliyik ki, Yaradılış Kitabındakı (Tövrat) qədim hekayətlər bir sıra cəsarətli rəmzlər vasitəsilə bu rəvayətlərin əsl ruhani məğzini göstərir. Bu, ona bənzəyir ki, sənətkar-rəssam fırçanın bir neçə hərəkəti və cizgiləri ilə tabloya güclü ifadə qüdrəti verir, amma tablonun bütün detallarına çox böyük ciddiyyətlə yanaşan ən çalışqan rəssam buna nail ola bilmir.

Əgər maddi xırdalıqlar bizi kor edirsə və biz bütövün ruhani mənasını görə bilmiriksə, bu zaman onsuz keçinmək daha yaxşı olardı, lakin bir halda ki, biz bütün sistemin mahiyyətindən möhkəm yapışmışıq, bu zaman detalları bilmək bizim təsəvvürlərimizə ecazkar zənginlik və parlaqlıq verir və bizim qarşımızda bəsit cizgilər əvəzinə gözəl mənzərə yaranır.

Həzrət Əbdül-Bəha buyurur:

“Bilin ki, ən çətin dərk olunan ruhani həqiqətlərdən

biri budur ki, bu mövcudat aləminin, yəni bu sonsuz kainatın əvvəli yoxdur...

Bilin ki, şagirdsiz müəllim təsəvvür edilə bilməz; padşahsız da təbəə olmaz; tələbəsiz ustad təyin oluna bilməz; Xaliq də xilqətsiz mümkün deyil; təchizatçı təchiz edilən olmadan təsəvvür edilə bilməz; zira bütün ilahi adlar və sifətlər varlıqların mövcud olmasını tələb edir. Əgər biz heç bir varlığın mövcud olmadığı zamanı təsəvvür etsək, onda bu təsəvvürlə Allahın İlahiliyini inkar etmək olardı. Bundan başqa, mütləq qeyri-mövcudluq mövcudluğa çevrilə bilməz. Əgər varlıqlar mütləq yox idilərsə, onda mövcudluq üzə çıxa bilməzdi. Ona görə də, Birlik Cövhəri (yəni Allahın mövcudluğu) daimi və əbədidir, yəni bunun nə əvvəli var, nə də sonu. Bu yəqindir ki, bu varlıq aləminin, bu sonsuz kainatın nə əvvəli var, nə də sonu.

Bəli, bu mümkündür ki, kainatın bir hissəsi, məsələn, planetlərdən biri, yarana bilər və ya dağıla bilər, ancaq başqa sonsuz sayda planetlər mövcuddur ki, kainat nizamdan çıxa və ya dağıla bilməz. Əksinə, mövcudluq əbədi və daimidir. Necə ki, hər bir planetin başlanğıcı var, təbii olaraq onun sonu da vardır, çünki hər bir təşkil olunmuş şey, qrup şəklində və ya tək olsun, parçalanmağa məhkumdur. Yeganə fərq ondadır ki, bəzisi tez dağılır, digəri daha yavaş, ancaq bu mümkün deyil ki, təşkil olunmuş şey nəhayətdə dağılmasın." *(Əbdül-Bəha, Bəzi suallara cavablar).*

## İNSANIN TƏKAMÜLÜ

Həzrət Bəhaullah, insanın yaranması tarixinin ən qədim əsrlərin dərinliyindən başlanmasını və milyon illərlə hesablanmasını, bu müddət ərzində insan nəslinin inkişaf

etməsini iddia edən bioloqları dəstəkləyir. Ən kiçik və sadə formadan başlayaraq saysız-hesabsız nəsillər silsiləsi ərzində insan orqanizmi getdikcə mürəkkəbləşmiş və daha da təkmilləşərək inkişaf etmiş və bu günkü müasir insan səviyyəsinə gəlib çıxmışdır.

Ayrıca götürülmüş hər bir insan orqanizmi kiçik, həliməbənzər hüceyrədən başlayaraq ardıcıllıqla bu inkişaf pillələrindən keçib, tam inkişaf etmiş insan səviyyəsinə çatmışdır. Əgər bu, ayrıca götürülmüş fərdə münasibətdə doğrudursa, onda biz bütün insan nəslinin belə inkişafdan yarandığını etiraf etməyi nə üçün həqarət hesab etməliyik? Bu müddəanın qəbul edilməsi insanın meymundan əmələ gəlməsini qəbul etməkdən köklü surətdə fərqlənir.

İnsan rüşeymi özünün embrion vəziyyətinin müəyyən dövrlərində qəlsəməli və quyruqlu balığa bənzəyə bilər, lakin bu, balıq deyildir. Bu, insan rüşeymidir. Beləcə də insan nəsli[54] özünün uzun sürən ayrı-ayrı inkişaf dövrlərində zahirən müxtəlif heyvan növlərinə bənzəyə bilərdi, lakin buna baxmayaraq o, bizim indi tanıdığımız insan səviyyəsinədək inkişaf edə biləcək, anlaşılmaz, gizli qüvvəyə malik olan xüsusi növ idi.

Həzrət Əbdül-Bəha buyurur:

“Tamamilə aydındır ki, bizim yer kürəmiz indiki vəziyyətinə birdəfəyə düşməyib, o, hal-hazırkı kamilliyinə gəlib çatanadək tədricən müxtəlif mərhələlərdən keçmişdir...

İnsan öz mənşəyinin başlanğıcında yer bətnində, ana bətnindəki rüşeym kimi, yavaş-yavaş böyümüş və inkişaf etmiş, bir formadan başqa formaya keçərək, indiki gözəl-

54 “İnsan nəsli” sözü burada, xarici görkəminə baxmayaraq insanlarla heyvanlar arasında həmişə mövcud olan fərqləri qeyd etmək üçün işlədilir. Onlar bioloji baxımdan hərfi mə’nada başa düşülməməlidir.

liyinə və kamilliyinə, indiki quruluşuna və qüdrətinə gəlib çatmışdır.

Ehtimal ki, əvvəllər o, belə gözəl, qamətli və zərif olmamış və yalnız tədricən bu surətə, bu formaya, bu gözəlliyə və bu qamətə yiyələnmişdir... İnsanın yer üzündə mövcud olduğu ən ilkin vaxtlardan, onun mənşəyinin müasir vəziyyətinə, quruluşuna və formasına qədər, şübhəsiz ki, uzun müddət lazım olmuşdur... Lakin öz mənşəyinin lap başlanğıcında insan xüsusi növ olmuşdur...

Əgər yox olmuş orqanların izlərinin, həqiqətən, insan bədənində hələ də mövcud olduğunu hətta etiraf etsək belə, bu heç də insan növünün dəyişkənliyini və bənzərsiz olmamasını sübut etmir, əksinə, yalnız insan orqanlarının, onun forma və xarici görünüşünün dəyişkənliyini və kamilləşməsini bildirir, o özü isə həmişə xüsusi növ, yəni heyvan deyil, insan olmuşdur" (Əbdül-Bəha, Bəzi suallara cavablar).

Adəm və Həvva hekayəsi barəsində Həzrət Əbdül-Bəha buyurur: "Əgər biz bu hekayəni camaatın anladığı hərfi mənada qəbul etsək, onda bu son dərəcədə qeyri-adi hekayədir. Ağıl onu nə anlaya, nə təsdiq edə, nə də təsəvvür edə bilər, çünki məsələnin belə qoyuluşu, bu cür təfərrüat, belə davranış və məzəmmət düşüncəli insana, xüsusilə də bu sonsuz Kainatı belə mükəmməl formada və bu ucsuz-bucaqsız dünyanı belə mütləq qanunauyğunluqla, belə ciddi nizamla və mükəmməlliklə yaradan Allah-taalaya xas deyildir.

Buna görə də qadağan olmuş ağacın meyvəsini yeyib Cənnətdən qovulan Adəm və Həvva haqqında hekayəni rəmzi mənada qəbul etmək lazımdır. İlahi sirləri özündə saxlayan bu hekayənin böyük mənası var və o, heyrətamiz şərhlərə malik ola bilər" (Əbdül-Bəha, Bəzi suallara cavablar).

# RUH VƏ BƏDƏN

Ruh və bədən, eləcə də cismani ölümdən sonrakı həyat haqqında Bəhai Təlimi psixoloji fəaliyyət sahəsində aparılan araşdırmaların nəticələri ilə tamamilə üst-üstə düşür. Bildiyimiz kimi, Bəhai Təliminə görə ölüm yeni doğuluşdan başqa bir şey deyildir, yəni ruhun bədən məhbəsindən çıxaraq daha geniş həyata daxil olması deməkdir və bu yeni həyatda inkişaf hüdudsuzdur.

Ən ciddi və tərəfsiz araşdırıcıların fikrincə, tədricən toplanmış xeyli elmi məlumat vardır ki, ölümdən sonrakı həyatın mövcudluğunu – maddi bədən yox olduqdan sonra şüurlu "ruh"un yaşaması və fəaliyyətini davam etməsinin doğruluğunu sübut etmək üçün kifayət edər.

Meyer psixoloji Tədqiqatlar Cəmiyyətinin araşdırmalarını ümumiləşdirən "İnsan şəxsiyyəti" əsərində yazır: "Müşahidələr, təcrübələr və onlar əsasında alınmış nəticələr bir çox tədqiqatçıları, o cümlədən məni belə qənaətə gətirmişdir ki, nəinki dünyada yaşamaqda olan insanların şüurları arasında, eləcə də onların şüurları və ya ruhları ilə ölülərin ruhları arasında bilavasitə və ya telepatik ünsiyyət mövcuddur. Bu kəşf, həmçinin vəhyin mahiyyətini bizə açıqlayır.

Biz qeyd etmişdik ki, çoxlu yalan, özünüaldatma, yanılmalar və xülyalar arasında həqiqi təzahürlər bizə Axirət dünyasından gəlib çatır...

Müşahidə etdiyimiz kimi, kəşflər və vəhylər əsasında dünyanı tərk etmiş ruhlara dair şərti olaraq bəzi müddəalar qəbul edilmişdir. Birincisi və başlıcası, mənim ən azı, bunu deməyə əsasım vardır ki, bu ruhlar idrak və məhəbbət baxımından sonsuz təkamül vəziyyətində olurlar. Onların məhəbbəti və yerə bağlılığı yox olmur, davam edir və üstəlik öz varlığını daha yüksək məhəbbət formasında davam etdirir, bu da öz ifadəsini, Allah qarşısında duada və ona itaət etməkdə tapır...

Ruhlar üçün şər sözsüz itaətdən qorxulu görünmür, çünki şər hər hansı bir qüdrətli gücün təcəssümü deyildir, əksinə, digər ruhlara yaxınlaşmağa maneçilik törədən şüursuzluğun xüsusi növüdür. Ali ruhlar pozulmuş ruhları belə yovuşmazlıq vəziyyətindən azad etməyə çalışırlar. Cəhənnəm atəşi ilə cəza verməyə ehtiyac yoxdur. İnsanın özünüdərki və özünün ruhlar cəmiyyətinə yaxınlığını və uzaqlığını dərk etməsi onun mükafatı, yaxud cəzasıdır. Belə ki, yalnız məhəbbət ruhları qoruyur və Axirət dünyasında onlara ölməzlik verir. Müqəddəs ruhların ünsiyyəti Əbədi həyatı nəinki zinətləndirir, həm də onu yaradır. Bununla yanaşı, telepatiya qanunlarından belə nəticəyə gəlmək olur ki, bu ünsiyyət bizim üçün həmişə dəyərlidir. Hətta bu dünyanı tərk etmiş ruhların məhəbbəti də bizim çağırışımıza cavab verir. Hətta indi aramızdan getmiş ruhları məhəbbətlə xatırlamaqla, biz bu ruhları yüksəliş yolunda himayə edir və onlara qüvvə veririk, axı məhəbbət öz-özlüyündə duadır..."

Mükəmməl elmi araşdırmalara əsaslanan baxışlarla Həzrət Bəhaullah Təlimi arasında mövcud oxşarlıqlar həqiqətən diqqətəlayiqdir.

## BƏŞƏRİYYƏTİN BİRLİYİ

"Siz hamınız bir ağacın meyvələri, bir budağın yarpaqları, bir bağçanın güllərisiniz". Bu, Həzrət Bəhaullahın ən səciyyəvi kəlamlarından biridir. Onun buna bənzər başqa bir kəlamında deyilir: " O kəs fəxr etməsin ki, vətənini sevir, fəxr etsin o kəs ki, dünyanı sevir."

Həzrət Bəhaullahın Təliminin başlıca təməli bütün bəşəriyyətin birliyi və bütün məxluqatın Allahda birliyi kimi mənalandırılan birlikdir. Burada yenə də din ilə elm arasındakı həqiqi harmoniya özünü açıqca göstərir. Elmdə

edilən hər bir kəşf getdikcə daha çox kainatın birliyini və onun ayrı-arı hissələrinin bir-birindən qarşılıqlı asılılığını büruzə verir. Astronomiya elmi fizika ilə, fizika elmi isə kimya ilə ayrılmaz surətdə bağlıdır; kimya elmi də öz növbəsində biologiya ilə əlaqədədir, biologiya isə psixologiya elmləri sahəsi ilə sıx surətdə bağlıdır və s.

Hər bir tədqiqat sahəsindəki yeni kəşf digər elmi sahələrə də yeni işıq saçır. Məsələn, fiziki aləmə dair elm göstərmişdir ki, kainatda olan hər bir maddi hissəcik digər hissəcikləri cəzb edir və onların bir-birilərindən nə qədər kiçik olmasından, yaxud bir-birindən nə qədər uzaqda yerləşməsindən asılı olmayaraq onlar bir-birilərinə təsir göstərirlər. Həmçinin psixologiya elmi də bildirir ki, kainatdakı hər bir ruh istənilən digər ruha öz təsirini göstərir.

Knyaz Kropotkin özünün "Qarşılıqlı yardım" kitabında aydın şəkildə göstərir ki, hətta inkişafın aşağı pilləsində olan heyvanlar arasında da, həyatı davam etdirmək üçün onların mütləq qarşılıqlı yardıma ehtiyacı var. İnsan cəmiyyətinə gəldikdə isə, onun sivilizasiyasını inkişaf etdirmək üçün qarşılıqlı düşmənçiliyi getdikcə daha geniş qarşılıqlı köməyə və əməkdaşlığa çevirmək lazımdır. "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün" – cəmiyyətin çiçəklənməsinə nail olmağın yeganə prinsipi budur.

## BİRLİK ERASI

İndiki dövrün bütün əlamətləri ona dəlalət edir ki, biz bəşər tarixinin yeni erasının başlanğıcındayıq. Hazırki dövrədək hələ inkişaf etməmiş bəşəriyyət öz köhnə yuvasından bərk-bərk yapışan qartal balası tək xudpəsəndlik və tamahkarlıq qayası üzərində möhkəm dayanmışdı. Onun öz qanadlarını işə salmaq səyləri, ilk kövrək cəhdlər idi. O hələ əldə olunmamış həyəcanlandırıcı şeylərə can atırdı.

Bəşəriyyət köhnə ehkam və ortodoksallıq buxovlarından getdikcə daha çox əziyyət çəkirdi. Lakin indi bu buxovlanma erası sona çatmışdır və bəşəriyyət iman və idrakın qanadlarında ən yüksək mənəvi məhəbbət və həqiqət səltənətinə ucala bilər. O əvvəllər – qanadlarının gücsüz və inkişaf etmədiyi vaxtlarda olduğu kimi daha yerə bağlı halda qalmayacaqdır. O öz arzuları ilə geniş sərbəstlik və ecazkar azadlıq səmasına qalxa bilər. Lakin inamlı və etibarlı uçuş üçün nəinki güclü qanadlar, eləcə də tam ahəngdarlıq və razılıq lazımdır. Bununla əlaqədar olaraq Həzrət Əbdül-Bəha buyurur:

"Bəşəriyyət təkcə bir qanadla uça bilməz. Əgər o təkcə din qanadı ilə uçmağa cəhd göstərərsə, mövhumat uçurumuna düşər, əgər o təkcə elm qanadı ilə uçmağa çalışarsa, onda öz uçuşunu materializmin dəhşətli bataqlığında bitirər" *(Əbdül-Bəha, Paris söhbətləri, s.132)*

Din ilə elm arasında tam harmoniyanın mövcudluğu bəşəriyyətin mükəmməl və ən yaxşı həyatı üçün zəruri şərtdir. Buna nail olunduqdan sonra bütün uşaqlara nəinki elm və incəsənət, eləcə də bütün bəşəriyyəti sevmək, təkamül prosesində və Peyğəmbərlərin təlimlərində təzahür edən Allah İradəsini qəbul etmək öyrədiləcəkdir. Onda və ancaq onda, İlahi Səltənət başlayacaq və Allahın İradəsi Yer üzündə bərqərar olaraq, Yer üzünü Öz mərhəmətli şəfəqləri ilə işıqlandıracaqdır.

Həzrət Əbdül-Bəha buyurur:

"Din xurafatdan, köhnəlmiş ənənələrdən və ağılsız ehkamlardan azad olduqdan sonra elm ilə öz razılaşmasını nümayiş etdirərsə, onda dünyada bütün müharibələri, münaqişələri, mübahisələri və çəkişmələri aradan qaldıran və bəşəriyyəti Allaha məhəbbətin gücü ilə birləşdirən ən böyük əlaqələndirici və təmizləyici qüvvə yaranar" *(Yenə orada, s.135).*

# XIII FƏSİL

# BƏHAİ DİNİNDƏ HƏYATA KEÇMİŞ KƏHANƏTLƏR

*"Bu Əzəmətli Adın (Bəhaullahın) zühuruna gəldikdə isə, O həmin Kəsdir ki, Allah Özünün bütün Müqəddəs Yazılarında və Kitablarında – Tövratda, İncildə və Quranda – Onun barəsində qabaqcadan xəbər vermişdir".*

***Həzrət Əbdül-Bəha***

## KƏHANƏTLƏRİN ŞƏRHİ

Kəhanətlərin şərhinin çətin olduğu hamıya məlumdur. Alimlər arasında bu qədər geniş fikir ayrılığı yaradan digər heç bir mövzu yoxdur. Burada elə bir təəccüblü şey də yoxdur, çünki Müqəddəs Yazıların özündə əksər kəhanətlər elə formada şərh olunub ki, onların yerinə yetməsi vaxtı çatmayınca insanlar, onları tam başa düşə bilmirdilər; və onlar yalnız təmiz qəlbləri ilə fərqlənənlər və hər cür mövhumatdan uzaq olanlar tərəfindən dərk edilirdi.

Belə ki, Daniel Peyğəmbərin yuxusunun sonunda Ona buyurulmuşdu: “Ancaq, sən ey Daniel, axır zamana qədər bu sözləri sirr saxla və bu kitabı möhürlə. Çox adam özünü ora-bura vuracaq və bilik artacaq... Mən bunu eşitdim, ancaq başa düşməyib soruşdum: «Ey ağam, bəs bunların nəticəsi necə olacaq?» O cavab verdi: «Get, ey Daniel. Çünki bu sözlər axır zamana qədər sirr olacaq və möhürlü qalacaq. *(Bibliya, Daniel Peyğəmbərin Kitabı, 12:4; 12:8-9)*.

Əgər Allah kəhanətləri müəyyən olunmuş vaxtadək möhürləyibsə və onların mənasını hətta onları bəyan edən Peyğəmbərlərə belə açmayıbsa, onda biz əmin olmalıyıq ki, Allahın qabaqcadan təyin etdiyi Elçidən başqa heç kəs bu möhürü açmaq və Peyğəmbərlərin rəvayətləri xəzinəsində gizlənən mənaları şərh etmək gücünə malik deyildir.

Kəhanət tarixinin diqqətlə öyrənilməsi, keçmiş dinlər dövründə və keçmiş əsrlərdə onların yanlış şərh edilməsi barəsində dərindən düşünülməsi, həmçinin peyğəmbərlərin özlərinin ciddi xəbərdarlıqları bizə bu kəlamların əsl mənası və onların yerinə yetməsi haqqında ilahiyyatçıların möhtəkircəsinə şərhlərinə daha ehtiyatla yanaşmağa əsas verir.

Digər tərəfdən nə vaxtsa hər hansı bir kəs peyğəmbərlik iddiası ilə zahir olarsa, biz onun iddialarına mövhumatdan uzaq, aydın və azad düşüncə ilə yanaşmalıyıq; əgər o yalançı peyğəmbərdirsə, tezliklə onun yalanının üstü açılacaq və bunun heç bir ziyanı olmayacaqdır; lakin gözlənilən vaxtda və gözlənilən qiyafədə zühur etmədiyi üçün Allah Elçisini düşüncəsizcəsinə qapıdan qovan adamın vay halına!

Həzrət Bəhaullahın həyatı və kəlamları şəhadət verir ki, O bütün Müqəddəs Kitablarda vəd olunan həmin Kəsdir və kəhanətlərin möhürünü açmaq, İlahi sirlərin “möhürlənmiş seçkin şərabını” süzmək hökmünə malikdir. Gəlin Onun şərhlərini eşitməyə və keçmiş Peyğəmbərlərin

bizə tanış olan, lakin çox zaman müəmmalı qalan sözlərinə bu şərhlərin işığında yenidən baxmağa tələsək.

## RƏBBİN GƏLİŞİ

Bütün Peyğəmbərlər tərəfindən əvvəlcədən xəbər verilən və onların ən şərəfli nəğmələrində tərənnüm edilən "Rəbbin son gündə gəlişi" indi nə deməkdir? Şübhəsiz, Allah-taala həmişə, hər yerdə və hər tərəfdə Özünün yaratdıqları ilə birlikdədir. "O bizə nəfəsimizdən, əllərimiz və ayaqlarımızdan da yaxındır".

Bəli, lakin insanlar hər yerdə mövcud olan və dərkedilməz Allahı nə görə, nə də eşidə bilirlər və nə vaxta qədər ki, Allah Özünü insan surətində büruzə verməyəcək və onlarla insan dilində danışmayacaq, insanlar da o vaxtadək Onun Varlığını kəşf edə bilməyəcəklər. Çünki Allah Öz Ali xüsusiyyətlərini göstərmək üçün həmişə insanı vasitə seçmişdir.

Peyğəməbərlərin hər biri Allahın insanlarla ünsiyyət saxlaması və onlarla danışması üçün vasitəçi olmuşdur. İsa Peyğəmbər belə vasitəçi olmuş və xristianlar düzgün olaraq Onu Allahın təzahürü kimi qəbul etmiş və Onun dilindən Allahın Səsini eşitmişlər.

Həzrət Bəhaullah buyurur ki, bütün Peyğəmbərlərin əvvəlcədən xəbər verdikləri Ordular Rəbbinin, Əbədiyyət Atasının, dünyanın Yaradıcısı və Xilaskarının gəlişinin "zamanın sonunda" baş verməsi o deməkdir ki, O, Nazaretli İsanın bədəninin heykəlində zühur etdiyi kimi, yenə də insan bədəninin heykəlində zühur edəcəkdir; fərq, yalnız ondadır ki, bu dəfə O, daha geniş və şərəfli Vəhydə zühur edəcəkdir. İsa və bütün əvvəlki Peyğəmbərlər ona görə gəlmişlər ki, insanların qəlblərini və düşüncələrini bu Vəhyi qəbul etmək üçün hazırlasınlar.

# MƏSİH HAQQINDA KƏHANƏTLƏR

Məsihin hökmranlığı haqqında vədin mənasını başa düşmədiklərinə görə yəhudilər İsa Peyğəmbəri inkar etdilər. Bununla əlaqədar olaraq Həzrət Əbdül-Bəha buyurur:

“Yəhudilər hələ də Məsihin gəlişini gözləyir, gecə-gündüz Allaha dua edirlər ki, Onun gəlişini tezləşdirsin. İsa Peyğəmbər gəldikdə isə, Onu mühakimə etdilər və əzablı ölümə məhkum edərək dedilər: “Bu bizim gözlədiyimiz kəs deyildir, çünki Məsih zühur edən zaman əlamətlər və möcüzələr sübut edəcəkdir ki, O, əsl Xilaskardır. Məsih naməlum şəhərdən polad qılıncla gələcəkdir. O, Davudun taxtında oturacaq və dəmir hökmdarlıq əsası ilə hakimlik edəcəkdir. O, Peyğəmbərlərin qanunlarını yerinə yetirəcək, Şərqi və Qərbi fəth edəcək və Allahın seçdiyi xalqı – yəhudiləri şöhrətləndirəcəkdir. O, Özü ilə Sülh Səltənəti gətirəcəkdir ki, orada hətta heyvanlar insanlardan daha qorxmayacaqlar. Qurd və quzu eyni bir bulaqdan su içəcək... və Allahın bütün canlı məxluqatı əmin-amanlıqda yaşayacaqdır...

Yəhudilər belə düşünür və belə deyirdilər, çünki onlar nə Müqəddəs Yazıları, nə də onlarda saxlanılan şərəfli həqiqətləri başa düşürdülər. Onlar hərfləri əzbər bilirdilər, lakin həyatverici sözün mahiyyətini tamamilə anlamırdılar.

İndi Məni dinləyin və Mən bu Müqəddəs Yazıların mənasını sizə açıqlayım. Həzrət İsa o zaman hamının tanıdığı Nazaretdən gəlməklə yanaşı, həm də Səmadan gəlmişdi. Cismən O, Məryəmdən doğulmuşdu, lakin Onun Ruhu Səmadan enmişdi. Onun gəzdirdiyi Qılınc – Onun xeyiri şərdən, həqiqəti yalandan, imanlını imansızdan və işığı qaranlıqdan ayıran dili idi.

Onun sözü həqiqətən kəsərli qılınc idi. Məsihin oturduğu taxt – Məsihin həmişə hökmranlıq edəcəyi əbədiyyət

taxtı – Səma taxtıdır, dünyəvi deyildir, çünki dünyəvi nə varsa, hamısı fanidir və Səmavi nə varsa, hamısı əbədidir. O, Musa Peyğəmbərin Qanunlarına əlavələr etdi, onların yeni şərhini verdi və Peyğəmbərlərin Qanununu yerinə yetirdi. Onun kəlamları Şərqi və Qərbi fəth etdi. Onun Səltənəti əbədidir.

İsa Peyğəmbər Ona beyət edən yəhudiləri şöhrətləndirdi. Onlar aşağı təbəqələrdən olan kişilər və qadınlar idilər, lakin Onunla yaxınlıq bu adamları məşhurlaşdırdı və onlara əbədi ləyaqət bəxş etdi. Bir-birilə dinc yanaşı yaşayacaq heyvanlar barəsində xəbərə gəldikdə isə, bu, o deməkdir ki, nə vaxtsa bir-birinə düşmən olan müxtəlif millətlər və irqlər Məsihin Əbədi Çeşməsindən Dirilik Suyunu birlikdə əxz etməklə məhəbbət və mərhəmət şəraitində yaşayacaqlar” *(Əbdül-Bəha, Paris söhbətləri, s.48).*

Xristianların əksəriyyəti Xilaskar haqqında vəd olunanların Həzrət İsaya uyğun gəlməsinə dair bu şərhləri qəbul edirlər; axır zamanda buna bənzər Xilaskar haqqında vəd olunanlara gəldikdə isə, onların çoxu belə bir nöqteyi-nəzərə söykənirlər ki, yəhudilər maddi aləmdə möcüzənin baş verməsini və bu vədin hərfi mənada dəqiqliklə yerinə yetməsini gözləmişlər.

## HƏZRƏT BAB VƏ HƏZRƏT BƏHAULLAH HAQQINDA KƏHANƏTLƏR

Bəhailərin şərhlərinə görə, “Zamanın Sonu”, “Son günlər”, “Ordular Rəbbinin gəlişi” və “Əbədiyyət Atası” haqqında vədlər İsa Məsihə deyil, Həzrət Bəhaullahın zühuruna aiddir. Məsələn, Yeşaya Peyğəmbərin hamıya məlum olan vədlərini götürək:

“Zülmətdə yaşayan xalq Möhtəşəm bir işıq gördü. Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə nur

doğdu... Çünki onlara yük olan boyunduruğunu, çiyinlərini döyən çomağını, onlara zülm edənlərin dəyənəyini çilik-çilik etmisən. Midyanlıların başlarına gətirdiyin gün kimi. Döyüşdə geyilən çəkmələri, qana bulanmış geyimləri yandırılacaq, oda yem olacaq. Çünki bizim üçün körpə doğuldu, bizə oğul verildi, hakimiyyət onun çiyinləri üzərində olacaq, Onun adı Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı olacaq. Hakimiyyətinin və sülhünün artmasının sonu olmayacaq, O, Davudun taxtı və padşahlığı üzərində hökm sürəcək, O, hakimiyyətini ədalətlə və salehliklə indidən sonsuzadək quracaq. Ordular Rəbbinin qeyrəti bunu edəcək." *(Bibliya, Yeşaya Peyğəmbərin Kitabı, 9:2; 9:4-7).*

Bu, çox zaman İsa Peyğəmbərə aid edilən kəhanətlərdən biri sayılır: və həqiqətən də bu xəbərin əksəriyyəti Ona aid edilə bilər, lakin apardığımız kiçicik araşdırma bizə göstərir ki, o tamamilə və dürüstlüklə Həzrət Bəhaullahın Zühuruna aiddir; İsa Məsih həqiqətən Nur daşıyıcısı və Xilaskardır, lakin Onun Zühurundan keçən iki min il ərzində dünya əhalisinin böyük əksəriyyəti zülmət içində yeriməkdə davam edirlər və İsrail oğulları, eləcə də Allahın digər oğulları zülmkarın qamçısı altında hələ də inildəyirlər.

Digər tərəfdən, Bəhai Erasının ilk onillikləri ərzində həqiqət Nuru Şərqi və Qərbi işıqlandırdı. Allahın Ata, insanların – qardaş olması barədə fikir dünyanın bütün ölkələrinə yayıldı, ən böyük hərbi avtokrat dövlətlər devrildi, hüquqları tapdalanmış və əsarətə məruz qalmış xalqlara tezliklə azad olmaq ümidi verən dünya birliyi ideyası şüurlarda kök saldı.

1914-cü ildən 1918-ci ilədək davam edən Böyük Müharibə bütün dünyanı dəhşətə gətirən görünməmiş odlu silahları, alışdırıcı bombaları və yandırıcı alovları ilə əslində hər şeyi məhv edən atəş idi.

Öz yazılarında dövlət məsələlərinə toxunan və onların ən yaxşı həlli yollarını göstərən Həzrət Bəhaullah İsa Məsihin heç zaman etmədiyi bir işi görərək "hakimiyyətin ağırlığını Öz çiyinləri üzərinə" götürmüşdür.

"Əbədiyyət Atası", "Sülh Şahzadəsi" adlarına gəldikdə isə Həzrət Bəhaullah çox zaman Özünü İsa və Yeşaya Peyğəmbərin haqqında danışdıqları Atanın Zühuru adlandırdığı halda, İsa Peyğəmbər həmişə Özünü "Oğul" adlandırmışdır, Həzrət Bəhaullah Öz Missiyasının yer üzündə sülh yaratmaqdan ibarət olduğunu elan etdiyi halda, İsa Peyğəmbər deyirdi: "Sanmayın ki, yer üzünə sülh gətirməyə gəlmişəm; Mən sülh deyil, qılınc gətirməyə gəldim" (İncil, Matta, 10:34). Doğrudan da, xristian dininin mövcud olduğu bütün müddət ərzində çoxsaylı müharibələr və təriqət çəkişmələri baş vermişdir.

## RƏBBİN ŞƏRƏFİ

"Bəha" sözü ərəb dilində "parıltı, işıq, şərəf" deməkdir. "Bəhaullah" adı "Allahın parıltısı, işığı, şərəfi" mənasını verir. Bu ad yəhudi Peyğəmbərləri tərəfindən son günlərdə zühur edəcək Vəd olunmuşa münasibətdə tez-tez işlədilirdi.

Belə ki, Bibliyadakı Yeşaya Peyğəmbərin kitabının 40-cı fəslində oxuyuruq: " Allahınız deyir: «Təsəlli verin xalqıma, təsəlli verin! Yerusəlim sakinlərinə təskinlik verən sözlər söyləyin! Əsirlik dövrünün qurtarmasını, təqsirlərinin əvəzinin verilməsini, bütün günahlarına görə Rəbbin əlindən ikiqat cəza aldıqlarını onlara bəyan edin». Nida edənin səsi gəlir: «Səhrada Rəbbin yolunu hazırlayın, çöldə Allahımızın keçəcəyi yerləri hamar edin. Hər dərə yüksəldiləcək, hər dağ və təpə aşağı endiriləcək, yoldakı əyriliklər düzələcək, kələ-kötür yerlər hamar edilə-

cək. Rəbbin Şərəfi zahir olacaq, bütün bəşər bunu birlikdə görəcək». Bu sözlər Rəbbin ağzından çıxıb. *(Bibliya, Yeşaya Peyğəmbərin Kitabı, 40:2-5)*

Bu vədlər də, eynilə əvvəlki xəbərlər kimi Həzrət İsa və Onun Müjdəçisi Vəftizçi Yəhyanın gəlişi ilə qismən yerinə yetirilmişdi; lakin qismən, çünki Məsihin yaşadığı günlərdə Yerusəlimdə müharibə qurtarmamışdı, bu şəhərin qarşısında hələ uzun əsrlər boyu ağır sınaqlara və həqarətlərə dözmək dururdu.

Amma, Həzrət Babın və Həzrət Bəhaullahın gəlişi ilə vəd olunmuş bu xəbərlərin tam icrası müşahidə olunur, belə ki, Yerusəlim artıq xoşbəxt günlərini yaşamağa başlamış və onun dinc, şərəfli gələcəyinin üfüqləri indi aydın görünməkdədir. Digər vəd olunan kəhanətlərdə Şərqdən, gündoğandan, Müqəddəs Torpağa gələcək İsrailin Xilaskarı, Rəbbin Şərəfi haqqında danışılır. Eynilə, Həzrət Bəhaullah da Fələstindən Şərqdə yerləşən, gündoğan yerə yaxın olan İranda zühur etmişdi; və oradan Müqəddəs Torpağa gəlmiş, həyatının son 24 ilini burada yaşamışdı.

Əgər o, buraya Öz istəyi ilə gəlsəydi onda insanlar deyə bilərdilər ki, bu, başqasının adını mənimsəyən yalançının Müqəddəs torpağa gəlişini verilmiş vədlərlə uyğunlaşdırmaq üçün hiyləsidir: O isə sürgün olunmuş və əsir kimi gəlmişdi. O, sürgünə İran Şahı və Türkiyə Sultanı tərəfindən göndərilmişdi. Onların da, çətin ki, Həzrət Bəhaullaha Özünü Peyğəmbərlərin vəd etdikləri həmin Kəs, yəni "Rəbbin Şərəfi" olduğunu sübut etmək üçün dəlillər vermək niyyəti güddüklərini güman etmək olar.

## BUDAQ

Yeşaya, Yeremya, Yezekel və Zəkəriyyə Peyğəmbərlərin söylədikləri xəbərlərdə "Budaq" adlanan şəxsiyyət

haqqında bir sıra məlumatlar var. Bu kəhanətləri xristianlar əksər hallarda İsa Məsihə aid etsələrdə, bəhailər belə hesab edirlər ki, onlar Həzrət Bəhaullaha aiddir. "Budağa" dair ən ətraflı xəbər Bibliyada Yeşaya Peyğəmbərin kitabının 11-ci fəslində verilib:

"Yesseyin kötüyündən yeni bir fidan çıxacaq, kökündən çıxan bir budaq bar verəcək. Rəbbin Ruhu, hikmət və anlayış ruhu, öyüd-nəsihət və qüdrət ruhu, bilik və təqva ruhu Onun üzərində olacaq... O, belini salehliklə qurşayacaq, sədaqəti kəmər kimi taxacaq. O gün qurdla quzu bir yerdə yaşayacaq, bəbirlə çəpiş birgə yatacaq, dana, gənc aslan və bəslənmiş mal-qara yan-yana duracaq, onları balaca uşaq gəzdirəcək... Müqəddəs dağımın heç bir yerində heç kimə zərər dəyməyəcək, heç bir kəs o birisini məhv etməyəcək. Çünki sular dənizi bürüdüyü kimi dünya Rəbbin biliyi ilə dolacaq... O gün Xudavənd Aşşurdan, Misirdən, Patrosdan, Kuşdan, Elamdan, Şinardan, Xamatdan və uzaq diyarlardan xalqının sağ qalanlarını qurtarmaq üçün ikinci dəfə əlini uzadacaq. Millətlər üçün bayraq qaldıracaq, əsir düşmüş İsrail övladlarını yığacaq, dağılmış Yəhudalıları dünyanın dörd bucağından bir yerə gətirəcək. *(Bibliya, Yeşaya Peyğəmbərin Kitabı, 11:1-2; 11:5-6; 11:9; 11:11-12)*

Həzrət Əbdül-Bəha Budaq haqqında deyilən bu və digər xəbərlər haqqında aşağıdakıları buyurur:

"Tayı-bərabəri olmayan Budağın zühuru Rəbbin bütün xalqlar arasında bayrağını qaldırdığı və bütün insanların və tayfaların vahid bir xalq kimi onun kölgəsi altında toplandığı gündə baş verməlidir – bu bayraq elə Rəbbin Budağının özüdür. Dini ziddiyyətlər, irqi və milli münaqişələr, vətənpərvərlik çəkişmələri məhv ediləcək. Hamı bir dinin ardıcılı olacaq, bir inama xidmət edəcək; bir irqə və vahid xalqa çevriləcək və Yer üzündə – yeganə vətəndə yaşayacaq. Bütün xalqlar arasında ümumbəşəri sülh və razılıq bərqərar olacaq. Bənzərsiz Budaq bütün İsrail oğullarını

bir yerə toplayacaq – bu o deməkdir ki, Şərqə və Qərbə, Şimala və Cənuba səpələnib yayılmış bütün yəhudi xalqı Müqəddəs Torpağa yığışacaq.

İndi biz görürük ki, xristianlıq zamanında bu hadisələr baş verməyib, çünki xalqlar İlahi Budağın yeganə bayrağı altına toplanmadılar. Buna baxmayaraq Rəbbin hökmdarlığı zamanında bütün irqlər və xalqlar bu bayrağın kölgəsi altına yığışacaqlar.

Xristianlıq zamanında bütün dünyaya yayılmış İsrail xalqı Müqəddəs Torpağa yığışmadı: lakin Həzrət Bəhaullah erasının əvvəlində Peyğəmbərlərin bütün kitablarında təsbit edilmiş bu İlahi Vəd həyata keçməyə başlayır. İndi biz görürük ki, yəhudilər dünyanın bütün yerindən Müqəddəs Torpağa köçüb gəlirlər və onlar şəhərlərdə və kəndlərdə məskunlaşaraq onun mülkiyyətçilərinə çevrilirlər və günü-gündən onların sayı elə sürətlə çoxalır ki, tezliklə bütün Fələstin onların doğma vətəni olacaqdır" *(Həzrət Əbdül-Bəha, Bəzi suallara cavablar).*

## RƏBBİN GÜNÜ

"Rəbbin Günü" və "Son Gün" kimi ifadə olunan "Gün" anlayışı İlahi Zühur kimi şərh olunmalıdır. Din banilərinin hər birinin Öz "Günü" var. Onların hər biri Günəşə bənzəyir, hər birinin təliminin öz başlanğıcı var, onun həqiqətləri özünün ən uca təsir zirvəsinə yüksələnə qədər tədricən gündən-günə daha çox insanların ağıl və qəlblərini işıqlandırır. Sonra isə o tədricən qaranlıqlaşır, təhrif olunur, saxtalaşdırılır və nəhayət, bütün yer üzünü zülmət bürüyür və bu da yeni Günəş doğan günə qədər davam edir.

Sonuncu gün Rəbbin Qüdrətli zühuru Günüdür, belə ki, həmin günün sonu yoxdur və heç zaman gecə onu əvəzləməyəcəkdir. Bu gün Günəş qürub etməyərək, həm

bu dünyada, həm də o dünyada insanların ruhlarını işıqlandırır.

Həqiqətən, mənəvi günəşlər heç zaman qürub etmirlər. Musa, İsa, Məhəmməd və bütün digər Peyğəmbərlərin günəşləri hələ də səmada tükənməz parlaqlıqla şəfəq saçırlar, lakin yer üzündən qalxan buludlar günəş şüalarının insanların üzərinə düşməsinin qarşısını kəsmişdir. Həzrət Bəhaullahın əzəmətli Günəşi bütün bu qara buludları elə dağıdacaqdır ki, bütün dinlərin ardıcılları bütün Peyğəmbərlərin işığından həzz ala bilsinlər və birləşərək, nurunu bütün Peyğəmbərlərin əks etdirdikləri bir olan Allaha birlikdə pərəstiş etsinlər.

## MƏHŞƏR GÜNÜ

İsa Peyğəmbər Öz hekayətlərində tez-tez böyük Qiyamət Günündən danışardı: "Zira İnsan Oğlu Atasının izzətində öz mələkləri ilə gələcək və o zaman hər kəsə öz əməlinə görə haqqını verəcəkdir" *(İncil, Matta, 16:27).* O, bu günü, buğda anbarlara yığılan və dəlicələr yandırılan biçin vaxtı ilə müqayisə edir.

"Beləliklə, dəlicələr toplanıb alovla yandırıldığı kimi, bu dövrün sonunda da belə olacaqdır. İnsan oğlu mələklərini göndərəcəkdir və onlar pis yola çəkən bütün şeyləri və haqsızlıq işlədənləri Onun Səltənətindən toplayacaqlar; Və onları soba alovuna atacaqlar; orada ağlaşma və diş qıcırtma olacaqdır; O zaman salehlər Atalarının Səltənətində günəş kimi parlayacaqlar. Qulaqları olan, eşitsin" *(İncil, Matta, 13:40-43).*

Tövratın bu və ya digər yerlərində işlənmiş "Dünyanın Sonu" ifadəsi bir çoxlarını belə düşünməyə vadar etmişdir ki, Qiyamət Günü gələn kimi dünya gözlənilmədən dağılacaqdır. Lakin bu açıq yanılmadır. Bu ifadənin düzgün

tərcüməsi "əsrin başa çatması və ya sonu" deməkdir. İsa Peyğəmbər öyrədir ki, Atanın Səltənəti göylərdə olduğu kimi, yerdə də qurulmalıdır.

O bizə belə dua etməyə öyrədir: "Sənin Səltənətin qurulsun, Sənin İradən həm yer üzündə, həm də göylərdə hökmran olsun!". Üzümlük haqqında rəvayətdə üzümlüyün Sahibi olan Ata məkrli üzümçüləri məhv etməyə gələrkən, üzümlüyü (dünyanı) dağıtmır, amma onu başqa üzümçülərə icarəyə verir ki, mövsümün məhsulunu yığıb Ona versinlər. Yer üzü dağıdılmamalıdır, əksinə, yenilənməli və dirçəldilməlidir.

İsa Peyğəmbər başqa bir yerdə həmin gün barəsində sanki "dirçəliş günü" kimi danışır: "Sizə doğrusunu deyirəm: hər şey yeniləşəndə, Bəşər Oğlu izzətli taxtına oturanda Mənim ardımca gələn sizlər də İsrailin on iki qəbiləsinə hökm etmək üçün on iki taxt üzərində oturacaqsınız. " (İncil, Matta, 19:28). Müqəddəs Pyotr bu barədə dünya yaranan gündən bəri Rəbbin Özünün bütün Müqəddəs Peyğəmbərlərinin dili ilə vəd etdiyi bütün şeylərin bərpa olunduğu vaxtlar – "fərəhli vaxtlar" kimi danışırdı. İsa Peyğəmbərin dediyi Qiyamət Günü yəqin ki, Ordular Rəbbinin, Yeşaya Peyğəmbərin və Əhdi-Ətiqin digər Peyğəmbərlərinin əvvəlcədən xəbər verdikləri Rəbbin gəlişi günü ilə eyni gündür: Allahsızların dəhşətli şəkildə cəzalandıqları vaxtdır, eləcə də yer üzündə, göylərdə olduğu kimi haqqın bərpa olunacağı və ədalətin zəfər çalacağı vaxtdır.

Bəhailərin şərhinə görə Allahın hər bir Zühurunun gəlişi Qiyamət Günüdür, lakin ən böyük Zühur olan Həzrət Bəhaullahın gəlişi bizim yaşadığımız bütün dünya üçün ən böyük Qiyamət Günüdür. İsa Peyğəmbərin, Həzrət Məhəmməd və bir çox digər Peyğəmbərlərin buyurduqları Surun səsi bütün yer üzündə və göydə olanlar üçün, həm cismani bədənə bürünmüşlər, həm də bədənsiz ruhlar üçün Zühurun çağırışıdır.

Allahın Peyğəmbərləri vasitəsilə Allahla görüşmək Onu görməyi arzulayanlar üçün, Onu tanımaq və sevmək Cənnətinə açılan qapıdır, Onun bütün yaratdıqları ilə birgə məhəbbət içərisində yaşamaq deməkdir. Lakin digər tərəfdən, o kəslər ki, öz yolunu Peyğəmbərlərin göstərdiyi Allahın yolundan, üstün tuturlar, onlar özlərini xudpəsəndlik, azğınlıq və düşmənçilik Cəhənnəminə vasil edirlər.

## ƏN BÖYÜK DİRİLMƏ

Qiyamət Günü, həm də Dirilmə Günüdür – ölülərin diriləcəyi gündür. Müqəddəs Pavel Korinflilərə yazdığı birinci məktubunda buyurur:

"Baxın sizə bir sirr açmaq istəyirəm: hamımız ölməyəcəyik, amma son şeypur çalınanda bir andaca, bir göz qırpımındaca hamımız dəyişiləcəyik. Çünki şeypur çalınacaq, ölülər çürüməzliklə diriləcək, bizsə dəyişiləcəyik. Çünki bu çürüyən bədən çürüməzliyə, bu ölümə düçar olan bədən ölməzliyə bürünməlidir." *(İncil, Pavelin Korinflilərə 1-ci məktubu, 15:51-53).*

Ölülərin dirilməsi barədə bu sözlərin hansı məna daşıması haqqında Həzrət Bəhaullah "İqan" kitabında belə yazır:

"Kitablarda yazılmış "Həyat" və "Ölüm" təbirlərində məqsəd iman ölümü və iman həyatıdır. Bu mənanın anlaşılmaması üzündən insanlar hamılıqla hər bir Zühurda etiraza qalxmış, hidayət Günəşinin işığı altında doğru yola getməkdən geri qalmış, Əzəli Tanrı Camalına tabe olmaqdan qaçmışlar.

Necə ki, İsa Peyğəmbər buyurmuşdur: "...Yenidən doğulmalısınız". Başqa bir yerdə o buyurur: "Bir kəs sudan və Ruhdan doğulmasa, Allahın Səltənətinə daxil ola bilməz. Bədəndən doğulan bədəndir, ruhdan doğulan ruh-

dur". Yəni hər bir zühurda Müqəddəs Məzhərin Ruhundan doğulan və Onun nəfəsindən dirilən kəs haqqında "həyat" və "dirilmə" hökmü verilir və onlar "Tanrı sevgisi Cənnəti"nə daxil olur, bu qəbildən olmayan kəslər isə "ölümə", "məhrumiyyət"ə, imansızlıq "atəşinə" və Allahın "qəzəbi Cəhənnəminə" məhkum edilirlər. Bütün əsrlərdə və dövrlərdə Allahın Peyğəmbərlərinin və onların vəlilərinin məqsədi bir şey – "həyat", "dirilmə" və "məhşər" kəlmələrinin mənəvi, ruhi əhəmiyyətini təsdiq etmək olmuşdur. Xülasə, Tanrı mərifətinin büllur bulağından bir qurtum içmiş olsanız, gerçək həyatın cismani həyat olmayıb, ruhani həyat olduğunu anlayarsınız, çünki cismani həyatında insanlar və heyvanlar müştərəkdir. O biri həyat isə iman dənizindən içib iqan meyvəsindən dadmış olan pak qəlb sahiblərinə məxsusdur. Bu həyat ölümün nə olduğunu bilməz. Bu əbədi həyatdan sonra ölüm ola bilməz. Necə ki, deyilmişdir: "Mömin hər iki dünyada diridir". Əgər "həyat"ın yalnız yer üzündəki həyatdan ibarət olduğunu hesab etsək, ölüm gec-tez labüddür" *(Həzrət Bəhaullah, Kitabi-İqan).*

Bəhai Təliminə görə, "dirilmənin" kobud fiziki bədənlə heç bir əlaqəsi yoxdur. Əgər bədən ölmüşsə, deməli, artıq onun işi bitmişdir. O çürüyür və onun hissələri həmin bədəni yaratmaq üçün heç zaman birləşmirlər.

Dirilmə – Allahın Məzhərləri vasitəsilə nazil olmuş Müqəddəs Ruh sayəsində insanın mənəvi həyata doğulmasıdır. Onun dirilib ayağa qalxdığı qəbir – nadanlıq və Allaha etinasızlıq qəbridir. Onun oyanıb ayrıldığı yuxu ruhun yuxulu vəziyyətidir və çoxları bu vəziyyətdə Rəbb Gününün sübh çağının açılmasını gözləyirlər.

Bu sübh çağının şəfəqləri yer üzündə cismən və ya ruhən mövcud olan bütün insanlara işıq saçır, amma mənəvi baxımdan kor olanlar onu hiss etmirlər. Dirilmə Günü iyirmi dörd saatdan ibarət olan gün deyil, o indi başlanmış

və hal-hazırkı dünya dövrünün bitəcəyi vaxtadək davam edən bütöv bir eradır. O indiki sivilizasiyanın bütün izlərinin yer üzündən silinməsinə qədər davam edəcəkdir.

## MƏSİHİN İKİNCİ GƏLİŞİ

Özünün bir çox söhbətlərində İsa Məsih Allahın gələcəkdə üçüncü şəxs timsalında Zühuru haqqında danışır, amma digər söhbətlərində onu birinci şəxs kimi ifadə edir. O deyir: "Atamın evində çox otaqlar vardır; olmasaydı sizə deyərdim, çünki sizə yer hazırlamağa gedirəm. Əgər gedib yer hazırlasam, təkrar gəlib sizi Öz yanıma gətirəcəyəm ki, Mən haradayamsa, siz də orada olasınız" *(İncil, Yəhya, 14:2-3).*

"Həvarilərin işləri"nin birinci fəslində İsa Peyğəmbərin göyə ucaldığı zaman şagirdlərinə belə deyildiyini oxuyuruq: "...sizdən göyə ucalan bu İsa, ucaldığını gördüyünüz kimi, geri qayıdacaqdır" *(İncil, Həvarilərin işləri, 1:11).* Bu və buna bənzər sözlər sayəsində xristianların çoxu gözləyirlər ki, İnsan Oğlu "böyük əzəmətlə səma buludlarında" gələcəkdir və onlar iki min il bundan əvvəl Yerusəlimin küçələrində gəzən, qanı axa-axa çarmıxda əzab çəkən İsanın özünü görəcəklər.

Onlar düşünürlər ki, Onun əllərində və ayaqlarında mıxların izlərini öz barmaqları ilə yoxlaya biləcək və Onun böyründəki nizə yarasına toxunacaqlar. Lakin buna oxşar düşüncələrin tamamilə yox olması üçün Həzrət İsanın Özünün sözləri üzərində bir az fikirləşmək kifayətdir. Həzrət İsanın dövründə yaşayan yəhudilər də İlyas Peyğəmbərin qayıtması barəsində eynilə belə düşünürdülər, lakin Həzrət İsa onlara yanıldıqlarını izah edərək bildirdi ki, İlyasın birinci olaraq gəlməsi haqqında söylənmiş xəbərlər artıq baş vermişdir, lakin bunlar əvvəlki

İlyasın şəxsən və cismən gəlməsi deyil, Vəftizçi Yəhyanın "İlyasın ruhunda və gücündə" gəlməsidir.

İsa Peyğəmbər demişdi: "Və əgər onu qəbul etmək istəyirsinizsə, gəlməli olan İlyas odur. Eşitməyə qulaqları olan eşitsin" *(İncil, Matta, 11:14-15).* İlyasın "qayıtması", başqa ata-anadan doğulmuş, lakin Allah tərəfindən eyni ruh və qüdrətlə ilhamlandırılmış tamamilə başqa bir şəxsin zühuru demək idi.

İsa Peyğəmbərin bu sözləri, şübhəsiz, o deməkdir ki, Onun ikinci gəlişi də başqa anadan doğulmuş və İsa Peyğəmbər kimi Allah tərəfindən verilən eyni ruha və qüdrətə malik olan başqa şəxsin gəlişi ilə yerinə yetiriləcəkdir.

Həzrət Bəhaullah izah edir ki, İsa Peyğəmbərin ikinci gəlişi Həzrət Babın gəlişi və Onun Özünün gəlişi ilə yerinə yetirilmişdir. O buyurur:

"Əgər bu günün Günəşi: "Mən dünənin Günəşiyəm" – deyirsə, doğru söyləmiş olur. Zamanın ardıcıllığını fikrində tutub deyərsə ki: "Mən başqasıyam, dünənin Günəşi deyiləm" – yenə doğru söyləmiş olar. Günlərə də eynilə onun kimi baxın: əgər deyilsəydi ki, bütün günlər eynidir, bu iddia da yerində və doğru olardı. Yox, əgər deyilsə ki, onlar bir-birindən adına və təyinatına görə fərqlənir, bu da doğru olardı.

Görürsünüz ki, günlər eyni olmasına baxmayaraq, hər bir günün özünə görə adı, təyinatı və xüsusiyyəti vardır ki, başqalarında bu tapılmaz.

Müqəddəs Məzhərlər arasındakı ayrılıq, başqalıq və birlik məqamlarını da eyni izah və qaydaya görə anlayın. Belə ki, o adlar və sifətlər yaradıcısının birlik və başqalıq məqamları ilə bağlı sözlərindəki gizli mənaları dərk edib, işin həqiqətinə vaqif olsanız, Əzəli Camalın nə səbəbdən müxtəlif vaxtlarda başqa-başqa ad və titullarla adlandırılığı barədə sualınıza cavab tapa bilərsiniz" (Həzrət Bəhaullah, Kitabi-İqan).

Həzrət Əbdül-Bəha buyurur:

“Bilin ki, Həzrət İsanın ikinci gəlişi insanların inandıqları o cür gəliş deyil, ondan sonra gələcək o Vəd olunmuşun gəlməsi deməkdir. O, bütün dünyanı əhatələyən İlahi Səltənətin şöhrəti və Onun qüdrəti ilə gələcəkdir. Bu maddi dünya üzərində deyil, qəlb və can dünyası üzərində hakimiyyət olacaqdır, çünki əgər sən bilənlərdənsənsə, Allahın nəzərində maddi dünyanı, hətta milçəyin bir qanadı ilə də müqayisə etmək olmaz.

Həqiqətən, Həzrət İsa əvvəli olmayan əzəldən zühur etmişdir və Onun sonu olmayan Səltənəti ilə sonadək zühur edəcəkdir, belə ki, bu baxımdan Məsih – İlahi Həqiqət, başlanğıcı və sonu olmayan Mütləq Səma Mahiyyətidir.” *(Əbdül-Bəhanın məktubları, c.1, s.138)*

## ZAMANIN SONU

Həzrət İsa və Onun həvariləri “İnsan Oğlunun Atasının izzətində Öz mələkləri ilə gələcəyi” (İncil. Matta, 16:27) vaxtı fərqləndirə bilmək üçün çoxlu əlamətlər söyləmişlər.

Həzrət İsa demişdi:

“Qoşunlar tərəfindən mühasirəyə alınmış Yerusəlimi gördüyünüz zaman bilin ki, onun viranəliyinin vaxtı yaxınlaşmışdır... Çünki bunlar bütün yazılanların yerinə yetəcəyi qisas günləridir. O günlərdə boylu və əmzikli olanların vay halına; çünki ölkədə böyük fəlakət və bu xalqa qarşı qəzəb olacaqdır; Və qılıncdan keçiriləcəklər və bütün millətlərə əsir olaraq aparılacaqlar; və bütpərəstlərin vaxtı tamam oluncaya qədər, Yerusəlim bütpərəstlər tərəfindən tapdalanacaq” *(İncil, Luka, 21:20, 22-24)*.

Başqa bir yerdə “İsa cavab verib onlara dedi: “diqqətli olun ki, kimsə sizi aldatmasın. Çünki bir çoxları: “Məsih

mənəm" – deyə Mənim Adımla gələcək və çox adamları aldadacaqlar. Siz müharibələr və hərbi şayiələr barədə eşidəcəksiniz. Baxın, dəhşətə gəlməyin; çünki, bunların vaqe olması gərəkdir. Ancaq hələ sonu deyil: çünki millət millətə, padşahlıq padşahlığa qarşı qalxacaq; bəzi yerlərdə qıtlıq və zəlzələlər olacaqdır. Bütün bunlar isə, yalnız ağrıların başlanğıcıdır. O zaman sizə əziyyət verib öldürəcəklər; və Mənim Adıma görə bütün millətlər sizə nifrət edəcəklər. O zaman bir çoxları büdrəyib[55] bir-birini ələ verəcək və bir-birinə nifrət edəcəklər. Bir çox yalançı Peyğəmbərlər qalxıb çoxlarını yoldan çıxaracaq və fəsad çoxaldığından bir çoxlarının sevgisi soyuyacaqdır, fəqət sona qədər dözən qurtulacaqdır. Padşahlıq haqqında olan bu Müjdə millətlərin hamısına şəhadət olaraq bütün dünyada təbliğ olunacaqdır; və son o zaman gələcəkdir" *(İncil, Matta, 24:4-14).*

Bu iki parçada Məsih İnsan Oğlunun gəlişindən qabaq baş verəcək hadisələri əvvəlcədən aydın ifadələrlə və açıq şəkildə xəbər verir. İsa Məsihin bu sözləri söylədiyi o zamandan keçən əsrlər ərzində, vəd edilmiş hər iki xəbər yerinə yetmişdir.

Bu iki xəbərin hər birinin axırında O, zühur vaxtının əlamətlərini bildirən hadisələri göstərir; bunların birində yəhudilərin sürgündən qayıtması və Yerusəlimin bərpası, digəri isə İncilin bütün dünyaya yayılmasıdır. Təəccüblüsü budur ki, bu iki əlamət dəqiqliklə bizim dövrümüzdə həyata keçir. Və əgər söylənmiş xəbərlərin bu hissəsi digər hissələri kimi doğrudursa, onda belə çıxır ki, biz İsa Məsihin haqqında danışdığı "zamanın sonunda" yaşayırıq.

Məhəmməd Peyğəmbər də həmçinin "Dirilmə Gü-

55 Büdrəmək - yəni imandan dönmək

nü”nədək davam edəcək bəzi əlamətlərdən danışır. Biz Qurani-Kərimdə oxuyuruq: “O vaxt Allah buyurdu: “Ey İsa, həqiqətən, Mən sənin ömrünü tamam edib Öz Dərgahıma ucaldıram, səni kafirlərdən pak edirəm (tərtəmiz ayıraram). Sənə iman gətirənləri Qiyamət Gününə qədər kafirlərə qalib edərəm. Sonra isə Mənim hüzuruma qayıdacaqsınız. O zaman ixtilafda olduğunuz məsələlər barəsində aranızda Mən hökm verəcəyəm!” *(Quran, Ali-İmran surəsi, 55)*

“Yəhudilər dedilər: “Allahın əli bağlıdır!” Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər. Xeyr, Allahın əli açıqdır, istədiyi kimi lütf və ehsan edər. Rəbbindən sənə nazil edilən Quran onlardan bir çoxunun küfrünü və azğınlığını artıracaqdır. Biz onların arasına Qiyamət Gününə qədər davam edəcək düşmənçilik və kin saldıq. Onlar müharibə alovu yandırdıqca Allah bu alovu söndürər. Onlar yer üzündə fitnə-fəsad törətməyə çalışarlar. Allah isə fitnə-fəsad törədənləri sevməz!” *(Quran, Maidə surəsi, 64)*

“Biz xaçpərəstik”, – deyənlərdən də əhd almışdıq. Sonra onlar xəbərdar olunduqları şeylərin bir hissəsini unutdular. Biz də aralarına Qiyamət Gününə qədər davam edəcək ədavət və kin saldıq. Allah onlara gördükləri işlər barəsində xəbər verəcəkdir” *(Quran, Maidə surəsi, 5:14).*

Bu sözlər tam mənası ilə yerinə yetir, belə ki, yəhudilər xristianların və müsəlmanların tabeliyi altına düşürlər və xristianlar kimi müxtəlif təriqətlərə parçalanırlar. Həzrət Məhəmmədin bu xəbərləri dediyi vaxtdan bəri keçən yüzilliklər ərzində onların arasında çəkişmələr və münaqişələr davam edir və yalnız Bəhai Erasının (Dirilmə Günü) başlanğıcında bu vəziyyətin sonunun çatdığını göstərən əlamətlər özünü büruzə verir.

## GÖYDƏ VƏ YERDƏ BAŞ VERƏN ƏLAMƏTLƏR

Yəhudi, xristian, müsəlman və digər Müqəddəs Kitablarda Vəd olunmuşun gəlişini müşayiət edəcək əlamətlərin təsvirində qəribə bir uyğunluq var.

Yoel Peyğəmbərin Kitabında oxuyuruq:

"Göydə və yerdə əlamətlər göstərəcəyəm: qan, alov və tüstü sütunları. Rəbbin böyük və dəhşətli Günü gələnədək Günəş zülmətə çevriləcək və Ay qana dönəcək... çünki bax, elə həmin günlər və məhz elə həmin vaxt, Mən Yəhuda və Yerusəlimin əsirlərini qaytaranda, Mən bütün millətləri yığacam və onları Yehoşafat vadisinə gətirəcəm və onlar üzərində hökm çıxaracam...

Camaat, camaat hökm vadisində! Çünki Rəbbin Günü hökm vadisinə yaxınlaşır. Günəş və Ay qaralacaq və ulduzlar öz parıltısını itirəcək... və Rəbb Siondan guruldayacaq və Öz səsini Yerusəlimdən bildirəcəkdir; göy və yer titrəyəcəkdir; amma Rəbb öz xalqının mühafizi olacaqdır..." *(Bibliya, Yoel Peyğəmbərin Kitabı, 2:30-31; 3:1-2,14-16)*

İsa Məsih buyurur:

"Fəqət o günlərin məşəqqətindən dərhal sonra Günəş qaralacaq, Ay işığını verməyəcək, ulduzlar göydən düşəcək və göylərin qüdrəti sarsılacaqdır. O zaman İnsan Oğlunun əlaməti göydə görünəcək; o vaxt yer üzünün bütün qəbilələri şivən qaldıracaqlar və İnsan Oğlunun göyün buludları üzərində qüdrət və əzəmətlə gəldiyini görəcəklər" *(İncil. Matta, 24:29-30)*

Qurani-Kərimdə oxuyuruq:

"Günəş sönəcəyi zaman; Ulduzlar səpələnəcəyi zaman; Dağlar yerindən qopardılacağı zaman; Əməl dəftərləri açılacağı zaman, göy qopardılacağı zaman; Cəhənnəm

alovlandırılacağı zaman; Və Cənnət yaxınlaşacağı zaman...” *(Quran, Təkvir surəsi, 81:1-3, 10-14)*

Həzrət Bəhaullah “İqan” kitabında izah edir ki, Günəş, Ay, ulduzlar, göydə və yerdə baş verən əlamətlər haqqında söylənmiş bu xəbərlər rəmzi məna daşıyırlar və hərfi mənada başa düşülməməlidir. Peyğəmbərlər ilk növbədə bunları fiziki deyil, ruhi anlamlara aid etmişlər; fiziki yox, mənəvi işığı nəzərdə tutmuşlar. Onlar Qiyamət Günü ilə əlaqədar olaraq Günəş barəsində danışarkən həqiqət Günəşini nəzərdə tuturlar. Günəş ən böyük işıq mənbəyidir. Həzrət Musa yəhudilər üçün, Həzrət İsa xristianlar üçün və Məhəmməd Peyğəmbər müsəlmanlar üçün belə Günəş olmuşdur.

Peyğəmbərlər deyəndə ki, günəş qaralacaq, bu, o deməkdir ki, bu mənəvi günəşlərin saf təlimləri yalançı təsəvvürlərlə, yalnış anlayışlarla və xurafatlarla bulandırılacaq və millətlər zülmət içində çaşıb qalacaqlar. Dini rəhbərlər və müəllimlər kiçik işıq mənbəyi olan Ay və ulduzlar kimi insanları həvəsləndirməli və onlara düzgün yol göstərməlidirlər.

Deyəndə ki, Ay işığını itirəcək və qana dönəcək və ulduzlar göydən yerə töküləcəklər, bu, o deməkdir ki, kilsə başçıları hörmətdən düşəcək, çəkişmə və münaqişələrə qoşulacaq, ruhani niyyətlərdən uzaqlaşaraq, dünyəvi qayğılarla məşğul olacaqlar.

Vəd edilmiş bu xəbərlərin mənası, heç də bir izahla məhdudlaşmır və onların bu rəmzlərlə şərh edilə bilən digər mənaları da mövcuddur. Həzrət Bəhaullah buyurur ki, “Ay”, “Günəş” və “ulduzlar” anlayışları başqa mənada hər bir dinin müəyyən etdiyi qanunlara və qaydalara tətbiq edilir. Belə ki, sonrakı hər bir Vəhydə əvvəlki dinin bütün mərasimləri, formaları, adətləri və göstərişləri dövrün tələblərinə uyğun olaraq dəyişdirilir və bu baxımdan “Günəş” və “Ay” dəyişilir və “ulduzlar” yerə tökülür.

Bu vədləri hərfi mənada həyata keçməsi bir çox hallarda qeyri-mümkün və cəfəngiyyat olardı: məsələn, Ay qana dönəcək və ulduzlar yerə töküləcəklər. Ən kiçik və gözlə görünən ulduz yer kürəsindən bir neçə min dəfə böyükdür və əgər o yer üzünə düşərsə, yerdən əsər-əlamət qalmaz, onda bəs ikinci ulduz hara düşə bilər?

Buna baxmayaraq, bəzi xəbərlərin həyata keçməsi həm maddi və həm də mənəvi baxımdan mümkündür. Məsələn, Peyğəmbərlərin əvvəlcədən xəbər verdiyi kimi, əsrlərdən bəri hərfi mənada viran qoyulan və məskunlaşmayan Müqəddəs Torpaq, Yeşaya Peyğəmbərin əvvəlcədən verdiyi xəbərə uyğun olaraq, Qiyamət Günündə artıq "sevinməyə və qızıl gül tək çiçəklənməyə" başlayır. Yarım əsr bundan əvvəl yalnız qumsal səhradan ibarət olan bu yerlərdə abad məskənlər salınır, torpaqlar suvarılır və abadlaşdırılır, üzümlüklər, zeytunluqlar və meyvə bağları çiçək açırlar.

Şübhəsiz insanlar öz qılınclarını xışa, nizələrini orağa çevirəndə, dünyanın hər yerində olan səhralar və biyabanlıqlar görkəmini dəyişəcəkdir: qonşu ölkələrin həyatını tamamilə dözülməz edən bu səhralardan əsən yandırıcı küləklər və səmum yelləri keçmişdə qalacaqdır: şəhərlər daha havanı tüstülərlə və zəhərli qazlarla çirkləndirməyəcək və hətta "yeni səmalar və yeni torpaq" haqqında əvvəlcədən deyilmiş xəbərlər maddi mənada həyata keçəcəkdir.

## ZÜHUR NECƏ BAŞ VERƏCƏKDİR?

Zamanın sonunda Onun zühurunun necə baş verəcəyi haqqında İsa Peyğəmbər demişdir:

"O zaman İnsan Oğlunun əlaməti göydə görünəcək; o vaxt yer üzünün bütün qəbilələri şivən qaldıracaqlar və İnsan Oğlunun göyün buludları üzərində qüdrət və əzəmətlə

gəldiyini görəcəklər. Mələklərini böyük səsə malik şeypur ilə göndərəcək. Mələklər də göylərin bir ucundan o biri ucuna qədər, Onun seçdiklərini dörd külək istiqamətindən toplayacaqlar" *(İncil, Matta, 24:30-31)*

"Fəqət İnsan Oğlu bütün müqəddəs mələklər ilə bərabər izzəti ilə gəldikdə, o zaman izzət taxtının üzərinə oturacaqdır. Bütün millətlər Onun önündə toplaşacaqlar, o da çoban qoyunları keçilərdən ayırdığı kimi, onları bir-birindən ayıracaqdır" *(İncil, Matta, 25:31-32)*

Bu və buna bənzər digər yerlərə dair Həzrət Bəhaullah "İqan" kitabında yazır:

"Buradakı "Göy" təbirindən məqsəd, din səmasıdır. Din səması hər Zühurda yüksəlir və ondan sonrakı Zühurda parçalanır, yəni batil və hökmsüz olur. Allaha and olsun, o "Göylərin parçalanması gözlə gördüyümüz göylərin parçalanmasından daha mühüm hadisədir". *(Həzrət Bəhaullah, Kitabi-İqan)*

"Göy" sözü o məqsədlə işlədilib ki, Müqəddəslik Sübhünün və Əbədiyyət Şəfəqinin Zühurunun yüksəkliyi və əzəməti göstərilsin. Baxmayaraq ki, bu müqəddəslər xarici aləmə ana bətnindən doğulurlar, əslində isə onlar Allahın İradəsilə Göydən gəlirlər. Yer üzərində yaşamalarına baxmayaraq, onlar şöhrətin ən yüksək göylərində dolanırlar.

Ölümlü insanlar arasında dolansalar da, onlar Allah Dərgahının göylərində uçurlar. Ayaqlarının köməyi olmadan onlar ruhi həyat yolunda təntənə ilə gedir və qanadların köməyi olmadan Allah birliyinin ən uca zirvəsinə uçurlar. Onlar hər an ucsuz-bucaqsız məsafələri qət edir və istənilən anda gözə görünən və gözə görünməyən səltənətlərdən ötüb keçirlər...

"Bulud" dedikdə, insanların adətlərinə və arzularına zidd olan bütün şeylər nəzərdə tutulur. Qurani-Kərimdə deyildiyi kimi: "...Hər dəfə bir Peyğəmbər onların yanına ürəklərinə yatmayan bir hökmlə gəldikdə bir qismini

yalançı hesab edər, bir qismini də öldürərdilər" *(Quran, Maidə surəsi, 70).*

Bu "buludlar" bir mənada qanunların ləğv edilməsi, əvvəlki Əhdin yenisi ilə əvəz edilməsi, insanlar arasında mövcud olan adət və ənənələrə son qoyulması, sadə insanların dinin əleyhdarı olan alimlərdən üstün tutulmasıdır.

Digər mənada isə "buludlar" Əbədi Gözəlliyin insan qiyafəsində, insan təbiətinə xas olan yemək və içmək, kasıblıq və varlılıq, əzəmət və həqirlik, yatmaq və digər bu kimi keyfiyyətlərlə zühur etməsidir ki, bütün bunlar da insanları şübhəyə salır və onların həqiqətdən üz döndərməsinə səbəb olur. Bütün bunlara bənzər örtüklər rəmzi mənada "bulud" sözü ilə ifadə olunmuşdur.

Quranda deyildiyi kimi bu, "Göyün buludla parçalanacağı, mələkləri yerə endirəcəyimiz gün" *(Quran, Furqan surəsi, 25:25)*, müdriklik və yer üzündə yaşayan bütün canlıların dərk ediləcəyi gündür.

Bulud maddi günəşi gözlə görməyə mane olduğu kimi, bu təzahürlər də, eləcə, insan qəlblərinin İlahi Günəşin şəfəqlərini dərk etməsinə maneçilik törədir. Qurani-Kərimdə xatırlanan kafirlərin sözləri buna əyani sübutdur. "Müşriklər dedilər: "Bu necə Peyğəmbərdir ki, yemək yeyir, bazarları gəzib dolaşır?" *(Quran. Furqan surəsi, 25:7)*

Digər Peyğəmbərlər də həmçinin yoxsulluğa, iztirablara, aclığa, xəstəliyə və bu dünyanın digər rəzalətlərinə məruz qalmışlar.

Bir halda ki, bu Müqəddəs Şəxslər yer üzündə həyatın belə hallarına məruz qala bilirlər, onda bunu görən insanlar şübhə və anlaşılmazlıq səhrasında çaşıb qalaraq, heyrət və sıxıntı vəziyyətinə düşərək, təəccüblənir və öz-özlərinə: "Necə olur ki, kimsə Allah tərəfindən gəldiyini, bütün yer üzərində yaşayanlara qalib olduğunu, xilqətin səbəbi Özü olduğunu iddia etsin və Quranda deyilmiş: "Əgər sən ol-

masaydın fələkləri yaratmazdım" sözlərindən sonra bu kimi cüzi şeylərə mübtəla olsun?" – söyləyirdilər.

Hər Peyğəmbərin və Onun əshabələrinin fəqirlik və zillət kimi necə bəlalara mübtəla olması, Onlara iman gətirənlərin başlarının şəhər-şəhər ərməğan olaraq necə göndərildiyi, Onların qarşısında necə maneələr yaradıldığı barədə eşitməmiş olmazsınız. Onlardan hər biri din düşmənlərinin əlində elə əzab-əziyyətə düçar olurdular ki, Onlara qarşı istənilən hərəkətlər edilirdi." *(Həzrət Bəhaullah, Kitabi-İqan, s.7)*

Bütün bu halları Şəfaətli Allah, imansızların istəklərinin ziddinə olaraq, ona görə bir ölçü və məhək daşı kimi yaratmışdır ki, O, Öz əshabələrini sınasın, salehləri günahkarlardan və möminləri kafirlərdən seçə bilsin.

"Onun "mələklərini göndərəcək..." sözlərinə gəldikdə isə "Mələklər" ruh qüvvəsi sayəsində bəşəri sifətlərini Allah Məhəbbətinin atəşi ilə yandırıb Allin[56] və Kərrubin[57] sifətləri ilə vəsf olunan şəxslərdir". *(Həzrət Bəhaullah, Kitabi-İqan)*

"Çünki İsa ümmətləri bu sözlərdəki gizli mənanı anlamadıqlarından və eyni zamanda göstərilən əlamətlər onların özlərinin və din üləmalarının anladığı şəkildə zühur etmədiyindən, o gündən bu günə kimi Allahın Müqəddəs Peyğəmbərlərinin doğruluğunu qəbul etməkdən imtina etmişlər; bütün Müqəddəs feyzlərdən məhrum qalmışlar; Müqəddəs Kəlamların gözəlliklərindən pərdələnmişlər. Bu Qiyamət günündə onların vəziyyəti belədir. Onlar hətta dərk edə bilməyiblər ki, Tanrı Zühurunun əlamətləri təsbit olunmuş hədislərin mətnlərinə uyğun şəkildə bu maddi aləmdə görünəcək olsa, kimsə cəsarətlənib nəyisə inkar və

..............................................................

56 Ən uca varlıqlar.
57 Allaha ən yaxın mələklər.

nəyəsə etiraz etməyə imkan tapmayacaq, yaxşı pisdən, günahkar mömindən ayırd ediləcək. Ədalətli ol: əgər "İncil"-dəki kəhanətlər həyata keçsəydi, mələklər Məryəm oğlu İsa ilə birlikdə bu maddi göydən buludlar üzərində yerə enəcək olsaydı, kimin həqiqəti təkzib etməyə cəsarəti çatardı? Əksinə, bu təqdirdə yer üzü sakinləri həqiqəti rədd və qəbul etmək kənara qalsın, ağız açıb bir tək söz söyləyə bilməyəcək dərəcədə dəhşətə gələrdilər. Bu xəbərlərdəki həqiqi mənanı anlamadıqlarından bir qisim xristian din alimi Həzrət Məhəmməd ilə mübahisəyə girişərək öz etirazlarını bu sözlərlə bildirdilər (Həzrət Bəhaullah, Kitabi-İqan): "...Məgər Ona Özü ilə birlikdə [insanları Allahın əzabı ilə] qorxudan və Onun həqiqi Peyğəmbər olduğunu təsdiq edən bir mələk göndərilməli deyildimi?" *(Quran, Furqan surəsi, 7)*

Yuxarıda gətirilmiş izahlara əsasən, İnsan Oğlunun sadə insan qiyafəsində, qadından doğulmuş, kasıb, təhsil almamış, bu dünyanın qolu zorluları tərəfindən sıxışdırılan və nifrət edilən vəziyyətdə zühur etməsi Allahın yer üzündəki insanları sınaması, çoban qoyunları keçilərdən ayırdığı kimi, onları bir-birindən ayırması üçün məhək daşıdır.

Bəsirət gözü açıq olan hər bir kəs bu buludlar arasından Onun büruzə vermək üçün gəldiyi Allahın həqiqi Şəfaətinin gücünü və ən böyük Şərəfini görüb ona heyran ola bilər; gözləri hələ mövhumat və yanılmalar pərdəsi ilə örtülmüş kəslər isə yalnız qara buludları görür və Mübarək Günəşin şəfəqlərindən məhrum olaraq, zülmətdə əlləri ilə yoxlamaqla yeriməkdə davam edirlər.

"Budur, Mən Öz elçimi göndərirəm. O, önümdə yol hazırlayacaq. Axtardığınız Xudavənd qəflətən Öz məbədinə gələcək. Görmək arzusunda olduğunuz Əhd Mələyi gələcək» deyir Ordular Rəbbi. «Ancaq Onun gələcəyi günə kim tab gətirə bilər? Zühur edəndə kim davam gətirə

bilər? Çünki O, əridicinin odu və təmizləyən qələvi kimidir... Budur, soba kimi yanan o gün gəlir. Bütün məğrurlar və pislik edənlər saman kimi olacaq... Ancaq adıma hörmət edən sizlər üçün şüalarında şəfa olan salehlik günəşi doğacaq..." *(Bibliya, Malaki Peyğəmbərin Kitabı, 3:1-2, 4:1-2)*

Kəhanətlərin yerinə yetməsi məsələsi elə geniş və əhatəlidir ki, onu tam izah etmək üçün çoxlu, cild-cild kitab yazmaq lazımdır. Bir fəsil çərçivəsində verə bildiyimiz, ancaq bəhai şərhlərinin əsas xüsusiyyətlərini göstərməkdən ibarətdir. Daniel Peyğəmbərin və Müqəddəs Yəhyanın Zühurları haqqında şərhlərə ətraflı toxunulmur. Oxucular kəhanətlərə dair ətraflı şərhlərlə Həzrət Bəhaullahın "Kitabi-İqan"ında, Mirzə Əbül-Fəzlin "Bəhai Dininin dəlilləri" kitabında, eləcə də Həzrət Bəhaullahın və Həzrət Əbdül-Bəhanın çoxsaylı məktublarında tanış ola bilərlər.

# XIV FƏSİL

# HƏZRƏT BƏHAULLAH VƏ HƏZRƏT ƏBDÜL-BƏHANIN KƏHANƏTLƏRİ

“Axı bu sözün Rəbbdən olub-olmadığını necə bilək?” deyə düşünə bilərsiniz. Əgər bir peyğəmbər Rəbbin adından danışanda dediyi söz həyata keçməzsə yaxud düz çıxmazsa, bilin ki, onu Rəbb söyləməmişdir. O peyğəmbərin dediklərinin səlahiyyəti yoxdur. Ondan qorxmayın.”

***Tövrat, Qanunun təkrarı, 18:21-22***

## ALLAH KƏLAMININ YARADICI QÜDRƏTİ

Allah və yalnız Allah, istədiyi hər bir şeyi etməyə qadirdir və Allah Zühurunun ən böyük sübutu dəyişdirməyə və yeniləşdirməyə və insanlar tərəfindən göstərilən hər cür müqavimət üzərində qələbə çalmağa qadir olan Onun kəlamının yaradıcı qüdrətidir. Peyğəmbərlərin kəlamı vasitəsilə Allah Öz İradəsini bəyan edir və bu kəlamın dərhal və ya müəyyən vaxtdan sonra yerinə yetməsi Peyğəmbərin haqlılığına və Onun İlhamının həqiqiliyinə ən bariz sübutdur.

“Yağış və qar göydən enir və oraya qayıtmır, lakin torpağı içirdir və onu məhsul verməyə və yetişdirməyə qadir edir ki, onu səpən adama toxum versin və yeyən kəsə çörək versin: dilimdən çıxan Mənim sözüm də elədir – o, əbəs yerə Mənə qayıtmır, lakin Mənə lazım olanı yerinə yetirir və Mən onu nə üçün göndərmişəmsə, onu başa çatdırır” *(Bibliya, Yeşaya Peyğəmbərin Kitabı, 55:10–17).*

“Yəhya isə zindanda Məsihin işlərini eşidərək şagirdlərindən ikisini göndərdi ki, Ona desinlər: “Gələcək olan Sənmisən, yoxsa başqasını gözləyək?” İsa da cavabında onlara dedi: “Gedin, eşitdiyiniz və gördüyünüz şeyləri Yəhyaya bildirin: Korlar görür, axsaqlar yeriyir, cüzamlılar təmizlənir, karlar eşidir, ölülər dirilir və yoxsullar firavan yaşayır. Və Mənim barəmdə aldanıb yolundan azmayanlar nə bəxtiyardır” *(İncil, Matta, 11:2-6).*

Baxaq görək, Həzrət Bəhaullahın kəlamlarının Allah kəlamlarına xas olan eyni yaradıcı qüvvəyə malik olmasını hansı dəlillər sübut edir.

Həzrət Bəhaullah dünya hökmdarlarına ümumbəşəri sülh yaratmağı tövsiyə edir; lakin onların yeritdiyi müharibə siyasəti 1869-1870-ci illərdə bir çox qədim sülalələrin devrilməsinə gətirib çıxardı və davam etdirilən hər bir müharibə getdikcə daha az fayda gətirməyə başladı və nəhayət, 1914-1918-ci illərin Avropa müharibəsinin tarixən ibrətamiz faktı göstərdi ki, müharibə həm qalib gələn, həm də məğlub olan üçün eyni dərəcədə dağıdıcıdır.[58]

Həzrət Bəhaullah həmçinin hökmdarları hakimiyyəti altında olanların etibarlı himayəçisi kimi hərəkət etməyə və öz siyasi hakimiyyətlərindən xalqın əsl ümumi rifahını yüksəltmək vasitəsi kimi istifadə etməyə çağırırdı. Bu töv-

58 İkinci dünya müharibəsi bunu bir daha subut etdi.

siyənin ardınca ictimai qanunvericilikdə baş verən tərəqqi misilsiz oldu.

Həzrət Bəhaullah həmçinin varlılıq və yoxsulluğun ifrat dərəcələrinin aradan qaldırılmasını buyurmuşdur və o vaxtdan bəri yaşayış minimumunun sabitləşməsi, gəlir və miras vergiləri vasitəsilə differensial vergi sisteminin tətbiq olunması məsələləri qanunvericilik orqanlarının başlıca qayğısına çevrilmişdir. O, həmçinin həm quldarlığın, həm də iqtisadi əsarətə məhkumluğun ləğv edilməsini məsləhət görürdü və o vaxtdan başlayaraq dünyanın hər yerində iqtisadi azadlıq uğrunda mübarizənin uğurlu gedişinə təkan verildi.

Həzrət Bəhaullah qadın və kişilərin eyni məsuliyyət, eyni hüquq və imtiyazlarla ifadə olunan bərabərliyini elan etdi və bu prinsip bəyan olunduğu vaxtdan bəri, əsrlərlə qadınları əsarət buxovları altında saxlayan zəncirlər qırılmış və qadınlar tez bir zamanda kişilərlə bərabər hüquqlu şəxslər kimi cəmiyyətdə onlara məxsus olan mövqeyi tutmağa başlamışlar.

O, bütün millətlərin əsasının bir olduğunu elan etdi: və o vaxtdan keçən dövr ərzində dünyanın hər yerində səmimi insanların ümumi məqsədlərə yetmək naminə dözümlülük, qarşılıqlı anlaşma və əməkdaşlıq sahəsində yeni nailiyyətlər qazanılmasında göstərdikləri qətiyyətli səylər buna bariz nümunədir. Təriqətçilik hər yerdə öz əhəmiyyətini itirir və onun tarixi mövqeyi getdikcə daha çox sarsılmağa başlayır.

Bu və ya digər dinin üstünlüyü və müstəsnalığı barəsindəki müddəalar da qapalı millətçiliyi gələcəkdə mövcud olmaq qabiliyyətindən məhrum edən elə həmin qüvvələr tərəfindən darmadağın edilir.

O, icbari və ümumi təhsili vacib buyurur və hamıya həqiqəti müstəqil axtarmağı məsləhət görərək, bunu mənəvi həyatın əsas keyfiyyəti sayır. Bu yeni hərəkətverici amil

müasir sivilizasiyanı başdan-ayağa bürümüşdür. Uşaqların icbari təhsili və eləcə də yaşlı nəslin savadlanması üçün əlverişli şəraitin yaradılması hər bir dövlətin siyasətində birinci dərəcəli əhəmiyyət kəsb edən məsələyə çevrilmişdir.

Öz vətəndaşları arasında düşüncə və vicdan azadlığını bilərəkdən məhdudlaşdırmağa çalışan dövlətlər bu siyasətləri ilə öz ölkələri daxilində inqilabi hərəkat, eləcə də onun sərhədlərindən kənarda inamsızlıq və həyəcan yaratmışlar.

Həzrət Bəhaullah beynəlxalq köməkçi dilin qəbul edilməsini buyurmuşdur. Və bunun ardınca doktor Zamenqof və başqaları sanki bu çağırışa cavab verərək öz həyatlarını və dühalarını bu böyük işə həsr etmişlər.

Ən əsası odur ki, Həzrət Bəhaullah bəşəriyyəti yeni ruhla ilhamlandıraraq, insanların ürəklərində və düşüncələrində yeni arzular və cəmiyyət üçün yeni ideallar oyatmışdır. Bəşər tarixinin yarandığı gündən bəri Bəhai Erasının (1844-cü il) əvvəlində baş verən hadisədən daha dramatik və həyacanlandırıcı hadisə olmamışdır.

İllər ötdükcə köhnəlmiş ideyalar, adətlər və münasibətlər sayəsində hələ də mövcud olan köhnə qaydalar elə üzülüb taqətdən düşür ki, bəşəriyyətin indi ən kəskin böhran dövrünü yaşadığı hal-hazırda hər bir düşüncəli insana aydın olur. Bir tərəfdən Həzrət Bəhaullahın Təliminin nurunun şəfəqləri insan təkamülünün əsl yolunu işıqlandırdığı üçün biz yaradıcı qüvvələrin yüksəlişini müşahidə edir, digər tərəfdən isə, bu Təlimin nuruna etinasızlıq göstərən və ya onun daxil olmasına maneələr yaradan bütün sahələrdə fəlakət və dağıntıların şahidi oluruq.

Bu və saysız-hesabsız digər dəlillər, nə qədər təsirli olsa da, onlar Həzrət Bəhaullahın mənəvi əzəməti haqqında tam təsəvvür yaratmır. Onun yer üzündəki həyatı və Onun ilhamverici sözlərinin sarsılmaz qüdrəti Allah İradəsinin yeganə, əsl meyarıdır.

Həzrət Bəhaullahın söylədiklərini və onların yerinə yetməsinin daha ətraflı öyrənilməsi buna əsaslı və inandırıcı sübutlar verir. Aşağıda biz deyilmiş bu xəbərlərdən bəzi misallar gətirəcəyik ki, onların həqiqiliyi şübhə oyatmır. Onlar hələ yerinə yetməmişdən əvvəl nəşr edilmişdir. Bu xəbərlərin əksəriyyəti Onun dövlət başçılarına göndərdiyi məktublarda da vardır.

Bu məktublar "Surətul-heykəl" kitabında toplanaraq, ötən yüzilliyin sonlarında ilk dəfə olaraq Bombeydə çap olunmuş və bu vaxtadək dəfələrlə yenidən nəşr edilmişdir. Biz həmçinin Həzrət Əbdül-Bəhanın söylədiyi, diqqəti xüsusilə cəlb edən xəbərlərdən də müəyyən misallar gətirəcəyik.

## III NAPOLEON

Həzrət Bəhaullah 1869-cu ildə III Napeleona göndərdiyi məktubda onu müharibə aparmaq hərisliyinə görə və Həzrət Bəhaullahın əvvəlki məktubuna etinasızlıq göstərdiyinə görə məzəmmət edir. Məktub aşağıdakı ciddi xəbərdarlıqlardan ibarətdir:

"Sənin əməllərin sənin ölkəni hərcmərcliyə çevirəcək və sənin əməllərinin əvəzi kimi hakimiyyət sənin əlindən çıxacaqdır və sən ağır itkilərə düçar olacaqsan. Əgər sən bu Təlimin müdafiəsinə qalxmasan və bu yolda Allah Ruhunun arxasınca getməsən, sənin ölkəndəki bütün millətləri həyəcan bürüyəcəkdir.

Doğrudanmı sənin təmtərağın səni təkəbbürlü edib? Həyatıma and olsun! Bu çox davam etməz, əksinə, əgər sən möhkəm ipdən yapışmasan, o keçib gedər. Biz sənin ardınca gələn həqarəti görürük, lakin sən buna fikir vermirsən. Əgər sən Onun Şərəf Taxtından səslənən çağırışı eşitsən, malik olduğun hər şeyi atmalı və Ona ucadan ca-

vab verməlisən: Mən buradayam, ey göylərdə və yerdə nə varsa hamısının Rəbbi olan Allah!” *(Həzrət Bəhaullahın bəyanı, s.34)*

Demək artıqdır ki, o zaman öz şöhrətinin zirvəsində olan III Napoleon bu xəbərdarlığa heç bir əhəmiyyət vermir. Qoşunlarının Berlini asanlıqla ala biləcəyinə möhkəm əmin olduğu üçün sonrakı il o Prussiya ilə müharibəyə başlayır. Lakin Həzrət Bəhaullahın əvvəlcədən xəbər verdiyi fəlakət onu yaxalayır. O, Saarbruk, Vissenburq, Mets döyüşlərində məğlubiyyətə uğrayır və Sedan ətrafında isə tamamilə darmadağın edilir. Sonra o, əsir alınaraq, Prussiyaya gətirilir və iki ildən sonra isə İngiltərədə acınacaqlı halda ömrünü başa vurur.

## ALMANİYA

Sonra Həzrət Bəhaullah III Napoleona qalib gələnlərə də buna bənzər ciddi xəbərdarlıq göndərdi, onlar isə bunu qulaqardına vurduqlarına görə, xəbərdarlıqlar dəhşətli şəkildə gerçəkləşdi. Ədirnədə yazmağa başladığı və Əkka dustaqlığının ilk illərində bitirdiyi “Kitabi-Əqdəs”də Həzrət Bəhaullah Almaniya İmperatoruna belə müraciət edir:

“Ey Berlinin kralı!.. Şöhrətinə görə səndən artıq olan və məqamına görə səndən yüksək olan o kəsi xatırla.[59] O haradadır və onun ölkəsi haradadır? Özünü gözlə və qəflət yuxusunda yatanlardan olma. Zülmkarların təqiblərindən çəkdiyimiz məşəqqətlər haqqında Biz ona xəbər verəndə, o Allahın müraciətinə arxa çevirdi. Buna görə də yerlə yeksan olanadək onu hər tərəfdən həqarət bürüdü.

.............................................................

59 III Napoleon

Ey kral! Onun barəsində və sənin kimi şəhərləri alan və insanlar üzərində hökmranlıq edənlər haqqında ciddi fikirləş. Mərhəmət Sahibi onları saraylardan qəbirə endirib. Ehtiyatlı ol və ağıllılar cərgəsinə qoşul!

Ey Reyn çayının sahilləri! Biz sizə baxdıq və intiqam qılınclarının sizə qarşı çevrildiyi vaxt sizi qan içində boğulan gördük; və siz bir dəfə də cəzalanacaqsınız. Bu gün hamı onun əzəmətini görsə də, artıq Biz Berlinin ah-naləsini görürük.” *(Həzrət Bəhaullahın bəyanı, s.51)*

Almaniyanın 1914-1918-ci illərdəki Böyük Müharibədə qələbələr qazandığı dövrdə və xüsusilə də 1918-ci ilin yazında almanların sonuncu böyük hücumu zamanı hamıya məlum olan bu vədlər bəhai hərəkatının İrandakı rəqibləri tərəfindən Həzrət Bəhaullahı nüfuzdan salmaq məqsədilə geniş istifadə edilirdi, lakin yenilməz almanların sürətli qələbələri qəfildən onlar üçün dəhşətli məhvedici fəlakətə çevrilən zaman bəhailərin düşmənlərinin bütün cəhdləri də onların özlərinə qarşı çevrildi və onların Həzrət Bəhaullahın söylədiyi xəbərlərə gətirdikləri məşhurluq Onun Şöhrətinin daha da ucalmasına səbəb oldu.

## İRAN

Müstəbid Nasirəddin şah hakimiyyəti öz qüdrətinin zirvəsində

olduğu bir zamanda yazdığı “Kitabi-Əqdəs”də Həzrət Bəhaullah İranın paytaxtı, Özünün doğma şəhəri Tehran haqqında belə buyurur:

“Ey ‘Ta’[60] diyarı! Heç bir şeydən kədərlənmə! Allah səni aləmdəkilərin sevinc mənbəyi etmişdir. Əgər O istəsə,

..............................................................

60 Tehran

sənin taxtını elə bir şəxsə bəxş edər ki, o, ədalətlə hökmranlıq edər və canavarların dağıtdığı Allahın qoyunlarını bir yerə yığar. Həmin şəxs sevinc və mehribanlıqla üzünü Bəha əhlinə tutar. O, Haqqın yanında məxluqatın cövhəri sayılar. Və hər zaman Allahın şərəfinə, eləcə də Əmr səltənətində olanların şərəfinə layiq görülər. Sevin, çünki Allah səni zühur şəfəqinin doğduğu nur üfüqü etmişdir və səni elə bir adla adlandırmışdır ki, onun vasitəsilə fəzl günəşi parlamış, yerə və göylərə işıq saçmışdır. Tezliklə sənin vəziyyətin dəyişiləcək və səndə xalq hakimiyyəti qurulacaq. Həqiqətən, sənin Rəbbin hər şeyi Bilən və əhatə edəndir. Rəbbinin mərhəmətinə əmin ol, O öz lütfkar nəzərlərini səndən çəkməyəcək. Tezliklə sən iztirabın ardınca rahatlıq tapacaqsan. Ecazkar kitabda işlər belə müəyyən olunub..." *(Həzrət Bəhaullah, Yazılarından Seçmələr, N55)*

Həzrət Bəhaullahın əvvəlcədən xəbər verdiyi kimi, İran iğtişaşlardan çıxmağa başladığı bir vaxtda, orada konstitutsiyalı idarəetmə yaranır və bəzi əlamətlər onun parlaq eraya qədəm qoyacağı vaxtın yaxınlaşdığını göstərir.

## TÜRKİYƏ

Həzrət Bəhaullah 1868-ci ildə Türkiyədə sürgündə olarkən, Türkiyə sultanı Əbdül-Əzizə və onun Baş vəziri Əli Paşaya Özünün ən ciddi və kəskin xəbərdarlıqlarını göndərir. O, Əkka həbsxanasından Sultana belə yazırdı:

"Ey özünü bütün insanlardan ən möhtəşəmi sayan... Sənin adının unudulacağı və sənin çox şey itirəcəyin gün uzaqda deyil. Səncə dünyanı Canlandıran və millətləri Barışdıran bu şəxs cinayətkar və qiyamçıdırmı? Sənin qəzəbinə, nifrətinə və təqibinə düçar olan bu qadınlar, uşaqlar və əzab çəkən körpələr hansı cinayətləri törədiblər?

Sən o insanları təqib edirsən ki, onlar sənin ölkəndə heç bir düşmənçiliyi qızışdırmayıb və heç kimi hökumətə qarşı qiyama təhrik etməyiblər. Xeyr, əksinə, onlar gecə-gündüz Allaha dua edərək özlərini dinc aparmışlar. Siz onların əmlaklarını tamamilə əllərindən almısınız və onları hər şeydən məhrum etmisiniz.

Allaha and olsun! Bir ovuc torpaq sizin malikanələrinizdən, sultanlığınızdan, şöhrətinizdən və hakimiyyətinizdən daha yüksəkdir və əgər Allahın İradəsi olarsa, O, sizi qum kimi səhraya səpələyər. Tezliklə Allahın qəzəbi sizi tutacaq, aranızda iğtişaş başlayacaq və sizin hakimiyyətiniz dağılacaqdır. Onda siz inildəyib ağlayacaqsınız... Sayıq ol, çünki Allahın qəzəbi hazırlanır və hökm Qələminin nə yazdığını tezliklə sən görəcəksən" *("Qərbin ulduzu", c.11, s.3).*

O, Əli-Paşaya belə yazırdı:

"Ey Rəis (Başçı)! Sənin etdiyin əməllər, Uca Cənnətdə Allahın Elçisi Məhəmmədi inildəmək məcburiyyətində qoymuşdur. Dünya şöhrəti səni elə təkəbbürlü edib ki, sən Səma Güruhlarını işıqlandıran o Şəxsdən üz çevirmisən. Tezliklə sən nə itirdiyini aydın başa düşəcəksən. Mən Qadir Allahın Əzəmət Sübhü məqamından Allahın sevimlilərinin gözlərini işıqlandıran təlimlə sənin yanına gəldiyim zaman, mənə pislik etmək üçün sən İran hökmdarı ilə birləşdin...

Sən elə fikirləşirdin ki, Allahın dünyada yandırdığı atəşi söndürə biləcəksən? Xeyr! Allahın əsl Mahiyyətinə and olsun, kaş ki, sən bilənlərdən olaydın. Əksinə, sən öz hərəkətinlə bu atəşin alovunu daha da gücləndirdin. Tezliklə o bütün dünyanı və onun sakinlərini bürüyəcəkdir... Tezliklə "Sirr diyarında" (yəni Ədirnədə) və digər şəhərlərdə hər şey dəyişəcək və onlar hakimlərin əlindən çıxacaqdır: iğtişaşlar başlayacaq, ah-nalə göyə ucalacaq və işlər pozulacaqdır və bütün bunlar təqibçilər ordusu tərə-

findən bu əsirlərə (Bəhaullaha və Onu müşayiət edənlərə) verilən əzablara görə olacaqdır.

Qaydalar dəyişəcək və vəziyyət elə ağır dərəcəyə çatacaqdır ki, səhrada qumlar inildəyəcək, dağlarda ağaclar ağlaşacaqdır və bütün məxluqların qanı axacaq və millət ən böyük fəlakətlərə düçar olacaqdır...

Qadir Allahın İradəsi belədir və nə göy və yer orduları Onun hökmünə qarşı dura bilər, nə də dünyanın şahları və hökmdarları Onun İradəsinə müqavimət göstərə bilərlər. Fəlakətlər bu Çırağın yanacağıdır və əgər siz başa düşənlərdənsinizsə, bunların sayəsində Çırağın alovu artır.

Zülmkar tərəfindən hər hansı bir düşmənçilik, həqiqətən, bu Təlimin xəbərçisinə çevrilir və onun sayəsində Allahın Əmri və Onun Təzahürü bütün dünya insanları arasında tanınır" *(Həzrət Bəhaullah, Rəis Lövhü)*

Eləcə də O "Kitabi-Əqdəs"də yazır:

"Ey iki dənizin sahilində yerləşən şəhər![61] Ədalətsizlik taxtı sənin qoynunda qurulub və səndə nifrət odu o qədər alovlanıb ki, səma sakinləri və Ən Uca Taxtın ətrafında olan kəslər sənin halına zar-zar ağlayırlar. Biz görürük ki, sənin qoynunda cahillər ağıllılar üzərində rəhbərlik edirlər və zülmət işıq üzərində qələbə çalır: həqiqətən, sən aşkar təkəbbür içindəsən.

Doğrudanmı sənin zahiri dəbdəbən səni lovğa edib? Məxluqların Rəbbinə and olsun, o tezliklə yox olacaqdır. Və sənin qızların, dul qalmış qadınların və səndə məskunlaşmış bütün tayfalar inildəməyə başlayacaqlar. Hər şeyi bilən və hər şeyi görən səni belə xəbərdar edir"

Həzrət Bəhaullahın çəkindirmək məqsədilə etdiyi xəbərdarlıqların nəşrindən sonra vaxtı ilə böyük olan bu im-

.........................................................

61 İstanbul

periyanın başına gələn fasiləsiz fəlakətlər verilən vədlərin yerinə yetdiyinə ən parlaq sübutdur.

## AMERİKA

Həzrət Bəhaullah 1873-cü ildə Əkkada nazil etdiyi "Kitabi-Əqdəs"də Amerikaya belə müraciət edir:

"Ey Amerikanın hakimləri, ölkənin prezidentləri və qubernatorları... Sübhçağı Yüksəkliyindən gələn sədanı eşidin: "Məndən başqa Danışan, Bilən Allah yoxdur. İncidilmiş məzluma ədalət əli ilə sığal verin və zülmkarı sizin hökmverən və Müdrik Allahınızın əmr qamçısı ilə cəzalandırın"

Həzrət Əbdül-Bəha Özünün Amerikadakı və digər ölkələrdəki çıxışlarında dəfələrlə əmin olduğunu, ümid bəslədiyini bildirmişdi ki, beynəlxalq sülhün bayrağı ilk dəfə Amerikada ucaldılacaqdır. 1912-ci il noyabrın 5-də Ohayo ştatının Sinsinat şəhərindəki çıxışında O, buyurmuşdur:

"Amerikalılar alicənab millətdir. O, dünyada sülhün bayraqdarıdır və öz nurunu hər yerə saçır. Heç bir millət xeyirxahlıqda və comərdlikdə onunla müqayisə edilə bilməz: digər millətlər ümumi sülh yaratmağa qadir deyillər. Lakin Allaha şükr olsun ki, Amerika bütün ölkələrlə sülh şəraitində yaşayır, buna görə də qardaşlıq və ümumi sülh bayrağını qaldırmağa layiqdir. Amerika ümumi sülh çağırışını elan edəndə, bütün qalan ölkələr deyəcəklər: "Bəli, biz də qəbul edirik!"

"Bütün ölkələrin millətləri birləşəcək və Həzrət Bəhaullahın əlli il bundan əvvəl elan edilmiş Təlimini həyata keçirəcəklər. Həzrət Bəhaullah Öz məktublarında bütün dünya parlamentlərinə təklif edirdi ki, millətlər arasındakı mübahisəli məsələlərin həll edilməsi və ümumi sülhün

yaradılması üçün özlərinin ən yaxşı və müdrik adamlarını beynəlxalq dünya parlamentinə göndərsinlər... Onda bütün Peyğəmbərlərin arzuladığı Ümümdünya Parlamenti yaranacaqdır" *("Qərbin ulduzu" jurnalı. c.6, s.81).*

Dünyanın heç bir ölkəsində Həzrət Bəhaullahın Təlimi belə iltifatla qarşılanmadığı halda Amerika Birləşmiş Ştatlarında Həzrət Bəhaullahın və Həzrət Əbdül-Bəhanın çağırışına əhəmiyyətli dərəcədə cavab verdilər. Amerikanın üzərinə qoyulan, bütün millətləri sülhə çağırmaq missiyası, qismən yerinə yetirilsə də, gələcək hadisələrin necə inkişaf edəcəyini bəhailər böyük maraqla gözləyirlər.[62]

## BÖYÜK MÜHARİBƏ

Həzrət Bəhaullah və Həzrət Əbdül-Bəha 1914-1918-ci illər müharibəsinin baş verəcəyi xəbərini dəfələrlə, əvvəlcədən heyrətamiz bir dəqiqliklə söyləmişlər. Həzrət Əbdül-Bəha 1912-ci il oktyabrın 26-da Kaliforniya ştatının Sakramento şəhərindəki çıxışında demişdir:

"Bu gün Avropa qitəsi silah cəbbəxanasına bənzəyir. Bu birinci qığılcımla partlamağa hazır olan barıt anbarıdır. Xüsusilə indi dünya qarşısında Balkan məsələsi durduğu bir vaxtda təkcə bir qığılcım nəticəsində bütün Avropanı alova bürüyə bilər".

1912-ci ilin oktyabrında Kaliforniyadakı başqa bir çıxışında Həzrət Əbdül-Bəha söyləmişdir: "İncildə, Allahdan nazil olmuş Vəhy bölməsinin 16-cı fəslində söyləndiyi kimi biz Harmegidon[63] müharibəsi ərəfəsindəyik.

.........................................................

62 Qeyd etmək maraqlıdır kı, Birləşmiş Millətlər Təşkilatının yaradılmasına dair iclas San-Fransiskoda keçirilmişdir.
63 İncil. Allahın Müqəddəs Həvari Yəhyaya verdiyi Vəhy.

Və cəmi iki il qalıb ki, təkcə bir qığılcım bütün Avropanı alovlandırsın.

Peyğəmbərin Kitabında və Daniel və Yəhyanın xəbərlərində deyildiyi kimi, bütün ölkələrdə baş verən ictimai həyəcanlar, eləcə də minillik imperiyadan əvvəl yaranan və hal-hazırda artıq özünü büruzə verən dini şəkkaklıq bütün Avropanı alovlandıracaqdır.

1917-ci ildə padşahlıqlar devriləcək və ictimai çevrilişlər dünyanı sarsıdacaqdır" *(Xanım Korina Trunun "Nordşor Revyu" jurnalına verdiyi məlumat, 26 sentyabr 1914-cü il, Çikaqo.)*.

Böyük Müharibə ərəfəsində, 1914-cü il avqustun 3-də Həzrət Əbdül-Bəha demişdir:

"Sivil millətlərin ümumi savaşı yaxınlaşır. Dünya ən fəlakətli qarşıdurma astanasındadır. Nəhəng ordular, milyonlarla insanlar səfərbərliyə alınır və sərhədlərdə yerləşdirilir. Kiçicik toqquşma onları dəhşətli müsibətə salacaq və dünyanı bəşər tarixində hələ heç zaman misli görünməmiş bir yanğın bürüyəcəkdir" *("Qərbin ulduzu" jurnalı, c.5, s.163)*.

## MÜHARİBƏDƏN SONRAKI İCTİMAİ FƏLAKƏTLƏR

Həzrət Bəhaullah və Həzrət Əbdül-Bəha dünyada hökm sürən inamsızlıq və mövhumatın, cahillik və xurafatın labüd nəticəsi kimi münaqişə və fəlakətlər, böyük ictimai çevrilişlər dövrünün gələcəyini əvvəlcədən xəbər vermişlər. Böyük Dünya Müharibəsi bu çevrilişlərin ancaq bir mərhələsi idi. Həzrət Əbdül-Bəha 1920-ci ilin yanvarında yazdığı məktubunda buyururdu:

"Siz, ey həqiqəti sevənlər! Siz, ey bəşəriyyətə xidmət edənlər!

Sizin şirin fikirlərinizin və yüksək məramınızın xoş rayihəsi Mənə tərəf əsdi və Mən hiss edirəm ki, qəlbim qeyri-ixtiyari olaraq Məni sizə bu məktubu yazmağa təhrik edir.

Ciddi düşünün, görün dünyanı bürüyən hərc-mərclik necə də kədərlidir: yer üzü insan qanına boyanmışdır, üstəlik o qanlı bir kütləyə çevrilib. Müharibə alovu elə dəhşətli yanğın törədib ki, buna bənzərini dünya nə qədim dövrlərdə, nə orta əsrlərdə, nə də yeni dövrdə görmüşdür.

Saysız-hesabsız insan kəllələri, sanki dən kimi müharibə dəyirmanında əzilmiş və üyüdülmüşdür və hətta bu qurbanların qisməti bundan da dəhşətli olmuşdur. Çiçəklənməkdə olan ölkələr xarabazara çevrilmiş, şəhərlər yerlə yeksan edilmiş, abad kəndlər viranə qoyulmuşdur. Atalar oğullarını itirmiş, oğullar atasız qalmış, analar öz oğullarına ağlayaraq acı göz yaşları tökmüş, uşaqlar yetim qalmış, evsiz-eşiksiz qadınlar sərgərdan gəzməyə başlamışlar. Bir sözlə, bəşəriyyət bütün sahələrdə tənəzzülə uğramışdır. Yetimlərin gur naləsi və anaların iztirablı iniltiləri ərşə qalxmışdır.

Bütün bu fəlakətlərin əsas səbəbi irqi, milli, dini və siyasi xurafatlardır və bütün bu xurafatların mənbəyi isə, istər dini, irqi, milli, istərsə də siyasi xarakterli olsun, köhnəlmiş və dərin kök salmış ənənələrdir. Bu ənənələr mövcud olanadək, insan cəmiyyətinin təməli davamsız olacaq, bəşəriyyətin özü isə daim təhlükəyə məruz qalacaqdır.

İndi, bütün yaradılmışların mahiyyəti açıqlanan və bütün məxluqların gizli sirləri aydınlaşan bu gözəl əsrdə, həqiqətin sübh şəfəqlərinin zülmətə bürünmüş dünyanı nura boyadığı zaman, bəşəriyyətə bu qədər zərər vuran belə amansız qırğına yol vermək mümkündürmü? Xeyr, Allaha and olsun bu yolverilməzdir!

İsa Məsih bütün insanları məhəbbətə və əmin-amanlığa çağıraraq Pyotra hökm etdi ki, qılıncı qınına qoysun.

Onun İradəsi və Onun Tövsiyəsi məhz belə idi. Lakin Onun adını daşıyanlar öz qılınclarını sıyırdılar. Onların əməlləri ilə Müqəddəs Kitabın mətni arasındakı fərq necə də böyükdür.

60 il bundan əvvəl Həzrət Bəhaullah İran səmasında sanki parlaq günəş tək şəfəq saçaraq bəyan etdi ki, dünya zülmətə bürünmüşdür və bu zülmət ölümcül nəticələr və qanlı müharibələr doğura biləcək hadisələrlə doludur.

Əkka həbsxanasında dustaq olan Həzrət Bəhaullah Almaniya imperatoruna müraciət edərək şübhə doğurmayan aydın ifadələrlə ona bildirir ki, dəhşətli müharibə baş verəcək və Berlində fəryad və ağlaşma səsləri ucalacaqdır. Beləcə də, Türkiyə Sultanının fərmanı ilə Əkka qalasında günahsız əsir olan Həzrət Bəhaullah aydın şəkildə və qətiyyətlə ona yazır ki, İstanbulda elə kəskin dərəcədə hərc-mərclik baş verəcəkdir ki, qadınların və uşaqların ah-naləsi ərşə ucalacaqdır. Bir sözlə, O dünyanın bütün hökmdarlarına və böyük dövlət başçılarına məktublar göndərmiş və Onun qabaqcadan dediyi bütün xəbərdarlıqlar yerinə yetmişdir. Müharibələrin qarşısını almaq üçün Onun Şərafətli Qələmindən nazil olan Təlim bütün dünyada geniş vüsət almışdır.

Onun Təliminin birinci müddəası – həqiqətin müstəqil axtarılmasıdır. O bəyan edir ki, kor-koranə təqlid insanın ruhunu öldürdüyü halda, həqiqəti tədqiq etmək dünyanı mövhumat zülmətindən azad edir.

Onun Təliminin ikinci müddəası – bütün bəşəriyyətin birliyidir. Bütün insanlar – vahid sürüdür, Allah isə onları sevən Çobandır. Allah insanlara Özünün böyük mərhəmətini bəxş edir və onların hamısını bir tam hesab edir. “Allahın yaratdığı məxluqlar arasında sən fərq tapa bilməzsən. Hamı Onun quludur və Onun nemətlərinə möhtacdır”.

Onun Təliminin üçüncü müddəası – dinin ən güclü qala olmasıdır. O, düşmənçilik və nifrətə deyil, birliyə xid-

mət etməlidir. Əgər din düşmənçilik və nifrətə səbəb olursa, belə dinin olmaması daha yaxşıdır, çünki din xəstəyə verilən dərman kimidir. Əgər dərman xəstəliyi kəskinləşdirirsə, ondan imtina etmək daha yaxşıdır. Həmçinin dini, irqi, milli və siyasi xurafatlar bəşər cəmiyyətinin əsaslarının dağıdıcısıdır. Onların hamısı bəşəriyyəti qan tökülməsinə və məhvə doğru aparır. Nə vaxta qədər ki, bu xurafatlar mövcuddur, müharibə təhlükəsi kəsilməyəcəkdir. Bütün bunlardan azad olmağın yeganə vasitəsi ümumi sülhdür və bu sülh bütün dövlətlərin və millətlərin nümayəndələrindən ibarət Ali Tribunalın təsis edilməsi sayəsində əldə ediləcəkdir.

Bütün milli və beynəlxalq məsələlərə bu tribunalda baxılmalı və onun hər hansı bir qərarı müzakirəsiz yerinə yetirilməlidir: əgər hər hansı bir dövlət və ya millət bu tribunalın qərarını inkar edərsə, onda bütün dövlətlər birlikdə ona qarşı çıxmalıdırlar.

Onun Təliminin digər müddəalarından biri də kişi və qadınların hüquq bərabərliyidir və Onun Qələmindən nazil olmuş xeyli başqa prinsiplər vardır. İndi aydın olmuşdur ki, bu prinsiplər insan həyatının və onun əsl ruhunun təcəssümüdür.

Və siz insan cəmiyyətinin xadimləri kimi indi bütün qəlbinizlə və ruhunuzla öz səylərinizi bəşəriyyəti materializm dünyasının zülmətindən və insanların mövhumat düşüncələrindən xilas olunmasına sərf etməlisiniz ki, onlar İlahi Səltənətin nuru ilə işıqlansınlar.

Allaha şükr olsun ki, siz dünyada mövcud olan bütün qaydalarla, qanunlarla və prinsiplərlə tanışsınız: indi Həzrət Bəhaullahın yuxarıda deyilən Təlimindən başqa heç nə bəşəriyyətə əmin-amanlıq və yer üzünə sülh gətirə bilməz. Onlarsız bu zülmət heç zaman yox olmayacaq və bütün bu sağalmaz xəstəliklər müalicə edilməyəcəkdir, əksinə, onlar günü-gündən daha da kəskinləşəcəklər. Balkan dövlət-

ləri sakitləşməyəcəklər və onların vəziyyəti pisləşəcəkdir. Məğlub edilmiş ölkələr razılaşmayacaq və hər hansı bir fürsət düşən kimi müharibə ocağını yenidən yandırmağa çalışacaqlar.

Yeni beynəlxalq hərəkatlar öz ideya və məqsədlərini həyata keçirmək üçün bütün qüvvələrindən istifadə edəcəklər. Solların hərəkatı böyük əhəmiyyət və təsir qüvvəsinə yiyələnəcəkdir. Beləliklə, nurlu qəlblə, səma ruhu ilə, Allahın gücü və Allahın köməyi ilə dünyada Allah nemətlərinin daşıyıcısı olmağa və bütün bəşəriyyətə rifah və əmin-amanlıq gətirməyə çalışın" *(Əbdül-Bəha, 1920-ci ilin yanvarında yazdığı məktubdan)*

Həzrət Əbdül-Bəha 1919-cu ilin noyabr ayındakı söhbətində demişdi:

"Həzrət Bəhaullah dəfələrlə xəbər vermişdi ki, bir vaxt gələcək, dinsizlik dünyanı bürüyəcək və onu hərc-mərcliyə düçar edəcəkdir. Bu hərc-mərcliyin səbəbi isə hələ azadlığa hazır olmayan xalqlara verilən ifrat azadlıq olacaqdır.

Buna görə də xalqların öz mənafeləri naminə bu hərc-mərclikləri və həyəcanları aradan qaldırmaq üçün məcburi tədbirlərin tətbiq edildiyi idarəetmə üsuluna qayıtmaq lazım gələcəkdir.

Aydındır ki, hər bir millət öz müqəddəratını təyin etmək hüququna və fəaliyyət azadlığına tam nail olmağı arzulayır, lakin onlardan bəziləri buna hələ hazır deyildir. Dünyada üstünlük təşkil edən imansızlıq hərc-mərcliyə və qanunsuzluğa səbəb olur. Mən həmişə demişəm ki, Böyük Müharibədən sonra edilən sülh təklifləri günəşin çıxması deyil, ancaq dan yerinin zəif işartısıdır".

## İLAHİ SƏLTƏNƏTİN BAŞLANMASI

Zamanın bütün bu narahatlıqlarına baxmayaraq, Allahın Əmri uğur qazanacaqdır. Ayrı-ayrı şəxslərin xu-

dpəsəndliklə yaşamaq uğrunda apardıqları mübarizə və ya partiya mənafeləri, təriqətçilik və ya milli məqsədlərin güdülməsi ucbatından doğan fəlakətlər insanları Allah Kəlamının buyurduğu vasitələrə müraciət etmək məcburiyyətində qoyacaqdır. Bədbəxtliklər nə qədər çox olarsa, insanlar da bir o qədər çox yeganə, düzgün vasitəyə müraciət edəcəklər. Həzrət Bəhaullah Nasirəddin şaha ünvanladığı məktubunda yazır:

"Allah bədbəxtliyi bu yaşıl otlağa səhər yağışı, Onun göyü və yeri işıqlandıran Çırağı üçün fitil kimi müəyyən etmişdir... Bədbəxtliklər vasitəsilə Onun Əmri ucalır və Onun Şərəfi şəfəq saçır. Onun bütün keçmiş zamanlarda və indiki dövrdə mövcud olan Qanunu belədir".

Həzrət Bəhaullah və Həzrət Əbdül-Bəha ən aydın ifadələrlə qabaqcadan xəbər vermişlər ki, tezliklə bütün maddi varlıqlar üzərində qələbə qazanılacaq və bunun ardınca Ən Böyük Sülh qurulacaqdır. Həzrət Əbdül-Bəha 1904-cü ildə yazırdı:

"Bil ki, məhrumiyyətlər və bədbəxtliklər günü-gündən artacaq və insanlar əzab çəkəcəklər. Hər yerdə sevinc və xoşbəxtlik qapıları bağlanacaqdır. Dəhşətli müharibələr başlanacaqdır. Bütün arzuların puç olması və ümidsizlik insanları elə bürüyəcəkdir ki, onlar Allaha müraciət etməyə məcbur olacaqlar. Bu zaman böyük xoşbəxtlik nuru bütün üfüqləri işıqlandıracaq və hər yerdən "Ya Bəha-ül-Əbha" sədaları ucalacaqdır" *("Müharibə və sülh" haqqında məcmuədə verilmiş Əbdül-Bəhanın L.D.B.-ya yazdığı məktubdan, s.187)*

1914-cü ilin fevralında Ondan "bu Təlimi hər hansı bir böyük dövlət tanıyırmı?" – deyə soruşulanda, Həzrət Əbdül-Bəha belə cavab vermişdi: "Dünyanın bütün millətləri dini qəbul edəcəklər. Əgər siz bu Təlimin yarandığı ilkin vaxtdakı vəziyyətini indiki dövrdəki vəziyyəti ilə müqayisə etsəniz, onda görərsiniz ki, Allah Kəlamı necə

tez təsiretmə gücünə malikdir və indi Allahın Əmri bütün dünyanı necə bürümüşdür. Şübhəsiz, hamı Allah Əmrinin kölgəsinə toplaşacaq” *(“Qərbin ulduzu” jurnalı, c.9, s.31).*

Həzrət Əbdül-Bəha bildirir ki, bəşəriyyətin birliyi bu əsr ərzində baş verəcəkdir. Məktublarının birində O yazır:

“Bəşər ailəsinin bütün üzvləri, istər millətlər olsun və ya hökumətlər, şəhərlər və ya kəndlər olsun, onlar getdikcə daha çox bir-biri ilə qarşılıqlı surətdə bağlanırlar. Ona görə ki, heç kim müstəqil və sərbəst qala bilməz və xüsusilə də ona görə ki, siyasi münasibətlər bütün xalqları və millətləri birləşdirməyə başlamışdır, ticarət, sənaye, kənd təsərrüfatı və mədəniyyət əlaqələri isə gündən-günə möhkəmlənməyə başlamışlar. Deməli, bütün bəşəriyyətin birliyinin həyata keçirilməsi indi mümkün olmuşdur. Doğrudan da bu, ecazkar dövrün, bu şərəfli əsrin möcüzələrindən biridir. Ona görə ki, nur əsri olan bu əsrə yeganə və müqayisə edilməz qüdrət, dəbdəbə və şöhrət bəxş edilmişdir. Deməli, hər gün təəccüb doğuracaq dərəcədə yeni-yeni möcüzələr baş verir və nəhayət, biz bəşər cəmiyyətini öz şəfəqləri ilə işıqlandıran həqiqət Çırağını görəcəyik”.

Daniel Peyğəmbərin Kitabının son iki ayəsində belə müəmmalı sözlərə rast gəlirik: “Gözləyən və min üç yüz otuz beş günə çatan kəs bəxtiyardır. Sənsə öz sonuna doğru get və sakitləşərsən və günlərin sonunda sənin qismətinə düşəni almaq üçün qalxarsan” *(Bibliya, Daniel Peyğəmbərin Kitabı, 12:12-13).*

Bir çox alimlər bu sözlərin mənasını açmağa cəhd göstərmişlər. Bu sətirlərin müəllifinin də iştirak etdiyi süfrə arxasındakı söhbətlərin birində Həzrət Əbdül-Bəha Daniel Peyğəmbərin qabaqcadan söylədiyi xəbərlərin İslam erasının başlanması tarixindən yerinə yetdiyini bildirdi.

Həzrət Əbdül-Bəhanın məktublarından aydın olur ki, vəd edilmiş bu xəbər Həzrət Bəhaullahın Öz Missiyasını Bağdadda bəyan etməsinin yüz illiyinə, yəni 1963-cü ilə

aiddir. "İndi Daniel Peyğəmbərin: "Gözləyən və min üç yüz otuz beş günə çatan kəs bəxtiyardır" ayələrinin sən soruşduğun şərhinə gəldikdə isə bu günlər qəməri tarixi ilə deyil, günəş ili ilə hesablanmalıdır. Ona görə ki, bu hesablamalara görə həqiqət Günəşinin Doğacağı gündən bir əsr keçəcək və bu zaman İlahi Nur Şərqdən Qərbədək dünyanı şəfəqlərə boyayacaqdır. Onda, həmin gün möminlər sevinəcəklər".

## ƏKKA VƏ HAYFA

1914-cü il fevralın 14-də Hayfada bəhai zəvvarlar üçün tikilmiş evlərin birinin pəncərəsi qarşısında oturan zaman Həzrət Əbdül-Bəhanın Əkka və Hayfa şəhərləri haqqında söylədiklərini Həzrət Əbdül-Bəhanın katibi Mirzə Əhməd Söhrab öz gündəliyində belə qeydə almışdır.

"Zəvvarlar evindən açılan mənzərə olduqca gözəldir, xüsusilə ona görə ki, o Həzrət Bəhaullahın məzarı qarşısında tikilmişdir. Gələcəkdə Əkka və Hayfa arasındakı ərazidə binalar tikiləcək və bu iki şəhər birləşərək böyük bir şəhərin iki rayonuna çevriləcəkdir. İndi bu ərazilərə baxanda, Mən aydın görürəm ki, bura dünyanın birinci dərəcəli ticarət mərkəzlərindən biri olacaqdır.

Bu böyük yarımdairəvi körfəz ən gözəl limana çevriləcək və dünyanın bütün ölkələrinin gəmiləri özlərinə burada dayanacaq və mühafizə tapacaqlar. Böyük gəmilərin hər biri yer kürəsinin hər tərəfindən minlərlə kişi və qadını öz göyərtəsində bu limana gətirəcək. Dağlarda və düzənliklərdə ən dəbdəbəli gözəl binalar və saraylar tikiləcək, sənaye müəssisələri və ictimai idarələr açılacaqdır.

Burada bütün xalqların mədəniyyətinin və sivilizasiyasının ən yaxşı nümunələri, onların rayihəsi birləşəcək və insanları qardaşlığa aparan yolu işıqlandıracaqdır. Hər

tərəfdə ecazkar bağçalar, meyvə bağları, meşəliklər və parklar salınacaqdır. Gecələr bu nəhəng şəhər elektrik işığına qərq olacaqdır. Əkkadan başlamış Hayfayadək uzanan bütün liman başdanbaşa işıqlandırılmış yolu xatırladacaq. Gəmilərə yol göstərmək üçün Kərmil dağının hər iki tərəfində ən güclü projektorlar qurulacaqdır.

Kərmil dağının özü zirvəsindən tutmuş ətəyinədək işıq dənizinə qərq olacaqdır. Kərmil dağının zirvəsində olan adam, eləcə də gəmilərdəki sərnişinlər dağa yaxınlaşdıqca dünyanın ən gözəl və əzəmətli mənzərəsini görəcəklər. Dağın hər tərəfindən "Ya Bəha-ul-Əbha" simfoniyası eşidiləcək və sübh çağından qabaq məlahətli səslərlə müşayiət edilən valehedici musiqi Qüdrətlinin Taxtına ucalacaqdır.

Həqiqətən, Allahın yolu sirli və anlaşılmazdır. Şiraz və Tehran, Bağdad və İstanbul, Ədirnə və Əkka və Hayfa arasında nə kimi zahiri əlaqə var?[64]. Allah-taala səbrlə, addım-addım, Özünün qabaqcadan müəyyənləşdirmiş planına uyğun olaraq elə fəaliyyət göstərir ki, Peyğəmbərlərin əvvəlcədən söylədikləri, ölçüb-biçdikləri xəbərlər yerinə yetsin. Xilaskarın minilliyi barəsində vəd bütün Tövratda qızıl xətlə keçir və belə müəyyən edilmişdi ki, Allah Özünə münasib bildiyi vaxtda onların yerinə yetməsinə rəvac verəcəkdir. Hətta bircə söz belə şərh edilməmiş və icra edilməmiş qalmayacaqdır" (Mirzə Əhməd Söhrabın gündəliyindən).

64 Həzrət Babın və Həzrət Bəhaullahın olduqları şəhərlər.

# XV FƏSİL

# KEÇMİŞ VƏ GƏLƏCƏK

*“Ey dostlar, şəhadət verirəm ki, nemət tamam, sübut kamil, bürhan zahir və dəlil sabit oldu. Görək səyləriniz inqita yolunda nə zahir edəcəkdir. Beləcə sizə, göydə və yerdə olanlara ilahi nemət təkmil oldu. Aləmlərin Rəbbi olan Allaha həmd olsun.”.*

***Həzrət Bəhaullah, Gizli Kəlamlar***

## TƏLİMİN YAYILMASI

Təəssüflər olsun ki, bu qısa oçerkdə Bəhai Dininin dünyaya yayılmasını təfərrüatı ilə təsvir etmək qeyri-mümkündür. Bu maraqlı mövzuya xeyli fəsil həsr etmək olar və bu dinin pionerləri haqqında, onun qurban getmiş şəhidləri barəsində ürəkləri həyəcanlandıran çoxlu hekayələr də danışmaq olar, lakin biz ən qısa və ümumi məlumat verməklə kifayətlənəcəyik.

İranda bu dinin ilk tərəfdarları öz həmyerliləri tərəfindən ən ağır təqiblərə və məşəqqətlərə məruz qaldılar,

lakin onlar bu fəlakətləri və sınaqları ən böyük rəşadətlə, yenilməzlik və səbrlə qarşıladılar. Onların ilk sınaqları öz qanlarının tökülməsi oldu, belə ki, onlardan minlərlə insan şəhid edildiyi zaman, minləri amansızcasına döyülür, həbsxanalara atılır, əmlakları talanır, didərgin salınır və müxtəlif təqiblərə məruz qalırdılar.

İranda altmış ildən artıq bir dövr ərzində əgər bir kəs Həzrət Baba və ya Həzrət Bəhaullaha olan sədaqətini açıq bildirsəydi, bu zaman o, öz əmlakını, azadlığını və hətta həyatını böyük təhlükə altına qoymuş olardı. Toz dumanı günəşin çıxmasının qarşısını kəsə bilmədiyi kimi, bu azğın, hiddətli düşmən münasibəti də Təlimin inkişafına mane ola bilmədi.

Bütün İran[65] ərazisində, demək olar ki, şəhərlərin, kəndlərin, obaların hamısında və hətta köçəri tayfaların içində də indi bəhailərə rast gəlmək olar. Bəzi kəndlərin bütün əhalisi bəhailərdən ibarətdir və digər yerlərdə isə əhalinin böyük əksəriyyətini bəhailər təşkil edirlər.

........................................................

65 Lord Kurzon 1892-ci ildə nəşr etdirdiyi "İran və İran məsələsi" kitabında yazır: "Ən sadə hesablamalara görə, hal-hazırda babilərin sayı yarım milyondur. Mən isə məlumatlı adamlarla etdiyim söhbətlərə istinadən, belə qənaətə gəlmək fikrindəyəm ki, onların sayı bir milyona qədərdir. Onlara cəmiyyətin bütün təbəqələrinə mənsub olan adamlar arasında – saray nazirlərindən və saray əyanlarından tutmuş, süpürgəçi və mehtərlərədək – rast gəlmək olur. Müsəlman ruhani təbəqəsinin özü üçün də onların apardıqları fəaliyyət heç də az əhəmiyyət kəsb etmir.
Əgər Babilik hərəkatı indiki sürətlə inkişafını davam etdirərsə, onda ehtimal ki, bir zaman, o müsəlmanlığı İran səhnəsindən sıxışdıracaqdır. Mənim fikrimcə, əgər Babilik hərəkatı hər hansı bir düşmən dinin bayrağı altında zühur etsəydi, bu belə olmazdı. Lakin onun tərkibi, hücum etdiyi düşərgənin ən yaxşı döyüşçülərindən təşkil edildiyindən, ehtimal etməyə kifayət qədər əsaslar var ki, o, son nəticədə qələbə çalacaqdır.

***İran və İran məsələsi, c.1.***

Əvvəllər tamamilə müxtəlif, bir-birinə düşmən təriqətlərə mənsub olan bu insanlar bir yerə toplanaraq indi dostlardan ibarət böyük cəmiyyət yaratmışlar. Onlar təkcə bir-birini deyil, bütün bəşər cəmiyyətinin birliyi və əzəməti üçün, hər cür mövhumatın və münaqişələrin aradan qaldırılması üçün və yer üzündə İlahi Səltənətin qurulması üçün çalışan, bütün insanları özlərinə qardaş bilirlər.

Bundan da böyük möcüzə ola bilərmi? Yalnız bir möcüzə ola bilər ki, o da bu insanların öz üzərlərinə götürdükləri bu vəzifəni bütün dünya səviyyəsində yerinə yetirməkdir. Bəzi açıq-aydın əlamətlər göstərir ki, bu ən böyük möcüzə də baş verəcəkdir. Bu təlim heyrətamiz həyatilik nümayiş etdirir və bütün bəşər cəmiyyətinin canına sanki maya kimi daxil olaraq, bütün insanları və cəmiyyətləri inkişaf etdikcə dəyişdirir.[66]

Əvvəlki dinlərin çoxsaylı ardıcılları ilə müqayisədə bəhailərin nisbətən xeyli az olması sanki əhəmiyyətsiz məsələdir. Bu insanlar əmindirlər ki, Yeni Qaydaya xidmət etmək üçün İlahi Qüdrət onlara nemət və yüksək imtiyazlar bəxş etmişdir və yaxın gələcəkdə Şərq və Qərb xalqları onlara qoşulacaqdır.

Həzrət Bəhaullahın Təlimi sayəsində onun mənbəyi və bilavasitə təsiri haqqında heç nə bilməyən bütün dünya ölkələri adamlarının pak ürəklərində Müqəddəs Ruh əks olunsa da, biz Onun bu və ya digər prinsiplərinin həyata keçirilməsi sahəsindəki bir sıra cəhdləri açıq müşahidə edərkən, köhnə quruluşun əsaslarının davamsızlığı bizi belə bir qənaətə gətirir ki, İlahi Səltənətin ideyaları yalnız bəhai cəmiyyəti çərçivəsində səmərə verə bilər.

66 Bəhailərin sayı hər il durmadan artır. 1979-cu ildə dünyada bəhailərin yaşadıqları yerlərin sayı 103 minə çatmışdır.

# HƏZRƏT BAB VƏ HƏZRƏT BƏHAULLAHIN PEYĞƏMBƏRLİKLƏRİ

Biz Həzrət Babın və Həzrət Bəhaullahın həyatı ilə nə qədər çox tanış oluruqsa, Onların Təlimini nə qədər çox öyrəniriksə, Onların əzəmətinə Onların İlahi ilhamını təsdiqləməkdən başqa, digər bir izah tapılmasının qeyri-mümkünlüyünə bir o qədər çox əmin oluruq.

Onlar fanatizm və cahillik mühitində böyüdülmüş və yalnız sadə təhsil almışdılar. Onların Qərb mədəniyyəti ilə heç bir əlaqəsi olmamışdır. Onların arxalarında nə bir siyasi partiya, nə də maliyyə qüvvəsi var idi. Onlar insanlardan heç nə tələb etmədikləri halda, onlardan yalnız ədalətsizlik və zülm görmüşlər.

Dünyanın qoluzorluları Onlara etinasızlıq göstərmiş, ya da Onlara qarşı çıxmışlar. Onlar Öz missiyalarını yerinə yetirmək yolunda ən ağır sınaqlara dözmüş və şallaqla döyülməyə, işgəncələrə, həbslərə məruz qalmışlar. Onlar Allahdan başqa heç kimdən heç bir kömək almadan təkbaşına bütün dünyaya qarşı dayanmışlar, lakin Onların qələbəsi şübhəsiz və parlaqdır.

Onların ideyalarının əzəməti və ucalığı, Onların alicənablığı və fədakarlığı, Onların sarsılmaz cəsarəti və qətiyyəti, Onların heyrətamiz müdrikliyi və təfəkkürü, Onların Şərq və Qərb xalqlarının ehtiyaclarını başa düşmək bacarığı, Onların Öz ardıcıllarında tam sədaqət və ruh yüksəkliyi oyatmaq qüdrəti, Onların nüfuzunun dərinliyi və gücü, Onların təməlini qoyduqları hərəkatın tərəqqisi – şübhəsiz ki, bunların hamısı Onların İlahiliyinin inandırıcı dəlilləri edir, eləcə də din tarixinin bizə təqdim edə bildiyi inkaredilməz sübutlardır.

## ŞANLI GƏLƏCƏK

Bəhai Dininin verdiyi müjdə İlahi nemətlərin perspektivini, bəşəriyyətin gələcək tərəqqisini açıqlayır və şübhəsiz ki, bəşər tarixində hələ görünməmiş, ən böyük və şərəfli olan bu Vəhy bütün keçmiş zühurların tamamlanması və yerinə yetməsidir. Bu Vəhyin məqsədi bəşəriyyəti yeniləşdirməkdən, "yeni səma və yeni yer" yaratmaqdan başqa bir şey deyildir.

Bu, İsa Məsihin və bütün Peyğəmbərlərin öz həyatlarını həsr etdikləri həmin işin özüdür. Və bu dahi müəllimlər arasında rəqabət yoxdur. Bu məqsəd hər hansı bir ayrıca götürülmüş Vəhylə deyil, bütün vəhylərin birgə fəaliyyətləri ilə həyata keçiriləcəkdir. Bununla əlaqədar olaraq Həzrət Əbdül-Bəha buyurur:

"Həzrət İsanı yüksəltmək üçün İbrahim Peyğəmbəri alçaltmaq lazım deyil. Eləcə də Həzrət Bəhaullahı ucaltmaq üçün İsa Peyğəmbəri alçaltmağa ehtiyac yoxdur. Biz haradan intişar etməsinə baxmayaraq, İlahi həqiqəti gülər üzlə qarşılamalıyıq. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bütün bu dahi Peyğəmbərlər İlahi kamillik bayrağını yüksəltməyə gəlmişlər. Onların hamısı İlahi İradənin həmin o yeganə səmasının günəşləridir. Onların hamısı dünyaya İşıq saçırlar" *("Qərbin ulduzu" jurnalı, c.3, s.8).*

Bu iş – Allah işidir və Allah bu yaradıcı işin yerinə yetirilməsində yalnız Peyğəmbərləri deyil, eləcə də bütün bəşəriyyəti fəal iştirak etməyə çağırır. Biz Allahın çağırışından imtina etsək də, bununla biz Onun İşinin irəliləməsinə mane ola bilmərik, belə ki, Allahın İstəyi hökmən yerinə yetəcəkdir. Əgər biz öz vəzifələrimizi yerinə yetirməsək belə, Allah-taala Öz İstəyinin yerinə yetməsi üçün başqa vasitələr yarada bilər və beləliklə biz öz həyatımızın əsl məqsədindən və mahiyyətindən məhrum olarıq.

Allaha itaət etmək, yəni Onu sevmək və Onun bəndəsi olmaq, Onun İradəsinin məcrası və Onun yaradıcı gücünün vasitəçisi olmaq lazımdır ki, Onun İlahi və zəngin həyatından başqa özündə heç bir digər həyat təsəvvür etməyəsən. Həzrət Bəhaullahın Təliminə uyğun olan bu həyat tərzi insan varlığının ən parlaq və şərəfli kamilliyidir.

İnsanlar mahiyyət etibarı ilə qəlbən təmizdirlər, çünki onlar "Allahın bənzərində və surətində" yaradılmışlar və həqiqəti tapdıqdan sonra hökmən yanlış yoldan çəkinəcəklər. Həzrət Bəhaullah bizi əmin edir ki, Allahın çağırışı tezliklə hamı tərəfindən qəbul ediləcək, insanların hamısı sədaqətli və itaətkar olacaqlar. Bu zaman bütün kədərlər sevincə dönəcək və bütün xəstəliklər şəfa tapacaqdır. Və bu "dünyanın səltənəti" Rəbbimizin və Onun Xilaskarının Səltənəti olacaq; Və O, əbədi olaraq hökmranlıq edəcəkdir" *(İncil, Vəhy, 11:15)*

Nəinki yer üzündə yaşayanlar, göydəkilərin və yerdəkilərin hamısı Tək Allaha qovuşacaq və Onda əbədi sevinc tapacaqlar.

## DİNİN YENİLƏNMƏSİ

İndiki beynəlxalq vəziyyətin ortaya qoyduğu çoxsaylı dəlillər onu göstərir ki, xırda istisnalarla, bütün dinlərin ardıcılları öz dinlərinin mahiyyətini dərk etmək üçün yeni dirçəlişə ehtiyac duyurlar: belə dirçəliş Həzrət Bəhaullahın Təliminin tərkib hissəsidir. O xristianları daha yaxşı xristian, müsəlmanları əsl müsəlman etmək üçün gəlmişdir.

O, həm də bütün Peyğəmbərlərin vəd etdiyi daha böyük Zühuru yerinə yetirir; bu Zühur həmin Peyğəmbərlərin işini başa çatdırmaq və tamamlamaq üçün "vaxtı yetişəndə" baş verməlidir. O, sələflərindən fərqli olaraq

mənəvi həqiqətləri daha mükəmməl açıqlayır və bizim dünyada rastlaşdığımız bütün fərdi və ictimai problemlərə münasibətdə Allahın İradəsini aşkar edir.

O, yeni başlanan erada dünyanın bütün tələblərinə müvafiq olan Təlim gətirmişdir. Bu ümumdünya Təlimi yeni və daha yaxşı sivilizasiya qurulması üçün möhkəm zəmin təşkil edəcəkdir.

## YENİ VƏHYƏ TƏLƏBAT

Bütün bəşəriyyətin birliyi, dünyanın müxtəlif dinlərinin yaxınlaşması, dinlə elmin barışması, ümumdünya sülhünün yaradılması, beynəlxalq dilin və beynəlxalq arbitraj məhkəməsinin təsis edilməsi, qadın azadlığı, ümumi təhsilin həyata keçirilməsi, nəinki quldarlığın, eləcə də sənaye quldarlığının ləğv edilməsi, hər bir fərdin lazımi hüquq və azadlığını təmin edən vahid insan cəmiyyətinin təşkili – ən ümdə əhəmiyyətə və fövqəladə çətinliklərə malik olan bütün bu problemlərə münasibətdə xristianlar, müsəlmanlar və digər dinlərin ardıcılları hələ də müxtəlif və çox zaman da bir-birinə zidd fikirlərdə qalmaqda davam edirlər, lakin Həzrət Bəhaullah elə dəqiq və aydın prinsiplər zahir etmişdir ki, onların hamı tərəfindən qəbul edilməsi, şübhəsiz, dünyanı Cənnətə çevirəcəkdir.

## HƏQİQƏT HAMI ÜÇÜNDÜR

Çoxları bu fikirlə razılaşmağa tam hazırdır ki, Bəhai Təlimi İran və Şərq üçün olduqca gözəl dindir, amma Qərb xalqları üçün o qədər də vacib deyildir və ya hətta sadəcə olaraq faydasızdır. Belə düşünənlərdən birinə Həzrət Əbdül-Bəha demişdir:

“Həzrət Bəhaullahın Təliminə gəldikdə isə bunları demək lazımdır; insanların rifahına aid olan bütün nə varsa – İlahidəndir və İlahidən olan bütün nə varsa, insanların rifahına xidmət edir. O şey ki, həqiqətdir – o hamı üçündür, o şey ki, həqiqət deyildir – o heç kimə lazım deyil. Deməli, ümumbəşəri rifah üçün olan İlahi Təlim yalnız Şərqə və ya yalnız Qərbə mənsub ola bilməz, çünki həqiqət Günəşi həm Şərqi, həm də Qərbi işıqlandırır, həm Şimalı, həm də Cənubu isidir: bir qütb ilə digər qütb arasında heç bir fərq yoxdur.

İsa Məsihin Zühuru zamanı romalılar və yunanlar belə düşünürdülər ki, Onun Təlimi yalnız yəhudilər üçündür. Onlar belə hesab edirdilər ki, kamil sivilizasiyaya malikdirlər, İsa Məsihdən öyrənməli heç bir şey yoxdur və belə yalnış təsəvvürə malik olanların əksəriyyəti Onun mərhəmətindən məhrum oldular. Bil ki, xristianların prinsipləri və Həzrət Bəhaullahın tövsiyələri oxşardırlar və onların yolu da eyni bir yoldur.

Hər bir gün tərəqqi deməkdir: vaxt vardı ki, bu İlahi qaydalar rüşeym halında idi, sonra isə yeni doğulmuş körpə oldu, sonra uşağa, sonra kamil gəncə çevrildi, indi isə gözəlliyi ilə şəfəq saçır və ən gur parlaqlıqla bərq vurur. İlahi sirlərə nüfuz edən və onu bilənlər arasında öz yerini tapan nə bəxtiyardır”.

## HƏZRƏT ƏBDÜL-BƏHANIN VƏSİYYƏTİ VƏ YEKUN İRADƏSİ

Öz Sevimlisini itirən Bəhai Təlimi tarixinin yeni mərhələsinə qədəm qoymuşdur. Bu yeni mərhələ həmin ruhani orqanizmin inkişafında daha yüksək və kamil vəziyyəti təmsil edir, deməli, ardıcıllarının üzərinə daha böyük məsuliyyət qoyur. Həzrət Əbdül-Bəha Özünün fövqəl-bəşəri

enerjisini və nadir qabiliyyətini, Həzrət Bəhaullaha olan məhəbbətini Təlimin Şərqə və Qərbə yayılması işinə sərf etmişdir. O, inam çırağını saysız-hesabsız ürəklərdə yandırmışdır. O, insanları elə tərbiyələndirir və istiqamətləndirirdi ki, onlar fərdi ruhani həyatın xüsusiyyətlərinə yiyələnsinlər.

Həzrət Əbdül-Bəhanın Vəsiyyətinin son dərəcə böyük əhəmiyyət kəsb etməsini və Onun göstərişlərinin müdrikliyini nəzərə alaraq, onun ciddi məsələlərə toxunduğunu bilərək, biz burada Həzrət Əbdül-Bəhanı ruhlandıran və həvəsləndirən və Onun sədaqətli ardıcılları üçün dəyərli irs olan, şüurları canlı surətdə işıqlandıran rəhbər prinsiplərdən bəzi nümunələr gətirəcəyik.

“ Siz, ey Allahın sevgili dostları! Bu müqəddəs Zühur Dövründə münaqişə və mübahisəyə heç vəchlə izn verilmir. Hər zülmkar özünü Allahın mərhəmətindən məhrum etmiş olur. Hər kəsə gərəkən budur ki, dünyanın bütün xalqlarına və tayfalarına, onlar istər dost olsun, istərsə yad, böyük məhəbbət, davranış dürüstlüyü, safürəklilik və səmimi mehribanlıq göstərsinlər. Məhəbbət ruhu və xeyirxahlıq elə şiddətli olmalıdır ki, aralarındakı ixtilaf nə olursa olsun, yad özünü dost, düşmən isə həqiqi qardaş hiss etsin. Zira hər şeyi əhatə etmək Allahdan, məhdudiyyət isə bu dünyadandır…

Ey mənim sevimli dostlarım! Dünyanın bütün xalqları, tayfaları və dinləri ilə son dərəcə doğruluq, düzlük, vəfalılıq, mehribanlıq, xeyirxahlıq və dostluqla ünsiyyət edin, ta ki, bütün varlıq aləmi Bəhanın fəzlinin müqəddəs vəcdi ilə dolsun, ta ki, cəhalət, düşmənlik, nifrət və kin dünyadan yox olub getsin və dünyanın xalqları və tayfaları arasındakı qaranlıq və yadlaşma Birlik İşığına yer versin. Başqa xalqlar və millətlər sizə xəyanət etsələr, siz onlara sədaqət göstərin, onlar sizə ədalətsiz davransalar, siz onlara ədalətlilik göstərin. Onlar sizdən uzaq gəzsələr, siz on-

ları cəzb edin, onlar sizə düşmənçilik göstərsələr, siz onlara dost olun, onlar sizin həyatınızı zəhərləsələr, siz onların qəlblərini xoşhal edin, onlar sizə yara vursalar, siz onların yaralarına məlhəm olun. Səmimi olanın sifətləri bunlardır. Doğruçu olanın sifətləri bunlardır...

Siz ey Rəbbin sevimliləri! Sizin üzərinizə qoyulmuşdur ki, bütün ədalətli hökmdarlara tabe olasınız və hər bir adil padşaha öz sədaqətinizi göstərəsiniz. Dünyanın hökmdarlarına düzlük və sədaqətlə xidmət edin. Onlara itaət göstərin və onların xeyirxahı olun. Onların izni və icazəsi olmadan siyasi işlərə qarışmayın, zira ədalətli hökmdara sədaqətsizlik Allahın Özünə sədaqətsizlikdir. Bu mənim sizə nəsihətim və Allahın sizə hökmüdür. Buna uyğun hərəkət edənlərin xoş halına!

Rəbb! Görürsən ki, hər şey Mənim halıma ağlayır, mənim qohumlarım isə mənim kədərimə sevinirlər. Sənin Cəlalına and olsun, ey mənim Allahım! Hətta düşmənlərimdən bəziləri mənim dərdlərimə və kədərimlə üzüldülər, həsəd aparanlardan bir neçəsi mənim qayğılarım, sürgünlüyüm və bəlalarıma göz yaşı axıtdılar. Onlar məndə qayğı və məhəbbətdən başqa bir şey tapmadıqları, iltifat və mərhəmətdən başqa bir şey görmədikləri üçün belə etdilər. Onlar dərd-bəla burulğanının məni apardığını və bədbəxtlik oxlarına hədəf olduğumu görəndə ürəkləri şəfqətlə doldu, gözləri yaşardı və şahid duraraq bəyan etdilər ki: “Rəbb bizə şahiddir; biz ondan vəfadarlıqdan, səxavətdən və son dərəcə şəfqətdən başqa heç nə görməmişik.” Lakin Əhdi sındıranlar, şər mücəssəmələri ədavətlərini daha da artırdılar, mənim ən ağır sınaqlara məruz qalmağıma sevindilər, mənim əleyhimə qalxdılar və mənim ətrafımda baş verən ürək parçalayan hadisələri lağa qoydular.

Dilim və bütün ürəyimlə mən Səni çağırıram, ya Rəbb mənim Allahım! Onları qəddarlıq və xətalarına görə, hiylə və fitnə-fəsadlarına görə cəzalandırma, zira onlar axmaq

və rəzildirlər və nə etdiklərini bilmirlər. Onlar xeyiri şərdən seçə, düzü səhvdən, insafı insafsızlıqdan ayıra bilmirlər. Onlar öz arzularının arxasınca düşür, aralarındakı ən naqis və axmaqların ardınca gedirlər.

Ey mənim Rəbbim! Onlara rəhm eylə, bu qarışıq zamanlarda onları bütün bəlalardan qoru, qoy bütün məşəqqət və cəfalar Sənin qaranlıq zindana düşmüş bu bəndənin qisməti olsun. Hər bir dərd üçün məni seç və məni Özünün bütün sevimlilərin üçün fəda eylə. Ey Uca Rəbb! Qoy mənim qəlbim, mənim həyatım, mənim varlığım, mənim ruhum, mənim hər şeyin onlara qurban olsun.

Ey Allah, mənim Allahım! Müti, iltimasla, üzü üstə düşmüş halda, ricamın ən yüksək atəşi ilə Sənə yalvarıram, məni incidənləri bağışla, mənə qəsd hazırlamış və məni incitmiş şəxsləri əfv et və mənə qarşı ədalətsizlik etmiş şəxslərin pis əməllərini sil. Öz xeyirli lütflərini onlara ehsan eylə, onlara sevinc bəxş et, onları qəmdən azad eylə, onlara əmin-amanlıq və firavanlıq bəxş eylə, onlara Öz xeyir-bərəkətini ver və onların üzərinə Öz kərəm yağışlarını yağdır.

Sən Qüvvətlisən, Rəhmlisən, Əzəmətli və Qəyyumsan.

İsanın həvariləri özlərini və bütün dünyəvi şeyləri unutdular, bütün qayğı və əşyalarını tərk etdilər, Özlərini nəfs və ehtirasdan pak etdilər və mütləq inqita ilə hər tərəfə yayıldılar və dünyanın xalqlarını ilahi hidayətə səslədilər; O zamana qədər ki, onlar bu dünyanı başqa bir dünyaya çevirdilər, yer üzünü işıqlandırdılar, hətta son saatlarına qədər belə Allahın o sevdiyi Kəsin yolunda fədakarlıqlarını sübut etdilər. Sonda isə onlar müxtəlif torpaqlarda şərəfli bir şəhidliyə qovuşdular. Hərəkət adamları qoy onların addımlarının izi ilə getsinlər!

Ey Allah, mənim Allahım! Səni çağırıram, Sənin Peyğəmbərlərini, Elçilərini, Müqəddəslərini, Övliyalarını

çağırıram ki, Sənin Sübutlarını Sənin sevimlilərinə tamlıqla çatdırmağıma və hər şeyi onlara aydın şəkildə izah etməyimə şahidlik edəsiniz, ta ki, onlar Sənin Dinini hifz etsinlər, Sənin Düz Yolunu qorusunlar və Sənin Parlaq Qanununu müdafiə etsinlər. Sən, həqiqətən, Alim və Hikmətlisən". *(Əbdül-Bəhanın Əhd və Vəsiyyətnaməsi)*

Həzrət Əbdül-Bəhanın ölümündən sonra Həzrət Bəhaullahın Dininin əsas vəzifəsi olan və yeni dünya qaydalarının nüvəsi və nümunəsi adlanan İnzibati Qaydaları bərqərar etmək vaxtı başlayır. Deməli, Həzrət Əbdül-Bəhanın İradə və Vəsiyyəti bəhai hərəkatı tarixində dönüş nöqtəsini təşkil edir və cahillik və məsuliyyətsizlik erasını yeni eradan ayıraraq, bəhailər qarşısında öz ruhani fəaliyyətlərini şəxsi təcrübə sahəsindən ictimai birlik və əməkdaşlıq sahəsinə keçirmək vəzifəsini qoyur.

Həzrət Əbdül-Bəhanın İnzibati Qaydaya dair nəzərdə tutduğu planın üç başlıca ünsürü bunlardır:

"Allah Əmrinin Vəlisi"

"Allah Əmrinin Əlləri"

"Ədalət Evləri" – yerli, milli və beynəlxalq.[67]

## ALLAH ƏMRİNİN VƏLİSİ

Həzrət Əbdül-Bəha böyük nəvəsi Şövqi Əfəndini Allah Əmrinin Vəlisi təyin etdi. Şövqi Əfəndi Həzrət Əbdül-Bəhanın böyük qızı Ziyaiyə xanımın böyük oğludur. Onun atası Mirzə Hadi Həzrət Babın qohumudur (birbaşa qohumu deyildir, belə ki, Həzrət Babın yeganə oğlu körpəlik çağında vəfat etmişdir).

67 Hal hazırda Yerli, Milli Ədalət Evləri – Yerli və Milli Ruhani Məhfillər adlanırlar.

Babası əbədiyyətə qovuşan zaman Şövqi Əfəndinin 25 yaşı vardı və o, Oksfordda Balliol kollecində oxuyurdu. Onun bu vəzifəyə təyinatı Həzrət Əbdül-Bəhanın vəsiyyətində belə ifadə olunmuşdur:

"Ey mənim sevgili dostlarım! Bu məzlumun vəfatından sonra Müqəddəs Sidrətül-Müntəhanın Əqsanının[68] (Budaqlarının), Əfnanının[69] (Şivlərinin), Allahın Əmrinin Əllərinin və Əbha Camalının dostlarının vəzifəsi Şövqi Əfəndiyə – iki mötəbər və müqəddəs Sidrətül-Müntəhadan çıxmış cavan budağa, Müqəddəslik Ağacının iki şivinin birləşməsinin bəhrəsinə üz tutmaqdır, necə ki, o, Allahın Əlaməti, seçilmiş budaq, Allahın Əmrinin Vəlisidir, o kəs ki, bütün Əqsan, Əfnan, Allahın Əmrinin Əlləri və Onun sevimliləri üz tutmalıdırlar. O, Allahın Sözünün Şərhçisidir və onun bilavasitə törəməsindən ilk doğulan onun xələfi olacaqdır.

Müqəddəs və cavan budaq, Allahın Əmrinin Vəlisi, həmçinin, Ümumdünya Ədalət Evi, hamılıqla seçilməklə və bərqərar olmaqla, hər ikisi Əbha Gözəlliyinin[70] qayğısı və hifzi altındadır, Həzrəti Əlanın[71] pənahı və qüsursuz hidayəti altındadır (mənim həyatım onların hər ikisinə fəda olsun). Onlar nə qərar versələr, o, Allahdandır...

Siz ey Rəbbin dostları! Allahın Əmrinin Vəlisinə həvalə edilmişdir ki, öz sağlığında onun xələfi olacaq kəsi təyin etsin ki, onun vəfatından sonra ixtilaf baş qaldırmasın. Təyin olunmuş kəs isə bütün dünyəvi şeylərdən inqita nümayiş etdirməli, paklıq cövhəri olmalı, özündə təqva, hikmət və alimlik göstərməlidir. Beləliklə, əgər Allahın Əmrinin Vəlisinin ilk övladı "bu uşaq öz atasının gizli

........................................................

68 Həzrət Bəhaullahın kişi cinsindən olan törəmələri
69 Həzrət Babın ana tərəfdən qohumları
70 Həzrət Bəhaullah
71 Həzrət Bab

cövhəridir" sözlərinin doğruluğunu təzahür etdirməzsə, yəni ondakı (Allahın Əmrinin Vəlisi) ruhani başlanğıcı irsən almazsa və onun şərəfli nəslinə yaraşan əla xasiyyətlə uyğun olmazsa, onda o (Allahın Əmrinin Vəlisi) onun xələfi olması üçün ayrı bir budağı seçməlidir.

Allah Əmrinin Əlləri öz aralarından doqquz nəfəri seçməlidirlər ki, həmişə Allahın Əmrinin Vəlisinin işində vacib xidmətlərlə məşğul olsunlar. Bu doqquz nəfərin seçilməsi ya yekdilliklə, ya da səs çoxluğu ilə Allah Əmrinin Əllərinin arasından seçilməli və bunlar ya yekdilliklə, ya da səs çoxluğu ilə, Allahın Əmrinin Vəlisinin öz xələfi kimi seçdiyi o bir nəfərə öz razılıqlarını verməlidirlər. Razılıq elə bir tərzdə verilməlidir ki, razılıq verənlərlə razılıq verməyənlərin səsləri bilinməsin (yəni gizli səsvermə)" *(Əbdül-Bəhanın Əhd və Vəsiyyətnaməsi)*

## ALLAH ƏMRİNİN ƏLLƏRİ

Həzrət Bəhaullah hələ sağlığında bir neçə sınanmış və sədaqətli dostlarını dini hərəkatın idarə edilməsi və təbliği sahəsində işləmək üçün təyin etmiş və onlara "Əyadiyi-Əmrullah" (yəni, "Allah Əmrinin Əlləri") adı vermişdir.

Həzrət Əbdül-Bəha Özünün vəsiyyətində dinə xidmət etmək və Allah Əmrinin Vəlisinə köməklik göstərmək üçün daimi fəaliyyət qrupunun təyin edilməsini əvvəlcədən nəzərdə tutmuşdur. Bununla əlaqədar olaraq O yazır:

"Ey dostlar! Allahın Əmrinin Əlləri Allahın Əmrinin Vəlisi tərəfindən irəli sürülməli və təsdiq olunmalıdırlar... Allahın Əmrinin Əllərinin öhdəlikləri İlahi Rayihələri yaymaq, insanların qəlbini tərbiyə etmək, bütün insanların xasiyyətini yaxşılaşdırmaq, hər zaman və hər bir şəraitdə dünyəvi şeylərdən pak olmaq və inqita etməkdir. Onlar öz

davranışları, rəftarları, əməlləri və sözləri ilə Allah xofunu zahir etməlidirlər.

Allahın Əmrinin Əlləri qurumu Allahın Əmrinin Vəlisinin bilavasitə rəhbərliyi altındadır. O davamlı olaraq onları ən yüksək səviyyədə qabiliyyətlərini qoyaraq Allahın şirin rayihələrini yaymaq, dünyanın bütün insanlarını hidayət etmək üçün çalışmağa və səy qoymağa sövq etməlidir, zira məhz İlahi Hidayət İşığıdır ki, bütün kainatın işıqlanmasına səbəb olur."[72]

## İNZİBATİ QAYDA[73]

Dinin ümumi xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, onların təşkilati mərhələsi həmişə onların mənəvi inkişafının zərəri ilə qurtarır. Və həmişə təşkilati mərhələyə keçən kimi onları yaradan ilkin hərəkətverici qüvvə zəifləyir. Bu, labüd olaraq, dinc əməkdaşlıq və birgə quruculuq prosesinə zidd ənənələrə malik xalqların bir-birindən uzaqlaşması nəticəsində baş verir. Faktiki olaraq bu vaxta qədər dini Zühurun heç bir banisi onların yaratdıqları dini istiqamətləndirməyə imkan verə biləcək təşkilati əsasları bütün aydınlığı ilə müəyyən etməmişlər.

Dünyanın idarə edilməsi prinsipləri Həzrət Bəhaullah tərəfindən Bəhai Təlimində verilmiş və bu prinsiplər

.............................................................

72 Şövqi Əfəndinin 36 illik rəhbərliyi dövründə təyin etdiyi Allah Əmrinin Əllərindən 27 nəfəri O vəfat edən zaman sağ idilər. 1954-cü ildə Şövqi Əfəndi Yardımçı Korpusu təsis edir. Yardımçı Korpusun üzvləri Allah Əmrinin Əlləri tərəfindən təyin edilirlər ki, onlar Allah Əmrinin Əllərinə köməkçilər, nümayəndələr və məsləhətçilər kimi xidmət etsinlər.

73 İnzibati Qaydaya dair bu bölmə 1933-cü ildə Haris Holleyin yazdığı və "Bəhai dünyası" jurnalında (c.5, s.191) çap etdirdiyi "Bəhai Dininin İnzibatçılığı bu gün" adlı məqaləsindən götürülmüşdür.

Həzrət Əbdül-Bəhanın Yazılarında və əsasən Onun Vəsiyyətində şərh edilmişdir. Bu təşkilatın məqsədi müxtəlif irqlərdən olan millətlər, silklər, zümrələr, xarakterlər və irsən mənimsənilən dini etiqadlar arasında əsl və daimi birliyi həyata keçirməkdən ibarətdir.

Bəhai Təliminin bu cəhətinin dərindən və diqqətlə öyrənilməsi göstərir ki, ruh bədənlə necə bağlıdırsa, bəhai inzibati nəzminin məqsədi və metodu da Zühurun əsas ruhuna eləcə üzvi surətdə bağlıdır. Mahiyyət etibarı ilə bəhai inzibati nəzmi əməkdaşlıq haqqında elmdir: onlar tətbiq olunduqda, bütün dünyada yeni və yüksək əxlaqın qərarlaşmasını təmin edirlər...

Bəhai icmasının təməli digər könüllü icmalardan fərqli olaraq elə dərinliklə qoyulmuş və elə geniş açıqlanmışdır ki, o hər bir təmiz qəlbli adamı öz tərkibinə qəbul edə bilər. Digər cəmiyyətlər öz niyyətlərinə və məqsədlərinə görə olmasa da, öz əməllərinə və iş metodlarına görə hamı üçün açıq olmadığı halda, bəhai cəmiyyəti özü-özünə qapılmış cəmiyyət deyildir və onun dostluq qapıları həmişə təmiz ürəklər üçün açıqdır.

Hər bir cəmiyyətdə gizli və ya açıq seçmə təməli vardır. Dində bu təməl öz mənşəyinin tarixi mahiyyəti ilə məhdudlaşan inamdır, siyasətdə bu təməl partiya və ya xitabət kürsüsüdür, iqtisadiyyatda bu, qarşılıqlı uğursuzluq və ya qarşılıqlı nailiyyətdir, elmdə və incəsənətdə isə bu təməl xüsusi təlimlə və ya fəaliyyətlə, ya da maraqlarla bağlıdır.

Bütün bu sahələrin hamısında seçmə təməli nə qədər çox məhdudlaşarsa, hərəkat bir o qədər güclüdür. Bəhai Təlimində isə bu vəziyyətə tamamilə zidd qaydalar mövcuddur. Deməli, bu Təlim özünün ruhuna və inkişafına baxmayaraq, ardıcıllarının sayı baxımından ləng yayılır, çünki insanlar bütün işlərdə məhdudiyyətlərə və yalqızlığa adət etmişlər.

Hər hansı bir fəaliyyətdə başlıca şərt həmişə yalqızlıq prinsipinə təminat və bəraət verilməsi olmuşdur. Bəhai hərəkatına qoşulmaq üçün ilk əvvəllər xeyli dərəcədə çətin olan bütün bu şərtlərdən azad olmaq lazımdır, çünki insan xudbinliyi həmişə ümumi məhəbbətin ən ali şərtinə qarşı çıxır.

Qədim zamanlardan qoyulmuş bütün üstünlüklərdən, imtiyazlardan və rütbələrdən imtina etməklə alim sadə və savadsızla, varlı kasıbla, ağ dərili digər irqlərdən olanlarla, mistik ehkamçı ilə, xristian yəhudi ilə, müsəlman atəşpərəstlə ünsiyyətdə olmalıdır. Bu çətin sınaqlardan keçənlər üçün isə şərəfli mükafatlar vardır.

Biz onu da nəzərə almalıyıq ki, incəsənət insan cəmiyyətinin əksəriyyətinin arzularından uzaqlaşdıqca, bəhrə vermək qabiliyyətindən məhrum olur, fəlsəfə də həmçinin, təklikdə açıqlananda, öz təsirini itirir və eləcə də siyasət və din də insanların ümumi ehtiyaclarından kənarda qaldıqda, heç zaman uğur qazana bilmirlər.

İnsan təbiətinin mahiyyəti hələ tam öyrənilməmişdir, çünki biz həmişə əqli, əxlaqi, hissi və ya ictimai özünümüdafiə vəziyyətində yaşamışıq, özünümüdafiə psixologiyası isə qadağan psixologiyasıdır. Lakin Allaha məhəbbət qorxu hissini aradan qaldırır. Qorxunun ləğv edilməsi gizli qüvvəni oyadır və başqaları ilə mənəvi məhəbbətdə birləşmək bu qüvvələri həyatverici ifadəyə çevirir. Bəhai cəmiyyəti elə cəmiyyətdir ki, onun üzvləri insanlar arasında birlik hissləri yayan o qüdrətli qüvvəyə yiyələndikcə ona uyğun olaraq, bu yeni stimul güc toplayır və daha da əzmkar olur...

Bəhailərin yerlərdə işlərinə nəzarət etmək məsuliyyəti Ruhani Məhfil adlanan təşkilata həvalə edilir. Doqquz nəfər üzvdən ibarət olan bu Ruhani Məhfil hər il aprelin 21-də, Rizvanın birinci günündə (Həzrət Bəhaullahın Missiyasını bəyan etməsi münasibətilə keçirilən Bayram)

icmanın 21 yaşdan yuxarı olan üzvləri tərəfindən gizli səsvermə yolu ilə seçilir. Seçicilərin siyahısı əvvəlki Ruhani Məhfil tərəfindən hazırlanır. Bu Ruhani Məhfilin xarakteri və vəzifələri barəsində Həzrət Əbdül-Bəha yazır:

"Hər bir möminə bir vəzifə olaraq tapşırılmışdır ki, bəhailərin fəaliyyətinə dair bütün məsələlər üzrə Ruhani Məhfillə məsləhətləşsin və onun qərarlarına qeyd-şərtsiz, bütün qəlbi və ruhu ilə elə itaət etsin ki, işlər lazımi qaydada və düzgün məcrada getsin.

Əks təqdirdə hər kəs öz istəyinə uyğun olaraq müstəqil hərəkət edərsə, dinə zərər yetirə bilər. Seçilmiş Ruhani Məhfil üzvlərini fərqləndirən başlıca keyfiyyətlər bunlardır: ruhun təmizliyi, Allahdan başqa bütün hər şeydən imtina etmək, Onun İlahi rayihəsinə bağlılıq, sadəlik və Onun sevimliləri arasında itaətkarlıq, çətinliklər və Onun Uca Dərgahında xidmət zamanı səbr və əzmkarlıq.

Əgər bu keyfiyyətlərə yiyələnməkdə onlara lütfkarlıqla kömək nazil edilərsə, bu zaman onlar gözəgörünməz Bəha Səltənəti tərəfindən qələbəyə layiq görüləcəklər.

Hal-hazırda məşvərətedici Məhfillər böyük əhəmiyyətə və həyati zərurətə malikdirlər. Bu Məhfillərə tabe olmaq vacib və məcburidir. Onların üzvləri isə birlikdə elə məsləhətləşməlidirlər ki, inciklik və mübahisə üçün heç bir bəhanə olmasın. Buna o zaman nail olmaq mümkündür ki, hər bir üzv öz fikrini sərbəst ifadə edə bilsin və öz dəlillərini tamamilə azad şəkildə irəli sürsün. Əgər kiminsə fikri qəbul edilməzsə, bu zaman o heç vəchlə özünü incidilmiş hesab etməməlidir, çünki, məsələ tam müzakirə olunmayınca, həqiqət aşkarlanmır.

Həqiqətin parlaq qığılcımı müxtəlif fikirlərin toqquşmasından sonra üzə çıxır. Əgər müzakirədən sonra qərar yekdilliklə qəbul olunarsa, bu çox yaxşıdır, lakin əgər, Allah eləməsin, fikir ayrılığı baş verərsə, bu zaman səs çoxluğu qazanmış təklif qəbul edilməlidir.

Birinci şərt – Məhfil üzvləri arasında mütləq məhəbbət və razılıqdır. Onlar bütün dünyəvi istəklərə bağlılıqdan azad olmalı və özlərində Allahın birliyini təcəssüm etdirməlidirlər, çünki onlar bir dənizin dalğaları və bir çayın damlaları, bir səmanın ulduzları və günəşin şüaları, bir bağın ağacları, gülləridirlər. Əgər düşüncələrin harmoniyası və mütləq birlik əldə edilməzsə, bu icma buraxılmalı və həmin Məhfil ləğv edilməlidir.

İkinci şərt budur ki, onlar birlikdə toplandıqları zaman üzlərini Səma Səltənətinə tutmalı və Şərəf Səltənətindən kömək diləməlidirlər... insanların tərbiyəsinə, uşaqların təhsilinə, yoxsullara yardım göstərilməsinə, dünyanın müxtəlif təbəqələrindən olan bütün məzlumlara yardım edilməsinə, bütün insanlarla xeyirxahlıqla davranılmasına, İlahi Rayihənin yayılmasına və Onun Müqəddəs Kəlamının ucaldılmasına dair onların bütün müzakirələri ruhani məsələlər çərçivəsində keçirilməlidir.

Bu şərtləri yerinə yetirməklə, onlar Müqəddəs Ruhun mərhəməti ilə mükafatlanar və bu Məhfil İlahi Mərhəmətin mərkəzinə çevrilər, Səma Cəngavərləri onların köməyinə gələr və günü-gündən onlara yeni ruh yüksəkliyi göndərərlər..."

Bu mövzunu inkişaf etdirərək, Həzrət Şövqi Əfəndi yazır: "Yerli Ruhani Məhfildə ətraflı baxılmadan və təsdiq edilmədən heç bir məsələ dostların heç biri tərəfindən geniş ictimaiyyətə çatdırılmamalıdır. Və əgər hər hansı bir məsələ həmin ölkədə Təlimin ümumi maraqlarına aiddirsə (təbii ki, bu başqa cür də ola bilməz), bu zaman Yerli Ruhani Məhfil həmin məsələni baxılmaq və təsdiq edilmək üçün Milli Ruhani Məhfilə təqdim etməlidir. Milli Ruhani Məhfil bütün Yerli Ruhani Məhfillərin müvəkkilidir.

Nəinki çap işlərinə dair məsələlər, eləcə də həmin ərazidə dinin maraqları ilə bağlı olan bütün məsələlər, istər fərdi, istərsə də kollektiv olsun, istisnasız olaraq, həmin

ərazinin Ruhani Məhfilinə təqdim edilməlidir və əgər bu məsələlərdən hər hansı biri milli mənafelərə toxunursa, bu zaman həmin məsələ Milli Ruhani Məhfilin müzakirəsinə təqdim edilməlidir.

Məsələnin yerli və yaxud milli maraq güdməsindən asılı olmayaraq, onun həlli Milli Ruhani Məhfilin səlahiyyətinə daxildir (Milli işlər dedikdə heç də siyasi xarakter daşıyan məsələlər nəzərdə tutulmur, çünki bütün dünyada Allahın dostlarına siyasi işlərə qarışmaq ciddi qadağan edilmişdir. Onlar həmin ölkədəki bəhai icmasının ruhani fəaliyyətinə dair işlərlə məşğul olmalıdırlar.)

Lakin tam harmoniya və eləcə də müxtəlif Yerli Ruhani Məhfillər və onların üzvləri arasındakı əməkdaşlıq, xüsusilə də hər bir Yerli Məhfil ilə Milli Ruhani Məhfil arasındakı əməkdaşlıq ən mühüm əhəmiyyətə malikdir, belə ki, Allah Əmrinin birliyi, dostların həmrəyliyi, Onun sevimli bəndələrinin ruhani fəaliyyətinin sürətli və səmərəli tərəqqisi bundan asılıdır.

Möhkəm qurulmuş, ucaldılmış və fəaliyyətdə olan Beynəlxalq Ədalət Evinin təməlini həm Yerli, həm də Milli Ruhani Məhfillər təşkil edirlər. Bu Məhfillər çalışqanlıqla və yekdilliklə fəaliyyət göstərməyənədək, bu keçid dövrünün başa çatması ümidi də həyata keçməyəcəkdir...

Yada salmaq lazımdır ki, Allah Əmrinin əsas mahiyyəti diktator nüfuzundan ibarət deyil, itaətli dostluqdadır: özbaşına gücdə deyil, səmimiyyət və məhəbbət ruhu ilə yerinə yetirilən məsləhətləşmədədir. Yalnız və yalnız səmimi bəhainin ruhu bir tərəfdən hüsn-rəğbət və ədalət, azadlıq və itaət, fərdin hüququnun müqəddəsliyi və tabeçiliyi, ehtiyat və düşüncəlilik prinsiplərinin, digər tərəfdən isə dostluq, səmimiyyət və cəsarət keyfiyyətlərinin uzlaşmasına ümid bəsləyə bilər..."

Hər bir ölkənin Yerli Ruhani Məhfillərinin fəaliyyəti, doqquz nəfərdən ibarət olan digər seçkili orqanın, yəni

Milli Ruhani Məhfilin vasitəsilə əlaqələndirilir və uyğunlaşdırılır. Bu orqan yerli bəhai icmalarının təmsilçisi olan nümayəndələr tərəfindən hər il seçki yolu ilə yaradılır...

Proporsional nümayəndəlik prinsipi əsasında seçilmiş tərkibdən ibarət olan nümayəndələr bir yerə toplanaraq Milli Qurultayı təşkil edirlər... Bu Milli Qurultaylar əsasən Rizvan Bayramı günlərində, yəni aprel ayının 21-dən başlayaraq 12 gün ərzində keçirilir. Bağdad yaxınlığındakı Rizvan bağında Həzrət Bəhaullahın Öz Missiyasını elan etdiyi günlər xatirə günləri kimi bayram edilir. Bu nümayəndələrin təsdiq edilməsi köhnə Milli Ruhani Məhfil tərəfindən yerinə yetirilir.

Milli Qurultay Milli və Yerli Ruhani Məhfillərin hesabatlarının dinlənilməsi və keçən il ərzində bəhailərin fəaliyyətləri ilə tanış olmaq üçün əlverişli fürsətdir...

Bəhai nümayəndəsinin vəzifəsi Milli Qurultayda olmaq və yeni Milli Ruhani Məhfil üzvlərinin seçkisində iştirak etməklə məhdudlaşmır, çünki nümayəndələr bir yerə toplanan zaman onlar məsləhətçi və məşvərətçi qrupu təmsil edirlər, belə ki, onların təklifləri yeni seçilmiş Milli Ruhani Məhfil tərəfindən diqqətlə müzakirə olunmalıdır... Milli Ruhani Məhfilin Yerli Ruhani Məhfillərə və eləcə də həmin ölkənin bəhailərinə münasibəti Dinin Vəlisinin yazılı göstərişlərinə uyğun olmalıdır:

“Milli Ruhani Məhfillərin təsis edilməsinə gəldikdə isə ən vacibi odur ki, əlverişli şərait yaranan hər bir ölkədə bəhailərin sayı böyük miqdara çatdıqda, yubanmadan bütün ölkə bəhailərinin təmsilçisi olan Milli Ruhani Məhfili təsis etmək lazımdır. Bəhailərin çoxsaylı fəaliyyətini həvəsləndirmək, uzlaşdırmaq və əlaqələndirmək, eləcə də Yerli Məhfillərə xüsusi məsləhətlər vermək və Müqəddəs Torpaqla yaxın və daimi əlaqə saxlamaq, təşəbbüsü artırmaq və öz ölkəsində dinin işlərinə rəhbərlik etmək Milli Ruhani Məhfilin bilavasitə vəzifəsidir. Onun birincidən

heç də az əhəmiyyət kəsb etməyən ikinci vəzifəsi ondan ibarətdir ki, o, zaman keçdikcə, tədricən Milli Ədalət Evinə[74] çevriləcəyi üçün, Vəsiyyətnamənin dəqiq mətninə əsasən o dünya bəhailərinin digər Milli Ruhani Məhfilləri ilə birlikdə – bütün dünya üzrə ruhani hərəkatı təşkil edib və əlaqələndirən və ona rəhbərlik edən ən ali orqanı – Beynəlxalq və yaxud Uca Ədalət Evini seçməlidir.

Hər il yenidən seçilən Milli Ruhani Məhfil Uca Ədalət Evi təşkil edilənədək, şübhəsiz, öz ölkəsində fəaliyyət göstərən bütün Yerli Ruhani Məhfillərin nüfuzlu orqanı olmuşdur. Milli Ruhani Məhfil həmçinin bəhailərin fəaliyyətlərinə rəhbərlik etməli, Allah Əmrini qorumalı və bütünlükdə bəhai hərəkatına dair işlərə nəzarət və rəhbərlik etməlidir.

Hər hansı bir ölkədə Bəhai Dini Təliminin maraqlarına dair əsas məsələlər, o cümlədən tərcümə və çap işləri, Məşriqül-Əzkar, təhsil və Yerli Ruhani Məhfilin birbaşa vəzifəsinə daxil olmayan bütün buna bənzər digər məsələlər Milli Ruhani Məhfilin bilavasitə səlahiyyətindədir.

Milli Ruhani Məhfillər və yaxud Yerli Ruhani Məhfillər bu məsələlərdən hər birini baxılmaq üçün Milli Ruhani Məhfil üzvləri tərəfindən bütün ölkənin bəhailəri arasından seçilmiş xüsusi komitəyə göndərirlər. Yerli komitələr müvafiq Yerli Ruhani Məhfillərə necə münasibət göstərirlərsə bu komitə də Milli Ruhani Məhfilə o cür münasibət göstərməlidir.

Həmçinin müzakirəyə qoyulacaq məsələnin yalnız yerli xarakter daşıdığını və onun baxılmaq və həll edilmək üçün Yerli Ruhani Məhfilə göndərilməsini aydınlaşdırmaq, yaxud bu məsələnin Milli Ruhani Məhfilin səlahiy-

74 Əbdülbəhanın Vəsiyyətnaməsində göstərildiyi kimi, ikinci dərəcəli Ədalət Evi.

yətinə aid olmasını, Onun tərəfindən baxılmasını və xüsusi diqqət tələb etməsini müəyyənləşdirmək də bir vəzifə kimi Milli Ruhani Məhfilə həvalə edilmişdir...

Həm fərdi, həm də kollektiv məsləhətlərə, nüfuzlu fikirlərə və ağsaqqal nümayəndələrin səmimi hisslərinə ən böyük hörmət göstərmək bizim hamımızın sevdiyi və xidmət etdiyi Əmrin mənafeyi naminə Qurultay nümayəndələri tərəfindən seçilmiş Milli Ruhani Məhfilə daxil olan üzvlərin ən vacib vəzifəsidir... Onlar nümayəndələri cari ildə zəruri həllini gözləyən müxtəlif məsələlərlə tanış etməli, nümayəndələrin fikir və mülahizələrini ölçüb-biçməli, təmkinlə və diqqətlə araşdırmalıdırlar.

Yeni seçilmiş Milli Ruhani Məhfil Qurultay iclasları zamanı bir neçə gün ərzində və nümayəndələrin buraxılmasından sonra qarşılıqlı anlaşma, fikir mübadiləsi, qarşılıqlı inam üçün üsullar və yollar axtarmalı və hər vəchlə ümumi mənafeyə xidmət etmək arzusunda olduğunu sübut etməlidir...

Lakin tez-tez və uzunmüddətli qurultayların çağırılması qeyri-mümkün olduğundan Milli Ruhani Məhfil Əmrin maraqlarına təsir göstərə bilən bütün məsələlərin həlli hüququnu, məsələn, Əmrin istiqamətləndirilməsi və yayılması üçün müəyyən edilmiş prinsiplərə uyğun olaraq Yerli Ruhani Məhfillərin fəaliyyət göstərməsi haqqında məsələlərin həll edilməsi hüququnu özündə saxlamalıdır”.

Hər il keçirilən yerli bəhai seçkiləri üçün seçki bülletenlərinin hazırlanması Yerli Ruhani Məhfillərin öhdəsinə qoyulur. Bununla əlaqədar olaraq Əmrin Vəlisi buyurur:

“Şəxsin əsl bəhai olması və ya olmaması məsələsini həll etməzdən əvvəl indiki vəziyyətlə əlaqədar diqqət verilməli olan prinsipial amillər barəsində olduqca qısa şərh vermək lazımdır:

Həzrət Əbdül-Bəhanın Vəsiyyətində nəzərdə tutulduğu kimi, Müjdəçinin, Bəhai Təliminin Banisinin və

Həqiqi Nümunəsinin məqamını bütünlüklə qəbul etmək, Onların Qələmindən nazil olan bütün nə varsa, hamısını qeyd-şərtsiz qəbul etmək və tabe olmaq; bizim Sevimlimizin Müqəddəs Vəsiyyətinin bütün müddəalarının qətiyyətli tərəfdarı olmaq; indiki bəhai inzibati idarəsinin həm ruhuna, həm də formasına sıx surətdə bağlanmaq, – belə ciddi qərara gəlməzdən əvvəl dərindən və diqqətlə nəzərə alınmalı olan əsas və birinci dərəcəli müddəalar, məncə, bunlardır"[75]

Həzrət Əbdül-Bəhanın göstərişləri Bəhai təşkilatının gələcək inkişafını nəzərdə tutur:

"İndi isə Allahın bütün xeyirlərin mənbəyi kimi əmr etdiyi və hər cür səhvdən azad Ədalət Evi barədə, bu hamılıqla səsvermə ilə, yəni inananlar tərəfindən seçilməlidir. Onun üzvləri Allah xofunun məşriqləri, bilik və anlayış təzahürləri olmalı, Allahın dinində sabit və bütün bəşərin xeyirxahı olmalıdırlar. Bu Ev dedikdə, Ümumdünya Ədalət Evi nəzərdə tutulur, yəni bütün ölkələrdə ikincili Ədalət Evləri qurulmalı, ikincili Ədalət Evlərinin üzvləri isə Ümumdünya Ədalət Evinin üzvlərini seçməlidirlər. Bütün məsələlər bu quruma ünvanlanmalıdır. O, aşkar Müqəddəs Mətndə olmayan bütün göstəriş və qaydaları özü verir. Bütün çətin müşküllər bu qurum tərəfindən həll edilməlidir və Allahın Əmrinin Vəlisi bunun ömürlük olaraq müqəddəs başçısı və görkəmli üzvüdür. Onun müzakirələrində şəxsən iştirak etmədikdə, bunun üçün öz nümayəndəsini təyin etməlidir. Üzvlərdən hər hansı biri ümumi rifaha ziyan vuran günah işlədərsə, Allahın Əmrinin Vəlisinin öz ixtiyarındadır ki, onu üzvlükdən çıxarsın və insanlar onun yerinə başqasını seçsinlər. Ədalət Evi qanunlar verir, hökumətlər isə onları qüvvəyə mindirirlər (icra edirlər).

75 Seçki hüququ nəzərdə tutulur

Qanunverici orqan icraçı orqanı gücləndirməlidir, icraçı orqan qanunverici orqana elə kömək və yardım etməlidir ki, bu iki gücün sıx və ahəngdar birliyi ilə insaf və ədalətin təməli möhkəm və dəyanətli olsun ki, dünyanın bütün diyarları Cənnətin özünə çevrilsin...

Hər kəs Ən Müqəddəs Kitaba üz tutmalıdır və orada aydın yazılmamış hər şey Ümumdünya Ədalət Evinə yönəldilməlidir. Bu qurum, istər yekdilliklə, istərsə də səs çoxluğu ilə nəyə qərar verərsə, o, doğrudan da, həqiqət və Allahın Özünün məqsədidir. Ondan yayınan ixtilaf istəyənlərdən, şər niyyət göstərənlərdən və Əhdin Rəbbindən üz döndərənlərdəndir.” *(Əbdül-Bəhanın Əhd və Vəsiyyətnaməsi)*

Hal-hazırda dünyanın bütün yerlərində yaşayan bəhailər müntəzəm yazışmalar və fərdi görüşlər vasitəsilə öz aralarında yaxınlıq və dostluq əlaqələri saxlayırlar. Müxtəlif irqlərə, millətlərə və dini ənənələrə mənsub olan insanların bu cür əlaqəsi ona əyani sübutdur ki, Həzrət Bəhaullahın bəxş etdiyi birlik ruhu vasitəsilə mövhumat yükü və xalqları bir-birindən ayrı salan tarixi amillər tamamilə aradan qaldırıla bilər.

## HƏZRƏT BƏHAULLAHIN DÜNYA NİZAMI

1929-cu ilin fevralından başlayaraq Həzrət Şövqi Əfəndi bəhai icmalarına ünvanladığı ardıcıl müraciətlərində bu məsələyə dair daha geniş izahatlar vermişdir:

“Mən möminlərə müraciət etməkdən Özümü ona görə saxlaya bilmirəm ki, onlar indi mövcud olan dünyagörüşlərə və dəyişkən qaydalara əhəmiyyət verməsinlər və əvvəllər olduğundan daha da ciddi surətdə özlərinə aydınlaşdırsınlar ki, müasir sivilizasiyanın bu səbatsız nəzəriy-

yələri və müvazinətsiz institutlarının onların xarabalıqları üzərində əmələ gələcək, İlahi təsisatlarla kəskin təzad təşkil etməsi labüddür.

Belə ki, Həzrət Bəhaullah... bəşəriyyətə nəinki yeni və oyandırıcı ruh təlqin etmiş, O nəinki müəyyən dünyəvi prinsipləri bəyan etmiş və nəinki xüsusi fəlsəfə təklif etmişdir, bu fəlsəfənin və bu prinsiplərin özlüyündə güclü, kamil və ümumi olmasına baxmayaraq, O və Ondan sonra da Həzrət Əbdül-Bəha, keçmiş dinlərdə olmayan İlahi qaydaların əsas müddəalarını qabaqcadan nəzərə alıb, müəyyən institutlar yaratmış, bir sıra qanunları aydın və dəqiqliklə bizə izah etmişdir. Bütün bunlar gələcəkdəki cəmiyyət üçün nümunə, Ən Böyük Sülhün yaradılması üçün ali vasitə, bütün bəşəriyyətin birləşməsi və yer üzündə həqiqət və ədalətin hökmranlığının elan edilməsi üçün yeganə amil olacaqlar...

İsa Məsihin vəhyindən fərqli olaraq, Həzrət Məhəmmədin vəhyindən fərqli olaraq və keçmişin bütün vəhylərindən fərqli olaraq, Həzrət Bəhaullahın şagirdləri işlədikləri və qayğısını çəkdikləri hər bir ölkədə öz vəzifələrini yerinə yetirmək üçün ehtiyac duyduqları bütün qanunların, qaydaların, institutların və təlimatların aydın, dəqiq və müəyyənləşdirilmiş şərhlərinə malikdirlər...

Bəhai vəhyinin fərqləndirici xüsusiyyəti bundan ibarətdir. Əvvəlki vəhylərin əhəmiyyətini əskiltməyə və yaxud onları sıradan çıxarmağa çalışmayan, əksinə, onları əlaqələndirmək, birləşdirmək və tamamlamaq istəyində olan dinin gücü və birliyi və vəhyin vacibliyi bundadır...

Bizim Dinimiz hal-hazırda onu İslam Dininin törəməsi sayan və yaxud Qərbdə mövcud olan çoxsaylı avam təriqətlərdən biri kimi inkar edən insanların gözündə zəif görünə bilər, lakin Səma Təzahürünün bu qiymətli xəzinəsi hələ rüşeym halında olsa da öz qanunları hüdudların-

da zəifləmədən və möhkəmliklə inkişaf edəcək və bütün bəşəriyyəti əhatələyənədək irəliyə doğru can atacaqdır.

Yalnız Həzrət Bəhaullahın yüksək məqamını dərk edənlər, yalnız Onun Ruhunun qüdrəti ilə tanış olanlar və Onun məhəbbəti ilə ürəkləri dolu olanlar Onun İlahi Nizamının – Onun bəşəriyyətə gətirdiyi misilsiz töhfənin əhəmiyyətini lazımınca qiymətləndirə bilərlər.” (Şövqi Əfəndinin 21 mart 1930-cu il tarixli məktubundan)

Əzab çəkən bəşəriyyət məhz bu məqsədə doğru – yeni Dünya Nizamına – mənşəyinə görə İlahi, miqyasına görə cahanşümul, mahiyyətinə görə ədalətli, xüsusiyyətinə görə cəsarətli olan Dünya Nizamına doğru can atmalıdır

Zamanın ruhuna etinasızlıq göstərib keçmiş dövrlərdə millətlərin qapalı həyat sürdüyü şəraitdə yararlı olan milli qaydaları indiki zəmanədə tətbiq etməyə çalışan ictimai təşkilat liderlərinin cəhdləri, həqiqətən, təəssüf doğurur. Halbuki bu zəmanədə bəşəriyyət Həzrət Bəhaullahın Təlimində nəzərdə tutulan birliyə nail olmalı, ya da məhv olmalıdır.

Sivilizasiya tarixinin belə böhranlı vaxtında həm Şərqdə, həm də Qərbdə, həm qalib, həm də məğlub, həm böyük, həm də kiçik millətlərin başçıları Həzrət Bəhaullahın sur səsini eşitməli və dünya həmrəyliyi ruhuna yiyələnərək (bu, Onun Əmrinə loyallığın zəruri şərtidir) O, İlahi Təbibin iztirablara mübtəla olan bəşəriyyətə məsləhət gördüyü şəfaverici vasitələri tamamilə tətbiq etmək üçün cəsarətlə ayağa qalxmalıdırlar.

Qoy onlar hər cür qərəzli və yanlış nəzəriyyələri və milli xurafatları birdəfəlik kənara atsınlar və Həzrət Bəhaullahın Təliminin qanuni Şərhçisi Həzrət Əbdül-Bəhanın ali məsləhətinə qulaq assınlar.

1912-ci ildə Amerika Birləşmiş Ştatları federal nümayəndəliyinin yüksək vəzifəli rəsmi məmurunun: “mən öz hökumətimin və xalqımın mənafeyinə necə daha yaxşı

xidmət edə bilərəm" sualına Həzrət Əbdül-Bəhanın cavabı belə olmuşdu:

"Əgər özünüzün dünya vətəndaşı olduğunuzu dərk etsəniz, sizin öz ölkənizdə fəaliyyət göstərən federasiya prinsipinin dünya xalqları və millətləri arasındakı müasir qarşılıqlı əlaqələrə mümkün olan tətbiqinə kömək göstərmək üçün çalışsanız, öz ölkənizə daha yaxşı xidmət etmiş olarsınız".

Lazım gəldikdə Ali hakimiyyətin hansısa elə bir forması yaradılmalıdır ki, onun sayəsində bütün dünya xalqları könüllü olaraq müharibə aparmaq iddialarından uzaqlaşsınlar, vergi qoymağın bəzi hüquqlarından və öz ərazisi hüdudlarında asayişin qorunması üçün zəruri olan miqdardan daha çox həcmdə silahlı qüvvə saxlanması hüququndan imtina etsinlər.

Belə Ali Hakimiyyətin tərkibində itaətsizlik göstərən dövlətə onun yüksək və sarsılmaz nüfuzunu qəbul etdirə bilən icraedici orqan olmalıdır. Bu, üzvləri xalqlar tərəfindən seçilən və müvafiq dövlətlər tərəfindən təsdiqlənən Dünya Parlamenti və tərəflər öz işlərini könüllü olaraq onun müzakirəsinə vermək istəmədikdə belə, qərarları hökmən yerinə yetirilən Ali Tribunal da ola bilər.

Dünya birliyi dövründə bütün iqtisadi sədlər dağılacaq, kapital ilə əmək arasında dəqiq qarşılıqlı münasibətlər yaranacaq; dini çəkişmələrin və mövhumatın hay-küyü birdəfəlik kəsiləcək; irqi nifrət və düşmənçilik alovları kökündən söndürüləcək; beynəlxalq qanunların vahid kodeksi federativ dövlətlərin birləşmiş qüvvələrinə hökm edəcəkdir ki, qanunları pozanları sakitləşdirmək, ümumi qayda-qanunu və əmin-amanlığı təmin etmək üçün təxirəsalınmaz şəkildə və zorakı şəkildə işə qarışsınlar; şıltaq və davakar millətçiliyin qəzəbi Dünya Hökumətinin etibarlı təbəəsinə çevriləcəkdir (həqiqətən, Həzrət Bəhaullahın əvvəlcədən xəbər verdiyi qayda geniş aspektdə belədir) – bu

o qaydadır ki, ona tədricən yetişməkdə olan dövrün ecazkar meyvəsi kimi baxmaq lazımdır...

Həzrət Bəhaullahın universal qanununun ilhamverici vəzifəsinə şübhə etmək lazım deyil. Bu qanun mövcud cəmiyyətin quruluşunu pozmaq məqsədi güdməyərək, onun əsaslarını elə genişləndirməyə və onun institutlarını elə yenidən qurmağa çalışır ki, onlar daim dəyişməkdə olan dünyanın tələblərinə uyğun olsunlar.

Bu qanun ağıllı, sadiq təbəəliklə münaqişədə ola bilməz və eləcə də zəruri bitərəfliyi sarsıtmaz. Onun məqsədi, nə insanların qəlbindəki sağlam və düşüncəli vətənpərvərlik alovlarını söndürməkdən, nə də ki, mühüm əhəmiyyətə malik olan milli muxtariyyət sistemini ləğv etməkdən ibarətdir. Onun məqsədi hədsiz mərkəzləşmənin fəlakətli nəticələrini aradan qaldırmaqdır.

Bu qanunla dünya xalqlarının və millətlərinin estetik xüsusiyyətlərlə, iqlim şəraiti ilə, tarix, dil, ənənələr, düşüncə tərzi və adətlərlə şərtlənmiş müxtəliflikləri nə inkar edilir, nə də ləğv edilir. O, keçmişdə bəşəriyyətin ilham aldığı hər hansı bir ideyadan fərqli olaraq, insanları daha yüksək cəhdlərə və daha geniş fəaliyyətə çağırır...

Həzrət Bəhaullahın çağırışı, hər şeydən əvvəl, hər cür əyalətçiliyə, qapalılığa və mövhumatın bütün formalarına qarşı yönəlmişdir...

Çünki hər cür qanunlar, siyasi və iqtisadi nəzəriyyələr ancaq ona görə yaradılmışdır ki, bəşəriyyətin maraqlarına xidmət etsin və onlar qorunsun; ona görə yaradılmayıb ki, bu və ya digər qanunun və ya doktrinanın qorunması naminə bəşəriyyətin özü qırğına düçar olsun...

İnsan nəslinin birliyi prinsipi – oxdur və bu oxun ətrafında Həzrət Bəhaullahın bütün Təlimi fırlanır – bu yalnız düşüncəsiz həyəcanların şiddətli istəyi və ya tutqun mənəvi ümidlərin ifadəsi deyildir... Onun mənası dərin və onun

iddiaları əvvəl gəlmiş bütün Peyğəmbərlərin iddialarından daha əhəmiyyətlidir.

Onun verdiyi xəbər nəinki ayrı-ayrı fərdlərə tətbiq edilə bilər, o başlıca olaraq, elə həyat tellərinə toxunur ki, onlar dünyanın bütün xalqlarını və ölkələrini ehtiva etməli və onları Vahid İnsan Ailəsinə çevirməlidir... Bu xəbər insanın təkamülünün başa çatdırılmasıdır...

İnsan düşüncəsinin bu yeni mərhələsinin, yalnız dünyanı fəlakətə düçar etmək istəyən qüvvələr tərəfindən sürətləndiriləcəyi fikri, əfsus ki, gündən-günə daha çox və daha aydınlıqla meydana çıxır...

...Bəşəriyyət yalnız ağır sınaqlardan təmiz və mətinləşmiş halda çıxaraq, elə məsuliyyət hissi doğuracaqdır ki, yeni eranın başçıları onu daşımağa çalışacaqlar.

...Məgər Həzrət Əbdül-Bəhanın Özü aydın ifadələrlə demirdimi "ki, axırıncısından daha amansız olan başqa müharibə mütləq başlayacaqdır?" *(Şövqi Əfəndinin 28 noyabr 1931-ci il tarixli məktubundan)*

"Bu İnzibati Nizam.. onun tərkib hissələrinin və əsas institutlarının fəaliyyətə başlaması ilə əlaqədar olaraq, öz iddialarını bildirib və öz dəyərlərini elə qüvvə və qüdrətlə aşkarlayacaqdır ki, nəinki yalnız rüşeym kimi, həm də bütün bəşəriyyəti əvvəlcədən müəyyən edilmiş vaxt ərzində əhatələyən əsl, nümunəvi dünya nizamı kimi qəbul ediləcəkdir...

Keçmişin bütün dinləri arasında, yalnız bu İnam... elə sistem ucaltmağa nail olmuşdur ki, ömrünü başa vurmuş və köhnəlmiş dini təlimlərin çaş-baş qalmış ardıcılları ona yaxınlaşa və tənqidi surətdə müzakirə edə bilərlər və nə qədər ki, gec deyil, onun bütün dünyanı bürüyən kölgəsində daimi rahatlıq tapa bilərlər.

Həzrət Bəhaullahın aşağıdakı sözlərini hər şeyi əhatələyən Bəhai Birliyinin rüşeymi olan bu İnzibati Nizamın gücünə və qüdrətinə deyil, bəs nəyə aid etmək olar?

“Bu olduqca böyük Yeni Dünya Nizamının gücü və şövqləndirici təsiri nəticəsində dünyanın tarazlığı pozulmağa başlamışdır. Bu bənzəri olmayan və ecazkar sistemin sayəsində insanların sakit həyatı inqilabi xarakter almışdır. Bu elə sistemdir ki, keçmiş zamanların heç bir dövründə ölümlü insanların gözlərinə beləsini görmək müyəssər olmamışdır.”

“Bu böyük İnzibati Nizam timsalında yaradılacaq gələcək bəhai federasiyası, həm nəzəri, həm də əməli baxımdan bütün siyasi təşəbbüslər tarixində nəinki yeganədir, həmçinin dünya dinləri tarixində onun heç bir bənzəri yoxdur.

Heç bir demokratik idarəetmə forması, heç bir mütləqiyyət, yaxud istibdad sistemi, istər monarxiya olsun, istərsə də respublika və ya aristokratik mahiyyətli keçid sistemi olsun, heç biri, istər hətta teokratiyanın məlum formalarından biri olsun və ya yəhudi federasiyası və yaxud istənilən xristian ruhani təşkilatı ya da İslam Dininin xəlifəlik və imamətlik forması olsun – heç birinin quruluşu onun kamil Memarının bacarıqlı əlləri ilə yaradılmış İnzibati Nizam ilə nə eyniləşdirilə, nə də müqayisə edilə bilər...

...Nə qədər ki, bu sistem özünün körpəlik çağındadır, qoy heç kim onun əhəmiyyətini azaltmasın və onun vəzifələrini yanlış mövqedən şərh etməsin. Bu İnzibati Nizamın dayandığı təməl, indi bəşəriyyət üçün Allahın sarsılmaz məqsədidir. Bu qaydanın bəhrələndiyi ilham mənbəyi başqa heç kəs yox, məhz Həzrət Bəhaullahın Özüdür...

Onu ilhamlandıran başlıca və əsas məqsəd Həzrət Bəhaullahın nəzərdə tutduğu Yeni Dünya Nizamının həyata keçirilməsidir. Onun tətbiq etdiyi meyarlar onu nə Şərqə, nə də Qərbə, nə yəhudiyə, nə bütpərəstə, nə varlıya, nə yoxsula, nə ağ dəriliyə, nə də qara dəriliyə meyllәndirir. Onun çağırışı – bütün bəşəriyyətin birliyidir, Onun məqsə-

di – Ən Böyük Sülhdür...” *(Şövqi Əfəndinin 8 fevral 1934-cü il tarixli məktubundan)*

“Allah Əmrinin İnzibati Nizamının inkişafını müşayiət edən, onun durmadan möhkəmləndiyini göstərən dəlillərlə yorulmuş cəmiyyətin əsaslarını sarsıdan dağıdıcı qüvvələr arasındakı təzad aydın və heyrətamizdir. Bəhai Dünyasının həm daxili, həm də xarici aləmində Allah Əmrinin Qızıl Əsrinin başlanğıcı olacaq yeni Dünya Nizamının yaranmasından heyrətamiz bir şəkildə soraq verən əlamət və nişanələr günü-gündən artır və çoxalır...

...Tezliklə indiki idarə qaydası ləğv ediləcək və onun əvəzinə Yeni Nizam gələcəkdir...” (Həzrət Bəhaullah)

Həzrət Bəhaullahın Vəhyi... bütün insan nəslinə yeni eranın gəlişinin bəyan edilməsi kimi... qiymətləndirilməlidir. Ona sadəcə olaraq bəşəriyyətin daim dəyişən taleyində daha bir ruhi dirçəliş kimi deyil, təkcə fasiləsiz vəhylər zəncirinin növbəti halqası kimi deyil və hətta yalnız Peyğəmbərlər silsiləsinin təkrarlanan dövri silsilələrindən birinin ən uca nöqtəsi kimi deyil, bu yer kürəsindəki kollektiv insan həyatının təkamülünün sonuncu və ən yüksək mərhələsinin təntənəsi kimi baxmaq lazımdır. Dünya birliyinin meydana çıxması, dünya vətəndaşlığının dərk edilməsi, dünya mədəniyyətinin və sivilizasiyanın əmələ gəlməsi... bizim yer kürəsindəki həyatımız nöqteyi-nəzərindən insan cəmiyyətinin təşkilində axırıncı mərhələ və son hədd kimi qiymətləndirilməlidir, bununla belə insan bir fərd kimi, sonsuz olaraq kamilləşməsini davam etdirəcək, bu kamilləşmə nəticəsində inkişaf edəcək, daha doğrusu, etməli olacaqdır.

Həzrət Bəhaullahın nəzərdə tutduğu insan nəslinin birliyi prinsipi bütün xalqların, irqlərin və təbəqələrin öz aralarında sıx və daimi əməkdaşlıq etdikləri, birliyə daxil olan bütün muxtar dövlətlərin mənafelərini, bütünlüklə qorunduğu və bu dövlətləri yaradan şəxslərin azad təşəb-

büslərinə tamamilə təminat verildiyi Dünya Dövlətinin bərqərar olması kimi başa düşülür.

Bu cəmiyyət, bizim təsəvvür edə bildiyimiz qədərilə, Ümumdünya Qanunverici Orqanına malik olmalıdır ki, onun üzvləri də bütün bəşərin əminləri kimi, buraya daxil olan bütün ölkələrin resurslarının idarə olunmasında son söz sahibi olacaq, bütün irqlərin və xalqların həyatını tənzimləyən, ehtiyaclarını təmin edən və münasibətlərini yoluna qoyan qanunlar qəbul edəcəklər. Öz səlahiyyətində silahlı qüvvələri olan Beynəlxalq İcraedici Orqan, qanunverici orqanın qəbul etdiyi qərarları və qanunları icra və tətbiq edəcək və bütün Cəmiyyətin üzvi birliyini qoruyacaqdır. Ümumdünya Məhkəməsi, bu ümumdünya sistemini təşkil edən elementlər arasında baş qaldıra biləcək hər hansı və bütün münaqişələr barədə yerinə yetirilməsi məcburi olan və son qərarlar qəbul edəcək. Effektiv beynəlxalq rabitə mexanizmi yaradılacaq ki, o, milli maneələr və məhdudiyyətlərdən azad şəkildə, heyranedici sürətlə və əla müntəzəmliklə işləyəcək. Ümumdünya paytaxtı dünya sivilizasiyasının mərkəzi sinir sistemi kimi funksiya daşıyacaq, o bütün həyati qüvvələrin toplandığı və enerji verən təsirlərin şüalandığı fokus mərkəzi olacaq. Ya bir beynəlxalq dil icad ediləcək, ya da mövcud dillərin arasından biri seçiləcək ki, bu da federal sistemin bütün vahidlərinin məktəblərində ana dilinə əlavə olaraq öyrədiləcək. Bütün dünya üçün vahid əlifba, ümumdünya ədəbiyyatı, vahid və universal valyuta, çəki və ölçü vahidləri – bütün bunlar bəşər irqi və millətləri arasında əlaqələri və qarşılıqlı anlaşmanı sadələşdirməyə və asanlaşdırmağa xidmət edəcək. Belə bir dünya cəmiyyətində, elm və din – insan həyatında iki ən qüdrətli güc razılığa gələcək, əməkdaşlıq edəcək və ahəngdar şəkildə inkişaf edəcək. Belə bir sistem daxilində mətbuat bir tərəfdən ən müxtəlif fikir və inamları əks etdirmək üçün geniş meydan verəcək, digər tərəfdən isə

istər ictimai, istərsə də özəl olsun, bu dünyanın güclüləri tərəfindən şər məqsədlər naminə manipulyasiyaya məruz qalmayacaq və rəqabət aparan hökumətlər və xalqların təsirindən azad olacaqdır. Dünyanın iqtisadi potensialı (resursları) mütəşəkkil olacaq, xammal materiallar emal olunacaq və tamamilə istifadə olunacaq, onun bazarları uzlaşdırılacaq və inkişaf etdiriləcək, məhsulların bərabər paylanması tənzimlənəcək.

Milli zəmində ədavət, nifrət və intriqalar aradan qalxacaq, irqi düşmənçilik və təəssübkeşliklər irqlər arasında dostluq, anlayış və əməkdaşlıqla əvəz olunacaq. Dini münaqişələri törədən səbəblər həmişəlik yox ediləcək, iqtisadi maneələr və məhdudiyyətlər tamamilə aradan qaldırılacaq, siniflər arasındakı ifrat fərqlər götürüləcək. Bir tərəfdə son dərəcə məhrumiyyət, digər tərəfdə isə hədsiz mülkiyyət sahibliyi yox olacaq. Müharibələrə boşuna xərclənən və itirilən nəhəng iqtisadi və siyasi enerji faydalı ehtiyaclara yönəldiləcək, ixtiraçılıq fəaliyətinə və texniki inkişafa, istehsalın artımına, xəstəliklərin kökünün kəsilməsinə, elmi tədqiqatların genişləndirilməsinə, fiziki sağlamlığın standartlarının yüksəldilməsinə, insanın intellektinin imkanlarının artırılmasına və insan ağlının itiləşib təmizlənməsinə, planetin istifadə olunmamış və naməlum resurslarının istismarına, insan həyatının uzadılmasına, bütün insan nəslinin intellektual, mənəvi və ruhani həyatını stimullaşdıran istənilən digər vasitələrin dəstəklənməsinə sərf olunacaqdır.

Ümumdünya federal sisteminin, bütün dünyanı idarə edən və yer üzündəki hədsiz resurslar üzərində sözsüz hakimiyyətə malik olan, həm Şərqin, həm də Qərbin ideallarını birləşdirən və təcəssüm etdirən, müharibənin fəlakət və bədbəxtliklərindən qurtulmuş, yer üzündəki mövcud enerji mənbələrini istifadə etməyə can atan bir sistemin yaradılması, o sistem ki, orada güc ədalətin xidmətinə ve-

rilib, o sistem ki, onun həyatında tək Allah tanınıb və hamı vahid Vəhyə tərəfdar olub, – həyatın birləşdirici güclərinin təsiri altında bəşəriyyətin istiqamətində hərəkət etdiyi hədəflər bunlardır.

Bütün bəşərin birləşməsi insan cəmiyyətinin indi yaxınlaşdığı mərhələnin kriteriyasıdır. Ailənin, tayfanın, şəhər-dövlətin və millətin birliyinə müvəffəqiyyətlə cəhd edilmiş və tamamilə bərqərar olmuşdur. Dünya birliyi bir hədəfdir ki, üzülmüş bəşəriyyət onun uğrunda çalışır. Millətin yaranması sona yetmişdir. Suveren dövlətə xas anarxiya özünün son zirvəsinə doğru hərəkət edir. Yetkinliyə çatmaqda olan dünya bu bütü tərk etməli, insanlar arasında olan münasibətlərin vahidliyini və bütövlüyünü etiraf etməli və özünün bu təməl prinsipini ən yaxşı şəkildə təcəssüm etdirən mexanizmi birdəfəlik qurmalıdır." *(Şövqi Əfəndinin 11 mart 1936-cı il tarixli məktubundan. Bu məktub "Həzrət Bəhaullahın Dünya Nizamı" kitabında çap olunmuşdur)*

# XÜLASƏ

Həzrət Şövqi Əfəndinin ilhamverici rəhbərliyi altında Bəhai Dini öz işini daim inkişaf etdirməkdə və öz İnzibati Qaydasını formalaşdırmaqda elə davam etmişdir ki, artıq 1951-ci ildə iş qabiliyyətli on bir Milli Ruhani Məhfillər var idi. Bu ərəfədə Mühafiz Öz səylərini dini təsisatların beynəlxalq səviyyədə inkişafına yönəldərək, Beynəlxalq Bəhai Şurasını – Uca Ədalət Evinin sələfini təşkil etmiş və bundan az sonra Allah Əmri Əllərinin ilk qrupunu təyin etmişdir. Hələ bundan əvvəl Həzrət Şövqi Əfəndi bir neçə bəhaiyə ömürlük olaraq Allah Əmrinin Əlləri rütbəsini vermişdir. Onlardan biri də doktor Con Ebenezer Esslemont idi. Həzrət Şövqi Əfəndi yalnız 1951-ci ildə belə nəticəyə gəlir ki, bu vacib təşkilatı tam inkişaf etdirmək vaxtı çatmışdır. O, 1951-1957-ci illər arasında sürətli ardıcıllıqla otuz iki nəfəri Allah Əmrinin Əlləri təyin edərək, hər bir qitə üzrə köməkçi kollegiyalar təsis etmiş və onların fəaliyyət sahəsini genişləndirmişdir. Onların üzvləri Allah Əmrinin Əlləri tərəfindən bəhailər içərisindən seçilir və onların müavinləri, köməkçiləri və müşavirləri kimi xidmət edirlər. Həzrət Şövqi Əfəndinin vəfatına yaxın Allah Əmri Əllərindən iyirmi yeddi nəfəri sağ idi.

Mühafiz bütün dünya bəhailərinə göndərdiyi çoxsaylı məktubları, bəzən isə ayrı-ayrı ölkələrin bəhailərinə ünvanladığı yazıları sayəsində Dini Təlimin başa düşülməsini dərinləşdirmiş, Dinin inzibati təsisatlarının əsasını qoymuş, bu təsisatlardan düzgün və faydalı istifadə etmək yollarını möminlərə öyrətmiş, 1937-ci ildə Amerika bəhai icmasının köməyi ilə Həzrət Bəhaullahın Təlimini təbliğ etmək məqsədilə İlahi Planı həyata keçirməyə başlamışdır.

Dinin təbliği sahəsində proqram sənədi olan bu İlahi Plan Birinci Dünya Müharibəsi zamanı Həzrət Əbdül-Bəhanın yazdığı bir sıra məktublarda izah edilmişdir.

Bütün müstəqil dövlətlərdə və dünyanın mühüm rayonlarında dinin yayılması məqsədilə Dinin Vəlisinin "onillik ümumdünya ruhani yürüşü" çağırışına cavab olaraq, 1953-cü ilədək bu proqram çərçivəsində əvvəlcə Qərb yarımkürəsində Amerikada, sonra da, həmçinin Avropada, Asiyada, Avstraliya və Afrikada bir sıra tədris tədbirləri keçirilmişdir.

1957-ci ildə ruhani yürüş planının yerinə yetirilməsi təxminən yarı yolunda ikən otuz altı illik fasiləsiz işdən yorulmuş Dinin Vəlisi Londonda səfərdə olduğu zaman vəfat etdi. Həzrət Şövqi Əfəndi Özünün varisini təyin etmədiyinə görə 1957-ci ilin noyabrından ruhani yürüşün əzəmətlə başa çatdırıldığı 1963-cü ilin aprelinədək Dinin işləri iyirmi altı nəfər Allah Əmrinin Əlləri tərəfindən əlaqələndirilmiş və istiqamətləndirilmişdir. Həmin ilin aprelində Allah Əmri Əllərinin çağırışı ilə Hayfada, Ümumdünya Bəhai Mərkəzində toplanmış əlli altı Milli Ruhani Məhfilin üzvləri tərəfindən ilk dəfə Uca Ədalət Evi seçilmişdir. Bu tarixi seçkilərdən bilavasitə sonra Həzrət Bəhaullahın bəyanının yüz illiyini bayram etmək və Onun Təliminin bütün dünyada yayılması ilə əlaqədar öz sevinclərini ifadə etmək məqsədilə dünyanın bütün guşələrindən

gəlmiş bəhailər Londonda Bəhai Dininin Birinci Dünya Konqresinə toplandılar.

Hal-hazırda Dinin Ən Ali İdarəsi Həzrət Bəhaullah tərəfindən Onun Ən Müqəddəs Kitabında göstərilmiş Uca Ədalət Evidir. Ona Bəhai Yazılarında və Müqəddəs Mətnlərdə olmayan bütün işlərdə qanunvericilik səlahiyyəti verilmiş və İlahi Rəhbərlik həvalə edilmişdir. Həzrət Əbdül-Bəha Öz İradəsi və Vəsiyyətində Uca Ədalət Evinə seçkilərin keçirilməsi üsulunu göstərərək, onun məqamını və vəzifələrini daha aydın müəyyənləşdirərək buyurmuşdur ki o, bilavasitə Həzrət Babın və Həzrət Bəhaullahın nəzarəti altındadır və bütün bəhailərin müraciət etməli olduqları orqandır.

Həzrət Bəhaullahın Vəsiyyəti Bəhai Dininin fərqləndirici cəhətidir ki, ona söykənməklə Din öz quruluşunu ucaldır və öz inkişafını əsaslandırır. Onun səciyyəvi xüsusiyyəti budur ki, din tarixində ilk dəfə olaraq İlahi Zühur Öz Kəlamının müəllif şərhini aydın və birmənalı şəkildə verir və İnamın Mənbəyindən axıb gələn İlahi nüfuzun sarsılmazlığını təmin edir.

Keçmiş dinlərin ayələrinin təfsirləri həmişə parçalanmaya gətirib çıxaran əsas amillərdən biri olmuşdur. Həzrət Bəhaullah Özünün Vəsiyyət Kitabında böyük oğlu Həzrət Əbdül-Bəhanı Onun İşinin Rəhbəri və yazılarının tam hüquqlu Şərhçisi təyin etmişdir. Həzrət Əbdül-Bəha da Özünün İradəsi və Vəsiyyətində böyük nəvəsi Həzrət Şövqi Əfəndini Dinin Mühafizi və Müqəddəs Yazıların yeganə Şərhçisi təyin etmişdir. Bəhai Dinində ruhanilər yoxdur və heç kim imtiyazlı mövqe və ya rəhbərlik iddiasında ola bilməz; İdarəetmə Həzrət Bəhaullahın Yazılarına əsasən yaradılmış təsisatlara verilmişdir.

Məhz bu müstəsna ehtiyat tədbirlərinin görülməsi sayəsində Bəhai Dini təriqətlərə parçalanmadan, hakimiy-

yətin qəsb edilməsinin dağıdıcı nəticələrindən və keçmişdə dinlərin birliyinin pozulmasına səbəb olan, insan tərəfindən yaradılmış nəzəriyyə və təlimlərin infiltrasiyasından qorundu. Həzrət Bəhaullahın Vəhyinin pak və sarsılmaz Kəlamları onların müəllifi tərəfindən verilmiş şərhləri ilə birlikdə bu Zühur ərzində insanların mənəvi həyatında bulanmaz və tükənməz bir çeşmə olaraq qalacaqdır.

Allah Əmrinin Əllərinin səlahiyyətinə verilmiş dinin mühafizəsi və təbliği sahəsində xüsusi vəzifələrin yerinə yetirilməsi üçün Uca Ədalət Evi 1968-ci ildə Qitə Müşavirləri Korpusunu yaratmışdır. Hər bir korpus Uca Ədalət Evi tərəfindən təyin edilən və Allah Əmrinin Əlləri ilə sıx Əməkdaşlıq edən müəyyən sayda müşavirlərdən ibarətdir. Köməkçi kollegiyaların təyin edilməsi və istiqamətləndirilməsi indi artıq Müşavirlər Korpusunun vəzifəsinə daxildir. Hal-hazırda sağ qalan 2 nəfər Allah Əmrinin Əllərinin vəzifələri isə ümumdünya miqyasında genişlənmişdir.

Dinin Mühafizi Uca Ədalət Evinin rəhbərliyi altında yerinə yetirilməli olan və Təlimin bütün dünyada yayılmasına xidmət edəcək gələcək planlar haqqında yazmışdı; onlardan birincisi olan Doqquzillik Plan 1964-cü ildə yerinə yetirilməyə başlanmışdır. Onun ardınca gələn Beşillik Plan isə 1979-cu ilin Rizvanınadək davam etmişdir. 1979-cu ildən başlayan Yeddiillik Plan 1986-cı ildə uğurla yerinə yetirilmişdir. Sonra 1986-1992-ci illərdə Altıillik Plan, 1992-1996-cı illərdə Üçillik Plan, 1996-2000-ci illərdə Dördillik Plan, 2000-2001-ci ildə 12 Aylıq Plan həyata keçirilmişdir. 2001-ci ildə bəhai dünyası yeni epoxaya qədəm qoymuşdur. Hal-hazırda bütün dünya bəhailəri 2001-2005-ci illər üçün müəyyən edilmiş Beşillik Planı əzmlə yerinə yetirməkdədirlər.

İndi dünyanın 235 ölkəsində bəhailər yaşayır və fəaliyyət göstərirlər. Dünyanın 2112 etnik qrupu, tayfası və

xalqı Bəhai Dinini qəbul etmişlər. 182 Milli Ruhani Məhfil və təqribən 26000 Yerli Ruhani Məhfil fəaliyyət göstərir. Bəhai ədəbiyyatı 800-dən çox dilə tərcümə edilmişdir. Avropa, Avstraliya, Amerika, Asiya və Afrika qitələrində 30 bəhai nəşriyyatı vardır. Gənc nəslin maariflənməsi sahəsində 348 Bəhai Akademiyası, 407 Aparıcı Məktəb və 200 İnstitut fəaliyyət göstərir.

*©2003 Azərbaycan Bəhailərinin*
*Milli Ruhani Məhfili*

# EPİLOQ

Şövqi Əfəndinin ilhamlı rəhbərliyi altında Bəhai Dini ölçü və İnzibati Nəzminin bərqərar olması ilə dayanıqlı olaraq böyüdü və beləliklə, 1951-ci ildə fəaliyyət göstərən on bir Milli Ruhani Məhfil vardı. Bu mərhələdə Əmrin Vəlisi Dinin təsisatlarının beynəlxalq səviyyədə inkişafına diqqət verdi və Ümumdünya Ədalət Evinin müjdəçisi olan Beynəlxalq Bəhai Şurasını, qısa bir zaman sonra isə Allahın Əmrinin Əllərinin ilk dəstəsini təyin etdi. Ona qədər isə Şövqi Əfəndi müəyyən görkəmli Bəhailəri ölümlərindən sonra Əmrin Əlləri məqamına qaldırmışdı ki, onlardan biri Dr. John Esslemont idi, lakin bu ancaq 1951-ci ildə baş verdi ki, onda o bu mühüm təsisatın inkişafı üçün zamanın yetişdiyi qərarına gəldi. 1951-1957-ci illər arasında sürətlə bir-birinin ardınca o otuz iki Əl təyin etdi və onların fəaliyyət diapazonunu genişləndirdi, Əmrin Əllərinin özlərinə müavin, köməkçi və məsləhətçi kimi təyin etdikləri inananlardan ibarət olmaqla hər qitədə Köməkçi Heyət təsis etdi. Şövqi Əfəndinin vəfatı zamanı bu Əllərdən iyirmi yeddisi sağ idi.

Bəziləri dünya bəhailərinə, digərləri də xüsusi ölkələrə ünvanlanmaqla silsilə məktublarla Əmrin Vəlisi təlimlər

barədə onların anlayışlarını dərinləşdirdi, Dinin inzibati təsisatlarını qurdu, onlardan düzgün və səmərəli istifadə etmək üçün inananlara təlim verdi, 1937-ci ildə Həzrət Bəhaullahın Müjdəsini yaymaq məqsədilə Amerika Bəhai İcmasını İlahi Planın icrası üzrə plana qoşdu. Bu İlahi Plan Həzrət Əbdül-Bəhanın Birinci Dünya Müharibəsi zamanı yazdığı bir sıra Lövhlərdə nazil edilmişdi və Əmrin təbliği üçün bir xartiyadır.

Bu xartiyanın çərçivəsində əvvəlcə Qərb Yarımkürəsində, sonra isə Avropa, Asiya, Avstralasiya və Afrikada bir neçə təbliğ planları həyata keçirilmişdi, 1953-cü ildə isə Əmrin Vəlisi Əmri dünyanın qalan bütün müstəqil dövlətlərinə və əsas koloniyalarına aparacaq "on il sürəcək, dünyanı əhatə edən, ruhani yürüşə" çağırdı.

1957-ci ildə, yürüş yarıya çatarkən, Əmrin Vəlisi Londona səfəri zamanı otuz altı illik gərgin zəhmətdən tükənmiş halda vəfat etdi.

Şövqi Əfəndinin varisi olmadığı üçün Əmrin işi 1957-ci ilin noyabrından yürüş 1963-cü ilin aprelində zəfərlə başa çatana qədər iyirmi yeddi nəfər Əmrin Əlləri tərəfindən əlaqələndirildi və yönəldildi və bu zaman Əmrin Əlləri tərəfindən Hayfada Bəhai Dünya Mərkəzinə dəvət edilən əlli altı Milli Ruhani Məhfil üzvləri tərəfindən birinci Ümumdünya Ədalət Evi seçildi.

Bu tarixi seçkinin dərhal ardınca dünyanın hər tərəfindən bəhailər Həzrət Bəhaullahın Bəyanının birinci yüzilliyini qeyd etmək və Onun Dininin dünya səviyyəsində yayılmasına sevinmək üçün Londonda Əmrin birinci Dünya Konqresinə toplandılar.

Bu gün Əmrin ali orqanı Həzrət Bəhaullahın Öz Kitabi-Əqdəsində təsis etdiyi Ümumdünya Ədalət Evidir ki, o, Bəhai Yazılarında əhatə edilməmiş bütün məsələlər barədə qanunlar vermək səlahiyyətinə malik olmaqla Müqəddəs

Mətnin özündə ona ilahi rəhbərlik verilməsi barədə əmin edilmişdir. Həzrət Əbdül-Bəha Öz Əhd və Vəsiyyətnaməsində Ümumdünya Ədalət Evinin seçilmə metodunu izah edir, onun məqamını və vəzifələrini daha aydın bir şəkildə müəyyən edir və təsdiq edir ki, o, Həzrət Bab və Həzrət Bəhaullahın bilavasitə hidayəti altındadır və hamı ona üz tutmalıdır.

Bəhai Dininin misilsiz və fərqli xüsusiyyəti Əmrin bütün strukturlarını qurduğu və inkişafını əsaslandırdığı bir təməl olan Həzrət Bəhaullahın Əhdidir. Bunun misilsizliyi budur ki, din tarixində ilk dəfə Allahın Məzhəri aydın və birmənalı bir dillə Öz Sözünün səlahiyyətli şərhini və Əmrin Mənbəyindən gələn ilahi mənşəli səlahiyyətin davamlılığını təmin edir.

Yazıların şərhi əvvəlki dinlərdə həmişə təriqətlərə parçalanma üçün münbit bir mənbə olmuşdur. Öz Əhd Kitabında Həzrət Bəhaullah Yazılarının şərhçisi və Əmrinin idarə olunması üçün bütün səlahiyyətləri böyük oğlu Həzrət Əbdül-Bəhaya verir. Həzrət Əbdül-Bəha isə Öz Əhd və Vəsiyyətnaməsində böyük nəvəsi Şövqi Əfəndini Əmrin Vəlisi və Yazıların yeganə şərhçisi təyin edir. Bəhai dinində din xadimi zümrəsi yoxdur və heç bir fərd xüsusi məqama və idarəçiliyə iddia edə bilməz; səlahiyyət Bəhai Yazıları əsasında yaradılmış təsisatlara verilmişdir.

Bu misilsiz şərtlər hesabına Həzrət Bəhaullahın Dini parçalanmadan, əsassız rəhbərlik qəsbindən, hər şeydən əvvəl isə, insan əlinin məhsulu olan, keçmişdə dinlərin birliyinin dağılmasına səbəb olmuş ehkam və nəzəriyyələrin təlimlərə sızmasından qorunmuşdur. Pak və pozulmamış halda Həzrət Bəhaullahın nazil olmuş Sözü mötəbər şərhi ilə bütün Zühur dövründə insanlara pozulmamış və pozulmayacaq bir ruhani həyat mənbəyi olaraq qalır.

1968-ci ildə Ümumdünya Ədalət Evi Əmrin Əllərinə həvalə edilmiş xüsusi mühafizə və təbliğ funksiyalarını

gələcəyə daşımağı təmin etmək üçün addım ataraq Qitə Müşavirlər Heyətlərini təsis etdi. Hər bir Heyət Ümumdünya Ədalət Evinin təyin etdiyi müəyyən sayda Müşavirlərdən ibarətdir və onlar Əmrin Əlləri ilə sıx əməkdaşlıqda işləyirlər. Köməkçi Heyətlərin təyini və yönəldilməsi indi Müşavirlər Heyətlərinin vəzifəsidir, hazırda on dördü sağ olan Əmrin Əllərinin fəaliyyətləri isə dünya miqyaslı olmuşdur. 1973-cü ilin iyununda Ümumdünya Ədalət Evi MÜqəddəs Torpaqda Beynəlxalq Təbliğ Mərkəzini təsis etdi və Qitə Müşavirləri Heyətlərinin işlərini onlara həvalə etdi və onu Müşavirlərlə Ümumdünya Ədalət Evi arasında bir rabitə kimi müəyyən etdi.

Əmrin Vəlisi Ümumdünya Ədalət evinin rəhbərliyi altında yerinə yetiriləcək gələcək ümumdünya planları haqqında yazmışdır və bunlardan birincisi olan Doqquz İllik Plan 1964-cü ildə başladıldı. Bunun ardınca 1979-cu ildə başa çatan Beşillik Plan gəldi. Hazırda, 1979-cu ildə, Bəhai Dini 172 müstəqil ölkədə bərqərar olmuşdur. Dünya üzrə 103.000 yerdə bəhailər yaşayırlar; Bəhai ədəbiyyatı 650-dən çox dilə tərcümə edilmişdir; Hindistan və Samoada altıncı və yeddinci Bəhai Məbədləri tikilməkdədir; 123 digər məbəd üçün torpaqlar əldə edilmişdir; 125 Milli Ruhani Məhfil, 25.500 Yerli Ruhani Məhfil vardır. Əmrin dünya üzrə böyüməsini genişləndimək və möhkəmləndirmək üçün tərtib olunmuş Yeddi İllik Plan indi bəhailər tərəfindən şövqlə həyata keçirilir.

Bunların arasında ən ruhlandırıcısı Afrika, Hindistan, Cənubi Asiya və Latın Amerikasında kütlələrin cavabdır ki, bu yerlərdə yerli xalqlar Əmrə daxil olmağa başlamış, dünya miqyaslı Bəhai İcmasının inzibati və sosial fəaliyyətlərinin inkişafında yeni mərhələyə gətirmişdir.